# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

## YÜZÜNCÜ KİTAB

## YANVAR 2020 - FEVRAL 2020

AZƏRNƏŞR
BAKI - 2020

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI – 2020

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56 İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2020, 400 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf – məqsədimizdir» çoxcildliyinin yubiley nəşri – 100-cü cildində dövlət başçısının Dünya Davos İqtisadi Forumunun və Münhen Təhlükəsizlik Konfransının növbəti toplantılarında iştirak etmək üçün İsveçrə Konfederasiyasına və Almaniya Federativ Respublikasına səfərləri zamanı konfranslarda çıxışları, nitqləri, müxtəlif ölkələrin dövlət və hökumət rəhbərləri, beynəlxalq təşkilatların nümayəndələri və şirkət rəhbərləri ilə görüşlərinə dair materiallar toplanmışdır.

Dövlət başçısının Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Ermənistanın Baş Naziri Nikol Paşinyan ilə Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirədə təkzibolunmaz faktlarla tarixi dərs xarakterli çıxışı və Paşinyanın yalanlarına tutarlı cavabı, Davos İqtisadi Forumunun rəsmi saytında dərc olunmuş «Azərbaycanın vahid və dayanıqlı dünyada rolu» mövzusunda geniş məqaləsi də yubiley nəşrində yer almışdır.

Kitabda oxucular dövlət başçısının 20 Yanvar – Ümumxalq Hüzn Günü münasibətilə Şəhidlər xiyabanını ziyarəti, «Azərbaycan Respublikası Regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın icrasının birinci ilinin yekunlarına həsr olunmuş konfransda giriş və yekun nitqləri, həmçinin Kürdəmir rayonuna səfəri çərçivəsində bölgənin sosial-iqtisadi inkişaf proqramının həyata keçirilməsi, «Asan xidmət» Mərkəzinin, bir sıra avtomobil yollarının və aqroparkın açılışında ictimaiyyətin nümayəndələri ilə görüşlərinə dair çıxışları, tövsiyələri geniş yer almışdır.

**ISBN 978-9952-8100-7-3**

**Я** $\frac{\textbf{0801000000}}{\textbf{M – 651(07)– 2020}}$ **ББК - 32**

© Azərnəşr, 2020

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİ YANINDA NAZİRLƏR KABİNETİNİN 2019-cu İLİN YEKUNLARINA HƏSR OLUNMUŞ MÜŞAVİRƏSİ

*13 yanvar 2020-ci il*

### Azərbaycan Prezidenti İlham Əliyevin yekun nitqi

Bu gün aparılan müzakirələr həm keçən il görülmüş işlərə yekun vurur, həm də eyni zamanda, bu il görüləcək işlərlə bağlı açıq-aydın mənzərə formalaşır. Əminəm ki, bu il də uğurlu olacaqdır.

Bir məsələyə də münasibət bildirmək istərdim. Son vaxtlar siz də bunu görürsünüz, Ermənistanın Baş Naziri öz ölkəsinin «uğurları» haqqında danışarkən Ermənistanı Azərbaycanla müqayisə edir. Onun gəldiyi qənaətə görə, Ermənistan Azərbaycanı bir çox parametrlər üzrə qabaqlayır. Bəri başdan bildirirəm və bunu heç sübut etməyə ehtiyac da yoxdur ki, belə bir fərziyyənin heç bir əsası yoxdur. Azərbaycan Ermənistanı bütün əsas parametrlər üzrə böyük fərqlə qabaqlayır. Bunu təsdiqləmək üçün sadəcə olaraq, bir neçə hadisəni və bir neçə rəqəmi səsləndirmək istərdim.

Bildiyiniz kimi, Azərbaycan 2011-ci ildə 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçildi. Yəni bu özlüyündə böyük bir göstəricidir. Birinci növbədə, ona görə ki, biz ilk dəfə bu böyük, şərəfli missiyaya nail olduq və o vaxt müstəqilliyimizin cəmi 20 yaşı tamam olmuşdu. Digər tərəfdən, bu, Azərbaycanın beynəlxalq nüfuzuna bilavasitə dəlalət edən amillərdən biri idi. Çünki dünya birliyinin mütləq əksəriyyəti bizə inandı, bizə etimad göstərdi və bizə öz səsini verdi. Bu hadisə ilə bağlı mən əvvəlki dövrlərdə kifayət qədər geniş məlumat vermişdim. Amma bir məsələ həmişə diqqətdən kənarda qalır və bir çoxları bunu bilmir. Həqiqət isə ondan ibarətdir ki, 2011-ci ildə bizdən əvvəl Ermənistan da öz namizədliyini vermişdi. Biz namizədliyi verəndən sonra onlar götür-qoy etdilər və gördülər ki, bizimlə rəqabətdə onlar 100 faiz uduzacaqlar, çox sakitcə, qorxaqcasına namizədliklərini geri götürdülər. Çünki bilirdilər ki, BMT-də biz onlara böyük fərqlə qalib gələcəyik və beləliklə, onlar rüsvay olacaqlar. Yəni bu, 9 il əvvəl baş vermiş hadisədir və onu göstərir ki, beynəlxalq müstəvidə Ermənistanın və Azərbaycanın hörməti və çəkisi nə dərəcədə fərqlənir. BMT Təhlükəsizlik Şurasına seçilməyimiz bizim böyük siyasi, diplomatik qələbəmizdir və eyni zamanda, Ermənistan üzərində böyük qələbədir.

2016-cı ildə Ermənistan dinc Azərbaycan əhalisinə qarşı hərbi təxribat törətdi və bu təxribat nəticəsində bir neçə dinc vətəndaş həlak oldu. Onların arasında

uşaqlar da var idi. Azərbaycan buna cavab olaraq uğurlu əks-hücum əməliyyatı keçirərək, Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini, minlərlə hektar torpağı işğalçılardan azad etdi və o torpaqlarda Azərbaycan bayrağı ucaldıldı. Bu bizim hərbi qələbəmiz idi. Növbəti hərbi qələbə isə 2018-ci ildə oldu. Uğurlu Naxçıvan əməliyyatı nəticəsində 10 mindən çox hektar ərazi işğalçılardan, Ermənistan silahlı qüvvələrindən təmizləndi və bir neçə önəmli strateji yüksəklik azad edildi. Bu yüksəkliklər imkan verir ki, biz Ermənistanın strateji kommunikasiyalarına tam nəzarət edə bilək. Bu da bizim ikinci hərbi qələbəmiz idi.

Dünyanın ən güclü orduları reytinqində Azərbaycan 52-ci, Ermənistan isə 96-cı yerdədir. O cümlədən hava gücü üzrə Azərbaycan 63-cü, Ermənistan 86-cı yerdədir. Dəniz gücü üzrə Azərbaycan 67-ci yerdədir, Ermənistanda isə dəniz yoxdur. Tank gücü üzrə Azərbaycan 32-ci, Ermənistan 78-ci yerdədir. Mənbə «Global Firepover–2019» hesabatıdır. İndi əsas makroiqtisadi göstəricilərə diqqət yetirək.

Beləliklə, 2019-cu ildə Azərbaycanın ümumi daxili məhsulu dollar ekvivalentində 47,6 milyard dollardır, Ermənistanda isə cəmi 13 milyard dollar. Alıcılıq qabiliyyətinə görə Azərbaycan 187 milyard dollar daxili məhsula sahibdir, Ermənistan 33 milyard, fərq 5,6 dəfədir. Adambaşına düşən ümumi daxili məhsul Azərbaycanda 4800 dollar, Ermənistanda 4500 dollardır. Alıcılıq qabiliyyətinə görə adambaşına düşən ümumi

daxili məhsul Azərbaycanda 18600 dollar, Ermənistanda 11 min dollardır. Valyuta ehtiyatları Azərbaycanda 51 milyard dollar, Ermənistanda 2 milyard dollardır, fərq 25 dəfədir. Xarici ticarət dövriyyəsi Azərbaycanda 33,6 milyard, Ermənistanda 7,4 milyard dollardır, fərq 4,5 dəfədir. İxrac – Azərbaycan 19,6 milyard, Ermənistan 2,4 milyard, fərq 8,1 dəfədir. Müsbət saldo Azərbaycanda 6 milyard dollar, Ermənistanda mənfi saldo 2,6 milyard dollardır. Sərmayə qoyuluşu – keçən il Azərbaycana 13,5 milyard dollar qoyulubdur, Ermənistana 900 milyon, fərq 15 dəfədir. Xarici dövlət borcu – Azərbaycanın xarici dövlət borcu 7,9 milyard dollar, Ermənistanın 6 milyard dollardır. Azərbaycanda xarici dövlət borcu ümumi daxili məhsulun 17 faizini təşkil edir, Ermənistanda 40 faizdən çoxunu. Valyuta ehtiyatları Azərbaycanda xarici dövlət borcundan 6,4 dəfə çoxdur, Ermənistanda xarici dövlət borcu valyuta ehtiyatlarından 2,3 dəfə çoxdur. Adambaşına düşən xarici borc Azərbaycanda 799 dollar, Ermənistanda 1900 dollardır.

Əmək haqları və təqaüdlərə dair məlumatı təqdim edirəm. Beləliklə, 2019-cu ilin dekabr ayında Azərbaycanda orta əməkhaqqı 723 manatdır – bu, 425 dollar təşkil edir, Ermənistanda 369 dollar. Alıcılıq qabiliyyətinə görə orta əməkhaqqı üzrə Azərbaycan MDB-də 2-ci, Ermənistan 9-cu yerdədir. Minimum təqaüd Azərbaycanda 200 manat, yəni 118 dollar, Ermənistanda 55 dollardır. Minimum təqaüdə görə Azərbaycan MDB-də 2-ci, Ermənistan 9-cu yer-

dədir. Minimum təqaüdün alıcılıq qabiliyyətinə görə Azərbaycan MDB-də 1-ci, Ermənistan 10-cu, yəni axırıncı yerdədir. Orta təqaüd Azərbaycanda 262 manat, yəni 154 dollar, Ermənistanda 84 dollardır. MDB-də orta təqaüdə görə Azərbaycan 4-cü, Ermənistan 8-ci yerdədir. Orta təqaüdün alıcılıq qabiliyyətinə görə Azərbaycan MDB-də 2-ci, Ermənistan axırıncı – 10-cu yerdədir. Yoxsulluq səviyyəsi Azərbaycanda 4,8 faiz, Ermənistanda 24 faizdir, fərq 5 dəfədir. Şəhid ailələrinə və müharibə əlillərinə 2019-cu ildə Azərbaycanda 934 mənzil verilibdir, Ermənistanda isə sıfır. Bütövlükdə Azərbaycanda bu kateqoriyadan olan insanlara 7590 mənzil verilib, Ermənistanda, bildiyimə görə, belə bir proqram mövcud deyildir. Təkcə keçən il bu kateqoriyadan olan insanlara 600 avtomobil verilib, Ermənistanda sıfır. Bütövlükdə bu kateqoriyadan olan insanlara 6750 avtomobil verilib, Ermənistanda isə bu göstərici yenə də sıfırdır.

Keçək Davos Dünya İqtisadi Forumunun qlobal rəqabətlilik hesabatına. Beləliklə, 2019-cu ildəki bəzi rəqəmləri təqdim etmək istərdim. İqtidarın uzunmüddətli strategiyasına görə Azərbaycan dünyada 10-cu, Ermənistan 59-cu yerdədir. İqtidarın siyasi sabitliyi təmin etməsi – Azərbaycan 11-ci, Ermənistan 58-ci yerdədir. Məhkəmə azadlığı – Azərbaycan 39-cu, Ermənistan 67-ci yerdədir. Polis orqanlarına etimad – Azərbaycan 30-cu, Ermənistan 44-cü yerdədir. Yolların keyfiyyəti – Azərbaycan 27-ci, Ermənistan 91-ci yerdədir. Dəmir yolu xidmətlərinin səmərəliliyi –

Azərbaycan dünya miqyasında 11-ci, Ermənisan 67-ci yerdədir. Hava yolları xidmətlərinin səmərəliliyi – Azərbaycan 12-ci, Ermənistan 67-ci yerdədir. İnternet istifadəçilərinin sayına, yəni əhali üzrə payına görə faizlə Azərbaycan 43-cü, Ermənistan 77-ci yerdədir. Əhali arasında rəqəmsal biliklər üzrə Azərbaycan 19-cu, Ermənistan 50-ci yerdədir. Ümumi daxili məhsul, alıcılıq qabiliyyəti pariteti üzrə Azərbaycan 69-cu, Ermənistan 120-ci yerdədir.

İndi keçək idman sahəsinə. Azərbaycan 2019-cu ildə dünya və Avropa çempionatlarında 775 medal qazanıb, onlardan 271-i qızıl medaldır. Ermənistan cəmi 222 medal qazanıb, onlardan 61-i qızıldır. 2019-cu ildə ikinci Avropa oyunlarında Azərbaycan 28 medal qazanıb, Ermənistan 11 medal. 2019-cu ildə keçirilmiş güləş üzrə Avropa çempionatında Azərbaycan 13 medal qazanıb, o cümlədən 4 qızıl, Ermənistan 3 medal qazanıb, 1 qızıl.

Keçək intellektual idman növü olan şahmatda əldə edilmiş nəticələrə. 2019-cu ildə Avropa çempionatında 8 yaşlı şahmatçılar arasında Dinarə Hüseynova qızıl medal qazanaraq, Avropa çempionu oldu, Səadət Bəşirli və Yusif Kərimli bürünc medal qazandılar. 14 yaşlı şahmatçılar arasında Ayan Allahverdiyeva Avropa çempionu oldu. Qadınlardan ibarət milli komandamız Avropa çempionatında Ermənistana qalib gələrək, bürünc medal qazandı. Gənclərin dünya çempionatında 14 yaşlılar arasında Aydın Süleymanlı dünya çempionu, Teymur Rəcəbov isə dünya kubokunun

sahibi oldu. 2016-cı il Rio Olimpiya oyunlarında Azərbaycan 18 medal qazandı, Ermənistan cəmi 4 medal. Medalların sayına görə Azərbaycan 14-cü yerdə idi.

Digər önəmli bir məsələ ondan ibarətdir ki, Azərbaycan faşizmin qəhrəmanlaşdırılmasına qarşı ardıcıl mübarizə aparır, Ermənistan isə faşistləri qəhrəmanlaşdırır. Faşist cəlladı olan Njdeyə İrəvanın mərkəzində 6 metrlik abidə ucaldılıb. Bu qanlı cinayətkar SMERŞ tərəfindən həbs olunaraq, 25 il məhkum edilib, həbsxanada ölüb və reabilitasiya olunmayıb. Belə bir adamın şərəfinə İrəvanda abidə qoyulur və Ermənistanın Baş Naziri bu cəlladı Soljenitsın və Molotovla eyniləşdirir. Njdenin məşhur kəlamı var idi. Almaniya uğrunda ölən Ermənistan uğrunda ölür və o bunu İkinci dünya müharibəsi zamanı demişdi. Bu, artıq onun mənfur xislətini əks etdirən ifadədir. Ona görə bu sahədə də Azərbaycan həqiqətin tərəfindədir, Ermənistan isə şər qüvvələrin tərəfində.

Nüfuzlu «News & World Report» mətbu orqanı tərəfindən aparılmış təhlilə əsasən, dünyanın ən güclü ölkələrinin siyahısı müəyyən edilibdir. Siyahıda cəmi 80 ölkənin adı var və Azərbaycan bu siyahıda güclü ölkələr sırasında 45-ci yerdədir. Ermənistanın isə, ümumiyyətlə, adı belə, yoxdur. İqtisadi inkişafın templərinə görə isə biz dünya miqyasında 35-ciyik.

Azərbaycan dünya əhəmiyyətli nəhəng layihələr icra edir. Onların arasında Bakı–Novorossiysk, Bakı–Supsa, Bakı–Tbilisi–Ceyhan neft kəmərləri, Bakı–Tbilisi–Ərzurum, TANAP qaz kəmərləri vardır. «Cənub

Qaz Dəhlizi» bu il istismara veriləcək. Bakı–Tbilisi–Qars dəmir yolu istifadəyə verilib və bu yol vasitəsilə yükdaşımaların həcmi ildən-ilə artır. Bakı–Tbilisi–Qars Şərq–Qərb nəqliyyat dəhlizinin tərkib hissəsidir. Biz bu layihəni qonşu ölkələrlə – Türkiyə və Gürcüstan ilə uğurla icra etdik. Digər qonşularımızla – Rusiya və İran ilə Şimal–Cənub nəqliyyat dəhlizi üzrə işlər uğurla gedir və demək olar ki, bu dəhliz fəaliyyət göstərir. Sadəcə olaraq, bu dəhlizi daha da səmərəli etmək üçün növbəti addımlar atılır.

Bu nəhəng enerji və nəqliyyat layihələri Ermənistandan yan keçib. Bu bizim qonşularımızdır, eyni zamanda, Rusiya istisna olmaqla, Ermənistanın da qonşularıdır. Biz qonşularla dostluq, əməkdaşlıq, səmimiyyət əsasında münasibətlər qurmuşuq və məhz buna görə bu layihələrə nail olmuşuq. Ermənistan isə əsrlərboyu qonşulara xor gözlə baxır, qonşulardan nəsə qoparmaq istəyir, onların torpağına iddia edir, tarixi saxtalaşdırır, tarixi abidələri saxtalaşdırır və özününküləşdirməyə cəhd edir. Fərq bundan ibarətdir.

Ermənistanı bu enerji və nəqliyyat layihələrindən biz təcrid etmişik və bunu heç vaxt gizlətməmişik. Mən hələ bir neçə il bundan əvvəl demişdim ki, biz Ermənistanı regionda bizim iştirakımızla reallaşdırılan bütün önəmli layihələrdən təcrid edəcəyik və biz buna nail olduq, həmişə olduğu kimi, sözümüzə sadiq qaldıq. Ermənistan bu gün bizim səylərimiz nəticəsində siyasi, iqtisadi, investisiya, enerji və nəqliyyat dalanıdır. Torpaqlarımızdan çıxmayana qədər bu

vəziyyət belə də qalacaqdır. Beləliklə, Ermənistan rəhbərliyi növbəti dəfə saxta məlumatlar əsasında Ermənistanı Azərbaycanla müqayisə etmək istəsə, yaxşı fikirləşsin. Çünki idman dili ilə desək, Azərbaycan ali liqada, Ermənistan isə üçüncü liqadadır və getdikcə bu fərq daha da böyüyəcəkdir.

Bilirsiniz, əvvəllər mən Azərbaycanı heç bir ölkə ilə heç vaxt müqayisə etməmişəm. Biz işimizi kimisə qabaqlamaq üçün görmürük. Biz işimizi Azərbaycan xalqı, dövləti naminə görürük, sadəcə olaraq, Ermənistanın növbəti yalanlarını ifşa etmək üçün məcbur olub, bu müqayisəli təhlili sizə və Azərbaycan xalqına təqdim etdim. Özü də mənim gətirdiyim rəqəmlər həqiqəti əks etdirir, Ermənistanın gətirdiyi rəqəmlər növbəti əfsanədir, növbəti yalandır.

İndi 2020-ci il başlayıb, uğurla başlayıb. Deyə bilərəm ki, bir neçə gün bundan əvvəl Bakıda 2 böyük investorla 2 layihə üzrə İcra Müqaviləsi imzalanıb. Bu, bərpa olunan enerji növlərinin yaradılması istiqamətində çox önəmli addımdır. 2 böyük elektrik stansiyası tikiləcək – biri külək, biri Günəş. Bu hadisənin önəmi ondadır ki, vəsaiti investorlar qoyacaqlar. Yəni bu bizə göstərilən inamdır, Azərbaycanın uzunmüddətli inkişafına göstərilən dəstəkdir. İki stansiyanın istehsal gücü 440 meqavat olacaqdır. Bu çox böyük stansiyalardır, regionda ən böyük Günəş və külək elektrik stansiyalarıdır. Biz özümüz də bərpa olunan enerji növlərini yaradırıq, 50 meqavatlıq stansiya inşa edildi. İndi 84 meqavatlıq stansiyanın layihələndirmə işləri

tamamlanır, bunu da biz edəcəyik. Bizim enerji balansımızda bərpa olunan enerjinin payı hazırda təqribən 17-18 faizdir. Bizim uzunmüddətli strategiyamıza görə, biz bunu ən azı 30 faizə çatdırmalıyıq.

Onu da bildirməliyəm ki, müsabiqədə 9 şirkət iştirak etmişdir. Yəni 9 ən böyük şirkət Azərbaycana bərpa olunan enerjini istehsal etmək üçün vəsait qoymağa hazırdır. Sadəcə olaraq, 2 şirkət seçildi, hansıların ki, şərtləri daha yaxşı idi. Ancaq bu o demək deyil ki, qalan şirkətlər kənarda qaldı, biz onları da dəvət edirik. Qoy onlar öz təkliflərinə bir daha baxsınlar, şərtləri bizim üçün, ölkəmiz üçün daha məqbul etsinlər və buyursunlar, onlar üçün də Azərbaycanda kifayət qədər yer vardır. Allaha şükür, Azərbaycan həm Günəşlə, həm küləklə zəngin ölkədir, müasir enerji infrastrukturu vardır. Davosun hesabatında enerjinin əlçatanlığına görə Azərbaycan dünyada 2-ci yerdədir. İxracımız da var, keçən il 60 milyon dollardan çox ixrac etmişik. Ona görə əminəm ki, bərpa olunan enerji növlərinin yaradılması bizim üçün növbəti prioritet sahə olacaqdır. Nazirlər Kabinetinə tapşırıram ki, müsabiqədə iştirak etmiş şirkətlərin təkliflərinə baxılsın, onlar dəvət olunsun, onlarla fərdi qaydada danışıqlar aparılsın və onlar da oxşar layihələri Azərbaycanda icra etsinlər.

Bir sözlə, əminəm ki, bu il də Azərbaycan uğurla inkişaf edəcək. 2020-ci ildə Azərbaycan daha güclü dövlətə çevriləcəkdir. Sağ olun.

## GÖRKƏMLİ NEFTÇİ-ALİM, GEOLOQ, AKADEMİK XOŞBƏXT YUSİFZADƏNİN 90 İLLİK YUBİLEYİ MÜNASİBƏTİLƏ KEÇİRİLMİŞ YUBİLEY MƏRASİMİ

*14 yanvar 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva yanvarın 14-də görkəmli neftçi-alim, geoloq, SOCAR-ın Birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadənin 90 illik yubileyi münasibətilə keçirilmiş mərasimdə iştirak etmişlər.*

*Dövlət başçısı mərasimdə çıxış etdi.*

### Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Əziz Xoşbəxt müəllim, mən sizi yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm, sizə cansağlığı, yeni uğurlar arzulayıram.

Baxmayaraq ki, yaşınız 90-a çatıb, amma siz həmişə olduğu kimi, cavansınız, həmişə iş başındasınız, fiziki sağlamlığınız da yerindədir, həmişə nikbinsiniz. Sizin nikbinliyiniz sizinlə bərabər işləyənlərə də gözəl təsir edir. Hesab edirəm ki, hamı mənimlə razılaşar, siz Azərbaycanın neft-qaz sənayesinin canlı rəmzisiniz. Təsadüfi deyil ki, sizin yubi-

leyiniz dövlət səviyyəsində qeyd olunur. Mən yubileylə bağlı bir müddət bundan əvvəl sərəncam imzalamışam və bu gün biz bu məclisdə sizin yubileyinizi qeyd edirik.

Siz həm sovet, həm də müstəqillik dövründə Azərbaycan xalqı naminə, Azərbaycanın inkişafı yolunda böyük işlər görmüsünüz, böyük töhfələr vermisiniz. Həm sovet dövründə, həm müstəqillik illərində Azərbaycanın neft-qaz sənayesinin inkişafında sizin böyük rolunuz vardır. Siz 20-dən çox neft-qaz yatağının kəşf edilməsində bilavasitə iştirak etmisiniz, bir çox hallarda kəşfiyyat işlərinə rəhbərlik etmisiniz. O yataqlar arasında «Azəri», «Çıraq» və «Günəşli» xüsusi yer tutur. Bu yataqların sovet dövründə aşkarlanması böyük hadisə idi. Çünki onlar Xəzərdə ən böyük neft yataqlarıdır. «Azəri–Çıraq–Günəşli» neft yataqları blokunun müstəqillik dövründə işlənilməsi tarixi hadisədir. Çünki bugünkü Azərbaycanın inkişafını «Azəri–Çıraq–Günəşli»siz təsəvvür etmək mümkün deyil. Bu yataqların işlənilməsi və buradan hasil olunan neft bugünkü Azərbaycanın inkişafını təmin edir, iqtisadi müstəqilliyini şərtləndirir. İqtisadi müstəqillik isə siyasi müstəqilliyimizi möhkəmləndirir. Beləliklə, «Azəri–Çıraq–Günəşli» neft yataqları blokunun kəşf edilməsi və işlənilməsi doğrudan da tarixi hadisədir. Bu yaxınlarda biz bu yataqların işlənilmə müddətinin uzadılmasını da təmin etdik və bu yataqlar ən azı 2050-ci ilə qədər istismarda olacaqdır.

Siz də yaxşı xatırlayırsınız ki, «Azəri–Çıraq–Günəşli» üzrə kontrakt imzalananda təxmini ehtiyatlar xarici tərəfdaşlar tərəfindən 511 milyon ton səviyyəsində müəyyən edilmişdi. Hətta biz təəccüb edirdik ki, bu dəqiqliklə necə hesablana bilər? Ancaq siz də o vaxt tam əminliklə deyirdiniz ki, bu yataqlarda daha çox neft resursları vardır. Hazırda xarici tərəfdaşların hesabatına əsasən, bu yataqlarda ən azı 1 milyard ton neft vardır. Amma şübhəsiz, gələcək illərdə, xüsusilə yeni texnologiyalar tətbiq olunduqda, hesab edirəm ki, bu yataqlardan daha çox neft çıxarılacaqdır.

Bu gün biz Azərbaycanın uğurları haqqında danışanda, əlbəttə, neft-qaz sənayesində əldə olunmuş nailiyyətləri, neftçilərimizin əməyini xüsusi qeyd etməliyik. Neftçilərin qəhrəmanlığı, fədakarlığı sayəsində bu gün müstəqil Azərbaycan uğurla inkişaf edir. Neftdən əldə olunan gəlirləri ədalətli şəkildə idarə etmək, onları insanlara çatdırmaq, ölkə qarşısında duran əsas vəzifələrə yönəltmək, əlbəttə, siyasi rəhbərliyin böyük zəhməti hesabına və düşünülmüş siyasət nəticəsində mümkün olubdur. Azərbaycan o ölkələrdəndir ki, neft-qaz yataqları ölkəmizə tərəqqi, xoşbəxtlik, inkişaf gətirdi. Neftlə zəngin olan bir çox ölkələrdə, əksinə, neft xeyir yox, ziyan, problemlər yaradır, qanlı toqquşmalar baş verir. Biz tarixdən yaxşı bilirik ki, neft uğrunda mübarizə əksər hallarda çox böyük çətinliklərə, faciələrə gətirir. Azərbaycan isə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə başlanmış neft strategiyasını uğurla icra edərkən neftdən əldə olunmuş gəlirləri ölkəmizin ümumi inkişafına yönəltdi. Məhz buna görə bu gün adambaşına düşən valyuta ehtiyatlarına görə biz MDB məkanında 1-ci yerdəyik. Azərbaycanda yoxsulluq səviyyəsi 4,8 faiz ətrafındadır. Bu göstərir ki, neftdən əldə edilmiş gəlirlər cə-

miyyətdə ədalətli şəkildə bölünür və son illərdə ölkəmizdə yaşanan tərəqqi məhz bu amilə söykənir. İnfrastruktur layihələri icra olunub, 16 min kilometr yol çəkilibdir. Bu gün yol infrastrukturuna görə biz aparıcı ölkələr sırasındayıq. Biz vaxtilə elektrik enerjisindən korluq çəkir, onu xaricdən idxal edirdik. Bu gün isə ixrac edirik və bizdə 1000 meqavatdan artıq generasiya gücü vardır. Buna nəyin hesabına nail olduq? Neft-qaz sektorunda görülmüş işlərin hesabına.

Eyni zamanda, vətəndaşların sosial problemlərinin həlli də birbaşa neft-qaz sahəsində görülmüş işlərlə bağlıdır – əmək haqlarının, təqaüdlərin, müavinətlərin artırılması, sosial infrastrukturun yaradılması ilə. Yəni böyük işlər görülüb, 3300-dən çox məktəb, 700-dən çox tibb ocağı tikilibdir. Bütün bu işlərin əsas mənbəyi neftdən əldə edilmiş gəlirlər və bu gəlirlərdən düzgün istifadə olunmasıdır.

Azərbaycan xalqı qarşısında sizin çox böyük xidmətləriniz vardır. Çünki sizin biliyiniz, təcrübəniz, neft-qaz yataqlarının kəşfiyyatı və işlənilməsi dövründə xarici tərəfdaşlarla apardığınız işlər bugünkü Azərbaycanın uğurlu inkişafını təmin edir.

Təbii ki, biz hazırda daha çox qeyri-neft sektoruna diqqət yetiririk, istəyirik bu sektor inkişaf etsin. Ancaq heç kim unutmamalıdır ki, Azərbaycan iqtisadiyyatının əsası, yəni bel sütunu neft-qaz sektorudur. Neft-qaz sektoru bundan sonra da onilliklər ərzində Azərbaycanın aparıcı sektoru olacaqdır. Əlbəttə, biz çalışacağıq və əminəm buna nail olacağıq ki, qeyri-neft sektoru da inkişaf etsin. Keçən ilin göstəriciləri bunu əyani şəkildə sübut edir. Ancaq hər kəs bilməlidir ki, neft-qaz sektoru aparıcı sektordur. Bu da təbiidir. Çünki neftin vətəni Azər-

baycandır. Dənizdən ilk dəfə neft məhz Azərbaycan neftçiləri tərəfindən çıxarılıb. Müasir dövrdə Azərbaycan yeni texnologiyalar əsasında öz neft-qaz potensialını tam şəkildə işə salıbdır. Nəhəng neft-qaz kəmərləri inşa olunub, neftdən əldə olunmuş gəlirlər hesabına böyük nəqliyyat layihələri icra edilibdir. Bu gün Azərbaycan bütün parametrlər üzrə inkişaf etmiş ölkələrin səviyyəsinə yaxınlaşır. Əminəm ki, gün gələcək, Azərbaycan inkişaf etmiş ölkələr sırasında öz yerini tutacaqdır.

Xoşbəxt müəllim, bilirəm ki, siz hələ uşaqlıq dövründən biliklərə çox meyilli olmusunuz. Sual yarana bilər ki, mən bunu haradan bilirəm. Ancaq istəyirəm bir hadisəni yoldaşlara çatdırım. Keçən il Mehriban xanım Pirhəsən pirini ziyarət edərkən bir ailənin üzvləri yaxınlaşıb onu Kürdəxanıya dəvət ediblər. Eyni zamanda, bildiriblər ki, Kürdəxanı qəsəbəsində çoxlu problemlər var, yollar, məktəb bərbad vəziyyətdədir. Mehriban xanım bu dəvəti qəbul edərək, Kürdəxanı qəsəbəsinə gedir və ondan sonra Kürdəxanıda bir çox problemlər həll olunur. Kürdəxanıda yeni park salındı, bütün yollar təmir edildi, yeni məktəb tikildi. Ondan bir qədər sonra söhbət əsnasında siz dediniz ki, uşaq olanda Kürdəxanıdakı məktəbdə oxumusunuz. Mən də təəccüb etdim, çünki bilirəm ki, siz pirşağılısınız. Dedim ki, bəs Pirşağıda məktəb ola-ola nə üçün Kürdəxanıya gedirdiniz? Bu gün də yadımdadır, dediniz, ona görə gedirdim ki, Kürdəxanıda müəllimlər yaxşı idi. Elədirmi? Qonşu kəndlər olsa da, o vaxt yollar bərbad idi. Balaca bir uşaq üçün bu çox çətindir. Nəqliyyat var idi, ya yox idi, bilmirəm, avtobusla gedirdiniz?

**Xoşbəxt Yusifzadə:** Piyada gedirdim.

**İlham Əliyev:** Piyada? Təsəvvür edin, bilik almaq üçün hər gün Pirşağıdan Kürdəxanıya piyada gedib-gəlib.

Yəni artıq bəlli idi ki, sizin böyük gələcəyiniz olacaqdı. Sonra biliklərinizi gənclərlə bölüşdünüz. Siz eyni zamanda, böyük alimsiniz, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü kimi, çox fəalsınız. Sizin bir çox elmi əsərləriniz var və bu əsərlər təcrübəyə əsaslanır. Yəni bunlar sadəcə olaraq, fərziyyələr, nəzəriyyələr deyil. Təcrübə də göz qabağındadır, həm sovet, həm də müstəqillik dövründə. Məhz ona görə də siz həm sovet, həm də müstəqillik dövründə ən yüksək ordenlərlə təltif olunmusunuz. Birinci ordeni 1963-cü ildə almısınız – «Qırmızı Əmək bayrağı» ordeni. İkinci ordeni 1971-ci ildə almısınız – «Şərəf nişanı». Üçüncü ordeni isə 1976-cı ildə – ikinci «Qırmızı Əmək bayrağı». Elədirmi?

**Xoşbəxt Yusifzadə:** Elədir, mənim yadımdan çıxmışdı.

**İlham Əliyev:** Mənim hər şey yadımdadır. Hələ çox şey bilirəm, yavaş-yavaş deyəcəyəm. Sonra müstəqillik dövründə ulu öndər Heydər Əliyev sizi 2000-ci ildə ən yüksək ordenlə – «İstiqlal» ordeni ilə təltif etdi. Daha sonra növbə mənə çatdı və siz 2004-cü ildə «Şöhrət» ordeni, 2009-cu ildə «Şərəf» ordeni, 2015-ci ildə Azərbaycan Prezidentinin Fəxri diplomu ilə təltif olundunuz, keçən il «Heydər Əliyev mükafatı»na layiq görüldünüz. Dünən isə mənim sərəncamımla Azərbaycanın ən ali ordeni olan «Heydər Əliyev» ordeni ilə təltif edilmisiniz.

Xoşbəxt müəllimlə biz 25 ildir ki, bir-birimizi tanıyırıq. Bütün dövrlərdə bizim çox sıx səmimi yoldaşlıq münasibətlərimiz olubdur. Biz yol yoldaşı olmuşuq və 1994-cü ilin yay aylarında «Əsrin kon-

traktı»nın hazırlanması üçün son danışıqlar prosesində iştirak etmişik. Amerikanın Hyuston şəhərində bir aydan çox qalmışıq. Danışıqlar çox gərgin keçirdi, bir çox problemlər var idi. Hər iki tərəf istəyirdi ki, özü üçün ən məqbul şərtləri əldə etsin. Nəticə etibarilə biz, hesab edirəm ki, çox məqbul kompromisə gələrək, Azərbaycan üçün ən gözəl şərtləri əldə etdik. O şərtlər bugünkü pay bölgüsündə öz əksini tapıb. Bu gün mənfəət neftinin 75–80 faizi Azərbaycana çatır. Baxmayaraq ki, Azərbaycan yatağın işlənilməsinə vəsait qoymayıb. O vaxt biz müqaviləyə belə bir maddə saldıq ki, vaxt keçdikcə işləyən insanların ən azı 90 faizi Azərbaycan vətəndaşı olmalıdır, buna da nail olduq. Bu da kadr hazırlığı deməkdir. Bu gün yaxşı təlim keçmiş kadrlar müxtəlif ölkələrdə də, bizdə də işləyirlər. Ona görə unudulmaz Hyuston mərhələsi, əlbəttə, çox önəmli idi. Çünki biz qayıtdıqdan sonra bir ay keçməmiş kontrakt imzalandı və beləliklə, inkişafımızın yeni səhifəsi açıldı. O vaxt biz bir ailə kimi idik. Yadınızdadır, biz «Apart» hotelində qalırdıq, orada mətbəx var idi. Yumşaq desək, hotelin yeməklərindən bir qədər yorulmuşduq. Ona görə Mehriban xanımdan xahiş edirdik, bizə yemək bişirirdi. Bu, unudulmaz günlərdir və biz bu günləri həmişə xatırlayırıq. Onu da bildirməliyəm ki, Xoşbəxt müəllimlə biz Dövlət Neft Şirkətində qonşu olmuşuq, qapımız bir-birinin yanında idi. İkimizin bir qəbul otağımız var idi və hər gün görüşürdük. Mən bir çox şeyləri Xoşbəxt müəllimdən öyrənmişəm. Hələ o vaxt Neft Şirkətində işlədiyim

dövrdə və ondan sonra bir çox hallarda görürdüm ki, Xoşbəxt müəllim nə qədər biliklidir. Onu da bilirdim ki, ulu öndər Heydər Əliyev Xoşbəxt müəllimə, onun sözünə çox inanırdı. Yəni onun sözü mütləq həqiqət hesab olunurdu və bir çox hallarda bu, təsdiq edilmişdi. Xatırlayıram ki, 1997-ci ildə «Abşeron» yatağı üzrə kontrakt imzalandıqdan sonra seysmik işləri aparılmışdı və kəşfiyyat quyusunun yeri müəyyən edilmişdi. Xoşbəxt müəllim də o vaxt xarici tərəfdaşlara demişdi ki, onlar quyunun yerini səhv seçiblər, orada heç bir ehtiyat olmayacaqdır. Onlar da dedilər ki, yaşlı kişidir, bizim seysmik qurğularımız, mütəxəssislərimiz, minlərlə işçimiz, mil-yardlarla dollar ticarət dövriyyəmiz var, kapitallaşdırmamız 10 milyardlarla ölçülür. İndi bir geoloq burada nə isə deyir. Əhəmiyyət vermədilər və peşman oldular. Çünki onlar Xoşbəxt müəllimə qulaq asmadılar, quyunu qazdılar və o da boşa çıxdı. Beləliklə, müqaviləyə xitam verildi və onlar məcbur olub Azərbaycandan, o yataqdan çıxdılar. Amma ondan bir neçə il sonra başqa bir şirkət «Abşeron» yatağına maraq göstərdi. Yenidən kontrakt imzalandı, kəşfiyyat quyusunun yeri düzgün seçildi və böyük ehtiyatlar aşkarlandı.

Hələ o vaxt – keçən əsrin 90-cı illərində Xoşbəxt müəllim deyirdi ki, «Abşeron» yatağında ən azı 300 milyard kubmetr qaz vardır. Onu haradan bilirdi deyə bilmirəm, amma bu gün artıq həyat bunu təsdiqlədi. Eyni nəticəyə xarici şirkət də gəldi və biz «Abşeron»dan 1,5 milyard kubmetr həcmində ilk qazı bu

ilin sonunda, ya da ki, gələn il alacağıq. Bu özlüyündə bir göstəricidir. Xoşbəxt müəllimin sözləri ilə desək, o, Xəzər dənizinin cikini də bilir, bikini də. Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsi məsələsində Xoşbəxt müəllimin çox böyük zəhməti vardır. Çünki o, bütün Zirvə görüşlərində iştirak edirdi və onun sözü tədbirlərdə tam həqiqət kimi qəbul olunurdu. 2 il bundan əvvəl Xəzərin hüquqi statusu müəyyən olundu, razılaşma əldə edildi. Ancaq o vaxta qədər bir çox mübahisələr olurdu və bizim nümayəndə heyətində Xoşbəxt müəllimin olması mövqemizi həmişə gücləndirirdi.

Bir məsələni də bildirmək istəyirəm, vaxt keçdikcə bunların hamısı unudulur. O da «Şahdəniz» yatağının işlənilməsi ilə bağlıdır. 1996-cı ildə kontrakt imzalanmalı idi, bütün danışıqlar başa çatmışdı. Ancaq iqtidar üzvlərindən biri etiraz edirdi ki, bu imzalanmamalıdır. Onun heç bir əsası yox idi, o adamın, ümumiyyətlə, neft-qaz sənayesindən xəbəri yox idi. O sadəcə olaraq, neftçilər tərəfindən hasil edilmiş və emalçılar tərəfindən emal olunmuş neft və neft məhsullarını xaricə sataraq, öz cibini doldururdu. Ancaq heç bir əsas olmadan qəti etiraz bildirdi və o vaxt Heydər Əliyev Dövlət Neft Şirkətinin bütün rəhbərliyini dəvət etdi, hər birinə söz verdi. Hər biri çıxış edərkən, o cümlədən Xoşbəxt müəllim də dedi ki, bu kontrakt mütləq imzalanmalıdır və şərtlər bizim üçün ən məqbul şərtlərdir. Yadımdadır, ulu öndər Xoşbəxt müəllimin sözünə böyük diqqətlə qulaq asırdı. Məhz Xoşbəxt

müəllimin, eləcə də ümumi fikir belə idi ki, kontrakt mütləq imzalanmalıdır. İndi təsəvvür edin, əgər «Şahdəniz» kontraktı 1996-cı ildə imzalanmasaydı, nə Bakı–Tbilisi–Ərzurum, nə TANAP, nə də «Cənub Qaz Dəhlizi» olacaqdı. Beləliklə, Azərbaycanın qaz təminatı nə vəziyyətdə olacaqdı? Əgər «Şahdəniz» qazı olmasaydı, biz öz tələbatımızı ödəyə bilməyəcəkdik. Ona nə qədər investisiyalar qoyulub və bu gün Azərbaycan dünya miqyasında, Avrasiyada qaz ixrac edən ölkəyə çevrilibdir.

Belə hadisələr çoxdur, vaxtı gəldikcə mən bunları açıqlayacağam. Bir daha demək istəyirəm ki, Xoşbəxt müəllim gözəl insan, gözəl alim, gözəl mütəxəssisdir. Bu gün təqdim ediləcək ən ali mükafat bir daha göstərir ki, Azərbaycan dövləti və xalqı Xoşbəxt müəllimin fəaliyyətini yüksək qiymətləndirir.

Buraya gələrkən bildim ki, Xoşbəxt müəllimdə Azərbaycanın yalnız «Vətənə xidmətə görə» ordeni yoxdur. Onu da saxlamışam 95 illik yubileyinə.

**Xoşbəxt Yusifzadə:** İndi mən gərək yaşayam.

**İlham Əliyev:** Həm yaşamaq, həm işləmək lazımdır. İşlər çoxdur. Bir şeyi də bildirməliyəm, Xoşbəxt müəllimlə biz daim əlaqədəyik. Hər bir yeni kəşfiyyat quyusu qazılanda, yaxud da ki, hansısa bir quyuda yaxşı debit olanda, mənə birinci Xoşbəxt müəllim xəbər verir. Ona görə o, zəng edəndə bilirəm ki, məni şad xəbərlə sevindirəcək.

*Sonra Xoşbəxt Yusifzadənin «Heydər Əliyev» ordeni ilə təltif olunması haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı oxundu.*

**İlham Əliyev:** Mən elə bu gün Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinə göstəriş verirəm ki, Gəmiçiliyin yeni gəmisinə Xoşbəxt Yusifzadənin adı verilsin.

**Xoşbəxt Yusifzadə:** Mən necə danışım, heç özüm də bilmirəm. Məni o qədər təriflədiniz ki, mənim haqqımda o qədər yaxşı söz dediniz ki, gözümdən yaş gəldi. Yadıma düşdü, İranda idik. Cənab Heydər Əliyev orada məni tərif elədi. Bu, Heydər Əliyev ilə axırıncı dəfə biz İranda olanda olmuşdu. Mən protokola görə ən axırda dayanmışdım. Gəlib mənim yanımdan keçəndə dedi: gördün, səni nə qədər təriflədim, nə qədər yaxşı sözlər dedim. Dedim ki, hörmətli Prezident, o qədər gözəl sözlər dediniz ki, mənim gözümdən yaş gəldi. Dedi, bura bax, gözünün yaşını sil, özün də get iranlılarla söhbətini davam elə, Allaha şükür, danışmağa da həvəsin var.

İndi mənə o qədər gözəl sözlər dediniz ki, mən bunların cavabında söz deməyə çətinlik çəkirəm. Nə deyim ki, buna bərabər olsun. Elə mənə «Heydər Əliyev» ordeninin verilməsi. Mən Heydər Əliyevin qarşısında həmişə baş əyirəm. O, Azərbaycanda birinci ordeni mənə verdi, elə Siz də. Təkrar etmək istəmirəm. Sonra da onun adı ilə bağlı nə alıramsa, bu mənim üçün çox böyük hədiyyə, çox böyük mükafatdır.

Bilirsiniz, mən Heydər Əliyevlə 1969-cu ildə tanış olmuşam. 1970-ci ildə Xəzərin cənubdan şimalına qə-

dər bütün işlənilməsini bizə tapşırdılar. Onda Heydər Əliyev məni birliyin baş geoloqu təyin etdi. O, respublikaya rəhbərliyə gələndə neft sənayesinin vəziyyəti bir o qədər də yaxşı deyildi. Çünki dənizin dərinliyi 40 metrə qədər olan sahələrində yataqlar kəşf olunmuşdu, amma dərinə getməyə bizdə nə gəmi vardı, nə də maliyyə. Vəziyyətimiz çox çətin idi. Onda o bizi yığdı, söhbət etdi, birlikdə qərara gəldik ki, gəmilər alınmalı  və digər işlər görülməlidir. Bir neçə il ərzində 11 üzən qazma qurğusu alındı. Əvvəlcə özüqalxan, sonra yarımbatan gəmilər alındı və dənizdə kəşfiyyat işləri başlanıldı. «Azəri», «Çıraq», «Günəşli», «Bahar» və başqa yataqlar – onların kəşf olunması elə o vaxtın nailiyyətləridir. Bu yataqlar kəşf olundu, daha nə lazımdır? Deməli, bunlara platforma lazımdır, Dərin Özüllər zavodunun tikilməsi lazımdır. O vaxt, sovet hökuməti vaxtı onu Həştərxanda tikmək istəyirdilər. 450 milyon dollarlıq zavodun Bakıda tikilməsi hər adamın işi deyildi. Bunu ancaq Heydər Əliyev kimi adam edə bilərdi, o da etdi.

Heydər Əliyev o vaxtlar elə işlər görürdü, sanki bilirdi ki, Azərbaycan müstəqil olacaq və gələcəkdə bunlar hamısı Azərbaycana lazım olacaqdır. Onun bünövrəsini cənab Heydər Əliyev elə sovet vaxtında qoymuşdu. O bunları etdi və Azərbaycan müstəqil olandan sonra yenə həyat elə gətirdi ki, Heydər Əliyev ikinci dəfə respublikaya rəhbərlik edəndə də neft sənayesinin vəziyyəti çox pis idi. Ümumiyyətlə, sovet hökuməti axırıncı illərdə neft sənayesinə bir o qədər fikir

vermirdi. Çünki Azərbaycan dənizdə işlədiyi üçün xərc çox gedirdi. Başqa yerlərdə yataqlar açılmışdı – Sibirdə, Tatarıstanda. Ona görə də Azərbaycana o qədər də fikir verilmirdi. İkinci tərəfdən, biz müstəqil olandan sonra bu respublikalar arasında da əlaqələr kəsildi. O vaxtlar biri-birinə boru, gəmi verirdilər. Bunlar da kəsildi və bu səbəbdən Azərbaycanın vəziyyəti daha da pisləşdi. Heydər Əliyev ikinci dəfə respublikaya rəhbərliyə gələndə yenə neft sənayesi ilə maraqlandı, bütün respublikada dəyişikliklər etdiyi kimi, dedi ki, neft sənayesində də nə etmək olar.

Təzə yataqlar açılmışdı. Hərdən hörmətli İlham müəllim deyir, yaxşı ki, o vaxtlar bunları işlətməmisiniz, yoxsa indi bizim üçün bir şey qalmazdı. Sovet vaxtında biz bunları işlədə bilməmişdik. İndi də bunları işlətmək üçün yenə bizdə nə pul var idi, nə də texnika. Onda Heydər Əliyev, hörmətli Prezident belə qərara gəldi ki, gəlin xariciləri dəvət edək. O vaxtlar Azərbaycanda xarici sözünü deyəndə buna bir cür baxırdılar. Görəsən bu nə olan şeydir, niyə, bizim öz təcrübəmiz yoxdur ki? Amma təcrübəmiz də, ağlımız da var idi, pulumuz yox idi, texnika yox idi. Ona görə də biz mütləq bunu etməliydik. Bir də ki, xarici şirkətlərlə iş görmək bir əcaib şey deyildi, ələlxüsus dənizdə iş görəndə. Çünki bu, baha başa gəlirdi.

Ona görə də qərara alındı ki, mütləq xarici şirkətlərlə müqavilə bağlanılsın, danışıqlar getdi. O vaxtlar bunlar başlanmasaydı, əlbəttə, bu kontrakt işlənməsəydi, buna qol çəkilməsəydi, cənab İlham Əliyev de-

mişkən, indi Allah bilir biz nə gündə idik. O gün deyir ki, «Azəri–Çıraq»dan çıxarılmış neftin miqdarı 500 milyonu keçdi. Bu 500 milyon nədir, bu neft nədir, bunun qiyməti nə qədərdir? Görün indi bunun bizim üçün nə qədər əhəmiyyəti oldu.

İndi həyatdır da, Heydər Əliyev dünyasını dəyişdi. Onun yerinə cənab İlham Əliyev gəldi. Bir neçə ildən, bir neçə işdən sonra cənab İlham Əliyev bütün aləmə, nəinki Azərbaycana, bütün Avropaya, bütün dünyaya özünü təsdiq etdi ki, doğrudan da bu respublikaya gözəl rəhbər gəlibdir.

Onun gördüyü işləri saymaqla qurtaran deyil. İndi bu qədər məktəblər tikilir, bu qədər yollar çəkilir. Azərbaycan öz simasını 180 dərəcə dəyişib. Odur ki, mən hərdən bunu təkrar edirəm, 10–15 il Azərbaycanda olmayan adam, gəlib Azərbaycanı görəndə təəccüb edir. Doğrudan da bu qısa müddətdə belə işlər görülüb. Ümumiyyətlə, cənab İlham Əliyev Azərbaycana, bütün dünyaya göstərdi ki, Azərbaycanın müstəqil olması nə deməkdir. Mən bunu çox yaxşı bilirəm. Çünki mən 90-nın 60 ilini sovet vaxtında yaşamışam, 30 ilini müstəqillik dövründə. O dövrlə bu dövrü müqayisə edəndə, mən müstəqilliyin ləzzətini yaxşı bilirəm. Başqaları bəlkə də elə-belə hiss edir. Ləzzətini görürəm, heyran oluram. Bir quyu qazmaq üçün bir həftə qalırdım Moskvada, isbat edim ki, bu quyunu qazmaq lazımdır. İndi özümüz öz ağamızıq, quyumuzu da qazırıq, hərdən boş da çıxa bilər. Bütün

bunlar cənab İlham Əliyevin gördüyü işlərin nəticəsidir.

İndi bir kənddə, mənim balaca kəndimdə gör nə qədər dəyişikliklər olub. Söz gəldi, gərək deyim. Atam Pirşağıda ev tikdirəndə bizim evimiz, demək olar, kəndin bütün evlərindən yaxşı idi. İndi o qədər gözəl evlər tikilib ki, bizim ev bunların yanında komaya oxşayır. Bu dəyişikliklərin hamısı bizim müstəqilliyimizin vaxtında yaranıb. Bu, böyük işdir. Ona görə mən Sizə uzun ömür, cansağlığı arzu edirəm.

Mehriban xanım, Sizin haqqınızda danışmaq istəyirəm. Bu gün oxudum, görürəm saytınızda məni təbrik etmisiniz. Axşamadək dözməmisiniz, elə gündüz təbrik etmisiniz. Mən Sizdən də çox razıyam. Sizin haqqınızda o dəfə də danışdım. Sizin gördüyünüz işlərin hamısı göz qabağındadır – istər Azərbaycan üçün, istər bütün dünya üçün. Siz Azərbaycanı bütün Avropaya tanıtmısınız. İndi Avropada elə bir ölkə yoxdur ki, Azərbaycanı tanımasın.

Mən Sizə də uzun ömür, cansağlığı arzulayıram, hər halda, biz ay yarım Hyustonda bir yerdə külüng vurmuşuq. Mən həmişə təkrar edirəm ki, Siz, bizim bacımız arxamızca həmişə su atırdınız ki, işimiz yaxşı getsin. O da bir günlər idi. İndi də İlham müəllimlə, Prezidentimizlə əl-ələ verin, bu respublikanın inkişafı üçün, gələcəyi üçün əlinizdən nə gəlirsə edin. Yəqin neftçilər arasında məndən yaşlısı yoxdur. Hamımızın adından demək istəyirəm ki, biz sizin arxanızda dağ kimi dayanmışıq, hər nə olsa, harada olsa. Çünki neft

sənayesi Azərbaycanın dayağıdır. İndi qeyri-neft sektoru deyirlər, mənim sözüm yoxdur. Amma ilk illər neft sənayesindən başqa, bizim əlimizdə elə bir şey yox idi ki, respublikanı qabağa aparaq.

Birinci növbədə, əlbəttə, ən tez gəlir götürmək üçün əsas element neft idi. Respublikanın vəziyyətini ancaq neft sənayesi ilə düzəltmək olardı. Ona görə də cənab Heydər Əliyev taktikanı düzgün seçdi. Onun neft strategiyası Azərbaycanı bu dərəcəyə gətirib çıxardı. Neft sənayesi öz sözünü dedi. İndi başqa işə də keçmək olar. Buna baxmayaraq, hələ büdcənin 56-57 faizi neftdən gəlir. Amma qeyri-neft sektorunu da inkişaf etdirmək olar. İndi vaxtdır, onu da başlamısınız, gözəl də nəticələr əldə edirsiniz. İldən-ilə bunlar, əlbəttə, daha da yaxşı olacaqdır.

Mən hamınıza öz minnətdarlığımı bildirirəm. Çox sağ olun, burada iştirak edirsiniz. Sizə arzu edirəm ki, nə qədər qüvvəniz var işləyəsiniz, ölkəyə, dövlətə xeyir verəsiniz. Sizin hamınıza uzun ömür, cansağlığı, xoşbəxtlik arzu edirəm.

Diqqətinizə görə çox sağ olun.

* * *

*Yubiley mərasimi konsert proqramı ilə davam etdi.*

**OMAN SULTANI ƏLAHƏZRƏT**
**HEYTƏM BİN TARİQ ƏL-SƏİDƏ**

Əlahəzrət!

Omanın yeni Sultanı elan olunmağınız münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan Respublikası ilə Oman Sultanlığını ənənəvi dostluq münasibətləri birləşdirir. İnanıram ki, möhkəm təməl üzərində qurulmuş əlaqələrimiz bundan sonra da müvəffəqiyyətlə inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Oman xalqının rifahı naminə qarşıdakı ali fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 yanvar 2020-ci il*

## NƏQLİYYAT, RABİTƏ VƏ YÜKSƏK TEXNOLOGİYALAR NAZİRİ RAMİN QULUZADƏ İLƏ GÖRÜŞ

*15 yanvar 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 15-də Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadəni qəbul etmişdir.*

**İlham Əliyev:** Keçən il Azərbaycanda bütün sahələr kimi, nəqliyyat sahəsi də inkişaf edibdir. Bu inkişaf həm real layihələrdə özünü göstərir, həm də beynəlxalq təşkilatların hesabatlarında əksini tapır. Təkcə onu demək kifayətdir ki, keçən il avtomobil yollarının tikintisi istiqamətində rekord nəticə əldə edilib, 1300 kilometr avtomobil yolu çəkilibdir. Beləliklə, həm şəhərlərarası nəqliyyatın işi yaxşılaşdırılıb, həm magistral yolların çəkilişi davam etdirilib, həm də yüzlərlə kəndin yolu abadlaşdırılıb və yenidən qurulubdur.

Davos Dünya İqtisadi Forumu Azərbaycanda nəqliyyat sahəsində görülmüş işlərə yüksək qiymət verib. Bütövlükdə Azərbaycanın nəqliyyat infrastrukturu Davosun hesabatında dünya miqyasında 31-ci yerdədir. Bu, kifayət qədər böyük göstəricidir. Bu göstəriciyə

görə biz bir neçə inkişaf etmiş ölkəni də qabaqlamışıq. Avtomobil yollarının keyfiyyətinə görə dünyada 27-ci yerdəyik. Dəmir yolu nəqliyyatının səmərəliliyinə görə 11-ci, hava nəqliyyatının səmərəliliyinə görə isə 12-ci yerdəyik.

Yəni əslində bu onu göstərir ki, son vaxtlar nəqliyyat sahəsində aparılmış işlər ən yüksək qiymətə layiqdir. Bununla bərabər, keçən il çox önəmli dövlətlərarası layihələr icra edilibdir. O cümlədən Azərbaycan–Rusiya sərhədində yeni avtomobil körpüsünün istifadəyə verilməsi çox böyük hadisədir. Çünki əvvəlki körpü ötən əsrin 50-ci illərində tikilmişdi və demək olar ki, sıradan çıxmışdı. Yeni körpü Azərbaycan ilə Rusiya arasında həm nəqliyyat, həm ticarət əlaqələrinin inkişafına xidmət göstərəcək, eyni zamanda, bu körpü Şimal–Cənub nəqliyyat dəhlizinin tərkib hissəsidir. Hazırda Rusiya sərhədinə qədər yeni avtomagistral çəkilir və ilin sonuna qədər bu magistralın əsas hissəsi istismara veriləcəkdir.

Paralel olaraq, Astara şəhərindən İran sərhədinə qədər yeni magistralın çəkilişi nəzərdə tutulur. Bu məsələ İran tərəfi ilə razılaşdırılıb. Beləliklə, yük avtomaşınları Astara şəhərinə girmədən, birbaşa İran istiqamətinə gedə biləcək və yeni avtomobil körpüsü də tikiləcəkdir. Bir neçə il bundan əvvəl 2 ölkə arasında yeni dəmir yolu körpüsü tikilib və Şimal–Cənub nəqliyyat dəhlizinin fəaliyyəti üçün bunun böyük əhəmiyyəti olubdur. Əlbəttə, keçən il Şərq–Qərb nəqliyyat dəhlizi üzrə daha çox yük daşınıbdır. Bu da

təbiidir, çünki Bakı–Tbilisi–Qars dəmir yolunun istismara verilməsindən sonra bu istiqamətdə böyük canlanma vardır.

Təkcə şərq istiqamətindən deyil, eyni zamanda, Azərbaycan ərazisindən keçərək, Rusiyadan Türkiyə və Avropa istiqamətinə yüklərin daşınması müşahidə olunur və ildən-ilə bu yüklərin həcmi artacaqdır. Beləliklə, açıq dənizə çıxışı olmayan Azərbaycan beynəlxalq Avrasiya nəqliyyat mərkəzlərindən birinə çevrilibdir.

Builki investisiya proqramında nəqliyyat sektorunun inkişafı üçün kifayət qədər böyük vəsait nəzərdə tutulub. Eyni zamanda, avtomobil və dəmir yollarının çəkilişi ilə bağlı konkret layihələr icra ediləcəkdir. Bu il Ləki–Qəbələ dəmir yolu istifadəyə verilməlidir. Eyni zamanda, biz Bakı–Yalama və Xudat–Şahdağ dəmir yollarının layihələndirilməsinə və inşasına başlayırıq. Beləliklə, biz mövcud dəmir yollarının keyfiyyətini xeyli artıracağıq və qatarların sürəti də buna uyğun olaraq artacaqdır.

Həmçinin biz şəhər nəqliyyatının inkişafına da böyük əhəmiyyət veririk. Bu il Bakı şəhərinə əlavə 300 müasir avtobus gətiriləcək və bundan sonra da bu istiqamətdə işlər görüləcəkdir. Eyni zamanda, mənim göstərişimlə yeni taksi avtomaşınları da gətirilməlidir. Bu məsələ ilə bağlı məlumat verin, kontraktlar imzalanıb, yoxsa yox və yeni taksilər şəhərimizə nə vaxt gətiriləcək?

**R a m i n  Q u l u z a d ə:** Təşəkkür edirəm, cənab Prezident. Bu sualla bağlı qeyd etmək istərdim ki, Azərbaycanda 1500 ədəd «London taksisi» fəaliyyət göstərir. Bizim nazirliyin tabeliyində 1200 ədəd «London taksisi» vardır. Sizin tapşırığınıza əsasən, biz yeni, müasir standartlara cavab verən 100 ədəd «London taksisi» sifariş etmişik. 3 ay ərzində Azərbaycana gətiriləcək bu taksilərin üstünlüyü ondan ibarətdir ki, onlar yanacaqla deyil, elektriklə işləyir. Bir daha qeyd etmək istəyirəm ki, bu taksilər müasir standartlara tam şəkildə cavab verir.

**İ l h a m  Ə l i y e v:** İndi bizim digər şəhərlərimizdə taksi xidməti hansı səviyyədədir?

**R a m i n  Q u l u z a d ə:** Cənab Prezident, biz regionlarda bu sahəyə daha çox diqqət yetirməliyik. Çünki regionlarda standartlara tam cavab verməyən nəqliyyat vasitələri var və biz bu istiqamətdə də öz işlərimizi aparırıq.

**İ l h a m  Ə l i y e v:** Mən sizə tapşırıq verirəm ki, bu işləri ciddi təhlil edin. Hər bir şəhərdə nə qədər taksi fəaliyyət göstərir? Taksi avtomaşınlarının keyfiyyəti nə səviyyədədir? Təhlükəsizlik necə təmin edilir, hesablaşma necə aparılır? Biz elə etməliyik ki, bütün şəhərlərimizdə, ilk növbədə, böyük şəhərlərimizdə müasir taksi xidmətləri olsun. Müasir taksi dayanacaqları, sürücülərin hazırlanması, onların tibbi müayinədən keçməsi təşkil olunmalıdır. Hər bir sahədə olduğu kimi, bu sahədə də biz nağd hesablaşmadan kartla hesablaşmaya keçməliyik, taksometrlər quraşdırılma-

lıdır. Yəni təkcə Bakıda deyil, bütün böyük şəhərlərdə və sonrakı mərhələdə digər şəhərlərdə də.

Bu eyni zamanda, avtobus nəqliyyatına da aiddir. Çünki hazırda Bakı və Sumqayıt şəhərlərində avtobusla sərnişindaşımaları müasir standartlara uyğundur. O da hər yerdə deyil. Hələ də Bakı şəhərində keyfiyyəti yüksək olmayan və istismar müddəti bitmiş avtobuslar fəaliyyət göstərir. Bu məqsədlə biz hər il ölkəmizə 300 avtobus gətizdiririk. Mənə verilən məlumata görə, Gəncə şəhərində avtobus təsərrüfatı köhnəlib. Digər şəhərlərdə nə qədər avtobus fəaliyyətdədir, nə qədər avtobus alınmalıdır? Əlbəttə, ilk növbədə, paytaxt Bakının bu məsələsi həll olunmalıdır. Amma digər şəhərlər də diqqətdən kənarda qalmamalıdır. Şəhərlərarası nəqliyyat məsələsi öz həllini necə tapır və bu sahədə hansı problemlər, hansı nailiyyətlər vardır?

**Ramin Quluzadə**: Möhtərəm cənab Prezident, biz bir ay öncə şəhərlərarası gecə reyslərini istifadəyə verdik. Əsas məqsədimiz isə odur ki, bizim vətəndaşlar təkcə gündüz deyil, gecə reyslərindən də istifadə etsinlər. Biz bu reysləri müasir standartlara cavab verən «MAN» tipli avtobuslarla həyata keçiririk. Eyni zamanda, biz bu gün mövcud avtobus parkını daha müasir standartlar səviyyəsində yeniləyirik. Artıq standartları təkmilləşdiririk. Gələcəkdə də biz iş adamları ilə bu standartlarla bağlı işlər aparacağıq.

**İlham Əliyev:** Bu da çox önəmli məsələdir. Çünki indi yolların keyfiyyəti artdıqca, şəhərlərarası

marşrutlar yeni avtobuslarla təmin edilir. Əlbəttə, bu avtobuslar ən yüksək təhlükəsizlik normalarına uyğun olmalıdır. Bir halda ki, siz gecə reyslərinə başlamısınız, bu avtobusların keyfiyyəti, təhlükəsizliyi, sürücülərin hazırlığı, onların müayinədən keçmələri – bütün bunlar mütləq diqqət mərkəzində olmalıdır. Bu sahədə də təftiş aparılmalıdır, avtobusların neçə faizi standartlara tam cavab verir? Bu sahədə daha çox özəl şirkətlər fəaliyyət göstərir. Onlara da dəstək göstərilməlidir ki, bu istiqamətdə öz fəaliyyətlərini daha yüksək səviyyədə təmin edə bilsinlər.

Bir məsələ də yükdaşımaları ilə bağlıdır. Azərbaycandan xaricə gedən yüklərin həcmi artır və artacaqdır. Qeyri-neft sektorumuz artır – qeyri-neft ixracımız keçən il 14 faiz artıbdır. Ancaq bizim bir çox yüklərimizi xarici şirkətlər daşıyır. Bu da onunla bağlıdır ki, Azərbaycanda yükdaşımada istifadə edilən avtomaşınlar, tırlar yerli şirkətlər tərəfindən az təmin olunur. Ona görə bu məsələyə də diqqət yetirmək lazımdır. Birinci növbədə, təhlil aparılmalıdır və mənə məruzə edilməlidir ki, yükdaşımaların neçə faizi Azərbaycan şirkətləri tərəfindən icra edilir? Tır parkına baxış keçirilməlidir. Onların vəziyyəti nə yerdədir və onların sayı bizim artan istehsalımıza uyğundur, yoxsa yox? Əgər yeni tır maşınlarının alınmasında dövlət özəl şirkətlərə kömək edə bilərsə, biz buna hazırıq. Bu sahəyə də güzəştli kreditlər verilə bilər. Çünki bir halda ki, Azərbaycanın nəqliyyat sektoru yüksək templə inkişaf edir və beynəlxalq təşkilatlar bunu yüksək

qiymətləndirir, nəqliyyat sektorunda bütün komponentlər yüksək standartlara cavab verməlidir. Əlbəttə, hər bir ölkə istəyir ki, onun yükləri yerli şirkətlər tərəfindən daşınsın. Ona görə bu məsələ ilə bağlı sizə tapşırıram, təhlil aparın və məlumat verin.

Ötən ilin noyabr ayında Qazaxıstanda bu ölkə ilə Azərbaycan arasında yeni rabitə xəttinin çəkilməsinin təməlqoyma mərasimi keçirilmişdir. Bu da çox önəmli layihədir. Azərbaycan rabitə və yüksək texnologiyalar sahəsində böyük uğurlar əldə edib. Ənənəvi «BakuTel» sərgisi çox böyük diqqət cəlb edir. Bu il bu istiqamətdə hansı işlər görüləcəkdir, bu barədə məlumat verin.

**Ramin Quluzadə:** Bakı ilə Qazaxıstanı birləşdirən fiberoptik kanal gələcəkdə Avropanı və Asiyanı birləşdirən bir xətt olacaqdır. Bu da imkan yaradacaq ki, biz gələcəkdə Avropadan Çinə və digər ölkələrə interneti Azərbaycanın üzərindən ötürək. Gələcəkdə Azərbaycan və digər ölkələrdə internetə olan tələbatın ödənilməsi və keyfiyyətli internetdən istifadə üçün bu işlər görüləcəkdir. Eyni zamanda, qeyd etmək istəyirəm ki, hər il «BakuTel» sərgisinə maraq daha da artır. Siz də sərgiyə gələndə görürsünüz ki, həm yerli şirkətlərimizin, həm də startapların bu sahəyə marağı artır. Gələcəkdə də belə tədbirlərin keçirilməsi nəzərdə tutulur.

**İlham Əliyev:** Buna da çox diqqət yetirmək lazımdır. «BakuTel» artıq 20 ildən çoxdur keçirilir və regionda əsas sərgi və konfransdır. Bu sərgi və kon-

fransda, adətən, Beynəlxalq Telekommunikasiya İttifaqının rəhbəri də iştirak edir. Bu təşkilatın rəhbərləri mənimlə görüş əsnasında daim Azərbaycanda bu sahədə görülən işlərə yüksək qiymət verirlər. Bir halda ki, Azərbaycan artıq Avrasiyanın önəmli nəqliyyat mərkəzlərinin birinə çevrilib, ölkəmiz mütləq rabitə, internet və fiberoptik rabitə xətlərinin çəkilməsi istiqamətində də mərkəzə çevrilməlidir. Ona görə ötən ilin noyabrında Qazaxıstanda keçirilmiş təməlqoyma mərasimi xüsusi əhəmiyyət daşıyır. Əminəm ki, bu xəttin çəkilişi tezliklə təmin ediləcəkdir. Onun uzunluğu 400 kilometrdir. Eyni zamanda, Azərbaycanda internet istifadəçilərinin sayı getdikcə artır və artıq 80 faizə çatıbdır. Keyfiyyətli interneti təmin etmək üçün əlavə vəsait də nəzərdə tutulmalıdır.

Beləliklə, bu il bu sahədə görüləsi işlər çoxdur. Sevindirici hal ondan ibarətdir ki, artıq gözəl nəticələr əldə edilib və biz bundan sonra yalnız inkişaf yolu ilə gedəcəyik. Azərbaycan həm nəqliyyat, həm rabitə, həm də yüksək texnologiyalar sahəsində bundan sonra da regionda liderlik mövqelərini qorumalıdır və biz öz potensialımızı artırmalıyıq.

## DAVOS İQTİSADİ FORUMUNUN RƏSMİ SAYTINDA AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN DƏRC OLUNMUŞ «AZƏRBAYCANIN VAHİD VƏ DAYANIQLI DÜNYADA ROLU» SƏRLÖVHƏLİ MƏQALƏSİ

*15 yanvar 2020-ci il*

Dünya İqtisadi Forumu siyasətçiləri, biznes adamlarını və ictimai təşkilatları bir araya gətirən və dünyada baş verən iqtisadi proseslərin, dünyanın iqtisadi gündəliyinin, habelə ictimai-siyasi proseslərin müzakirə olunduğu ən böyük platformalardan biridir. Forum dünyada gedən iqtisadi meyillər haqqında dolğun məlumat əldə etməyə geniş imkan verir.

Mən 2007-ci ildən başlayaraq, artıq 14-cü dəfədir ki, Davosda bu Forumun illik toplantısında iştirak edəcəyəm. Dünya İqtisadi Forumu Azərbaycan reallıqlarını beynəlxalq ictimaiyyətə təqdim etmək üçün gözəl platforma olmaqla yanaşı, dünyada baş verən iqtisadi meyillər haqqında dolğun məlumat əldə etməyə imkan yaradır. Bu bizə islahatları davamlı şəkildə aparmağa, ölkəyə xarici investisiyaları cəlb etməyə imkan verir.

Bu islahatlar nəticəsində 2007-ci ilin əvvəli ilə müqayisədə 2019-cu ildə ölkə iqtisadiyyatının həcmi

80 faiz, o cümlədən qeyri-neft sektorunun həcmi 2,1 dəfə, strateji valyuta ehtiyatları 13 dəfə artıb, ölkədə yoxsulluq səviyyəsi 4 dəfədən çox, işsizlik səviyyəsi isə əhəmiyyətli dərəcədə azalaraq, 4,9 faizə çatıbdır. Bu dövrdə ölkəmiz 2 dəfə «Doing Business–2009» və «Doing Business–2019» hesabatlarında dünyanın lider islahatçı ölkəsi olaraq tanınıbdır.

2007-ci ildən keçən dövr ərzində ölkəmizə 111 milyard ABŞ dollarından çox xarici investisiya cəlb olunub ki, bu da iqtisadiyyatın bütün sahələrində irəliləyişləri təmin edibdir. Nəticə etibarilə, Davos İqtisadi Forumun açıqladığı «Qlobal Rəqabətlilik Hesabatı»nda Azərbaycanın mövqeyi 2006–2007-ci ildə 64-cü yerdə idisə, 2017–2018-ci ildə 137 ölkə arasında 35-ci yerə qədər yüksəlməklə, 2019-cu ildə əhalinin elektrik təchizatı səviyyəsi üzrə dünyada 2-ci, hökumət tənzimləməsinin yükü və əcnəbi işçilərin işə qəbulunun asanlığı üzrə 3-cü, hökumətin dəyişməyə cavabdehliyi üzrə 5-ci, biznesə başlama üçün tələb olunan günlərin sayı üzrə 8-ci, hökumətin uzunmüddətli strategiyası üzrə isə 10-cu yerdə qərarlaşıbdır.

## Strateji nəqliyyat qovşağı

2019-cu ildə həmin hesabatda Azərbaycan 141 ölkə arasında dəmir yolu xidmətlərinin səmərəliliyi üzrə 11-ci, hava yolları xidmətlərinin səmərəliliyi üzrə 12-ci, dəniz limanları xidmətlərinin səmərəliliyi üzrə 25-ci, yolların keyfiyyəti üzrə 27-ci yerdə qərar-

laşıbdır. Bəs bu necə olubdur? Ölkənin nəqliyyat və yol infrastrukturunun əhəmiyyətli inkişafı xarici və yerli investisiyaların cəlb olunması ilə mümkün olubdur. Lakin nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi təkcə kapital hesabına olmayıb, burada əməkdaşlıq da önəmli rol oynayıbdır. Forum çərçivəsində əməkdaşlıq Azərbaycanı Şimal–Cənub, Şərq–Qərb nəqliyyat dəhlizlərinin önəmli aktoruna, beynəlxalq nəqliyyat qovşağına çeviribdir. Ölkəmizin təşəbbüsü ilə Azərbaycan, Gürcüstan və Türkiyənin dəmir yollarını birləşdirən Bakı–Tbilisi–Qars dəmir yolu layihəsi reallaşaraq, 2017-ci ilin oktyabr ayından istifadəyə verilib. Bu, Asiya ilə Avropanı ən qısa yolla birləşdirən davamlı nəqliyyat dəhlizidir. Bundan başqa, Xəzərdə ən böyük liman olan Bakı Beynəlxalq Dəniz Ticarət Limanı tikilərək, 2018-ci ilin may ayında istifadəyə verilibdir.

Azərbaycan daim ekoloji tarazlığı qoruyub saxlamaqla, yəni ətraf mühiti qorumaqla, öz vətəndaşlarının sosial-iqtisadi inkişafına çalışır. Yerli və beynəlxalq daşımaların idarə olunmasının təkmilləşdirilməsi, o cümlədən təhlükəsizliyin yüksək səviyyədə təmin edilməsi məqsədilə «Ağıllı şəhər» konsepsiyasına start verilibdir. Bu konsepsiyanın məqsədi resursların istehlakı, israfı və ümumi xərcləri azaltmaqla enerji, nəqliyyat və kommunal xidmətlər kimi, şəhər xidmətlərinin keyfiyyətini artırmaqdır.

## Enerji sektorunda əsas iştirakçı

Azərbaycan enerji layihələrini də uğurla həyata keçirməyə davam edir. Avropaya qaz təchizatının şaxələndirilməsi istiqamətində Avropanın səylərinə dəstək verən Azərbaycan «Cənub Qaz Dəhlizi» layihəsinin reallaşmasına nail olubdur. Uzunluğu 3500 kilometr olan bu layihə Xəzər regionundan qaz təchizatını Avropa bazarlarına birləşdirməklə, bütün regionun enerji xəritəsini dəyişəcəkdir. Bu layihə Avropaya qazın nəqlinə alternativ kimi deyil, Avropaya qaz təchizatının şaxələndirilməsi məqsədilə həyata keçirilibdir. Ümumi kapital qoyuluşu 40 milyard ABŞ dolları olan bu layihə 4 hissədən ibarətdir.

### «Şahdəniz-2»

Layihənin birinci hissəsi – «Şahdəniz-2» fazası üzrə bütün işlər tamamlanıb. Şahdəniz qazı 2500 metr hündürlüyə qalxaraq və dəniz dibindən 800 metr dərinliyə enərək, 3500 kilometr məsafə boyunca nəql ediləcəkdir.

### «Cənubi Qafqaz» boru kəməri

Layihənin ikinci hissəsi – «Cənubi Qafqaz» boru kəməri artıq istismara verilib. Azərbaycanı Gürcüstandan keçərək, Türkiyə ilə birləşdirən bu kəmərin uzunluğu 691 kilometr təşkil edir.

## Trans–Anadolu boru kəməri

Layihənin üçüncü hissəsi – Trans–Anadolu boru kəməri (TANAP) «Cənubi Qafqaz» boru kəmərinin davamı olaraq, Türkiyə Respublikasının qərb sərhədinə qədər davam etməklə, uzunluğu 1850 kilometr təşkil edir. Azərbaycan qazını Türkiyəyə və Avropaya çatdıran Trans–Anadolu boru kəməri Türkiyə–Gürcüstan sərhədində «Cənubi Qafqaz» boru kəmərinə, Türkiyə–Yunanıstan sərhədində isə Trans–Adriatik boru kəmərinə (TAP) birləşibdir.

## Trans–Adriatik boru kəməri

Layihənin dördüncü hissəsi – Trans–Adriatik boru kəməridir (TAP). Boru kəmərinin uzunluğu 878 kilometrdir. Tikintisinin 90 faizdən çoxunun başa çatdığı bu layihə əsasında qaz kəməri Yunanıstandan Albaniyaya, oradan da Adriatik dənizinin altından keçməklə, İtaliyaya çatacaqdır. 2019-cu il noyabrın 30-da TANAP-ın TAP ilə birləşən hissəsinin açılışı mərasimi keçirilibdir.

2014-cü ildən başlayaraq, dünya bazarlarında neftin qiymətinin kəskin aşağı düşməsi ölkəmizdə iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafı istiqamətində aparılan islahatları daha da sürətləndirdi. 2016-cı ildə milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə «Strateji Yol Xəritələri»

qəbul edildi, struktur və kadr islahatları həyata keçirildi, ölkədə biznes mühitinin yaxşılaşdırılması üçün ciddi addımlar atıldı. Nəticədə Azərbaycan «Doing Business–2020» hesabatı üzrə dünyada 191 ölkə arasında 34-cü yerdə qərarlaşmaqla, kreditin əlçatanlığı üzrə 1-ci, biznesə başlama üzrə 9-cu, müqavilələrin icrası üzrə isə 28-ci yeri tutubdur.

Əlavə olaraq, Azərbaycanın Dünya İqtisadi Forumu ilə əməkdaşlığının davamı kimi, 2019-cu ildə Azərbaycan ilə Dünya İqtisadi Forumunun dördüncü Sənaye İnqilabı Mərkəzi arasında Əməkdaşlıq Razılaşması imzalanıbdır. Bu razılaşma dünyada baş verən müsbət trendlərin və qabaqcıl təcrübənin Azərbaycanın sosial-iqtisadi həyatına transformasiyasına imkan yaradacaqdır.

Dünya İqtisadi Forumu ilə fəal və səmərəli əlaqələri yüksək qiymətləndirən Azərbaycan Respublikası bu platformada əməkdaşlığın inkişaf etdirilməsi və daha da irəli aparılması üçün göstərilən səyləri dəstəkləməkdə bundan sonra da davam edəcəkdir.

## ŞƏHİDLƏR XİYABANINI ZİYARƏT

*20 yanvar 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva yanvarın 20-də – Ümumxalq Hüzn Günündə Şəhidlər xiyabanında 20 Yanvar şəhidlərinin əziz xatirəsini yad etmişlər.*

*Dövlət başçısı «Əbədi məşəl» abidəsinin önünə əklil qoydu.*

*Müdafiə Nazirliyinin əlahiddə nümunəvi hərbi orkestrinin ifasında Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.*

* * *

*Qanlı Yanvar hadisələrindən 30 il keçir. 1990-cı il yanvarın 20-si Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, eyni zamanda, xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olub, milli müstəqillik, azadlıq uğrunda mübarizəsinin və yenilməz iradəsinin rəmzinə çevrilibdir. Təpədən-dırnağadək silahlanmış keçmiş sovet ordusunun cəza tədbirlərinə məruz qalmış xalqımız azadlıq əzmini itirməmiş, əksinə, haqq səsini daha ucadan bəyan etmişdir. Doğma Vətəninin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları 30 il əvvəl həmin müdhiş gecədə canlarından keçərək, şəhidlik zirvəsinə*

*ucaldılar. Sovet qoşunlarının Azərbaycanda törətdiyi qanlı qırğından uzun illər keçməsinə baxmayaraq, xalqımız o dəhşətli günlərin ağrı-acısını unutmur, öz vətəndaşlarına divan tutan sovet imperiyasının ovaxtkı rəhbərlərinə və onların Azərbaycandakı əlaltılarına dərin nifrətini bildirir.*

*Keçmiş SSRİ rəhbərliyinin Azərbaycana qarşı qərəzli, ermənipərəst siyasətinə, əzəli torpaqlarımıza iddia edən Ermənistanın təcavüzkar siyasətinin açıq-aşkar dəstəklənməsinə və respublikanın ozamankı rəhbərliyinin xəyanətkar mövqeyinə etiraz əlaməti olaraq ayağa qalxmış geniş xalq kütlələrinin üzərinə sovet ordusunun iri hərbi birləşmələrinin yeridilməsi Azərbaycanda, xüsusilə Bakıda misli görünməmiş faciəyə gətirib çıxardı, böyük itkilərlə, günahsız insanların ölümü ilə nəticələndi. Buna baxmayaraq, Azərbaycanın ovaxtkı səriştəsiz, kölə psixologiyalı rəhbərlərinin yenə də xalqla bir olmağa cəsarəti çatmadı və onlar sovet rəhbərliyinin ətəyindən yapışmaqda davam etdilər.*

*Onlardan fərqli olaraq, o vaxt Moskvada yaşayan xalqımızın dahi oğlu Heydər Əliyev özünün və ailə üzvlərinin həyatının təhlükədə olmasına baxmayaraq, faciənin ertəsi günü Azərbaycanın daimi nümayəndəliyinə gəldi, Qanlı Yanvar qırğınını törədənləri pisləyən kəskin bəyanatla çıxış etdi, xalqımızın başına gətirilən müsibəti dünyaya çatdırdı. Bununla da ulu öndər cəsarətini, mərdliyini, xalqının sədaqətli oğlu olduğunu bir daha sübut etdi. Məhz ümummilli lider Heydər Əliyevin bu cəsarətli addımı sayəsində dünyanın*

*mütərəqqi qüvvələri də Azərbaycan xalqının məruz qaldığı bu dəhşətli və amansız terroru qətiyyətlə pislədi.*

*Əlbəttə, ermənilərin fitvası ilə törədilmiş bu cinayət Azərbaycan xalqının iradəsini qıra, azadlıq eşqini söndürə bilmədi. Xalqımız qanı bahasına da olsa, istəyinə – azadlıq və müstəqilliyinə qovuşdu və bu nailiyyəti heç vaxt əlindən verməyəcəkdir.*

*Keçmiş sovet hərb maşınının Azərbaycanda törətdiyi qanlı qırğın mahiyyətinə görə dövlətin öz vətəndaşlarına qarşı tarixdə misli görünməmiş təcavüzü, qətliamı, SSRİ və Azərbaycan SSR konstitusiyalarının kobudcasına pozulması, ayaqlar altına atılması idi. Həmin gün keçmiş SSRİ dövləti dinc əhalinin üstünə qoşun yeritməklə, BMT Nizamnaməsinə, beynəlxalq hüquq normalarına məhəl qoymamış, iştirakçısı olduğu Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktın bir sıra müddəalarını cinayətkarcasına pozmuşdu.*

*Vaxtında dərindən araşdırılmayan və lazımi qiymətini almayan faciəyə yalnız xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışından sonra məhz ulu öndərin təşəbbüsü ilə dövlət səviyyəsində siyasi-hüquqi qiymət verildi. Azərbaycan Respublikası Prezidentinin «20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında» 1994-cü il 5 yanvar tarixli Fərmanında Azərbaycan Respublikasının Milli Məclisinə Qanlı Yanvar hadisələri ilə bağlı xüsusi sessiyanın keçirilməsi məsələsinə baxmaq tövsiyə edildi. Milli Məclisin 1994-cü il martın 29-da qəbul etdiyi Qərarda 20 Yanvar faciəsinin günahkarları konkret*

*qeyd olundu və bu qanlı aksiya Azərbaycanda milli azadlıq hərəkatını boğmaq, xalqın inamını, iradəsini qırmaq üçün totalitar kommunist rejimi tərəfindən törədilmiş hərbi təcavüz və cinayət kimi qiymətləndirildi. 20 Yanvar Ümumxalq Hüzn Günü elan edildi.*

*Azərbaycan xalqı hər il 20 Yanvar şəhidlərinin xatirəsini dərin ehtiramla yad edir. Faciənin 30-cu ildönümü ilə əlaqədar Azərbaycanda və dünyanın müxtəlif ölkələrində silsilə anım mərasimləri, sərgilər, konfranslar keçirilir, bu qanlı qırğın, eləcə də Azərbaycan xalqının müstəqillik əzminin sarsılmazlığı bütün dünyaya çatdırılır. Azərbaycan Prezidenti İlham Əliyev 2019-cu il dekabrın 13-də «20 Yanvar faciəsinin 30-cu ildönümü haqqında» Sərəncam imzalayıb. 20 Yanvar faciəsinin Azərbaycan xalqının müstəqillik mübarizəsində yeri və rolunun xüsusi vurğulandığı həmin sərəncamda deyilir: «1990-cı ilin 20 yanvarında Azərbaycan xalqı öz azadlığı və müstəqilliyi uğrunda çox sayda şəhid verdi. Lakin onun iradəsi sınmadı və milli ruhu sarsılmadı. Həmin qırğın zamanı ümummilli mənafelərin müdafiəsi naminə canlarından keçmiş və şəhidlik zirvəsinə ucalmış Vətən övladları misilsiz fədakarlıqları ilə xalqımızın qəhrəmanlıq salnaməsinə yeni parlaq səhifə yazdılar».*

*Vətənin azadlığı uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi daim əziz tutulduğu kimi, onların ailə üzvləri, doğmaları da hər zaman dövlət qayğısı ilə əhatə olunublar. Eləcə də 20 Yanvar hadisələrində*

*sağlamlığını itirən əlillərin sosial müdafiəsi, pensiya təminatı həmişə dövlət başçısının diqqətindədir. 20 Yanvar şəhidlərinin ailə üzvləri və əlillərin sosial müdafiəsinin təmin olunması istiqamətində mütəmadi tədbirlər həyata keçirilir. Şəhid ailələrinin pensiya təminatı, mənzil şəraitinin yaxşılaşdırılması, yaşayış səviyyəsinin yüksəldilməsi ilə bağlı mükəmməl qanunvericilik bazası yaradılıb. Dövlət başçısı bu istiqamətdə sərəncamlar və fərmanlar verib. Bundan başqa, əlillərin reabilitasiyası üçün respublikada yeni sağlamlıq mərkəzləri inşa olunub. Ötən il əlil və şəhid ailələrinə yeni mənzillər verilib ki, onların arasında 20 Yanvar əlilləri və şəhidlərinin ailələri də vardır. 20 Yanvar faciəsində şəhid olan şəxslərin ailələrinə Prezident təqaüdü verilir. Şəhid ailələrinin, əlillərin sosial təminatı ildən-ilə daha da yaxşılaşdırılır.*

*Yanvarın 20-də – Ümumxalq Hüzn Günündə dövlət və hökumət rəsmiləri, respublikamızdakı dini icmaların başçıları, xarici ölkələrin Azərbaycandakı səfirləri, beynəlxalq təşkilatların nümayəndələri də şəhidlərin əziz xatirəsini yad etdilər.*

*Şəhidlər xiyabanının ziyarət olunması mərasimində Baş Nazir Əli Əsədov, Milli Məclisin Sədri Oqtay Əsədov və Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev iştirak etdilər.*

## DÜNYA İQTİSADİ FORUMU ÇƏRÇİVƏSİNDƏ RUSİYANIN «ROSSİYA-24» TELEVİZİYA KANALINA MÜSAHİBƏ

*20 yanvar 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 20-də Davosda Dünya İqtisadi Forumu çərçivəsində Rusiyanın «Rossiya-24» televiziya kanalına müsahibə vermişdir. «Rossiya-1» və «Rossiya-24» kanalları dövlət başçımızın müsahibəsini yayımlamışdır.*

**M ü x b i r:** «OPEC+» bu gün neftin ədalətli qiymətini müəyyənləşdirməyə kömək edən çoxtərəfli əməkdaşlığın uğurlu formatıdır. Neft bazarının iştirakçıları arasındakı sövdələşmə öz səmərəsini göstərdi. Onu uzatmaq gərəkdir. Bu fikirləri kanalımıza müsahibədə Davos Forumunun kuluarlarında Azərbaycan Prezidenti İlham Əliyev söyləyibdir.

**S u a l: Yaxın Şərqdə müşahidə olunan gərginlik nəzərə alınmaqla, bu il neftin qiymətinin hansı dinamikasını gözləmək olar?**

**C a v a b:** Proqnoz vermək çətindir. Düşünürəm ki, qiymətlərin bugünkü səviyyəsi həm istehsalçıları, həm də istehlakçıları qane edir. Azərbaycana gəldikdə, bu il bizim büdcəmizdə neftin 1 barrelinin qiyməti 55 dol-

lar nəzərdə tutulub. Lakin indi qiymət xeyli yüksəkdir. Buna görə də düşünürəm ki, əgər hər hansı fors-major vəziyyət yaranmasa, qiymət 55–65 dollar diapazonunda qalacaqdır. Üstəlik, «OPEC+» formatı çox səmərəlidir və Azərbaycan bu formatın işində fəal iştirak edir. Biz öz üzərimizə götürdüyümüz öhdəliklərlə əlaqədar, hasilatı azaldırıq və mahiyyət etibarilə bu gün OPEC-ə daxil olmayan ölkələr də özlərini OPEC üzvləri kimi aparırlar. Buna görə də «OPEC+» çoxtərəfli əməkdaşlığın olduqca uğurlu formatıdır və bizim fikrimizcə, mahiyyət etibarilə, bu gün neftin qiymətinin ədalətli olduğunu müəyyənləşdiribdir.

**S u a l: Sizin fikrinizcə, «OPEC+» Sazişinin müddətini uzatmaq lazımdırmı?**

**C a v a b:** Əlbəttə, bu məsələ ən yaxın vaxtlarda müzakirə ediləcək. Lakin hesab edirəm ki, konkret nəticələri gördüyümüzü nəzərə alaraq, bunun müddətinin uzadılması məqsədəuyğundur. Çünki müddət uzadılmasa, bazarın necə reaksiya verəcəyini bilmirik, yenidən müxtəlif spekulyativ meyillər yarana bilər. Buna görə hesab edirəm ki, müddətin uzadılmasının əhəmiyyəti vardır.

**S u a l: Sizcə, bu gün dünyada çoxqütblülük əlamətləri varmı?**

**C a v a b:** Şübhəsiz, bu gün dünya məhz çoxqütblü dünya kimi inkişaf edir. Bir neçə güc mərkəzi vardır. Əlbəttə, bizi narahat edən məsələlər var – regionumuzda gərginliyin artması kimi. Lakin biz müsbət dinamikanı da görürük, əvvəllər sıx qarşılıqlı fəaliyyəti

olmayan ölkələr bu gün, demək olar ki, müttəfiqlər kimi hərəkət edir və regional sabitliyə böyük töhfə verirlər. Buna görə də çoxqütblü dünya artıq reallıqdır. Düşünürəm ki, bu meyillər getdikcə daha da möhkəmlənəcəkdir. Bu, müsbət haldır, çünki dünyada sabitliyə zəmanətdir.

**S u a l: Hər halda, dünyada ölkələrdən birinin daha çox birqütblü dünyaya meyil etməsi əlaməti yoxdurmu?**

**C a v a b:** Bilirsiniz, iri ölkələrin həmişə öz hüdudlarından kənarda maraqları olur və hər ölkə özü üçün daha yaxşı şəraitə nail olmaq, öz təsir dairəsini genişləndirmək istəyir. Burada təzə heç nə yoxdur. Biz bunu əsrlərboyu müşahidə edirik, sadəcə, müxtəlif intensivlik dərəcəsi ilə. Buna görə məsələ bunda deyil, bugünkü dünya nizamının konstruksiyası, o cümlədən beynəlxalq münasibətlərin konstruksiyası çoxqütblülüyü nəzərdə tutur. BMT Təhlükəsizlik Şurasının daimi üzvlərinin tərkibinə baxsaq, bu, artıq dünyanın çoxqütblülüyünün əksidir. Daimi üzvlərdən birinin razılığı olmadan heç bir qərar qəbul edilə bilməz. Buna görə də düşünürəm ki, ölkələr özləri üçün birqütblülüyü təmin etməyə çalışmamalı, əksinə, hamı üçün sərfəli olan əməkdaşlıq elementləri tapmalıdır.

**S u a l: Azərbaycan Belarus Respublikasını neftlə təchiz edəcəkmi?**

**C a v a b:** Bilmirəm. Bu sual mənə deyil, yəqin ki, Neft Şirkətinə aiddir. Bir neçə il bundan əvvəl biz Belarusu neftlə təchiz edirdik. Sonradan Belarus tərəfi-

nin təşəbbüsü ilə bu proses dayandırıldı. Əgər yenidən belə ehtiyac yaransa, Azərbaycan Dövlət Neft Şirkəti bu məsələni nəzərdən keçirəcək. Bu gün «SOCAR Traiding» şirkəti ən iri treydinq şirkətlərindən biridir və onun satdığı neftin çox hissəsi Azərbaycanda hasil edilməyən neftdir. Buna görə sırf texniki baxımdan Azərbaycan şirkəti nefti istənilən yerə tədarük edə bilər. Lakin qiymət məsələsi, logistika məsələsi, kontrakt öhdəlikləri ilə bağlı məsələ – bütün bunlar müvafiq şirkətlər arasında müzakirə edilməlidir.

**M ü x b i r:** Çox sağ olun, cənab Prezident.

**İ l h a m Ə l i y e v:** Sağ olun.

## İSVEÇRƏ KONFEDERASİYASINA İŞGÜZAR SƏFƏR

*Davos*

*20 yanvar 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 20-də Dünya İqtisadi Forumunun illik toplantısında iştirak etmək üçün İsveçrə Konfederasiyasına işgüzar səfərə gəlmişdir.*

## «VTB BANK»IN PREZİDENTİ – İDARƏ HEYƏTİNİN SƏDRİ ANDREY KOSTİN İLƏ GÖRÜŞ

*Davos*

*20 yanvar 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 20-də Davosda «VTB Bank»ın prezidenti – İdarə Heyətinin sədri Andrey Kostin ilə görüşmüşdür.*

*Görüşdə «VTB Bank»ın Azərbaycanda uzun müddət uğurlu fəaliyyət göstərdiyi qeyd olundu. Bildirildi ki, Azərbaycan Dövlət Neft Fondu ilə «VTB Bank» arasında səmərəli əməkdaşlıq davam edir. Prezident İlham Əliyev «VTB Bank»ın Azərbaycan iqtisadiyyatının real sektoruna kredit qoyuluşunun artırılmasını təklif etdi.*

*Andrey Kostin təklifə müsbət yanaşdığını bildirdi və dövlət başçımızı əmin etdi ki, «VTB Bank» bu istiqamətdə fəaliyyətini daha da genişləndirəcəkdir.*

*Söhbət zamanı Azərbaycanla Rusiya arasında bütün sahələrdə olduğu kimi, iqtisadi-ticari sahədə də əlaqələrin uğurla inkişaf etdiyi bildirildi. Ticarət dövriyyəsinin artan istiqamətdə davam etməsinin və daha da sürətləndirilməsinin vacibliyi qeyd olundu.*

*Görüşdə əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparıldı.*

## «CARLYLE GROUP» ŞİRKƏTİNİN HƏMTƏSİSÇİSİ DEVİD RUBENŞTEYN İLƏ GÖRÜŞ

*Davos*

*20 yanvar 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 20-də Davosda «Carlyle Group» şirkətinin həmtəsisçisi Devid Rubenşteyn ilə görüşmüşdür.*

*«Carlyle Group» şirkətinin həmtəsisçisi Devid Rubenşteyn rəhbərlik etdiyi qurumla Azərbaycan Dövlət Neft Fondu arasında əməkdaşlığı yüksək qiymətləndirdi və bu əməkdaşlığın gələcək istiqamətləri barədə dövlət başçımıza məlumat verdi.*

*Prezident İlham Əliyev Azərbaycan iqtisadiyyatının inkişaf etdiyini, ötən il ölkəmizdə qeyri-neft sənayesinin 14 faiz, kənd təsərrüfatının isə 7 faiz artdığını bildirdi.*

*Söhbət zamanı Azərbaycanda əlverişli investisiya mühitinin yaradıldığı qeyd edildi. Ölkəmizlə vəsaitlərin idarə olunması sahəsində dünyanın aparıcı şirkətlərindən biri olan «Carlyle Group» arasında əməkdaşlığın inkişafı üçün geniş imkanların olduğu vurğulandı.*

## CİSCO ŞİRKƏTİNİN İCRAÇI VİTSE-PREZİDENTİ VƏ BAŞ MALİYYƏ DİREKTORU KELLİ KRAMER İLƏ GÖRÜŞ

*Davos*

*20 yanvar 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 20-də Davosda Cisco şirkətinin icraçı vitse-prezidenti və baş maliyyə direktoru xanım Kelli Kramer ilə görüşmüşdür.*

*Görüşdə Cisco şirkəti ilə Azərbaycanın uzun müddətdir müxtəlif sahələrdə əməkdaşlıq etdiyi bildirildi. Qeyd olundu ki, Cisco şirkəti hazırda Azərbaycanda prioritet istiqamətlər üzrə layihələr reallaşdırmaqdadır. Bu layihələrin bir çoxunun ilkin mərhələləri artıq həyata keçirilibdir.*

*Prezident İlham Əliyev Cisco şirkətinin Azərbaycan üçün önəmli tərəfdaş olduğunu qeyd etdi. Dövlət başçımız bildirdi ki, bu şirkət üçün Azərbaycanda çox böyük biznes potensialı mövcuddur.*

*Cisco şirkətinin icraçı vitse-prezidenti Kelli Kramer Azərbaycanda gedən inkişaf proseslərini yüksək qiymətləndirdi və şirkətlə ölkəmiz arasında uğurlu təcrübə mübadiləsinin aparıldığını bildirdi. Xanım Kelli Kramer qeyd etdi ki, Azərbaycan Cisco şirkəti üçün regionda ən önəmli ölkədir.*

**TASS-ın BAŞ DİREKTORUNUN BİRİNCİ MÜAVİNİ CƏNAB MİXAİL QUSMANA**

Hörmətli Mixail Solomonoviç!

70 illik yubileyiniz münasibətilə Sizə səmimi təbriklərimi və ən xoş arzularımı qəbul edin.

Geniş dünyagörüşünüz, işgüzar və şəxsi keyfiyyətləriniz Sizə haqlı olaraq nüfuz və hörmət qazandırıb. Dəyişməz müəllifi və aparıcısı olduğunuz «Hakimiyyət formulu» layihəsi Sizin xüsusi yaradıcı yanaşmanız, zəngin təcrübəniz və yüksək peşəkarlığınız sayəsində bütün dünyada tamaşaçı auditoriyasında çox populyardır.

Azərbaycanda Sizi sevir və xüsusi dəyərləndirirlər. Siz uzun müddətdir ki, Azərbaycan–Rusiya mədəni əlaqələrinin genişləndirilməsinə böyük töhfə verir, bununla da Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dostluq münasibətlərinin inkişafına və möhkəmlənməsinə kömək edirsiniz.

Hörmətli Mixail Solomonoviç, bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, yeni yaradıcılıq uğurları diləyir, ən xoş arzularımı bildirirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 yanvar 2020-ci il*

## «CARLSBERG GROUP» ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU KEEST HART İLƏ GÖRÜŞ

*Davos*

*21 yanvar 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda «Carlsberg Group» şirkətinin baş icraçı direktoru Keest Hart ilə görüşmüşdür.*

*Prezident İlham Əliyev ölkəmizdə son illərdə aparılan islahatların artıq müsbət nəticələr verdiyini, bunun xüsusilə şəffaflığın və hesabatlılığın artırılması hesabına vergi və gömrük orqanlarının topladığı büdcə gəlirlərində özünü göstərdiyini qeyd etdi. Dövlət başçımız ölkəmizdə investisiya və biznes mühitinin daha da əlverişli olması istiqamətində islahatların davam etdiriləcəyini, xarici və yerli investorlar üçün vergi, gömrük və digər sahələrdə proqnozlaşdırıla bilən siyasətin həyata keçiriləcəyini vurğuladı.*

*Görüşə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirən «Carlsberg Group» şirkətinin baş icraçı direktoru Keest Hart dövlətimizin başçısı tərəfindən son illərdə aparılan uğurlu islahatlardan, Azərbaycandakı əlverişli biznes və investisiya şəraitindən*

*məmnunluğunu ifadə etdi, bu tədbirlərin biznes və rəqabət mühitinin sağlamlaşdırılması, həmçinin şəffaflığın artırılması üçün geniş imkanlar yaratdığını vurğuladı. Baş icraçı direktor «Carlsberg Group» olaraq, xarici investor kimi, bu islahatlara hər zaman dəstək verdiklərini və bu dəstəyin bundan sonra da davam etdiriləcəyini bildirdi. Keest Hart bu imkanlardan faydalanaraq, Azərbaycana investisiya qoyuluşunu artırmaq niyyətində olduqlarını qeyd etdi. O həmçinin aidiyyəti hökumət qurumları ilə şəffaflığın, hesabatlılığın və mühasibatlılığın daha da yüksək səviyyəyə qalxması üçün əməkdaşlıq etdiklərini söylədi.*

*Söhbət zamanı bildirildi ki, bu ildən başlayaraq, «Carlsberg Group» şirkəti kənd təsərrüfatı sektoruna da investisiya qoyuluşunu həyata keçirəcək və bu istiqamətdə artıq pilot layihələrin icrasına başlanılıbdır.*

## «SİGNİFY» ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU ERİK RONDOLAT İLƏ GÖRÜŞ

*Davos*

*21 yanvar 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda «Signify» şirkətinin baş icraçı direktoru Erik Rondolat ilə görüşmüşdür.*

*Son vaxtlar Azərbaycanda aparılan islahatlardan məmnunluğunu bildirən Erik Rondolat ilk növbədə, ölkəmizdə həyata keçirdikləri layihələr barədə dövlət başçısına məlumat verdi. Qeyd etdi ki, aparılan islahatlar Azərbaycanda biznes və investisiya mühitinin yaxşılaşması, ölkəmizdə yeni layihələrin həyata keçirilməsi üçün gözəl zəmin yaradır. «Signify» şirkətinin işıqlandırma sahəsində dünya liderlərindən biri olduğunu vurğulayan baş icraçı direktor rəhbərlik etdiyi qurumun ölkəmizə yeni texnologiyaların gətirilməsi baxımından Azərbaycana hər cür dəstək verməyə hazır olduğunu qeyd etdi. Bildirildi ki, şirkət iqtisadiyyat, o cümlədən kənd təsərrüfatı sahəsində, həmçinin «Ağıllı şəhər» layihələrində və internet texnologiyaları ilə işıqlandırma sistemlərinin inteqrasiyası istiqamətində müxtəlif həll variantları*

*təklif edir. Baş icraçı direktor eyni zamanda, istər kənd təsərrüfatı sahəsində, istərsə də digər sahələrdə işıqlandırma vasitəsilə yeni həll variantlarına investisiya yatırılması imkanlarını Azərbaycanın aidiyyəti qurumları ilə müzakirə etməkdə maraqlı olduqlarını, müvafiq sahədə yeni texnologiyaların ölkəmizə gətirilməsini təmin edə biləcəklərini vurğuladı.*

*Görüşdən məmnunluğunu bildirən Prezident İlham Əliyev Bakı şəhərinin işıqlandırılması üzrə hazırda icra edilən layihənin sürətləndirilməsinin vacibliyini bildirdi. Dövlət başçısı eyni zamanda, növbəti mərhələlərdə Sumqayıtda və Azərbaycanın digər böyük şəhərlərində işıqlandırmanın keyfiyyətinin artırılması, elektrik enerjisinə əhəmiyyətli qənaəti təmin edən yeni həll variantlarının tətbiqi, həmçinin kənd təsərrüfatının müxtəlif sahələrində işıqlandırma sistemləri vasitəsilə müasir texnologiyaların gətirilməsinin aidiyyəti dövlət qurumları ilə müzakirə olunması barədə müvafiq tapşırıqlarını verdi.*

## TÜRKİYƏ RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ MÖVLUD ÇAVUŞOĞLU İLƏ GÖRÜŞ

*Davos*

*21 yanvar 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda Türkiyə Respublikasının Xarici İşlər naziri Mövlud Çavuşoğlu ilə görüşmüşdür.*

*Görüşdə ikitərəfli dostluq və qardaşlıq münasibətlərinin uğurlu inkişafından məmnunluq ifadə olundu, əlaqələrimizin bütün sahələrdə genişləndiyi vurğulandı.*

*Söhbət zamanı Azərbaycan və Türkiyə prezidentləri arasında yüksək səviyyəli görüşlərin münasibətlərimizin möhkəmləndirilməsində rolu qeyd edildi. Azərbaycan ilə Türkiyənin birgə həyata keçirdiyi qlobal əhəmiyyətli layihələrin önəmi vurğulandı.*

## DÜNYA İQTİSADİ FORUMUNUN PREZİDENTİ BORGE BRENDE İLƏ GÖRÜŞ

*Davos*

*21 yanvar 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda Dünya İqtisadi Forumunun prezidenti Borge Brende ilə görüşmüşdür.*

*Dünya İqtisadi Forumunun prezidenti Borge Brende Forumun 50 illik yubileyi münasibətilə tədbirin nüfuzlu qonaqları üçün çox məhdud sayda – cəmi 200 ədəd hazırlanmış şokolad dəstini dövlət başçısına hədiyyə etdi.*

*Görüşdə Azərbaycan ilə Davos Forumu arasında münasibətlərin tarixi və onun əhəmiyyəti haqqında fikir mübadiləsi aparıldı. Ölkəmizin regionda iqtisadiyyat, nəqliyyat, infrastruktur sahələrində oynadığı rolun vacibliyi vurğulandı. Azərbaycan Prezidenti İlham Əliyev ilə Dünya İqtisadi Forumunun prezidenti Borge Brende arasında ötən il imzalanmış Memorandumun davamı kimi, bu gün imzalanacaq Niyyət Protokolunun əhəmiyyəti qeyd edildi. Sənədə əsasən, Forumun ölkəmizdə regional mərkəzi yaradılacaqdır.*

*Söhbət zamanı vurğulandı ki, belə mərkəzlər çox məhdud sayda ölkələrdə yaradılır və onların əsas məqsədi dördüncü sənaye inqilabının səbəb olduğu çağırış və imkanların həyata keçirilməsidir.*

*Sonra Dünya İqtisadi Forumun ölkəmizdə regional mərkəzinin yaradılması ilə bağlı Niyyət Protokolu imzalandı.*

*Sənədi Prezident İlham Əliyev və Forumun prezidenti Borge Brende imzaladılar.*

**Borge Brende:** Təşəkkür edirəm.

**İlham Əliyev:** Çox sağ olun. Bu bizim əlaqələrimizin yeni səhifəsi üçün yaxşı başlanğıcdır.

**Borge Brende:** Biz həmçinin bilirik ki, siz qarşıya hədəf qoyanda onu həyata keçirirsiniz. Düşünürəm ki, Azərbaycan dördüncü sənaye inqilabına ən yaxşı hazır olan ölkələrdən biri olacaqdır.

**İlham Əliyev:** Biz çox fəxr edirik ki, Davos Forumu ilə bu mühüm sənədi imzalayan ilk ölkələr sırasındayıq. Bu həqiqətən də bizim əlaqələrimizdə yeni səhifədir. Ümidvaram ki, gələcək keçmiş qədər uğurlu olacaqdır.

**Borge Brende:** Təbrik edirəm. Bütün dəstəyinizə görə təşəkkür edirəm.

## XORVATİYA RESPUBLİKASININ BAŞ NAZİRİ ANDREY PLENKOVİÇ İLƏ GÖRÜŞ

*Davos*

*21 yanvar 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda Xorvatiya Respublikasının Baş Naziri Andrey Plenkoviç ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Xorvatiya arasında imzalanan strateji tərəfdaşlıq sənədinə uyğun olaraq, münasibətlərin səviyyəsindən məmnunluq ifadə edildi.*

*Söhbət zamanı ölkələrimiz arasında enerji, nəqliyyat, informasiya-kommunikasiya texnologiyaları və digər sahələrdə əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.*

## AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKININ PREZİDENTİ SUMA ÇAKRABARTİ İLƏ GÖRÜŞ

*Davos*

*21 yanvar 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Suma Çakrabarti ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycanda mövcud investisiya mühitinin son dövrlərdə daha da yaxşılaşdığı məmnunluqla vurğulandı, vergi və gömrük sahələrində aparılan uğurlu islahatlar, inzibatçılığın asanlaşması, «ASAN xidmət»in və DOST agentliyinin fəaliyyəti, dövlət tərəfindən göstərilən xidmətlərin rəqəmsallaşdırılması prosesi xüsusi qeyd edildi.*

*Söhbət zamanı Avropa Yenidənqurma və İnkişaf Bankının ölkəmizdə həyata keçirilən layihələri və prioritet sahələrin müəyyənləşdirilməsi barədə fikir mübadiləsi aparıldı. Bankın Azərbaycanda mövcud əlverişli investisiya mühitindən yararlanaraq, fəaliyyətini daha da genişləndirmək üçün böyük imkanlarının olduğu bildirildi.*

## RUSİYANIN LUKOYL ŞİRKƏTİNİN PREZİDENTİ VAHİD ƏLƏKBƏROV İLƏ GÖRÜŞ

*Davos*

*21 yanvar 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda Rusiyanın LUKoyl şirkətinin prezidenti Vahid Ələkbərov ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycanın «Naxçıvan», «Qoşadaş» yataqlarının LUKoyl şirkəti ilə birgə işlənilməsi məsələsi müzakirə olundu və bu barədə qərar qəbul edildi.*

*Söhbət zamanı perspektiv strukturlar və SOCAR – LUKoyl əməkdaşlığı ətrafında fikir mübadiləsi aparıldı.*

## DÜNYA İQTİSADİ FORUMU ÇƏRÇİVƏSİNDƏ «AVRASİYA ÜÇÜN YENİ BAXIŞ–DAYANIQLI İNKİŞAF ÜÇÜN TƏRƏFDAŞLIQ» MÖVZUSUNDA KEÇİRİLMİŞ İCLASDA İŞTİRAK

*Davos*

*21 yanvar 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda Dünya İqtisadi Forumu çərçivəsində «Avrasiya üçün yeni baxış – dayanıqlı inkişaf üçün tərəfdaşlıq» mövzusunda keçirilmiş iclasda iştirak etmişdir.*

*İclasda Avrasiyada ölkələrarası əməkdaşlıq məsələsi müzakirə olundu. Həmçinin ticarət, energetika, nəqliyyat sahələrində əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı, dördüncü sənaye inqilabının region üçün əhəmiyyəti vurğulandı.*

*İclasda Monqolustan Prezidenti Xaltmaaqiyn Battulqa, Gürcüstanın Baş Naziri Giorgi Qaxaria, Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu, Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Suma Çakrabarti və digər nüfuzlu qonaqlar iştirak etdilər.*

## PAKİSTAN İSLAM RESPUBLİKASININ BAŞ NAZİRİ İMRAN XAN İLƏ GÖRÜŞ

*Davos*

*21 yanvar 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda Pakistan İslam Respublikasının Baş Naziri İmran Xan ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Pakistan arasında ikitərəfli əməkdaşlıq məsələləri müzakirə edildi.*

*Baş Nazir İmran Xan bildirdi ki, Pakistan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində ölkəmizin haqlı mövqeyini dəstəkləyir və işğalçı Ermənistanla heç vaxt diplomatik münasibətlər qurmayıbdır.*

*Azərbaycanda turizmin sürətlə inkişaf etdiyini, xüsusilə müsəlman ölkələrindən gələn ziyarətçilərin sayında böyük artımın müşahidə edildiyini deyən İmran Xan ölkəmizin bu sahədəki təcrübəsindən yararlanmaq niyyətində olduqlarını bildirdi.*

*Prezident İlham Əliyev Kəşmir məsələsində Azərbaycanın Pakistana daim dəstək verdiyini qeyd etdi, həmçinin ölkəmizin «Qoşulmama Hərəkatı» çərçivəsində Pakistanı dəstəklədiyini vurğuladı.*

## NEFT İXRAC EDƏN ÖLKƏLƏR TƏŞKİLATININ (OPEC) BAŞ KATİBİ MƏHƏMMƏD BARKİNDO İLƏ GÖRÜŞ

*Davos*

*21 yanvar 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda Neft İxrac Edən Ölkələr Təşkilatının (OPEC) baş katibi Məhəmməd Barkindo ilə görüşmüşdür.*

**Məhəmməd Barkindo**: Cənab Prezident, xatırlayırsınızsa, 5 il bundan əvvəl bu Dünya İqtisadi Forumunda Siz OPEC-ə üzv olan və üzv olmayan bütün neft ixrac edən ölkələrin bir araya gəlməsi və birlikdə çalışması ilə bağlı çağırış edən dünya liderlərindən birincisi olmuşdunuz. Belə bir təşəbbüslə əvvəllər heç kim çıxış etməmişdi. Siz uzaqgörənsiniz, çox qətiyyətlisiniz. Bizim hamımızın bir araya gəlməmiz və birlikdə çalışmağımız üçün buradakı qlobal platformadan istifadə edərək, çağırış etdiniz. Çünki Sizin də dediyiniz kimi, biz hamımız eyni vəziyyətdə idik. Çünki hamımız eyni nefti istehsal edirdik və onu eyni bazarlara satırdıq. O zaman bazarda qiymətlər 80 faizdən çox aşağı düşmüşdü.

**İlham Əliyev**: Bəli, neftin qiyməti 30 dollar ətrafında idi.

**Məhəmməd Barkindo**: Biz ən pis vəziyyətin şahidi idik. Cənab Prezident, Sizin uzaqgörən rəhbərliyiniz, çağırışınız nəticəsində biz işləməyə başladıq və 2016-cı il dekabrın 10-da, daha dəqiq, 12 ay müddətində Əməkdaşlıq Bəyannaməsini 24 ölkə ilə imzaladıq.

**İlham Əliyev:** Tamamilə doğrudur.

**Məhəmməd Barkindo:** Bu, tarixdə ilk dəfə idi baş verirdi. Sizin rəhbərliyiniz, Sizin baxışınız sayəsində biz bunu etdik. Biz bunu heç vaxt unutmayacağıq, cənab Prezident. Bu bizim üçün çox önəmlidir. Sizin də qeyd etdiyiniz kimi, ötən 5 ildə biz Azərbaycanla çox sıx işləmişik və Azərbaycan qəbul edilmiş bütün qərarlara sadiq qalıbdır.

**İlham Əliyev:** Xoş sözlərinizə görə təşəkkür edirəm. Bunu xatırlatdığınız üçün sizə minnətdaram. Həmin gün burada – Davosda mənə bu məsələ ilə bağlı nə etmək lazım olduğu barədə sual verildi və mən bu təklifi irəli sürdüm. Bu təklifi ciddi nəzərə aldığına görə OPEC-ə minnətdaram və biz həqiqətən, çox nadir tərəfdaşlıq formatını yaratdıq. Hesab edirəm ki, bu formata malik olan, lakin təkcə format yox, eyni zamanda, qərarları səmərəli icra edən başqa belə bir beynəlxalq təşkilat yoxdur. Bəzən hətta bir təşkilat daxilində razılığa gəlmək mümkün olmur. Lakin OPEC-ə üzv olan və üzv olmayan ölkələr, böyük və kiçik neft istehsalçıları birləşdilər. Çünki bu bizim

ümumi məqsədimiz idi. Lakin, əlbəttə ki, sizin rəhbərliyiniz olmasaydı, bizim səylərimiz nəticəsiz qalardı, çünki Siz təşkilatın rəhbəri olaraq, nəinki bütün prosesləri əlaqələndirdiniz, həm də prosesə rəhbərlik etdiniz. Düşünürəm və əminəm ki, uğurun səbəblərindən biri də bütün ölkələrin sizə böyük etimad göstərməsi idi. Bu çox mühüm amil idi. Beləliklə, bizdə bütün mühüm elementlərin birləşməsi var idi. Təşkilat tərəfindən güclü rəhbərlik, həmçinin təşkilata üzv olan və üzv olmayan dövlətlərin arasında çox ciddi əməkdaşlıq var idi. Mən bilirəm, hətta bəzi üzv ölkələr arasında hasilatın müəyyən dərəcədə azalmasına nail olmaq asan deyildi. Əlbəttə ki, çox səmərəli monitorinq prosesi, həmçinin etimad məsələsi var idi.

Mən düşünürəm ki, bu prosesin bütün üzvləri hazırda sözlərinə əməl etməyə çalışırlar. Çünki etimadı qorumaq lazımdır. Həmçinin mən OPEC+ formatında görüşlərin birinin Bakıda keçirilməsi ilə bağlı təşəbbüsə görə sizə minnətdarlığımı bildirmək istəyirəm. Mən sizi dəvət etdim və siz bu dəvəti qəbul etdiniz. Biz əməkdaşlığımızın gücləndirilməsini səbirsizliklə gözləyirik. Azərbaycan artıq OPEC üzvü kimi, özünü göstərir. Əminəm ki, bu belə də davam edəcəkdir.

## «SUEZ GROUP»UN YENİ BAŞ İCRAÇI DİREKTORU BERTRAN KAMÜ İLƏ GÖRÜŞ

*Davos*

*22 yanvar 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda «SUEZ Group»un yeni baş icraçı direktoru Bertran Kamü ilə görüşmüşdür.*

*Görüşə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirən Bertran Kamü rəhbərlik etdiyi şirkətin hazırda Azərbaycanda həyata keçirdiyi layihələr, bu layihələrin gedişi, həmçinin perspektiv proqramlar barədə məlumat verdi.*

*Rəhbərlik etdiyi qurumun fəaliyyəti barədə danışan baş icraçı direktor «SUEZ Group»un kimya məhsullarının istehsalı, məişət tullantılarının yığılması və emalı istiqamətində, habelə irriqasiya və meliorasiya sahəsində gələcək fəaliyyət proqramlarını Prezident İlham Əliyevə təqdim etdi.*

*Görüşdən məmnunluğunu ifadə edən Prezident İlham Əliyev bildirdi ki, SUEZ şirkətinin Azərbaycanın aidiyyəti qurumları ilə fəaliyyəti barədə məlumatlıdır və əldə edilmiş nəticələr də qənaətbəxşdir.*

*Kimya məhsullarının istehsalı, məişət tullantılarının yığılması və emalı, habelə meliorasiya sahəsində qabaqcıl texnologiyaların tətbiqi istiqamətində SUEZ ilə əməkdaşlıq məsələləri barədə fikir mübadiləsi aparıldı.*

# POLŞA RESPUBLİKASININ PREZİDENTİ ANDJEY DUDA İLƏ GÖRÜŞ

*Davos*

*22 yanvar 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda Polşa Respublikasının Prezidenti Andjey Duda ilə görüşmüşdür.*

*Görüşdə ölkələrimiz arasında əlaqələrin inkişafı məsələləri müzakirə olundu, neft-qaz sektorunda əməkdaşlıq imkanlarının araşdırılması, həmçinin regionda və dünyada mövcud geosiyasi vəziyyət haqqında fikir mübadiləsi aparıldı.*

*Söhbət zamanı bu ilin iyun ayında Tallində keçiriləcək «Üç Dəniz» Təşəbbüsündə Azərbaycanın da iştirak etməsinin əhəmiyyəti vurğulandı, Vışeqrad Qrupu və «Qoşulmama Hərəkatı» çərçivəsində əməkdaşlığın daha da dərinləşdirilməsi məsələləri müzakirə olundu.*

## MONQOLUSTAN PREZİDENTİ XALTMAAQİYN BATTULQA İLƏ GÖRÜŞ

*Davos*

*22 yanvar 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda Monqolustan Prezidenti Xaltmaaqiyn Battulqa ilə görüşmüşdür.*

*Azərbaycan ilə Monqolustan arasında əlaqələrin daha da dərinləşdirilməsi barədə fikir mübadiləsi aparıldı. Kənd təsərrüfatı sahəsində, xüsusilə heyvandarlıq sektorunda geniş əməkdaşlıq imkanlarının olduğu bildirildi, mis və qızıl mədənləri sənayesi sektorunda investisiya imkanları müzakirə edildi.*

*Söhbət zamanı hazırda monqolustanlı tələbələrin Azərbaycanın universitetlərində təhsil aldıqları da qeyd olundu.*

## *bp* ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU ROBERT DADLİ İLƏ GÖRÜŞ

*Davos*

*22 yanvar 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda bp şirkətinin baş icraçı direktoru Robert Dadli ilə görüşmüşdür.*

*Görüşdə TANAP layihəsinin artıq istifadəyə verildiyi, TAP-ın isə bu ilin axırınadək hazır olacağı qeyd edildi.*

*Söhbət zamanı «Azəri–Çıraq–Günəşli» neft yataqları blokunun işlənilməsinin növbəti mərhələsi üzrə yeni layihəyə dair müzakirələr aparıldı. Prezident İlham Əliyev bunun çox mühüm layihə olduğunu bildirdi.*

*Dövlət başçısı bu ilin fevralında Bakıda «Cənub Qaz Dəhlizi» Məşvərət Şurasının nazirlər səviyyəsində görüşünün keçiriləcəyini qeyd etdi.*

*Robert Dadli bp-nin öz fəaliyyətində ətraf mühitin qorunmasına daha böyük əhəmiyyət verəcəyini söylədi.*

## DÜNYA İQTİSADİ FORUMU ÇƏRÇİVƏSİNDƏ «STRATEJİ BAXIŞ: AVRASİYA» MÖVZUSUNDA KEÇİRİLMİŞ PANEL İCLASDA İŞTİRAK

*Davos*

*22 yanvar 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davos Dünya İqtisadi Forumu çərçivəsində «Strateji baxış: Avrasiya» mövzusunda keçirilmiş panel iclasında iştirak etmişdir.*

*Dövlət başçımız panel iclasın moderatorunun suallarını cavablandırdı.*

**S u a l : Cənab Prezident, Avrasiyada indi böyük qüvvələr yerləşib, bir tərəfdən Rusiya, o biri tərəfdən Çin. Azərbaycanın Prezidenti kimi, Siz birinci növbədə, kimə zəng edərsiniz – Moskvaya, yoxsa Pekinə?**

**C a v a b :** Bakıya.

**S u al: Bakıya..?**

**C a v a b:** Bəli, bizim qonşularımıza münasibətdə siyasətimiz mehribandır, lakin eyni zamanda, milli maraqlarımız həmişə birinci yerdədir. Müstəqillik illəri ərzində əldə etdiyimiz bütün nailiyyətlər xalqımızın müstəqilliyimizə sadiq olmasına, siyasi və iqtisadi

sahələrdə çox ciddi islahatları həyata keçirdiyimizə görə əldə olunubdur. Bizim nailiyyətlər Davos Dünya İqtisadi Forumunun illik qiymətləndirmələrində də öz əksini tapır. İnfrastruktur sahəsi çox yüksək səviyyədə inkişaf edib. Yolların inşası və keyfiyyətinə gəldikdə, biz dünyada 27-ci yerdə qərarlaşmışıq.

**M o d e r a t o r:** Çox gözəl. Hökuməti yeniləməyinizi müşahidə etmək mənim üçün maraqlı idi. Siz gənc texnokratları sıralarınıza cəlb etmisiniz.

**İ l h a m Ə l i y e v:** Bəli, tamamilə doğrudur, hökumət dəyişdi. Hökumətə yaxşı təhsil almış, müasir baxışlı yeni insanlar dəvət olundu. Çünki dəfələrlə ictimaiyyətə açıqlamalarımda dediyim kimi, XXI əsrdə XX əsrin baxışı ilə uğur qazanmaq olmaz. Buna görə də yeni insanlar nəinki hökumətə, eyni zamanda, çox böyük dəyişikliklərə məruz qalmış Prezident Administrasiyasına da gətirildi. Gələn ay bizdə erkən parlament seçkiləri keçiriləcək. Bu seçkilərin məqsədi insanlara etimad göstərdikləri namizədləri seçmək üçün imkan verməkdir. Əminəm ki, seçkilərdən sonra parlament də islahatların davamının mühüm hissəsi olacaqdır.

**S u a l: Həyatlarının yaxşılaşdırılmasını istəyən azərbaycanlılar üçün Siz yeni hökumətin onlara nələr verəcəyinə ümid edirsiniz, onlar növbəti bir və ya iki ildə hansı fərqləri müşahidə edəcəklər?**

**C a v a b:** Əvvəllər biz əsasən infrastruktur layihələrinə sərmayə yatırmışıq. Yenə də Davos Forumuna əsasən, Azərbaycan bu gün elektrik enerjisinə çıxış imkanına görə 2-ci yerdədir. Azərbaycanda qazlaşdırılma səviyyəsi 96 faiz təşkil edir. Biz 16000 kilometr yol, 3000-dən çox məktəb və 700 xəstəxana inşa etmişik. Lakin bunlar dövlət sərmayəsinin bir hissəsi idi. İndi bizə nə lazımdır? Bizdən

yaxşı idarəçilikdə, şəffaflıqda, hesabatlılıqda, həyat və yaşayış standartları ilə bağlı meyarların Avropa İttifaqının standartlarına daha da yaxınlaşması üçün yeni yanaşma tələb olunur. Hesab edirəm ki, bu mümkündür. Buna nail olmaq olar, çünki bizim güclü siyasi dəstəyimiz vardır. Yenə də mən Azərbaycan hökumətinin strateji baxışını 10-cu yerə, hökumətin sabitlik təmin etmək bacarığını isə dünyada 11-ci yerə layiq görən Davos Forumunun qiymətləndirməsinə toxunmaq istəyirəm.

Beləliklə, yeni hökumət əsas diqqətini artan əhalidən ibarət olan böyük çağırış üzərinə yönəldəcəkdir. Buna görə də bizim iqtisadi artımımız əhalinin artımına uyğun gəlməlidir. Müstəqillik illərində əhalimizin sayı 7 milyondan 10 milyona qədər artıb. Beləliklə, əhaliyə əlavə infrastruktur, əlavə ərzaq təminatı tələb olunur. Bizim əhalimiz hər il 100 mindən çox artır. Bu isə o deməkdir ki, bizə ən azından ildə 100 min iş yeri lazımdır. Bu, asan deyil. Buna görə də hökumət bu məsələ ilə məşğul olacaq. Biz yoxsulluğu bugünkü səviyyədə – 5 faizdən aşağı səviyyədə saxlamağa çalışacağıq. Həmçinin bizim birbaşa xarici borcun azaldılması ilə bağlı uzunmüddətli strategiyamız vardır. Bu gün bu borc çox aşağıdır, ümumi daxili məhsulun 17 faizini təşkil edir. Lakin bizim hədəfimiz onu ümumi daxili məhsulun 10 faizinə qədər endirməkdir. Əlbəttə, inflyasiyanın keçən il olduğu kimi, 2,5 faiz səviyyəsində saxlanılması məsələsi üzərində də işləyəcəyik. İnsanların gəliri həmişə inflyasiyanı üstələməlidir, habelə iş yerlərinin yaradılması da demoqrafik artımdan daha çox olmalıdır.

**S u a l: Mən oxumuşam ki, indi Mərkəzi Asiya əhalisinin üçdəbir hissəsinin yaşı 15-dən aşağıdır. Yəni əhalinin üçdəbir hissəsinin 15 yaşı tamam olmayıb.**

**Dünyanın digər hər bir qitəsində gənclərə nəzər salsaq, biz onları küçələrdə görmüş olarıq, onlar öz səslərinin daha çox eşidilməsini tələb edirlər, onlar daha çox səsə malik olduqlarına öyrəşiblər. Siz də indi qeyd etdiniz ki, ölkənizdə gənclərin sayı çoxdur. Bəs onlar küçəyə çıxsa və daha çox səs tələb etsə, Siz onlara nə deyərdiniz?**

**C a v a b:** Biz onların nə istədiklərini dinləyərdik. Lakin fakt ondan ibarətdir ki, Azərbaycan gəncləri küçələrdə deyil, gənclər universitetlərdə, məktəblərdədir, gənclər «startap» biznesindədir, gənclər hökumət məsələlərinə fəal cəlb olunublar. Biz çox nəhəng könüllülər hərəkatına başlamışıq və on minlərlə insan ictimai xidmətlər sektorunda könüllülər qismində təlimlərdə iştirak edir. Sonra da biz yaxşı nəticələr göstərənləri hökumət təşkilatlarına işə götürürük. Səmimi danışsaq, dünyanın müxtəlif yerlərində gənclərin küçələrdə olması onları nəyinsə qane etmədiyinə görə baş verir. Onları həyat qane etmir, onların hökumətə olan etimadı itib. Hökumət hakimiyyətə gəlmək üçün populist şüarlardan istifadə edir, lakin sonra vəd etdiklərini yerinə yetirə bilmir. Əslində onlar yalan danışıblar. Bunun əsas səbəbi isə siyasətçilərin məsuliyyətsizliyidir. Çünki biz təkcə Avropada yox, bir çox ölkələrdə müşahidə edirik ki, hökumət hakimiyyətə gəlir və dərhal hökumətin rəhbəri təzyiq altına düşür. İnsanlar onu seçir, lakin 1 ildən sonra ona göstərilən etimadı o itirir. Çünki yerinə yetirilməsi mümkün olmayan vədlər verilmişdir. Azərbaycanda biz həmişə sözümüzə əməl edirik. Biz heç vaxt yerinə yetirə bilməyəcəyimiz məsələləri dilimizə gətirmirik və insanlarımızın həyat standartları ildən-ilə daha da yaxşılaşır.

**S u a l: Təşəkkür edirəm, cənab Prezident Əliyev. Siz necə düşünürsünüz, Azərbaycandakı gənclər bu baxışı,**

**regional təşkilatın bir hissəsi olmaq və həmin regional təşkilata suverenliyi həvalə etmək istəyini bölüşürlərmi? Azərbaycanda bu ideya yerli səviyyədə dəstəklənirmi?**

**C a v a b:** Xeyr, mən belə düşünmürəm. Düşünürəm ki, Azərbaycanın, o cümlədən gənc nəslin əsas ideyası və ideologiyası suverenlik, müstəqillik və öz ehtiyatlarımıza güvənməkdir. Prezident olaraq, mənim hədəflərimdən biri Azərbaycanı özü-özünü təmin edən, heç kimdən asılı olmayan ölkəyə çevirmək idi. Başqa sözlə, iqtisadi müstəqillik əsas prioritet idi, çünki bu, siyasi müstəqillik üçün bünövrədir. Sözsüz ki, müxtəlif ölkələrin müxtəlif gündəmləri vardır. Bəzi ölkələrin iqtisadiyyatları digərlərininkindən daha həssasdır. Azərbaycana gəldikdə, bir daha qeyd edirəm ki, bizim coğrafi mövqeyimiz çox əlverişlidir. Bundan əlavə, biz müasir infrastrukturun yaradılmasına çoxlu investisiya yatırmışıq. İkincisi, qeyd etdiyiniz kimi, bizim nəsil çox gəncdir. Bizim əlavə və çox kreativ əmək ehtiyatlarımız vardır. Əlbəttə, biz təbii ehtiyatlarla – neft və qazla zənginik, bu da bizim üçün enerji təhlükəsizliyi yaradır. Ona görə də bizim qonşu ölkələr və çox sayda tərəfdaşlarımızla münasibətlərimiz qarşılıqlı maraqlara əsaslanır. Bundan əlavə, biz bu və ya digər beynəlxalq qurumda təmsilçiliyimizlə bağlı hər bir məsələyə praqmatik yanaşırıq. Bu bizə nə verəcək? Əgər bu bizə daha çox iqtisadi stimul, biznes üçün daha çox imkan, daha çox sabitlik və daha çox təhlükəsizlik verəcəksə, əlbəttə ki, biz bunu nəzərə alırıq.

Biz bir sıra beynəlxalq institutların üzvüyük. Onlardan biri «Qoşulmama Hərəkatı»dır.

**S u a l: Sizin region üçün ən parlaq ümidiniz və ən pis kabusunuz nədir?**

**C a v a b:** Düşünürəm ki, xüsusən regional vəziyyəti və yeni yaranmaqda olan münaqişə zonalarını nəzərə alaraq, hazırda ən vacib olan məsələ regional sabitlikdir. Ölkədə bizim daxili risklərimiz yoxdur, istər siyasi risklər olsun, istər iqtisadi. Ölkə sabitdir, inkişaf davamlıdır. Bizim həyata keçirilməkdə olan və xalqımız üçün böyük imkanlar yaradan çox geniş islahatlar gündəliyimiz vardır. Ən böyük narahatlıq və əsas potensial kabus sərhədlərimizin xaricində gərginliyin artması olardı. Bunun üçün biz məsuliyyət daşımırıq. Təəssüf ki, biz bu prosesə tam olaraq təsir edə bilmərik. Məsuliyyəti bu kövrək sabitliyin daha da sarsılmaması üçün öz aralarında müəyyən məsələlərlə bağlı razılığa gəlməli olan super qüvvələr, super güclər daşıyacaqdır.

**S u a l: Paneldə regionu yaxşı tanımayanlar üçün. Baş qaldırmasından daha çox narahat olduğunuz gərginliklər hansılardır?**

**C a v a b:** Bilirsiniz, biz bu gərginlikləri sərhədlərimizin yaxınlığında görürük. Biz Əfqanıstanda gərginlikləri görürük, biz orada həll edilməmiş vəziyyəti görürük. Biz özümüz Ermənistan tərəfindən işğala məruz qalmışıq və bu, daimi təhdid mənbəyidir. Ərazilərimizin, demək olar ki, 20 faizi beynəlxalq hüquq normaları və BMT Təhlükəsizlik Şurasının qətnamə-

lərinə zidd olaraq, Ermənistanın işğalı altındadır. Biz ABŞ–İran münasibətlərində gərginliyin kəskinləşməsinin şahidi oluruq. Regionda artıq baş qaldırmaqda olan bir çox qaynar nöqtələr potensial təhdidlərdir. Ona görə də biz sərhədlərimizin xaricində təhlükəsizliyin və müəyyənliyin olmasında çox maraqlıyıq. Çünki hətta Azərbaycandan kənarda olan iqtisadi çətinliklər bizim iqtisadi və sosial vəziyyətimizə təsir edə bilər. Buna görə də düşünürəm ki, regionda sabitliklə bağlı vəziyyət bizi narahat edən əsas məsələdir və belə deyə bilərəmsə, regionda qeyri-sabitlik əsas kabusdur.

**Moderator:** Təşəkkür edirəm, cənab Prezident.

* * *

*Panel iclasında Monqolustan Prezidenti Xaltmaaqiyn Battulqa, «Astana» Beynəlxalq Maliyyə Mərkəzinin rəhbəri Kayrat Kelimbetov, «VTB Bank»ın prezidenti–İdarə Heyətinin sədri Andrey Kostin, BMT-nin Cenevrədəki ofisinin baş direktoru Tatyana Valovaya iştirak etdilər.*

## GÜRCÜSTANIN BAŞ NAZİRİ GİORGİ QAXARİA İLƏ GÖRÜŞ

*Davos*

*22 yanvar 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda Gürcüstanın Baş Naziri Giorgi Qaxaria ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Gürcüstan arasında dostluq münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi qeyd olundu. Ölkələrimizin iştirakı ilə qlobal və regional enerji və nəqliyyat layihələrinin həyata keçirilməsinin önəmi vurğulandı. Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin əhəmiyyətinə toxunuldu. Bildirildi ki, yanvarın 21-də Davosda Dünya İqtisadi Forumu çərçivəsində «Avrasiya üçün yeni baxış – dayanıqlı inkişaf üçün tərəfdaşlıq» mövzusunda keçirilmiş iclasda bu layihənin önəmi qeyd edilib və onun yeni əməkdaşlıq formatının yaradılmasında xüsusi rolu vurğulanıbdır.*

*Söhbət zamanı ölkələrimiz arasında əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparıldı.*

## İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ SİMONETTA SOMMARUQA İLƏ GÖRÜŞ

*Davos*

*22 yanvar 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda İsveçrə Konfederasiyasının Prezidenti xanım Simonetta Sommaruqa ilə görüşmüşdür.*

*Görüşdə ikitərəfli əlaqələr müzakirə olundu, BMT Təhlükəsizlik Şurasına sədrliyi dövründə Azərbaycanın təcrübəsi barədə fikir mübadiləsi aparıldı, ölkəmizin Avropanın enerji təhlükəsizliyində və ümumilikdə regionun təhlükəsizliyindəki rolu vurğulandı. Azərbaycan ilə İsveçrə arasında iqtisadi əlaqələrə toxunuldu, bu münasibətlərin inkişafından məmnunluq ifadə olundu.*

*Söhbət zamanı Azərbaycanda bərpa olunan enerji sahəsində əməkdaşlıq məsələsi müzakirə edildi. Prezident İlham Əliyev ölkəmizdə reallaşdırılan bərpa olunan enerji layihələri barədə məlumat verdi. Gələcəkdə turizm, nəqliyyat, kənd təsərrüfatı sahələrində də bərpa olunan enerjidən istifadənin mümkünlüyü bildirildi. Vurğulandı ki, alternativ enerjinin Azərbaycanda böyük potensialı vardır.*

## «SVİSS RE» ŞİRKƏTİNİN İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏR ÜZRƏ SƏDRİ VERONİKA SKOTTİ İLƏ GÖRÜŞ

*Davos*

*23 yanvar 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Davosda «Sviss Re» şirkətinin ictimaiyyətlə əlaqələr üzrə sədri Veronika Skotti ilə görüşmüşdür.*

*Görüşə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirən «Sviss Re» şirkətinin ictimaiyyətlə əlaqələr üzrə sədri Veronika Skotti dövlətimizin başçısı tərəfindən son illərdə aparılan islahatlar nəticəsində Azərbaycanda sığorta sahəsinin inkişafı və təkmilləşdirilməsi üçün yaxşı imkanların yarandığını bildirdi. Qeyd etdi ki, «Sviss Re» şirkəti Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlarda iştirak etməyə, Azərbaycanda sığorta bazarının daha da inkişafına töhfə verməyə hazırdır.*

*«Sviss Re»nin əsasən fövqəladə hallarda yaranan sığorta hadisələri və onların təkrar sığortası üzrə dünyanın ixtisaslaşmış lider şirkətlərindən biri olduğunu söyləyən Veronika Skotti təmsil etdiyi qurumun müx-*

*təlif ölkələrdə həyata keçirdiyi layihələr barədə məlumat verdi.*

*Dövlət başçımız ölkəmizdə sığorta bazarının, xüsusilə daşınmaz əmlak sahəsində sığorta sisteminin səmərəli təşkilinin və inkişafının vacib olduğunu vurğuladı.*

*Görüşdə bu sahədə beynəlxalq təcrübənin Azərbaycanda tətbiqini sürətləndirəcək xarici investorlarla, o cümlədən «Sviss Re» şirkəti ilə əməkdaşlıq barədə fikir mübadiləsi aparıldı.*

## «PROCTER AND GAMBLE EUROPE» ŞİRKƏTİNİN PREZİDENTİ LOİK TASSEL İLƏ GÖRÜŞ

*Davos*

*23 yanvar 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Davosda «Procter and Gamble Europe» şirkətinin prezidenti Loik Tassel ilə görüşmüşdür.*

*Loik Tassel görüşə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi. O, son illərdə Azərbaycanda həyata keçirilən islahatları, xüsusilə biznes sahəsində mühasibatlılığın və şəffaflığın artırılması, vergi və gömrük sahələrində islahatların ümumi rəqabət mühitinə verdiyi müsbət töhfəni yüksək qiymətləndirdi. Bildirildi ki, bu, «Procter and Gamble Europe» şirkətinin ölkəmizdəki fəaliyyətinin inkişafı üçün çox önəmli amildir. Azərbaycanın bugünkü biznes mühitinin bütün xarici investorların öz fəaliyyətlərini genişləndirmələri üçün çox əlverişli imkan yaratdığını diqqətə çatdıran Loik Tassel rəhbəri olduğu şirkətin ölkəmizdəki biznes və sosial fəaliyyəti barədə danışdı.*

*Prezident İlham Əliyev gələcəkdə də Azərbaycanda xarici investorlar üçün biznes mühitinin daha da yaxşılaşdırılması istiqamətində tədbirlərin görüləcəyini vurğuladı.*

*Söhbət zamanı bildirildi ki, «Procter and Gamble Europe» şirkəti fəaliyyətini Orta Asiya və Uzaq Şərqə doğru genişləndirmək niyyətindədir və regional mərkəz olaraq, məhz Bakı şəhəri seçilibdir. Vurğulandı ki, Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlar və Azərbaycanda yaradılmış biznes mühiti şirkətin ölkəmizdəki ofisi vasitəsilə şərqə doğru genişlənməsinə əlverişli imkan yaradacaqdır.*

## «EQUİNOR» ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU ELDAR SAETRE İLƏ GÖRÜŞ

*Davos*

*24 yanvar 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 24-də Davosda «Equinor» şirkətinin baş icraçı direktoru Eldar Saetre ilə görüşmüşdür.*

*Görüşdə «Qarabağ» yatağı layihəsi müzakirə olundu. «Equinor» şirkətinin 1994-cü ildən Azərbaycanda olduğunu bildirən dövlət başçımız ölkəmizdə onun fəaliyyətinə çox böyük əhəmiyyət verildiyini qeyd etdi.*

*Söhbət zamanı alternativ enerji mənbələri üzrə layihələr barədə də fikir mübadiləsi aparıldı.*

## İSVEÇRƏNİN MONTRÖ ŞƏHƏRİNİN MERİ, AZƏRBAYCAN–İSVEÇRƏ DOSTLUQ QRUPUNUN HƏMSƏDRİ LORAN VERLİ İLƏ GÖRÜŞ

*Davos*

*24 yanvar 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 24-də Davosda İsveçrənin Montrö şəhərinin meri, Azərbaycan–İsveçrə Dostluq Qrupunun həmsədri Loran Verli ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə İsveçrə arasında ikitərəfli əlaqələrin yüksələn xətlə inkişaf etdiyi bildirildi. 2 ay əvvəl İsveçrə parlamentində Azərbaycan ilə dostluq qrupunun həmsədri təyin olunduğunu deyən Loran Verli bu qrupa rəhbərlik etməkdən məmnunluğunu bildirdi. O, fəaliyyəti dövründə Azərbaycan ilə İsveçrə, o cümlədən iki ölkənin qanunverici orqanları arasında əlaqələrin daha da sürətlə inkişaf etməsi üçün səylərini əsirgəməyəcəyini diqqətə çatdırdı.*

*Söhbət zamanı Azərbaycan ilə İsveçrənin şəhərləri arasında əməkdaşlıq münasibətlərinin qurulması ilə bağlı fikir mübadiləsi aparıldı, bir müddət əvvəl Montrö şəhəri ilə Bakının Səbail rayonunun qardaşlaşdığı bildirildi.*

*Görüşdə Azərbaycan şirkətlərinin İsveçrədə aktiv fəaliyyəti qeyd edildi və iki ölkənin şirkətləri arasında münasibətlərin daha da genişləndirilməsinin əhəmiyyəti vurğulandı.*

**TÜRKİYƏ RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA**

Hörmətli cənab Prezident!

Əziz qardaşım!

Elazığda baş vermiş güclü zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər məni son dərəcə sarsıtdı.

Bu ağır məqamda hər cür yardım göstərməyə hazır olduğumuzu bildirir, Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 yanvar 2020-ci il*

**AVSTRALİYA İTTİFAQININ**
**GENERAL-QUBERNATORU**
**ZATİ-ALİLƏRİ CƏNAB**
**DEVİD CON HÖRLİYƏ**

Hörmətli cənab General-qubernator!

Avstraliya Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan Respublikası ilə Avstraliya İttifaqı arasındakı dostluq əlaqələrinin və əməkdaşlığın inkişafı bundan sonra da xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Avstraliya xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *25 yanvar 2020-ci il*

## ATƏT PARLAMENT ASSAMBLEYASININ PREZİDENTİ GEORGİ TSERETELİ İLƏ GÖRÜŞ

*30 yanvar 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da ATƏT Parlament Assambleyasının prezidenti Georgi Tseretelini qəbul etmişdir.*

*Görüşdə Azərbaycanda qarşıdan gələn növbədənkənar parlament seçkiləri mövzusuna toxunuldu, seçkilərin Azərbaycanın ictimai-siyasi həyatında mühüm hadisə olduğu bildirildi, bu seçkilərdə xeyli sayda namizədlərin qeydə alınmasının, müşahidəçilərin fəal iştirakının önəmi vurğulandı, bu proseslər Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən genişmiqyaslı islahatların tərkib hissəsi kimi dəyərləndirildi.*

*Dövlət başçısı İlham Əliyev qeyd etdi ki, Azərbaycan rəhbərliyi seçki prosesinin ədalətli, şəffaf, Azərbaycan qanunvericiliyinə və beynəlxalq standartlara uyğun şəkildə keçirilməsi üçün lazımi şəraitin yaradılması istiqamətində bütün tədbirləri həyata keçiribdir.*

**ŞRİ-LANKA DEMOKRATİK SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB QOTABAYA RACAPAKSAYA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı Azərbaycan xalqı adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Şri-Lanka arasındakı ikitərəfli dostluq əlaqələri, xüsusən də «Qoşulmama Hərəkatı» çərçivəsində əməkdaşlığımız bundan sonra da uğurla davam edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Şri-Lanka xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *31 yanvar 2020-ci il*

**ÇİN XALQ RESPUBLİKASININ
SƏDRİ ZATİ-ALİLƏRİ
CƏNAB Sİ CİNPİNƏ**

Hörmətli cənab Sədr!

Ölkənizdə yeni növ koronavirusun baş qaldırması nəticəsində vəfat edənlərlə bağlı xəbərlər məni olduqca kədərləndirdi.

Epidemiyanın yayılmaması və insan tələfatının qarşısının alınması istiqamətində Çin hökumətinin atdığı addımları, Çin xalqının nümayiş etdirdiyi əzmi yüksək qiymətləndirirəm. İnanıram ki, Sizin rəhbərliyiniz altında Çin Xalq Respublikası bu bəlanın öhdəsindən layiqincə gələcək.

Əmin ola bilərsiniz ki, bu müvəqqəti çətin günlərdə də Azərbaycan xalqı dost Çin xalqı ilə həmrəydir və biz hər cür yardım göstərməyə hazırıq.

Xəstəliyə düçar olaraq vəfat edənlərin ailələrinə şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, virusa yoluxanların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *1 fevral 2020-ci il*

## AZƏRBAYCAN MƏDƏNİYYƏTİNİN İNKİŞAFINDA BÖYÜK XİDMƏTLƏR GÖSTƏRMİŞ POLAD BÜLBÜLOĞLU İLƏ GÖRÜŞ

*3 fevral 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 3-də Azərbaycan mədəniyyətinin inkişafında böyük xidmətləri və uzunmüddətli səmərəli ictimai-siyasi fəaliyyəti olan Polad Bülbüloğlu ilə görüşmüş, ona «Heydər Əliyev» ordenini təqdim etmişdir.*

**İ l h a m Ə l i y e v:** Hörmətli Polad müəllim, mən sizi qarşıdan gələn yubileyiniz münasibətilə təbrik etmək istəyirəm. Sizə baxanda adam heç deyə bilməz ki, 75 yaşına çatmısınız. Həmişə cavan, həmişə gümrah, enerjili fəaliyyət göstərirsiniz. Siz böyük sənətkar, böyük bəstəkar, böyük ifaçısınız. Siz Azərbaycan mədəniyyətinin inkişafına böyük töhfə vermisiniz. Deyə bilərəm ki, Azərbaycan musiqi mədəniyyətində özünəməxsus və təkrarolunmaz iz buraxmısınız. Nəinki Azərbaycan miqyasında, hesab edirəm ki, dünya miqyasında siz ən görkəmli bəstəkarlardan birisiniz. Bunun əyani sübutu odur ki, sizin mahnılarınız yaşayır. Baxmayaraq ki, mahnıların bəziləri 40 il, 50 il bundan əvvəl yazılıb, amma bu mahnılar bu gün də sevilir. Yəni onlar ölməz mahnılardır, Azər-

baycan musiqi fondunun dəyərli nümunələridir. Bildiyiniz kimi, mən də həmişə sizin istedadınızın pərəstişkarı olmuşam və bu gün də böyük məmnuniyyətlə sizin ifanızda o ölməz mahnıları dinləyirəm. Siz nadir musiqiçilərdənsiniz ki, ancaq özünüz bəstələdiyiniz mahnıları ifa edirsiniz. Bu mahnıları heç kim sizin kimi belə ürəklə, məharətlə ifa edə bilməz. Təsadüfi deyil ki, sovet dövründə siz ümumittifaq məhəbbəti qazanmısınız. Siz Sovet İttifaqının hər bir yerində böyük coşqu ilə, böyük məhəbbətlə qarşılanırdınız və sovet estrada məkanında aparıcı ulduzlardan biri idiniz.

Bu gün müstəqil Azərbaycan mədəniyyətinin inkişafına böyük töhfə verirsiniz. Siz böyük Bülbülün ailəsində dünyaya göz açmısınız. Ailə tərbiyəsi, Azərbaycan dəyərləri üzərində verilən tərbiyə, əlbəttə, sizə çox güclü təsir göstərmişdir. Sizdə milli ruh, milli ləyaqət və çox güclü mətanət hissi vardır. Mən sizi yaxından tanıyan insan kimi, bunu tam məsuliyyətlə deyə bilərəm. Siz ömürboyu sənətdə, həyatda və siyasətdə atanızın adına layiq fəaliyyət göstərmisiniz. Siz fəaliyyətə başlayan gündən Polad Bülbüloğlu kimi özünüzü təqdim etmisiniz, bu da böyük məsuliyyətdir. Çünki siz bu adla o böyük ailə məsuliyyətini, böyük, dahi Bülbülün fəaliyyətini öz fəaliyyətiniz vasitəsilə davam etdirirsiniz. Bu doğrudan da böyük məsuliyyətdir və bu şərəfli missiyada siz böyük uğurlar əldə etmisiniz.

Eyni zamanda, dövlət xidmətində böyük nailiyyətləriniz olub, bu gün də vardır. Siz uzun illər Azər-

baycanın Mədəniyyət naziri kimi, ən ağır illərdə böyük işlər görmüsünüz. Allaha şükür, indi Azərbaycan inkişaf edən ölkədir, maliyyə imkanlarımız da çoxdur. Amma siz Mədəniyyət Nazirliyinə rəhbərlik etdiyiniz dövrdə bizim maliyyə imkanlarımız yox idi. Əlbəttə, ölkə qarşısında o qədər böyük məsələlər dayanmışdı ki, bəzi hallarda mədəniyyətə vəsait çatmırdı. Siz bizim uzun illər ərzində əldə etdiyimiz nailiyyətləri qoruya və inkişaf etdirə bilmisiniz.

Siz uzun illərdir ki, Azərbaycanı dünyanın supergüclərindən biri olan Rusiyada ləyaqətlə təmsil edirsiniz. Bilirəm ki, Azərbaycanın maraqları sizin üçün hər şeydən üstündür. Bu illər ərzində görüşlər əsnasında bir daha əmin oldum ki, çox düzgün qərar qəbul olunub və siz Rusiyada Azərbaycanın səfiri kimi, çox böyük uğurlar əldə etmisiniz. Rusiya–Azərbaycan əlaqələrinin inkişafında sizin böyük rolunuz vardır.

Yaxşı bilirsiniz ki, ulu öndər Heydər Əliyev həmişə sizə, sizin fəaliyyətinizə böyük diqqət göstərirdi. Zərifə xanım da həmişə sizə diqqət göstərirdi. Siz bizim evimizdə dəfələrlə olmusunuz və biz bir-birimizi 40 ildən çoxdur ki, tanıyırıq. Siz bizim üçün – valideynlərim və mənim üçün həmişə çox doğma adam olmusunuz. Ona görə xüsusi qeyd etməliyəm ki, bu gün – yubiley ərəfəsində sizinlə görüşmək, sizi təbrik etmək mənim üçün çox xoşdur. Sizin fəaliyyətiniz dövlət tərəfindən yüksək qiymətləndirilib. Siz Azərbaycanın bir neçə mötəbər mükafatı ilə təltif edilmisiniz. Ancaq bu mükafatların arasında ən ali mükafat,

ən ali orden «Heydər Əliyev» ordenidir. Mənim sərəncamımla siz bu gün «Heydər Əliyev» ordeni ilə təltif edilirsiniz. İcazə verin, bu ordeni sizə təqdim edim.

*Dövlət başçısı «Heydər Əliyev» ordenini Polad Bülbüloğluna təqdim etdi.*

* * *

**Polad Bülbüloğlu:** Böyük şərəfdir, çox sağ olun, cənab Prezident, minnətdaram. Çox böyük şərəfdir. Heydər Əliyevin adı bilirsiniz ki, mənim üçün çox əzizdir. Siz çox düzgün qeyd etdiniz ki, Azərbaycanın, bizim vətənimizin ən çətin vaxtında 10 il ulu öndər Heydər Əliyevlə işləmək bir nazir, ümumiyyətlə, bir xadim kimi, mənim üçün çox böyük məktəb oldu. O illəri, görüşləri tez-tez yada salıram. Baxmayaraq ki, çətin idi, bizim ulu öndərimiz mədəniyyətə həmişə diqqətlə yanaşırdı. İnanın ki, bu günlərdə biz filarmoniyada məşq edirdik, Moskvadan baş dirijorumuz gəlib. Orada mənim yadıma düşdü və danışdım ki, filarmoniya təmir olunanda ulu öndər kreslolara qədər maraqlanırdı ki, necə olacaq, hansı rəngdə olacaq, çox diqqətli idi. Çox düz buyurdunuz, hətta vəsait olmayanda şəxsən mənə, ümumiyyətlə, mədəniyyət sahəsinə, mədəniyyət adamlarına onun diqqəti hər bir vəsaitdən artıq idi. Sənət adamları bunu bilirdi ki, cənab Prezident onlara çox böyük diqqətlə yanaşır. Siz də atanızın yolunu davam etdirərək, Azərbaycan üçün çox işlər görürsünüz. Mən son günlər Ba-

kıdayam, Azərbaycandayam. Qonaqlar gəlir, inanın ki, bizim bu yeni küçələri, binaları görəndə – qədim Bakı da saxlanılıb – hamı Bakıya heyran olur. Bütün bunlar Sizin, Mehriban xanımın diqqəti sayəsindədir. Mən Sizə dərin təşəkkürümü bildirmək istəyirəm, cənab Prezident, bu mənim üçün çox böyük mükafatdır, çox böyük.

**İlham Əliyev:** Siz buna layiqsiniz.

**Polad Bülbüloğlu:** Siz deyən sözlər də, vallah, tarixi sözlərdir. Bu mənim üçün çox xoşdur. Siz bununla mənim 75 illik yubileyimə, bütün bu illər ərzində zəhmətimə böyük qiymət vermisiniz. Mənim üçün danışmaq çox çətindir. Çox sağ olun, minnətdaram.

## «AZƏRBAYCAN RESPUBLİKASI REGİONLARININ 2019–2023-cü İLLƏRDƏ SOSİAL-İQTİSADİ İNKİŞAFI DÖVLƏT PROQRAMI»NIN İCRASININ BİRİNCİ İLİNİN YEKUNLARINA HƏSR OLUNMUŞ KONFRANSDA İŞTİRAK

*3 fevral 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 3-də «Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın icrasının birinci ilinin yekunlarına həsr olunmuş konfransda iştirak etmişdir.*

*Dövlət başçısı konfransda giriş nitqi söylədi.*

### Azərbaycan Prezidenti İlham Əliyevin giriş nitqi

Bu gün biz Azərbaycan regionlarının dördüncü sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının birinci ilinin yekunlarını müzakirə edəcəyik, bu il görüləcək işlər haqqında danışacağıq. Proqram 1 il bundan əvvəl qəbul edilib. Dördüncü proqram əvvəlki dövrlərdə qəbul edilmiş proqramların məntiqi davamıdır. 3 proqram çərçivəsində böyük işlər görülübdür. Ancaq hələ də görüləsi işlər çoxdur. Hesab edirəm ki,

dördüncü proqram çərçivəsində ölkə qarşısında duran əsas infrastruktur vəzifələri icra olunacaq və beləliklə, ölkəmizin gələcək inkişafı üçün daha gözəl imkanlar yaranacaqdır.

Keçən il ərzində proqramın icrası ilə bağlı bütün lazımi tədbirlər görülüb. Deyə bilərəm ki, proqram artıqlaması ilə icra edilib. Proqramda nəzərdə tutulmuş məsələlər həll olunub. Ancaq bəzi məsələlərdə müəyyən ləngimələr vardır. Bu məsələlərin həllinə xüsusi diqqət göstərilməlidir. Hesab edirəm ki, proqramın bu il icra ediləcək bütün tədbirləri həyatda öz əksini tapacaqdır.

Bütövlükdə keçən il ölkəmiz uğurla inkişaf edib. Azərbaycan inkişaf, sabitlik yolu ilə gedir. Dünyada gedən proseslər isə, əlbəttə ki, bizi də narahat edir. Dünyada yeni münaqişə ocaqları, yeni gərginlik yerləri yaranır. Mövcud problemlər öz həllini tapmır, əksinə, yeni problemlər əlavə olunur. Demək olar ki, dünyanın bütün yerlərində – Avropada, Afrikada, Asiyada, Latın Amerikasında, bizim bölgəmizdə, postsovet məkanında müəyyən gərginlik müşahidə olunur. Bəzi hallarda bu gərginlik daha şiddətli formalar alır. Ancaq Azərbaycan uzun illər ərzində sabitlik yolu ilə gedir. Ölkəmizdə mövcud olan sabitlik Azərbaycan xalqının iradəsi ilə təmin edilir. Bizim apardığımız siyasət xalq tərəfindən dəstəklənir. Siyasət konkret işlərlə ölçülür. Bizim siyasətimizin təməlində konkret işlər, real inkişaf, söz yox, əməl dayanır və verilən hər bir söz həyatda öz əksini tapır. Ona görə də xalq tərə-

findən bizə göstərilən etimad yüksək səviyyədədir və sabitliyin, əmin-amanlığın əsas şərtləri məhz budur.

Hesab edirəm ki, keçən il iqtisadi sahədə yaxşı nəticələr əldə edilib. Azərbaycan indi iqtisadi inkişaf, ciddi islahatlar yolundadır. İslahatlar cəmiyyət tərəfindən yüksək qiymətləndirilir. Çünki bu islahatlar insanların həyat səviyyəsini yaxşılaşdırır, ölkəmizin iqtisadiyyatını sürətləndirir, ölkəmizdə mövcud olan xoşagəlməz problemlərin həllində isə çox önəmli rol oynayır. Adətən, çox köklü iqtisadi və siyasi islahatlar böyük problemlər də gətirir. Yəni bu islahatlar bəzi hallarda, daha doğrusu, bir çox hallarda insanların həyat tərzinə mənfi təsir göstərir.

Azərbaycanda isə islahatlar ardıcıl şəkildə aparılır. Bu, düşünülmüş siyasətdir. Sadəcə olaraq, biz indi islahatların yeni mərhələsinə qədəm qoymuşuq. Ona görə həm iqtisadi, həm də siyasi sahədə aparılan islahatlar xalqımızın, dövlətimizin maraqlarına xidmət edir. Eyni zamanda, çox ciddi struktur və kadr islahatları aparılıbdır.

Bütün bunlar bir daha göstərir ki, bizim siyasətimizdə əsas məqsəd dövlətimizin möhkəmləndirilməsi, xalqımızın daha yaxşı yaşaması, sabitliyin təmin edilməsidir. Biz bütün bu məqsədlərə çatırıq. Keçən il əldə edilmiş iqtisadi və sosial nailiyyətlər bunu bir daha təsdiqləyir. İqtisadiyyatımız 2,2 faiz artıbdır. Hesab edirəm ki, bu, yaxşı nəticədir. Neftin qiyməti sabitdir, ancaq Azərbaycanda neft hasilatı bir qədər aşağı düşübdür. Ümumi daxili məhsulun 2,2 faiz art-

ması, hesab edirəm ki, yaxşı nəticədir. Xüsusilə nəzərə alsaq ki, qeyri-neft sektorunda artım 3,5 faizdir. Sənaye istehsalı 1,5 faiz artıb. Bunun da səbəbi məhz neftin hasilatı ilə bağlıdır. Ancaq bizim əsas prioritetimiz olan qeyri-neft sektoru 14 faizdən çox artıb. Burada, əlbəttə ki, keçən il istismara verilmiş nəhəng sənaye müəssisələrinin fəaliyyətə başlaması, eyni zamanda, kiçik və orta sahibkarlığın inkişafı, biznes mühitinin yaxşılaşdırılması xüsusi rol oynayıbdır. Biznes mühitinin yaxşılaşdırılmasını Dünya Bankı da qeyd edir. «Doing Business» hesabatında Azərbaycan keçən il 20 ən islahatçı ölkə sırasına daxil edilibdir. Əlbəttə ki, bütün biznes qurumları bunu görür, hiss edir. Vergi və gömrük inzibatçılığı, biznes dairələrinə göstərilən dövlət dəstəyi, əlbəttə, qeyri-neft sənayesində də özünü büruzə verir.

Beləliklə, 14 faizdən çox artan qeyri-neft sənayemiz yeni iş yerlərinin yaradılması deməkdir. Qeyd etməliyəm ki, keçən il 98000 yeni iş yeri yaradılıbdır. Mən bunu dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, bu, daimi proses olmalıdır. Çünki Azərbaycanda əhali yüksək templərlə artır və iqtisadiyyat, iqtisadi inkişaf, o cümlədən iş yerlərinin yaradılması demoqrafik inkişafı daim üstələməlidir. Buna görə biz daim bu məsələyə xüsusi diqqət verməliyik. Ancaq o da həqiqətdir ki, hər bir iş yerinin yaradılması üçün həm dövlət, həm də özəl sektor tərəfindən böyük vəsait tələb olunur. Çünki iş yerlərinin yaradılması elə boş yerə olmur, gərək infrastruktur, şərait, imkanlar olsun. Özəl sek-

tor, əlbəttə ki, iş yerlərini yaradan əsas sektor olaraq, öz sözünü deyir və deməlidir.

Beləliklə, əsas iqtisadi göstəricilər bunlardır. Əgər buraya ölkəmizə qoyulmuş sərmayəni əlavə etsək, mənzərə daha gözəl olacaqdır. Keçən il ölkəmizə 13,5 milyard dollar sərmayə qoyulubdur. Azərbaycan həm xarici, həm daxili investorlar üçün çox cəlbedici məkandır. Bu sərmayələrin bir hissəsi dövlət investisiyalarıdır. Bu da təbiidir. Çünki hələ ki, iqtisadi artımda dövlət investisiyaları önəmli rol oynayır. Xüsusilə nəzərə alsaq ki, hələ də infrastruktur layihələri ilə bağlı görüləsi işlər vardır. Həm dövlət, həm yerli, həm də xarici şirkətlər ölkəmizə 13,5 milyard dollar həcmində vəsait qoyubdur. Hesab edirəm ki, bu çox yüksək nəticədir.

Makroiqtisadi vəziyyət tam sabitdir. İnflyasiya cəmi 2,5 faiz təşkil edir, əhalinin gəlirlərinin artımı isə 7,4 faiz. Yəni həmişə olduğu kimi, əhalinin gəlirləri inflyasiyanı üstələyir. Valyuta ehtiyatlarımız 6,4 milyard dollar artıbdır. Bu, deyə bilərəm ki, son illər ərzində rekord göstəricidir. Baxmayaraq ki, büdcəmiz rekord həddə çatıb, biz yenə də valyuta ehtiyatlarımızı artırmışıq. Bu daim belə olubdur. Hətta bizim üçün ən ağır, böhranlı illərdə – o vaxt ki, dünya bazarlarında neftin qiyməti 4 dəfə düşmüşdü – biz valyuta ehtiyatlarımızı yenə də artırmışdıq. Ancaq keçən il 6,4 milyard dollar həcmində artım, əlbəttə ki, düşünülmüş siyasəti əks etdirir. Biz vəsaitimizə qənaət edirik. Ancaq strateji əhəmiyyət daşıyan layihələrə dövlət inves-

tisiyaları qoyuruq. Eyni zamanda, valyuta ehtiyatlarımızın idarə edilməsindən də böyük vəsait əldə edirik. Burada bir çox amillər özünü göstərir. Çünki bu gün Azərbaycan dünya miqyasında çox böyük hörmətə malik ölkədir, həm siyasi müstəvidə, həm iqtisadi sahədə, həm də biznesin inkişafı baxımından. Mənim bu yaxınlarda 14-cü dəfə Davos Dünya İqtisadi Forumunda iştirakım, Forum çərçivəsində apardığım danışıqlar və iştirak etdiyim tədbirlər bir daha göstərir ki, Azərbaycana həm böyük maraq, həm də böyük rəğbət vardır. 20-dən çox görüş keçirildi.

Onu deyə bilərəm ki, bütün görüşlər qarşı tərəfin təşəbbüsü ilə həyata keçirildi. Yəni bunu ona görə deyirəm ki, ölkəmizin inkişafına maraq doğrudan da böyükdür. Azərbaycanda iş görmək istəyən şirkətlərin sayı artır. Bilirsiniz ki, Davos Forumunda iştirak edən şirkətlər dünya miqyasında ən böyük şirkətlərdir. Yəni oraya – Foruma daxil olmaq üçün bir çox meyarlar olmalıdır. Onlardan biri də, əlbəttə, şirkətlərin kapitallaşdırılmasıdır.

Beləliklə, bu böyük sərmayə qoyuluşu və valyuta ehtiyatlarımızın artımı bir daha göstərir ki, biz düzgün yoldayıq və bu yolla gedəcəyik. Yanvar ayını nəzərə alsaq, bizim valyuta ehtiyatlarımız artıq 52 milyard dollara çatıb, təkcə keçən ay ərzində 1 milyard dollar artıbdır. Bu bizim strateji ehtiyatımızdır. Bu bizim iqtisadi müstəqilliyimizi və yüksək dərəcədə siyasi müstəqilliyimizi təmin edir. Azərbaycan bu gün dünyada sayı o qədər də çox olmayan ölkələrdəndir ki,

tam müstəqil siyasət aparır. Müstəqil siyasət aparmaq üçün bir çox amillər olmalıdır – ölkələrin ərazisi, onların potensialı, ümumi daxili məhsulu, hərbi qüdrəti və s. Biz bilirik ki, dünyada güc mərkəzləri hansı ölkələrdir. Əlbəttə, Azərbaycan öz həcminə və coğrafi ərazisinə görə böyük ölkələrlə rəqabət apara bilməz, belə fikri də yoxdur. Ancaq buna baxmayaraq, müstəqil siyasət aparmaq üçün bizdə kifayət qədər imkanlar vardır. Bunların başlıcası xalqın dəstəyidir, bizim siyasətimizə göstərilən dəstək və etimaddır. Əlbəttə, iqtisadi göstəricilərimiz, siyasi arenadakı fəaliyyətimiz bizim gücümüzü artırır və Azərbaycan ildən-ilə daha da güclənir və güclənəcəkdir.

Bizim ixracımız da, xüsusilə qeyri-neft sektorunda artıb, xarici ticarət dövriyyəsi də artıbdır. Bir sözlə, iqtisadi sahəyə aid olan bütün məsələlər öz həllini tapıb. Eyni zamanda, keçən il sosial sahədə çox böyük təşəbbüslər irəli sürülübdür. Daha doğrusu, 2018-ci ilin ikinci yarısından artıq proqramlar hazırlanırdı və 2019-cu ilin əvvəlindən bu proqramların icrası başlanıldı. Şəhid ailələrinə böyük məbləğdə vəsait təmin edildi. Ümumiyyətlə, 4,2 milyon insanın sosial və maddi vəziyyəti yaxşılaşdırıldı. Çünki çox böyük sosial paket 4,2 milyon insanı əhatə edib. Minimum əməkhaqqı təxminən 2 dəfə, minimum pensiya 70 faizdən çox artıbdır. Hazırda minimum pensiyanın alıcılıq qabiliyyətinə görə Azərbaycan MDB məkanında 1-ci yerdədir. Bəzi müavinətlər 50 faiz, bəzi müavinətlər 2 dəfə artırılıb, tələbələrin təqaüdləri artırılıb, şəhid ailə-

lərinə birdəfəlik maddi yardım göstərilib, bundan əlavə, şəhid ailələrinin və məcburi köçkünlərin aylıq müavinətləri artırılıb. Yəni bütün bunlar böyük vəsait tələb edən məsələlərdir və bir neçə milyard manata başa gəlir. Ancaq biz bunu edirik. İlk növbədə, ona görə ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. İkincisi, ona görə ki, buna imkanımız vardır. Əgər istəyimiz olsaydı, imkanımız olmasaydı, bunu necə etmək olardı? Bax, iqtisadi gücümüzü toplayaraq, bugünkü reallığı təmin etdik ki, bunları edə bilək. Deyə bilərəm ki, yaxın ətrafda belə sosial təşəbbüs göstərən ikinci ölkə yoxdur.

Biz bunu edirik və hesab edirik ki, bu düzgündür. Azərbaycan xalqı ildən-ilə daha yaxşı yaşamalıdır. Bizim artan iqtisadi gücümüz ölkəmizin güclənməsinə, ilk növbədə, xalqımızın rifah halının yaxşılaşmasına yönəlməlidir və biz bunu edirik. Sosial sahədə görülmüş bu işlər bir daha bizim siyasətimizi əks etdirir, bizim gücümüzü göstərir və bundan sonra da bu sahə daim diqqət mərkəzində olacaqdır.

Eyni zamanda, keçən il sosial infrastrukturun yaradılması ilə bağlı önəmli addımlar atıldı – 84 məktəb, 60 tibb müəssisəsi tikildi və təmir edildi. Bu proses daim gedir. Biz məktəblərin böyük hissəsinin təmirini başa çatdırmışıq. Amma hələ də qəzalı vəziyyətdə olan məktəblər var və onların da təmiri ilə bağlı gələcək illərdə konkret addımlar atılacaqdır.

İnfrastruktur layihələrinin icrası ilə ciddi məşğul olmuşuq, xüsusilə elektrik enerjisi sahəsində. Bu sahə-

də də ciddi irəliləyiş olubdur. Deyə bilərəm ki, keçən il biz əlavə 800 meqavat elektrik enerjisi ala bilmişik. Bunun 400 meqavatı yeni tikilmiş «Şimal-2» stansiyasının hesabına, 400 meqavatı isə itirilmiş güclərin bərpası nəticəsində əldə olunubdur. Çünki vaxtilə stansiyaların düzgün istismar olunmaması səbəbindən bu güclər itirilmişdi. Ancaq hazırda bu işlər aparılır və 400 meqavat gücün daha çox hissəsi Mingəçevir İstilik Elektrik Stansiyasında aparılmış təmir-bərpa işlərinin hesabına əldə edilibdir. Əlbəttə, digər stansiyaların da itirilmiş gücləri bərpa edilib və biz 400 meqavatı məhz buradan əldə etmişik. Bu proses davam edir. Bu il də təqribən həmin rəqəm səviyyəsində generasiya gücü bərpa olunacaq. Biz indi elektrik enerjisini ixrac edən ölkəyə çevrilmişik.

Qazlaşdırılma prosesi də davam etdirilib. Bu gün ölkəmizin, demək olar ki, bütün yerlərində qazlaşdırılma təmin edilibdir. Qazlaşdırılmanın səviyyəsi 96 faizə çatıbdır. Bu da dünya miqyasında ən yüksək göstəricilərdən biridir. 1300 kilometr avtomobil yolu salınıbdır. 1000 kilometr nəzərdə tutulmuşdu. Ancaq il ərzində rayonlara səfərlərim zamanı mənə edilən müraciətlər, vətəndaşlar tərəfindən ünvanlanan məktublar əsasında biz əlavə 300 kilometr yolun çəkilişinə nail olduq. Avtomobil yollarının keyfiyyətinə görə bu gün Azərbaycan dünyada 27-ci yerdədir, bir çox inkişaf etmiş ölkələri qabaqlayır. Əminəm ki, görüləcək işlər nəticəsində daha da irəli gedəcəyik.

O cümlədən meliorativ tədbirlər infrastruktur layihələri arasında önəmli yer tutur. Təqribən 80000 hektar torpağa suyun verilməsi təmin edilib, 300-dən çox subartezian quyusu qazılıbdır. Bu proses bu il də davam etdiriləcəkdir.

Bu infrastruktur layihələri Dövlət İnvestisiya Proqramı hesabına icra edilibdir. Bu bir daha onu göstərir ki, ölkəmizin dayanıqlı inkişafı üçün gözəl zəmin yaradılır. Təbii ki, bütün bu işlər və eyni zamanda, aparılan islahatlar kənd təsərrüfatının inkişafına da güclü təkan verib. Kənd təsərrüfatı istehsalı son illərlə müqayisədə rekord həddə çatıb. Yəni artım tempi 7 faizdən çox olubdur, xüsusilə bitkiçilikdə artım 10 faizdən çoxdur. Bizim kənd təsərrüfatı məhsullarının ixracı artır. Daxili tələbat yerli məhsullar hesabına təmin edilir. Çünki bütün bu işlər bir-biri ilə sıx bağlı olan məsələlərdir.

Keçən il eyni zamanda, nəqliyyat sahəsində bizim böyük layihələrimiz icra edilibdir. Onların arasında Bakıətrafı dəmir yolu xəttinin çəkilişini xüsusilə qeyd etmək istərdim. Biz vaxtilə «elektriçka» adlandırılan dəmir yolu nəqliyyatını ən müasir səviyyədə bərpa etmişik, ən aparıcı şirkətin istehsal etdiyi qatarları gətizdirmişik. Qəsəbələrdə dəmir yolu stansiyaları tikilibdir və bu proses davam etdiriləcəkdir. Bu il artıq Bakıətrafı dəmir yolunun çəkilişinin əsas mərhələsi başa çatacaq, yəni dairə birləşəcəkdir. Ondan sonra hələ ki, dəmir yolu olmayan qəsəbələrə dəmir yolunun çəkilişi nəzərdə tutulur. Eyni zamanda, qonşularla bizi

birləşdirən dəmir yollarında bərpa işləri aparılır ki, sürət daha da artsın. Buna böyük dərəcədə nail olmuşuq, xüsusilə qərb istiqamətində. Şimal və cənub istiqamətində görüləcək işlər üçün hazırlıq aparılır və bu il bu proses daha sürətlə gedəcəkdir.

Əlbəttə, biz keçən ilin uğurlarını qeyd edərkən TANAP layihəsinin Avropa sərhədinə çatdırılmasını mütləq qeyd etməliyik. Bu, tarixi hadisədir, bu, tarixi layihədir. «Cənub Qaz Dəhlizi»nin əsas hissəsi olan TANAP, demək olar ki, tam istifadəyə verilibdir. Keçən ilin noyabr ayında biz Türkiyə–Yunanıstan sərhədindəki mərasimdə bu layihənin tam istismara verilməsini qeyd etdik. Ondan əvvəl TANAP-ın Türkiyəyə çatdırılmasını qeyd etmişdik. Bu doğrudan da tarixi layihədir. Bu layihə artıq «Cənub Qaz Dəhlizi»nin dördüncü seqmenti olan TAP layihəsinin uğurlu inkişafını və başa çatmasını şərtləndirir. Əminəm ki, bu il bu nəhəng infrastruktur layihəsi – uzunluğu 3500 kilometr olan, bir neçə ölkəni birləşdirən «Cənub Qaz Dəhlizi» tam istismara veriləcəkdir. Bu bizim növbəti böyük tarixi qələbəmiz olacaqdır.

Keçən il bir çox başqa hadisələr də baş veribdir. İndi onların hamısını burada qeyd etmək mümkün deyil. Hesab edirəm ki, dediyim məsələlər və gətirdiyim rəqəmlər ölkəmizdə gedən proseslər haqqında kifayət qədər məlumat verir və bunlar bizim uğurlarımızdır. Biz bu uğurları deməliyik, onları təbliğ etməliyik, eyni zamanda da bu uğurlarla kifayətlənmək olmaz. Biz həmişə gərək həll olunmamış məsələlər ətrafında səylə-

rimizi gücləndirək və bunu edirik. Bu ənənəvi konfransın əsas məqsədi görülmüş işlərə yekun vurmaq və il ərzində görüləcək işlərə təkan verməkdir. Ona görə də 2004-cü ildən başlayaraq, biz bu yolla gedirik. 2004-cü ildə qəbul edilmiş birinci Dövlət Proqramı tarixi hadisə idi.

O vaxt o proqram mənim seçkiqabağı proqramımın tərkib hissəsi idi. O vaxt ilk dəfə Prezident vəzifəsinə seçilən zaman vətəndaşlara demişdim ki, əgər mənə etimad göstərilərsə, o cümlədən regionların inkişafı ilə ciddi məşğul olacağam. Çünki bilirdim ki, Azərbaycanın regionlarında vəziyyət o qədər də yaxşı deyil. Bunun da, əlbəttə ki, təbii səbəbləri var idi – infrastruktur köhnəlmişdi, demək olar ki, sıradan çıxmışdı, bir çox müəssisələr fəaliyyətini dayandırmışdı, kənd təsərrüfatında durğunluq yaşanırdı. Ona görə hesab edirdim ki, Regional İnkişaf Proqramı bizim üçün əsas təkanverici proqram olacaqdır. Eyni zamanda, Azərbaycan əhalisinin böyük əksəriyyəti bölgələrdə yaşayır, rayonlarda, kəndlərdə yaşayır. Onların yaşayışı yaxşılaşmalı idi. Ona görə bu proqramın qəbul edilməsi, bir daha demək istəyirəm ki, tarixi hadisə idi. O vaxtdan bu günə qədər hər il biz proqramın icrasını müzakirə edirik. Dediyim kimi, 3 proqram qəbul edilib və icra olunub, dördüncü proqram indi icra edilir.

Deyə bilərəm ki, 2003-cü ildən bu günə qədər bütövlükdə Azərbaycan iqtisadiyyatı 3,4 dəfə artıbdır. Bu, dünyada rekord göstəricidir. Bütün statistik məlu-

matlar araşdırıla bilər, inanmıram ki, buna bənzər artım tempi olsun. Bu 16 il ərzində sənaye istehsalı 2,7 dəfə, kənd təsərrüfatı 2 dəfə, xarici ticarət dövriyyəsi 6,4 dəfə, ixrac 7,6 dəfə, o cümlədən qeyri-neft ixracı 5,2 dəfə artıbdır.

Bizim valyuta ehtiyatlarımız 27 dəfə artıbdır. 2003-cü ildə valyuta ehtiyatlarımız 1,8 milyard dollar idi, keçən ilin yekunlarına görə 51, indi isə 52 milyard dollara çatıbdır. Yəni bu özlüyündə böyük bir göstəricidir. Yoxsulluq təxminən 50 faizdən 4,8 faizə düşüb. Bu da onu göstərir ki, neftdən əldə edilmiş gəlirlər düşünülmüş şəkildə və ədalətli bölünür. Biz bu gəlirlərdən istifadə edərək, ölkəmizin bütün əsas infrastruktur problemlərinin böyük hissəsini həll etdik, eyni zamanda, vətəndaşların rifah halını yaxşılaşdırdıq. Son 16 ildə orta əməkhaqqı 11 dəfə, orta pensiya 8 dəfə artıb, 300 mindən çox məcburi köçkünə, 6700 şəhid ailəsinə evlər, mənzillər verilibdir. Yəni bu böyük sosial proqramlar böyük vəsait tələb edir. Təsəvvür edin, 300 min insan üçün evlər, mənzillər tikilib. Biz bu illər ərzində təxminən Sumqayıt, yaxud Gəncə boyda şəhər tikmişik. Bunu etmək üçün həm siyasi iradə, həm düşünülmüş siyasət, həm də imkan olmalı idi.

İnfrastruktur layihələrinə gəldikdə, bu illər ərzində 33 elektrik stansiyası tikilib, onların generasiya gücü 3000 meqavatdır. Əgər bu stansiyalar tikilməsəydi, bu gün ölkəmizin yarısını qaranlıq bürüyərdi, biz elektrik enerjisini yenə də idxal edərdik və buna böyük pullar verərdik. Amma biz bu stansiyaları tikməklə,

3000 meqavat generasiya gücünü əldə etməklə, bu gün elektrik enerjisini ixrac edirik. Keçən il bu ixracdan ölkəmizə təqribən 60–65 milyon dollar vəsait daxil olubdur.

2003-cü ildə Azərbaycanda qazlaşdırılmanın səviyyəsi 51 faiz idi, rayonlarda, ümumiyyətlə, qaz yox idi. Hazırda bu rəqəm 96 faizə çatıbdır. Elə rayon yoxdur ki, orada qaz olmasın. Elə rayon yoxdur ki, orada qazlaşdırılma təqribən 70 faizdən aşağı olsun. Rayon mərkəzlərində 100 faiz, 95 faizdir. 16700 kilometr avtomobil yolu tikilibdir. Bizi bütün qonşu ölkələrlə müasir avtomobil magistralları birləşdirir. Yüzlərlə, bəlkə də mindən çox kəndin yolu abadlaşdırılıbdır.

Meliorativ tədbirlərə gəldikdə, 2 böyük su anbarı – Taxtakörpü və Şəmkirçay tikilibdir. Bunlar olmasaydı, orada yerləşən rayonlarda su qıtlığı yaranacaqdı. Əgər Taxtakörpü su anbarı tikilməsəydi, keçən il Bakı şəhərini su ilə təmin etmək mümkün olmazdı. Çünki keçənilki quraqlıq bəlkə də tarixdə olmayıb. Biz Taxtakörpüdə yığılmış suları Ceyranbatana ötürməklə, Bakını fasiləsiz su ilə təmin etdik. Bakıda heç kim hiss etmədi ki, belə ciddi quraqlıq olubdur.

Bütün bu işləri biz görürük ki, insanlar daha yaxşı yaşasınlar. Hər bir böyük layihənin arxasında düşünülmüş siyasət dayanır. Kəndlərdə su təminatını yaxşılaşdırmaq üçün bu illərdə 1500-dən çox artezian quyusu qazılıb və bu proses davam etdirilir. Yüzlərlə kənddə modul tipli sutəmizləyici qurğular quraşdırılıbdır. Bizim proqramımızın icrasında infrastruk-

tur layihələri xüsusi yer tuturdu. Biz sosial təşəbbüslərlə paralel olaraq, bu layihələri həyata keçirməklə, bugünkü reallığı əldə etdik.

Azərbaycan bu illər ərzində kosmik dövlətə çevrilib. Bizim 3 peykimiz var, 16 il bundan əvvəl bu bəlkə də bizim yuxumuza da gəlməzdi. Amma bu gün bu reallıqdır. Nəinki 3 peykimiz var, hətta 2 ildən sonra dünyanın aparıcı tədbiri – Dünya Astronavtika Konqresi də Bakıda keçiriləcək, artıq ikinci dəfə. Çünki birinci dəfə Sovet İttifaqında da yeganə konqres 1973-cü ildə Bakıda keçirilmişdi. İndi isə 49 ildən sonra bu tədbir yenə də Bakıda, amma müstəqil Azərbaycan dövlətinin paytaxtı olan Bakıda keçiriləcəkdir.

Nəqliyyat sahəsində 7 aeroport tikilib, onların 6-sı beynəlxalq aeroportdur. Davosun hesabatında Azərbaycan hava xidmətlərinə görə 11-ci yerdədir. Heydər Əliyev Beynəlxalq Aeroportu artıq beşulduzlu aeroport kimi tanınır. Dünyada belə aeroportların sayı təqribən 10-a yaxındır. Onlardan biri də Heydər Əliyev aeroportudur.

Bakı–Tbilisi–Qars dəmir yolu tikilib. Bu bizim tarixi qələbəmizdir. Təkcə ona görə yox ki, Ermənistan əbədi dalanda qaldı. Halbuki bu da vacib məsələdir. Ona görə ki, indi bu yol həm böyük gəlir gətirir, həm də beynəlxalq əməkdaşlığı genişləndirir. İndi bu yol ilə onu tikməyə başlayanda nəzərdə tutulmayan yerlərdən də yüklər daşınır. Yəni bu yol beynəlxalq əməkdaşlıq üçün çox önəmli infrastruktur layihəsinə çevrilib və Azərbaycan burada aparıcı ölkədir. Şərq–Qərb

və Şimal–Cənub nəqliyyat dəhlizlərinin yaradılmasında biz xüsusi rol oynamışıq. Biz o ölkəyik ki, hər iki layihədə iştirak edirik. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Xəzərdə ən böyük dəniz limanıdır. Gəmiqayırma zavodu bizim üçün tankerlər, yük gəmiləri və istənilən gəmini istehsal edə bilər. İndi pulumuz Azərbaycanda qalır, xaricə getmir. Biz indi tankerləri, yük gəmilərini özümüz istehsal edirik. Mən ancaq 16 il ərzində görülmüş işlərin əsas məqamlarını qeyd edirəm.

Energetika, neft-qaz sahəsində – 2006-cı ildə Bakı–Tbilisi–Ceyhan neft, 2007-ci ildə Bakı–Tbilisi–Ərzurum qaz kəmərləri istifadəyə verildi. Bunlar tikilməsəydi, kim gəlib Azərbaycanın neft sənayesinə, özü də dənizdən çıxarılacaq neftə pul qoyardı? Heç kim. Sıfır investisiya olacaqdı. Nə edəcəkdik? Xaricdən neft alacaqdıq. Biz bu kəmərləri mürəkkəb geosiyasi vəziyyətdə inşa etdik, minimum risklərlə. Sonra Bakı–Tbilisi–Qars dəmir yolu çəkildi. Çünki o kəmərlər tikilməsəydi, o dəhliz açılmasaydı, dəmir yolu dəhlizi də heç vaxt olmazdı. Bu yolu tikməyə bizim pulumuz da olmazdı. Gürcüstana 800 milyon dollara yaxın kredit verməyə də gücümüz olmazdı. Ondan sonra «Cənub Qaz Dəhlizi». O da Avropanın ən böyük infrastruktur layihələrindən biridir, onun təxminən 40 milyard dollar maliyyəsi vardır. Bir neçə ölkəni birləşdirir, 3500 kilometr uzunluğunda 4 seqmentdən ibarət nəhəng layihədir.

Burada həm siyasi məharət, həm diplomatik addımlar, həm iqtisadi gücümüz, həm beynəlxalq bank-

larla əlaqələrimiz, həm də yolboyu yerləşən ölkələrlə səmərəli əməkdaşlığımız böyük rol oynayıb. Bu layihəni həyata keçirmək üçün nə qədər çətinliklər olub. Bu barədə danışmaq üçün ayrıca bir tədbir lazımdır. Amma biz bunu da başa çatdırdıq. Təşəbbüskar da Azərbaycandır. Artıq bir neçə ildir ki, Azərbaycanda ənənəvi olaraq «Cənub Qaz Dəhlizi» Məşvərət Şurası keçirilir. Şuranın növbəti toplantısı bu ayın sonunda keçiriləcəkdir.

Yəni qəbul edilmiş faktdır ki, bu layihələrin aparıcı qüvvəsi, təşəbbüskarı, təşkilatçısı, əsas maliyyə yükünü öz üzərinə götürən ölkə bizik – Azərbaycandır və biz bunu etmişik. Bu layihələrin hər biri tarixi əhəmiyyət daşıyır. Bu layihələrin, ümumiyyətlə, görülmüş işlərin hamısı Azərbaycan xalqı qarşısında böyük xidmətlərdir. Çıxışımın əvvəlində dediyim kimi, uğurlu inkişafımızı, sabitliyi şərtləndirən, cəmiyyətdə xoş əhval-ruhiyyəni formalaşdıran bizim siyasətimiz və addımlarımızdır. Nəyi demişiksə, onu da etmişik. Bir dənə də icra edilməmiş vəd yoxdur. Heç kim bunu tapa bilməz. 2003-cü ildə və ondan sonrakı illərdə nəyi demişəmsə, onu da etmişəm. Ona görə bizim sözümüzə də, işimizə də xalq tərəfindən böyük inam vardır. Mən həmişə demişəm ki, bizim sözümüzün qüvvəti imzamız qədər olmalıdır və bu gün bu belədir.

Əlbəttə, son 16 il ərzində görülmüş bütün işlər haqqında danışmaq mümkün deyil və buna ehtiyac da yoxdur. Hesab edirəm ki, mən sizə və Azərbaycan icti-

maiyyətinə əsas məqamları çatdırdım. İndi isə keçək müzakirələrə.

* * *

**M i k a y ı l  C a b b a r o v** (*İqtisadiyyat naziri*): Möhtərəm cənab Prezident!

Hörmətli konfrans iştirakçıları!

Həyata keçirilən məqsədyönlü siyasət və struktur islahatları sayəsində 2019-cu ildə ölkəmizdə makroiqtisadi sabitlik təmin edilib, iqtisadi artım prosesləri sürətlənib və iqtisadiyyatın dayanıqlı inkişafı yeni mərhələyə daxil olubdur.

Cənab Prezident, iqtisadiyyatın şaxələndirilməsi, regionların potensialının reallaşdırılması hesabına iqtisadi inkişafın daha da sürətləndirilməsi ilə bağlı Sizin həyata keçirdiyiniz strategiya və qəbul etdiyiniz dövlət proqramları bu istiqamətdə müstəsna rol oynamaqdadır. Son illərdə aparılmış nəhəng sosial infrastruktur quruculuğu işləri regionların mənzərəsini tamamilə dəyişib. Bu illər ərzində regionlarda 58 min kilometr uzunluğunda yeni qaz xətləri, su təchizatının yaxşılaşdırılması üçün bölgələrdə 13 min kilometr uzunluğunda içməli su xətləri çəkilib, 470-ə yaxın modul tipli sutəmizləyici qurğu quraşdırılıb, 706 min nəfər əhali içməli su ilə təmin edilibdir. Uzunluğu 16 min kilometrdən çox olan yollarda təmir-tikinti işləri aparılıb, 470 körpü və tunel istifadəyə verilibdir.

Regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramları çərçivəsində son 16 ildə 3300-dən çox

məktəb, yüzlərlə uşaq bağçası və tibb müəssisəsi tikilib və ya əsaslı təmir edilibdir. Ötən ildə qeyri-neft sektorunda ÜDM-in 3,5 faiz, qeyri-neft sənayesində isə 14,3 faiz artmasında regionların da böyük rolu olub. 2019-cu ildə regionların sosial-iqtisadi inkişafının dördüncü Dövlət Proqramı çərçivəsində 7,2 milyard manat vəsait yönəldilib, eyni zamanda, imzaladığınız sərəncamlarla əlavə olaraq, 1 milyard manata yaxın vəsait ayrılıbdır.

Ölkənin 10 bölgəsində sənaye zonalarının yaradılması sənayeləşmə prosesinə təkan verib. Ümumilikdə, indiyədək sənaye zonalarında rezidentlər tərəfindən 6 milyard manata yaxın investisiya yatırılıb və 9000-dən çox yeni iş yeri yaradılıbdır. Ötən ildə bu zonalarda istehsalın ümumi həcmində 2,6 dəfə artım qeydə alınıb. Qeyd etmək lazımdır ki, sənaye zonalarında istehsal olunan məhsulun 80 faizindən çoxu Sumqayıt Kimya Sənaye Parkının payına düşür. Balaxanı Sənaye Parkının fəaliyyəti isə genişlənərək, ikinci mərhələyə daxil olubdur. Bu baxımdan digər sənaye zonalarında da fəaliyyətin səmərəsinin artırılmasına nail olmaq vacibdir. İndiyədək verilmiş investisiya təşviqi sənədləri üzrə layihələrin reallaşması yerli istehsala 4 milyard manatdan artıq investisiyanın yatırılmasına, 28 minədək yeni iş yerinin açılmasına səbəb olacaqdır. Bu layihələrin 87 faizi regionların payına düşür. Sahibkarlığın inkişafına dövlət dəstəyi göstərilməsi sayəsində Sahibkarlığın İnkişafı Fondu tərəfindən güzəştli kreditlərin verilməsi işləri davam etdirilir.

Qeyd etməliyəm ki, bu prosesin dövlət büdcəsinə əlavə yük yaratmadan həyata keçirilməsi üçün kreditləşdirmə geri qaytarılan vəsaitlər hesabına təmin edilir. 2019-cu ildə bunun hesabına 1573 sahibkarlıq subyektinə 175 milyon manat məbləğində güzəştli kredit verilibdir.

Cənab Prezident, sahibkarlığın dövlət tərəfindən dəstəklənmə mexanizminin səmərəli olmasına baxmayaraq, dövlət kreditləşdirməni tamamilə öz öhdəsinə götürməli deyil. Bank sektoru bu sahədə əsas mənbə rolunda çıxış etməli olsa da, uzunmüddətli maliyyələşmədə onun payı hələlik aşağı səviyyədədir. Hazırda biz Mərkəzi Bankdan olan həmkarlarımızla real sektora bank kreditlərinin yönəldilməsi üçün atılacaq addımları müzakirə edirik. Burada dövlət mülkiyyətində olan bankların rolu daha yüksək ola bilər. Eyni zamanda, biznesin maliyyələşmə ehtiyaclarının qarşılanmasının yeni istiqaməti kimi, ölkədə kapital bazarının, o cümlədən fond bazarının inkişafının sürətləndirilməsi və sərmayə fondlarının yaradılması ilə bağlı təkliflər hazırlanır.

İxracın təşviqi və qeyri-neft məhsullarının ixracı zamanı çəkilən xərclərin bir hissəsinin qaytarılması mexanizmi çərçivəsində keçən il yerli ixracatçılara 9 milyon manata yaxın vəsait qaytarılıb. Hazırda Azərbaycan məhsullarının ixrac coğrafiyasını genişləndirmək imkanları araşdırılır. Əsas məqsədimiz yalnız rəqabətqabliyyətli və yüksək keyfiyyət standartlarına malik yerli məhsullara milli keyfiyyət nişanı olan

«made in Azerbaijan» brendini verməklə, onların xarici bazarlara çıxışını genişləndirməkdir. Dövlət proqramlarının uğurlu icrası nəticəsində əvvəlki illə müqayisədə 2019-cu ildə kənd təsərrüfatı emal müəssisələrinin ixracı ümumilikdə 14 faiz artıb. Ölkənin aqrar sektorunun inkişafında böyük rol oynayan 33 rayonunda 51 aqropark və yerli fermer təsərrüfatının yaradılması ilə bağlı planlar çərçivəsində 2019-cu ildə 16 aqropark və ya fermer təsərrüfatında işlər başa çatdırılıbdır.

Kənd təsərrüfatının subsidiyalaşdırılması və vergilərdən azad edilməsi, texnika və gübrələrin güzəştli şərtlərlə verilməsi, investisiyalar və ixracın təşviqi, digər dövlət dəstəyi mexanizmləri regional inkişafın sürətləndirilməsində mühüm rol oynayır. Bu inkişafın daha bir göstəricisi regionlar üzrə vergi daxilolmalarının artmasıdır. 2019-cu ildə gəlirlərin şəffaflaşdırılması və uçotun dürüstləşdirilməsi istiqamətində həyata keçirilmiş sistemli tədbirlər nəticəsində regionlar üzrə dövlət büdcəsinə 817 milyon manat və ya proqnozdan 163 milyon manat artıq vəsaitin daxil olması təmin edilibdir. Bu, nəzərdə tutulmuş proqnoz göstəricilərindən 25 faiz çoxdur.

2005-ci illə müqayisədə regionların qeyri-neft sektoru üzrə ümumi vergi daxilolmalarının xüsusi çəkisi 2 dəfə artaraq 15 faizə çatıb. Əmək bazarının leqallaşması və yeni iş yerlərinin yaradılması hesabına ötən il məcburi dövlət sosial sığorta haqqı üzrə regionlardan daxilolmalar 28 faiz artıb, o cümlədən qeyri-dövlət

sektorunda artım 50 faiz olubdur. İşsizlikdən sığorta haqqı üzrə regionların daxilolmaları 39 faiz, o cümlədən qeyri-dövlət bölməsində 70 faiz artıbdır. Eyni zamanda, ötən il regionlarda fərdi sahibkarların sayında 12 mindən çox artım qeydə alınıbdır.

Cənab Prezident, Sizin müvafiq fərmanınızla şəhər və rayonlar üzrə dövlət büdcəsinin müvafiq vergilərində büdcə ilinin sonuna daxil olan əlavə vəsaitin 50 faizinin icra hakimiyyətlərinin sərəncamına verilməsi regionların dotasiyalardan asılılığının azalmasına və bölgələrdə biznes mühitinin yaxşılaşdırılmasına güclü stimul yaradır. Belə ki, 2019-cu ilin nəticələrinə əsasən, şəhər və rayonların sərəncamına verilmiş belə vəsaitlərin həcmi 28 milyon manat təşkil edib. Bu vəsaitləri alan şəhər icra hakimiyyətləri arasında Sumqayıt şəhəri birinci yerdə (5,4 milyon manat), Gəncə şəhəri isə ikinci yerdədir (4,1 milyon manat). Bundan başqa, sərəncamlarına 1 milyon manatdan çox vəsait verilmiş icra hakimiyyətləri arasında Şəki və Mingəçevir şəhərlərini, habelə Şəmkir, Xaçmaz, Qazax və Quba rayonlarını qeyd etmək olar. Bölgələrdə sahibkarlıq fəaliyyəti üçün nə qədər əlverişli şərait yaradılırsa, vergitutma bazası bir o qədər genişlənir və sosial-iqtisadi məsələləri həll etmək üçün əlavə maliyyə mənbələri yaranır.

Bu il də biz bu prosesin davamını görürük. Qeyri-neft sektoruna yanvar ayı üzrə daxilolmalar ötən illə müqayisədə 30 faiz artıb. Regional inkişafın mühüm sahəsi sayılan aqrar sektorda həyata keçirilən bütün

tədbirlər çoxşaxəlidir və geniş mənada qarşımızda duran bir çox vacib məsələlərin həllini hədəfləyir. Bu, əsas etibarilə ərzaq təhlükəsizliyi komponentlərinin, həmçinin vətəndaşlarımızın məşğulluğunun təmin edilməsinə xidmət edir.

Hazırda ölkəmiz bir çox məhsullar üzrə öz daxili tələbatını ödəməyə qadirdir. Eyni zamanda, idxal komponentlərindən asılı olan məhsullar üzrə idxalı əvəz edəcək istehsal sahələrinin yaradılması üçün də əlverişli imkanlar mövcuddur. Bu istiqamətdə kiçik və orta biznesin inkişafına dövlət dəstəyi mexanizminin səmərəsinin artırılması, belə sahibkarlıq subyektlərinin, xüsusilə qadın və gənc sahibkarların ümumi daxili məhsulda, məşğulluqda iştirak payının daha da yüksəldilməsi üçün zəruri tədbirlər görülür.

2020-ci ildə və növbəti illərdə Kənd Təsərrüfatı Nazirliyi və digər aidiyyəti qurumlar ilə birgə yüksək əlavə dəyər yaradan emal sənayesinin sürətli inkişafını əsas hədəf olaraq müəyyən etmişik. Regionların spesifikası nəzərə alınmaqla, məhsul istehsalı və emalı üzrə ixtisaslaşmanın dərinləşdirilməsi hədəflənib. Regionlarda işləməyən və ya zərərlə işləyən istehsal müəssisələrinin yenidən qurulması, sağlamlaşdırılması və özəlləşdirilməsinin sürətləndirilməsi nəzərdə tutulur. Bütövlükdə, yüksək əlavə dəyər yaradan məhsul istehsalı və xidmət sahələrinin inkişaf etdirilməsi üçün investisiya təşviqi mexanizmlərindən geniş istifadə ediləcəkdir.

Kiçik biznesin və məşğulluğun genişləndirilməsinə imkan yaradan amillərdən biri də turizm axınıdır. Turizm gəlirlərinin əhəmiyyətli dərəcədə artırılması və mövcud potensialdan səmərəli istifadə edilməsi üçün kiçik mehmanxanalar sisteminin yaradılması, regionlarda ekoturizm potensialının maksimum reallaşdırılması, xidmət keyfiyyətinin yüksəldilməsi və hava nəqliyyatının daha da inkişaf etdirilməsi vacib əhəmiyyət kəsb edir.

Ortamüddətli dövrdə ölkədə, xüsusilə də regionlarda dağ-mədən sənayesinin inkişafının sürətləndirilməsi və bunun ətrafında yeni sənaye klasterlərinin formalaşması perspektivli istiqamətlərdən biridir.

Bu baxımdan, cənab Prezident, Sizin siyasətiniz nəticəsində son illərdə ölkəmiz qızıl hasilatı və ixracı sahəsində böyük uğurlar əldə edib. Bu sahədə həm dövlət, həm də özəl müəssisələrin fəaliyyəti genişlənməkdədir. Bununla yanaşı, regionlarda dağ-mədən sənayesinin digər istiqamətlərində də filiz, qurğuşun, qiymətli metallar istehsalı potensialı yüksəkdir.

İqtisadiyyatın bütün sahələrində əmək məhsuldarlığının artırılması inkişaf potensialımızın reallaşdırılması deməkdir. Bu hədəfə nail olmaq üçün regionlarda fəaliyyət göstərən ali təhsil müəssisələrimizin imkanları da daha fəal istifadə edilə bilər.

Möhtərəm cənab Prezident, Dövlət Proqramında nəzərdə tutulmuş, eləcə də 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədə verdiyiniz tapşırıqlar regionların da davamlı inkişafına öz töhfəsini verəcək. Bu

gün konfrans çərçivəsində dörd ixtisaslaşmış paneldə bu mövzular müzakirə ediləcək. Qarşıdakı dövrdə strateji hədəfimiz milli iqtisadiyyatın dünya iqtisadiyyatında və qlobal dəyər zəncirində layiqli yerini təmin etməklə, ölkənin dayanıqlı və inklüziv inkişafına nail olmaqdır.

**Səbuhi Abdullayev** (*Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı*): Möhtərəm cənab Prezident! Sizin qayğınız nəticəsində regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi, rayonumuza səfərləriniz zamanı verdiyiniz tapşırıqların uğurlu icrası sayəsində Qəbələ daha da inkişaf edib, sakinlərimizin rifahı əhəmiyyətli dərəcədə yüksəlibdir.

Sizin söylədiyiniz «Biz indi Qəbələnin tarixi simasını saxlamaqla, şəhərə, rayona yeni nəfəs veririk»– fikirləriniz əsasında zəngin tarixi və təbii imkanları olan Qəbələnin çox böyük turizm potensialı üzə çıxarılıb və bu potensialdan səmərəli şəkildə istifadə olunmağa başlanılıbdır. Sizin diqqətiniz və qayğınızla Azərbaycanın milli memarlıq üslubu saxlanılmaqla, yenidən qurulan Qəbələ indi dünyanın istənilən kurort şəhəri ilə müqayisə oluna bilər.

Bu gün rayonda təqribən 2500 yerlik 16 hotel və mehmanxana tipli müəssisələr fəaliyyət göstərir. Ötən il bu müəssisələrdə 186 mindən çox yerli və əcnəbi turistlərə xidmət göstərilib və təqribən bir o qədər də turist fərdi evlərdə qalıb. Gələn turistlərin 65 faizi, yəni 121 min nəfəri dünyanın 45 ölkəsinin vətəndaşlarıdır.

Qəbələ bu gün təkcə yerli və xarici turistlərin sevimli istirahət mərkəzi deyil, həm də ölkə başçılarının iştirakı ilə keçirilən beynəlxalq əhəmiyyətli görüşlərin, sammitlərin, mötəbər idman və mədəniyyət tədbirlərinin təşkil olunduğu bir məkana çevrilibdir. İslam Əməkdaşlıq Təşkilatının Turizm nazirlərinin Banqladeşin Dəkkə şəhərində keçirilmiş X konfransında Qəbələ şəhəri 2020-ci il üçün «İslam Turizm Paytaxtı» seçilibdir. Sevindirici haldır ki, bu il İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Turizm nazirlərinin 11-ci konfransının Azərbaycanın sədrliyi ilə Qəbələdə keçirilməsi nəzərdə tutulubdur.

Bir məsələni də xüsusi olaraq vurğulamaq istərdim. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə hər il keçirilən ənənəvi Qəbələ Beynəlxalq Musiqi Festivalı dünyanın mötəbər mədəniyyət tədbirləri sırasına daxil olub. Təkcə ötən il keçirilmiş XI Beynəlxalq Musiqi Festivalına dünyanın 10-dan çox ölkəsini təmsil edən tanınmış musiqiçilər qatılmışlar. Fürsətdən istifadə edərək, Qəbələ Beynəlxalq Musiqi Festivalının ərsəyə gəlməsində çox böyük zəhmət çəkən, milli musiqi mədəniyyətimizin hamisi, Birinci vitse-prezident, çox hörmətli Mehriban xanım Əliyevaya qəbələlilərin dərin minnətdarlığını çatdırmaq istərdim.

Möhtərəm cənab Prezident, bu il Sizin tapşırığınızla istifadəyə veriləcək 43 kilometrlik Ləki–Qəbələ dəmir yolu xətti təkcə Qəbələnin deyil, bütün regionun turizm potensialının daha da inkişafına böyük təkan

verəcəkdir. Sizin sərəncamlarınızla rayonumuzda tamamilə yenilənmiş yol infrastrukturu əhali tərəfindən böyük rəğbət hissi ilə qarşılanır. Təkcə ötən il yerli əhəmiyyətli 2 avtomobil yolu çəkilərək, istifadəyə verilib, 20 mindən çox əhalisi olan 10 yaşayış məntəqəsinin rayon mərkəzinə olan məsafəsini 25 kilometr qısaldacaq Bum çayı üzərində yeni körpünün tikintisinə başlanılıbdır. 25 kilometrlik Əmirvan–Seyidqışlaq–Vəndam avtomobil yolunun tikintisi üçün hazırlıq işləri aparılır.

Ötən il əhalisi 14 min nəfər olan Qəbələ şəhərinin su-kanalizasiya sistemi Sizin xeyir-duanızla istifadəyə verilib. Rayonda qazlaşdırılmanın səviyyəsi 86 faizə çatdırılıb. Cari ildə daha üç kəndin və bir yaşayış massivinin qazlaşdırılması nəzərdə tutulur. Yaşayış məntəqələrinin elektrik təsərrüfatının yenidən qurulması işləri davam etdirilir.

Möhtərəm cənab Prezident, rayon iqtisadiyyatının əsasını təşkil edən kənd təsərrüfatının inkişaf etdirilməsi sahəsində qarşıya qoyulmuş vəzifələrin öhdəsindən də uğurla gəlirik. Kənd təsərrüfatı üçün ənənəvi sahələrdən biri olan baramaçılığın inkişafına göstərilən dövlət dəstəyi nəticəsində bu sahə yenidən dirçəlib, 15,5 ton barama istehsal edilib, baramaçılığın yem bazasının yaxşılaşdırılması istiqamətində mühüm işlər görülüb, 10 min yeni ting əkilərək, ümumi tinglərin sayı 197 minə çatdırılıbdır.

Ötən il taxılçılıq sahəsində də çox böyük işlər görülüb, rayon üzrə 65442 ton taxıl istehsal olunub, orta

məhsuldarlıq 32,4 sentner təşkil edibdir. Rayonda üzümçülüyün və bağçılığın inkişafı da diqqət mərkəzində saxlanılır. Üzüm bağlarının sahəsi 421 hektara çatdırılıbdır.

Son illər 2000 hektardan çox sahədə yeni fındıq bağları salınıb, mövcud bağların sahəsi 7069 hektara çatıbdır. 2019-cu ildə rayonda 8700 ton fındıq tədarük edilib, məhsul satışından 26 milyon manatdan çox gəlir götürülüb, fındıq tədarükünə 20 min nəfərdən çox işçi cəlb olunubdur. Tədarük edilmiş findiq Qəbələ Fındıq zavodunda emal olunaraq, İtaliya, Almaniya və Rusiyaya ixrac edilibdir.

Bu gün Qəbələdə fəaliyyət göstərən digər sənaye müəssisələrində isə istehsal olunan məhsullar dünyanın 27 ölkəsinə ixrac edilir.

Ötən il Sizin iştirakınızla açılmış, ən yüksək texnoloji avadanlıqlarla təchiz olunmuş «AzRose» MMC-nin qızılgül istixanasında 2 milyon manat dəyərində təqribən 5 milyon ədəd qızılgül yetişdirilərək, yerli bazara çıxarılıbdır.

«Azərxalça» ASC-nin xalçaçılıq müəssisəsi də istifadəyə verilib. 2019-cu ildə rayonda ümumilikdə 1714 sahibkarlıq subyekti fəaliyyətə başlayıb, 3206 yeni iş yeri yaradılıbdır. Yeri gəlmişkən, qeyd etmək istəyirəm ki, 2003-cü ildən bu günə kimi rayonumuzda ümumilikdə 12005 sahibkarlıq subyekti yaradılıb, 23072 yeni iş yeri açılıbdır. Bütün bunlar Sizin sayənizdə regionlarda yaşayan insanların yeni iş yerləri, yüksək gəlir, firavan yaşayışla təmin olunmasının ən

bariz göstəricisi, Azərbaycanın sabahına, övladlarının gələcəyinə inamı deməkdir.

Möhtərəm cənab Prezident, Sizi əmin etmək istəyirəm ki, müstəqil Azərbaycanımızın tərəqqisi naminə qarşıya qoyduğunuz vəzifələrin həyata keçirilməsi üçün biz qəbələlilər bundan sonra da bütün qüvvə və bacarığımızı sərf edəcək, qarşımıza qoyduğunuz vəzifələrin öhdəsindən layiqincə gələcək, böyük diqqət və qayğınıza əməli işimizlə cavab verəcəyik.

**Mehman Hüseynov** (*Mingəçevir Sənaye Parkında «Mingəçevir Tekstil» MMC-nin direktoru*): Möhtərəm cənab Prezident! Hörmətli konfrans iştirakçıları!

Son illər Sizin rəhbərliyinizlə iqtisadiyyatımızın digər sahələri kimi, sənayemiz də inkişaf edir. Yerli resurslardan istifadə etməklə, yeni sənaye sahələrinin yaradılması, istehsal prosesinin təşkilində infrastruktur xərclərinin azaldılması məqsədilə sənaye zonalarının yaradılması mühüm əhəmiyyət kəsb edir. Bu, əhalinin işlə təmin olunmasına, insanların sosial rifahının yaxşılaşdırılmasına və iqtisadiyyatın şaxələndirilməsinə yönəlmiş uğurlu siyasətinizin bariz nümunəsidir.

Sizin tapşırığınızla son illər pambıqçılığın inkişafı istiqamətində də mühüm addımlar atılıb. Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dair 2017–2022-ci illər üçün Dövlət Proqramının təsdiq edilməsi bu sahənin inkişafına təkan verdi. Görülmüş işlərin nəticəsi olaraq, 2017-ci ildə 200 min tondan artıq, 2018-ci ildə 230 min tondan çox, 2019-cu ildə isə daha az sahədə pambıq əkməklə, məhsuldarlığın

artırılması hesabına 290 min tondan artıq məhsul götürüldü.

Bu sahənin yüksək templə inkişaf etməsi yeni istehsal və emal müəssisələrinin yaradılmasına xüsusi ehtiyac yaradırdı. Məhz bu ehtiyacdan irəli gələrək, tekstil sənayesində ənənələrə malik Mingəçevir şəhərində Sənaye Parkı yaradıldı və 14 hektar ərazidə «Mingəçevir Tekstil» Məhdud Məsuliyyətli Cəmiyyətin iki İplik İstehsalı fabrikinin yaradılmasına başlanıldı. Deyə bilərəm ki, fabriklərin tikintisinə başlanılan ilk günlərdən biz daim dövlətin dəstək və qayğısını hiss etdik.

Cənab Prezident, 2016-cı il sentyabrın 21-də Sizin iştirakınızla Mingəçevir Sənaye Parkının təməli qoyuldu. Bundan əlavə, fabriklərin yaradılmasına dövlət tərəfindən 10 milyon manat güzəştli kredit ayrıldı, zəruri infrastruktur təmin edildi və layihə sənaye parkının rezidenti olaraq, 10 il müddətinə mənfəət, torpaq və əmlak vergilərindən, eləcə də idxalda ƏDV-dən azadolma imkanı qazandı. Qeyd edim ki, təkcə fabriklərin yaradılması ilə bağlı idxal edilən avadanlıqlara görə şirkətimiz 12 milyon manatdan artıq ƏDV və gömrük rüsumlarına qənaət edib ki, bu da dövlət qayğısının bariz nümunəsidir.

Təqribən 2 ilə yaxındır ki, tikilərək istismara verilmiş fabriklər ən müasir texnologiyalar əsasında Almaniya, İsveçrə, İspaniya və Yaponiyanın aparıcı şirkətlərinin avadanlıqları ilə təchiz edilibdir. Bizim üçün

digər əlamətdar məqam isə bu fabriklərin açılışının Sizin iştirakınızla olmasıdır.

Möhtərəm cənab Prezident, bu gün qürur hissi ilə bildirmək istəyirəm ki, «Mingəçevir Tekstil» artıq bir brendə çevrilib. Fabriklərimizdə istehsal olunan ipliklərin «Open End» və «Ring» növlərinə dünyada böyük tələbat vardır. Qısa bir zamanda istehsal etdiyimiz yüksəkkeyfiyyətli pambıq ipliklərin xarici bazarlara ixracına başladıq. 2018-ci ildə istehsala başlayan müəssisəmiz elə həmin il 4000 tona yaxın – təqribən 16 milyon manatlıq keyfiyyətli məhsul istehsal etdi ki, bunun da 13 milyon manat dəyərində olan 3000 tonu, yəni təqribən 80 faizindən çoxu ixrac olundu. 2019-cu il ərzində isə ümumi satışımız 6000 tonu «Open End» və 6000 tonu «Ring» növündə olmaqla, 12 min ton təşkil edib ki, bunun da 2000 tonu daxili, 10 min tonu – təqribən 83 faizi isə xarici bazarda satılıbdır. Beləliklə, daxili bazara satışımız 7 milyon manat, ixrac isə 39 milyon manat olmaqla, ümumilikdə 2019-cu ildə 46 milyon manat təşkil edibdir. Məhsullarımız Rusiya, Türkiyə, Portuqaliya, Belçika, Ukrayna, Polşa və Pakistan kimi ölkələrə ixrac olunubdur.

Həmin fabriklərin istifadəyə verilməsi ölkədə yüngül sənayenin, xüsusilə də tekstil sənayesinin inkişafına, yerli istehsal müəssisələrinin davamlı, keyfiyyətli və ucuz xammalla təmin olunmasına, eləcə də istehsal edilən pambığın hazır məhsula çevrilərək ixracına şərait yaradıbdır. Bu isə ölkəmizə əlavə xarici valyutanın daxil olması deməkdir. Həmçinin fabriklərimiz

sənaye sahəsində idxaldan asılılığın azaldılması, ixrac potensialının artırılması, milli tekstil brendlərinin yaradılması, ixtisaslı kadrların hazırlanması və yeni iş yerlərinin açılması baxımından xüsusi əhəmiyyət kəsb edir. Hazırda fabriklərimizdə üçnövbəli iş rejimində 700 nəfərdən çox işçi çalışır.

2020-ci ildə akril-viskon, akril-pambıq, viskoza və tensel ipliklərinin istehsalını planlaşdırırıq. Əsas hədəfimiz məhsulları şaxələndirərək, xarici satış bazarlarımızı genişləndirmək və qeyri-neft sektorunun inkişafına öz töhfəmizi verməkdir.

Möhtərəm cənab Prezident, sonda respublikamızda yüngül sənaye sahəsinin inkişafına göstərdiyiniz diqqət və qayğıya görə Sizə təşəkkürümüzü bildirir və əmin edirik ki, xalqımızın və dövlətimizin gələcəyi naminə bu istiqamətdə əlimizdən gələni əsirgəməyəcəyik.

**Niyazi Bayramov** (*Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı*): Möhtərəm cənab Prezident! Sizin təşəbbüsünüzlə qəbul edilmiş regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin uğurlu icrası, şəhərimizlə bağlı imzaladığınız sərəncamlar Gəncə şəhərinin bütün sahələr üzrə davamlı inkişafını təmin edib. Şəhərdə iqtisadiyyatın sürətli inkişafına və yeni iş yerlərinin yaradılmasına nail olunub, 2019-cu ildə ümumi məhsul buraxılışı 4,4 dəfə, sənaye 2,7 dəfə, əsas kapitala yönəldilmiş vəsait 59,7 dəfə, tikinti-quraşdırma işləri 132,8 dəfə artıb. 2019-cu ildə şəhər üzrə 3700-ü daimi olan 5286 yeni iş yeri açılıb. Ümumilikdə 2003-cü ildən bə-

ri 63373 yeni iş yeri yaradılıb ki, onun da 53586-sı daimidir.

Sizin diqqət və qayğınız sayəsində şəhər əhalisinin içməli suya olan tələbatını tam ödəmək və keyfiyyətli su təminatını təmin etmək məqsədilə Gəncə şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması işləri davam etdirilib. Cari ilin əvvəlinə layihə üzrə içməli su şəbəkəsinin 48 faizi və kanalizasiya şəbəkəsinin 29 faizi icra olunub. Əhalinin qaz və elektrik enerjisi ilə təminatının yaxşılaşdırılması istiqamətində mühüm tədbirlər həyata keçirilib, şəhər tam şəkildə, qəsəbələr isə 99 faiz qazlaşdırılıbdır.

2019-cu ildə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Gəncəyə səfəri zamanı verdiyi tapşırıqlara əsasən, 980 şagird-yerlik bir ümumtəhsil məktəbi əsaslı təmir olunub, qəzalı vəziyyətdə olan 280 yerlik Körpələr evi-uşaq bağçası yenidən qurularaq istifadəyə verilibdir. İcazə verin, gəncəlilərə göstərdiyi bu diqqət və qayğıya görə hörmətli Mehriban xanıma bütün gəncəlilərin minnətdarlığını çatdırım. Ümumilikdə isə ötən il 1476 şagird-yerlik 2 məktəb binası əsaslı təmir edilib, bir məktəb üçün əlavə 280 şagird-yerlik yeni korpus inşa olunub, yeni inşa edilmiş və ya əsaslı təmir olunmuş məktəblərin sayı 34-ə çatdırılıbdır.

Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində üçmərtəbəli aqrar yönümlü Peşə Təhsil Mərkəzinin, həmçinin dördmərtəbəli yeni tədris korpusunun tikin-

tisi və Gəncə Dövlət Universitetinin 3 korpusdan ibarət yataqxanalarının əsaslı təmir işləri davam etdirilir.

Bununla yanaşı, 200 çarpayılıq Gəncə Şəhər Psixiatriya Xəstəxanasının tikintisi və tarix-memarlıq abidələri – Şah Abbas və Uğurlu Xan karvansaralarında əsaslı təmir-bərpa işləri başa çatdırılıb. Fikrət Əmirov adına 1 saylı Uşaq Musiqi Məktəbinin, Gəncə Şəhər Uşaq Rəssamlıq Məktəbinin təmiri, Nizami Gəncəvi adına Gəncə Dövlət Tarix-Diyarşünaslıq Muzeyi binasının əsaslı təmir-bərpası, Gəncə Dövlət Dram Teatrının yeni binasının və İdman sarayının tikintisi işləri sürətlə davam etdirilir.

Sizin müvafiq sərəncamlarınızla ayrılmış vəsait hesabına şəhərdə 198 çoxmənzilli binanın dam örtüyü dəyişdirilib, 36 çoxmənzilli binanın fasad hissəsi əsaslı təmir edilib, 46 çoxmənzilli yaşayış binasında 93 ədəd lift yenilənib, ümumi uzunluğu 80 kilometr və sahəsi 1 milyon 232 min kvadratmetr olan 119 küçə və prospektdə yeni asfalt örtüyü salınıbdır. 71 küçə və prospektdə yeni müasir işıqlandırma sistemləri quraşdırılıb, Gəncə şəhərinin Gəncəçay çayı üzərində yerləşən və qəzalı vəziyyətdə olan 5 körpü keçidində təmir-bərpa işləri başa çatdırılıbdır.

Əhaliyə kommunal xidmətlər göstərilməsi sahəsində istifadə olunan maşın-mexanizm parkı da proqrama uyğun olaraq qismən yenilənib və hazırda bu istiqamətdə işlər davam etdirilir.

Dövlət Proqramının icrası çərçivəsində Gəncə şəhərində qəzalı vəziyyətdə olan yataqxanalardan köçü-

rüləcək sakinlər üçün 249 mənzilli yaşayış binasının, həmçinin dördmərtəbəli yaşayış binasında baş vermiş partlayış nəticəsində ziyan çəkmiş sakinlərin mənzil şəraitinin yaxşılaşdırılması məqsədilə inşa olunan yeni çoxmənzilli yaşayış binasının tikintisi də uğurla davam etdirilir.

Sahibkarlıq fəaliyyəti ilə bağlı Sizin imzaladığınız fərman və sərəncamlar Gəncədə də bu sahənin inkişafına geniş imkanlar yaradıb. Bütün bunların nəticəsidir ki, təkcə 2019-cu ildə Gəncə şəhərinə 266 milyon manata yaxın investisiya cəlb edilib. İş adamları tərəfindən istehsal müəssisələrinin, o cümlədən qeyri-istehsal sahələrinin yaradılması və yenidən qurulması üçün 92 milyon manata yaxın investisiya qoyulub. Bu gün şəhərimizdə alçı və tikinti materialları istehsalı zavodlarında ilkin məhsul istehsalına başlanılıb, o cümlədən illik istehsal gücü 30 milyon ədəd müxtəlifölçülü kərpic olan zavodda tikinti işləri sürətləndirilib. Bu sənaye müəssisələrinin istifadəyə verilməsi ilə 1000-ə yaxın şəhər sakini işlə təmin ediləcəkdir.

Şəhərdə sosial-iqtisadi inkişafın və iqtisadi artımın sürətlənməsi, investisiya və işgüzar fəallığın davamlı şəkildə artması nəticəsində vergi daxilolmaları üzrə proqnoz artıqlaması ilə yerinə yetirilibdir.

Cənab Prezident, Sizin təşəbbüsünüzlə regionlarda proqnozdan artıq daxilolmaların 50 faizinin yerli icra hakimiyyətlərinin sərəncamına verilməsi yerlərdə sosial-iqtisadi inkişaf prioritetlərinin həllində əlavə maliyyə mənbələrinin əldə edilməsi üçün böyük bir ye-

nilik olub. Ötən ilin yekunlarına görə, 4 milyon 89 min manat vəsait Gəncə Şəhər İcra Hakimiyyətinin sərəncamına verilib. Bu isə öz növbəsində, şəhərimizin sosial-iqtisadi inkişafına töhfəsini verməklə yanaşı, bizə investisiyaların cəlb edilməsi və sahibkarlığın daha sürətli inkişafını təmin etmək üçün mühüm stimul yaradacaqdır.

Möhtərəm cənab Prezident, şəhərimizə göstərdiyiniz hərtərəfli diqqət və qayğıya görə bütün gəncəlilər adından Sizə bir daha dərin minnətdarlığımı bildirir, Sizi əmin edirəm ki, qarşımıza qoyduğunuz vəzifələri, tövsiyə və tapşırıqları bundan sonra da uğurla yerinə yetirəcəyik.

**Anar Əsədullayev** (*«Naxçıvan Duz İstehsalı» Məhdud Məsuliyyətli Cəmiyyətin direktoru*): Möhtərəm cənab Prezident! Bu gün Sizin rəhbərliyinizlə Azərbaycan dünyanın inkişaf etmiş ölkələri sırasında öz layiqli yerini tutub. Qəbul olunan dövlət proqramlarının icrası, həyata keçirilən kompleks islahatlar ölkəmizdə sabitliyi və davamlı inkişafı təmin edir. Əhalinin həyat səviyyəsi yüksəlib, makroiqtisadi sabitlik qorunub saxlanılıb, regionların tarazlı inkişafına nail olunub, sahibkarlıq fəaliyyəti üçün geniş imkanlar açılıbdır.

Blokada şəraitində olmasına baxmayaraq, Sizin qayğınızla Naxçıvan Muxtar Respublikası da inkişafa qovuşub. Bu gün muxtar respublikada inkişafın əsas göstəricisi olan enerji və ərzaq təhlükəsizliyi tam təmin olunub. Eyni zamanda, sahibkarlığın inkişafı

üçün əlverişli şəraitin yaradılması iqtisadiyyatın çoxşaxəli artımına təkan verib. Sənaye sürətlə inkişaf edərək, ümumi daxili məhsul istehsalında ilk yeri tutub, aqrar sektorda tətbiq edilən güzəştlər isə bu sahənin inkişafını stimullaşdırıbdır.

Muxtar respublikada kiçik və orta sahibkarlığın inkişafı iqtisadi siyasətin prioritet istiqamətinə çevrilib, ümumi daxili məhsulda özəl bölmənin payı artaraq, 88 faizi ötübdür. Hazırda muxtar respublikada məşğul əhalinin 84 faizə yaxını özəl sektorda çalışır. Sənaye məhsulunun 95, tikintidə görülən işlərin 85, kənd təsərrüfatının 98 faizi, ticarət və ictimai iaşə xidmətinin 100 faizi özəl bölmənin payına düşür. Hazırda muxtar respublikada 380 növdə məhsul istehsal olunur, 350 növdə məhsula olan tələbat tamamilə yerli istehsal hesabına ödənilir.

Bu nailiyyətlər yaradılmış əlverişli biznes mühiti, dövlətin sahibkarlığa diqqət və qayğısı nəticəsində mümkün olubdur. Muxtar respublikada yüksəkkeyfiyyətli məhsul istehsal edən müəssisələrdən biri də «Naxçıvan Duz İstehsalı» Məhdud Məsuliyyətli Cəmiyyətdir.

Duz istehsalı Naxçıvanın tarixən özünəməxsus məşğulluq sahələrindən biridir. Daim Naxçıvan duzuna böyük tələbat olub, duzumuz dünyanın müxtəlif ölkələrinə göndərilibdir. Əvvəllər Duzdağda duz açıq üsulla çıxarılırdısa, XX əsrin əvvəllərindən duzun sənaye üsulu ilə hasilatına başlanılıb. Ötən əsrdə uzun müddət istismar olunan şaxtaların birinin müddəti

başa çatıb, digərində isə Duzdağ Fizioterapiya Mərkəzi yaradılıbdır. Tələbatın artması yeni duz şaxtasının açılmasını zəruri edib. Bu istiqamətdə tədbirlər görülüb, 2019-cu ilin sonunda yeni şaxtanın tikintisinə başlanılıbdır. Şaxtanın tikintisinə dövlətimiz tərəfindən böyük dəstək göstərilir. 15 milyon ton ehtiyatı olan yeni duz şaxtasının açılması və müasir istehsal sahəsinin qurulması müəssisəmizin fəaliyyətinin genişlənməsinə, yeni iş yerlərinin açılmasına, Naxçıvan duzunun daha keyfiyyətli formada istehsal edilməsinə və məhsullarımızın ixrac potensialının artırılmasına imkan verəcəkdir.

Bu gün müəssisəmizin məhsulları yerli tələbatı ödəməklə yanaşı, ölkəmizin digər regionlarına da göndərilir. Bakı şəhəri və respublikamızın digər bölgələrində Naxçıvan duzuna olan tələbat günbəgün artmaqdadır. Artıq Bərdə şəhərində müəssisənin bazası yaradılıbdır.

Onu da qeyd edək ki, insan sağlamlığı üçün vacib elementlərlə zəngin olan Naxçıvan duzunun xarici bazarlara çıxarılması, tanıdılması istiqamətində də işlər davam etdirilir. Ayrı-ayrı ölkələrdə keçirilən biznes- forumlarda, sərgilərdə yaxından iştirak edirik. Bu da əlaqələrimizin genişlənməsinə və ixrac imkanlarımızın yaranmasına əlverişli şərait yaradır.

Müəssisəmizdə xammalın çıxarılmasından satışa göndərilməsinədək bütün texnoloji proseslərə, istehsal olunan duzun keyfiyyətinə və sanitar-gigiyenik qaydalara ciddi əməl olunur. Əvvəllər 8 çeşiddə məhsul is-

tehsal edirdiksə, həyata keçirilmiş tədbirlər nəticəsində məhsul çeşidinin sayı 18-ə çatdırılıb, 60 nəfər işlə təmin olunubdur.

Cənab Prezident, çıxışlarınızın birində qeyd etmişdiniz ki, «Sahibkarların uğurlu işi bizim hamımızın uğurudur. Azərbaycanın inkişafı bu istiqamətdədir, bu yoldadır». Bu gün fəxrlə deyirik ki, Azərbaycanda sahibkarlığın inkişafı sahəsində qazanılmış uğurlara Sizin göstərdiyiniz böyük diqqət və qayğı nəticəsində nail olunub. Bütün bunlara görə muxtar respublika sahibkarları adından Sizə dərin minnətdarlığımı bildirir, doğma Azərbaycanımızın tərəqqisi, xalqımızın xoşbəxt və firavan gələcəyi naminə yorulmaz fəaliyyətinizdə uğurlar arzulayıram.

**Ziyəddin Əliyev** (*Quba Rayon İcra Hakimiyyətinin başçısı*): Möhtərəm cənab Prezident!

Hörmətli konfrans iştirakçıları!

Regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası rayonumuzun davamlı inkişafına təkan verib, özünün aqrar və turizm potensialından daha səmərəli istifadə etməyə şərait yaradıbdır.

Hər bölgənin spesifik xüsusiyyətlərini nəzərə alaraq, inkişafının təmin edilməsinə dair tapşırığınıza uyğun olaraq, son illərdə Quba rayonu bağçılıq, heyvandarlıq və turizm üzrə daha da ixtisaslaşıbdır.

Aqrar sahənin inkişafına olan diqqət və qayğınız sakinlərimizi yenidən öz ənənəvi məşğuliyyətlərinə qaytardı. Bağçılığın inkişafına dövlət dəstəyi onları yeni, müasir meyvə bağlarının salınmasına həvəslən-

dirdi. Məlumat üçün bildirim ki, Qubada ümumilikdə 18,2 min hektar bağ sahəsi var, onun da 13,5 min hektarını alma bağları təşkil edir. Ötən il rayonumuzda 1340 hektar intensiv tipli meyvə bağları salınıbdır. Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun Zərdabi qəsəbəsində 15 hektar ərazidə məsafədən idarə edilən «smart bağ» layihəsi icra olunubdur. Sizin xeyir-duanızla istifadəyə verilmiş bu elmi-təcrübə bazası nəinki rayonumuzda, həm də regionda yeni növ meyvə bağlarının salınmasına şərait yaradıbdır.

Bağçılıq və heyvandarlıq sahələrinin inkişafı rayonda «ABAD Factory», «Qubaekoaqrar» və «Ekodray» kimi emal müəssisələrinin açılmasına səbəb olub. Hazırda rayonda ABAD publik hüquqi şəxsin dəstəyi ilə qablaşdırma məhsullarının istehsalı müəssisəsi və gündəlik emal gücü 12 ton olan Süd Emalı zavodunun tikintisi davam etdirilir.

Rayonumuzun təbii iqlim şəraitinin imkan verməsinə baxmayaraq, fındıqçılıq kimi gəlirli sahə uzun müddət diqqətdən kənarda qalmışdı. Sizin fındıqçılığın inkişafına verdiyiniz dəstəyin nəticəsi olaraq, son illərdə rayonda ümumilikdə 2060 hektarda yeni fındıq bağları salınıb ki, bu da 1500-ə yaxın sakinin məşğulluğu deməkdir.

2019-cu ildə rayonda 4964 yeni iş yeri açılıb ki, onun da 3735-i daimidir. Rayonda sahibkarlığın inkişafı sahəsində əhəmiyyətli tədbirlər həyata keçirilib. Məhz bunun nəticəsində 2019-cu ildə rayona 44,8 milyon manat özəl investisiya qoyulubdur.

Quba Azərbaycanın ən zəngin turizm potensialına malik olan rayonlarındandır. Hazırda rayonda 51 mehmanxana fəaliyyət göstərir, 10-a yaxın yeni turizm obyektinin tikintisi isə davam etdirilir. Ötən il Quba Destinasiya Menecmenti Təşkilatının fəaliyyətə başlaması, keçirilən ənənəvi festivallar rayona yerli və əcnəbi turistlərin marağını daha da artırıb. Müqayisə üçün qeyd edim ki, 2015-ci ildə Qubaya 942-si xarici olmaqla, ümumilikdə 23761 nəfər turist gəlmişdisə, 2019-cu ildə xarici turistlərin sayı 36,4 dəfə artaraq, 34328 nəfərə çatıbdır.

Ümumilikdə isə turistlərin sayı 2,8 dəfə artaraq, 66870 nəfər olub. Sizin sərəncamlarınıza uyğun olaraq, həyata keçirilən yol infrastrukturları başa çatdıqdan sonra rayona gələn turistlərin sayı daha da artacaqdır. İndi rayonun Xınalıq, Qonaqkənd, Buduq, Qırız və Yerfi kimi ucqar kəndlərində dünyanın hər yerindən turistlərə rast gəlmək mümkündür. Bütün bunlar Sizin rayonumuza göstərdiyiniz diqqət və qayğı nəticəsində mümkün olubdur.

Sizin təşəbbüsünüzlə regionlarda proqnozdan artıq vergi daxilolmalarının 50 faizinin rayon və şəhər icra hakimiyyətlərinin sərəncamına verilməsi yerlərdə sosial-iqtisadi inkişaf prioritetlərinin həllində, əlavə maliyyə mənbələrinin əldə edilməsi üçün böyük bir yenilikdir. Bu baxımdan ötən ilin yekunlarına görə rayonumuzda daxil olmuş əlavə vergilərin 1,04 milyon manatı yerli icra hakimiyyətinə qaytarılıbdır.

Son 2 ildə rayonun 19 yaşayış məntəqəsinə təbii qaz verilib, bununla da qazlaşdırılmanın səviyyəsi 75,3 faizə çatdırılıb. 110 kilovatlıq Quba yarımstansiyasının istifadəyə verilməsi isə rayonun fasiləsiz və dayanıqlı enerji ilə təmin olunmasına imkan yaradıbdır.

2019-cu ildə rayonun avtomobil yollarının əsaslı şəkildə yenidən qurulması işləri davam etdirilib. Hazırda tikintisi aparılan Quba–Qonaqkənd və Susay–Xınalıq avtomobil yolları istifadəyə verildikdən sonra rayonun yaşayış məntəqələrinin 75,2 faizi yeni yollarla əhatə olunacaqdır.

Sizin sərəncamınıza uyğun olaraq, 2019-cu ildə 960 şagird-yerlik Alekseyevka kənd tam orta məktəbi istifadəyə verilib, 5 kənddə modul tipli məktəb quraşdırılıbdır. Heydər Əliyev Fondunun dəstəyi ilə inşa olunan ümumi tutumu 1642 şagird-yerlik Zərdabi qəsəbə və Birinci Nügədi kənd tam orta məktəblərində isə tikinti işləri davam etdirilir.

Quba şəhərində istismar müddəti başa çatmış çoxmənzilli binalarda yaşayan sakinlər üçün 48 mənzilli yaşayış evinin tikintisi də yekunlaşmaq üzrədir. Sizin sərəncamlarınızla həyata keçirilən və 4,2 milyondan çox ölkə vətəndaşını əhatə edən ciddi sosial islahatlar paketindən qubalılar da bəhrələnirlər. Onlar bunu vətəndaş rifahı naminə Sizin tərəfinizdən atılan inqilabi addım kimi dəyərləndirirlər.

Möhtərəm cənab Prezident, çıxışımın sonunda Sizi bir daha əmin etmək istəyirəm ki, biz qubalılar Sizin

və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rayonumuza göstərdiyiniz diqqət və qayğıya əməli işimizlə cavab verəcək, müstəqil Azərbaycanımızın inkişafı naminə üzərimizə düşən bütün vəzifələri layiqincə yerinə yetirəcəyik.

**Afət Əhmədova** (*«Brightman Business Management Consultants» meyvə və tərəvəz konservlərinin istehsalı müəssisəsinin direktoru*): Möhtərəm cənab Prezident! Hörmətli tədbir iştirakçıları!

Cənab Prezident, son illər Azərbaycanda Sizin rəhbərliyinizlə həyata keçirilən genişmiqyaslı sosial-iqtisadi islahatlar ölkə iqtisadiyyatının daha sürətli templərlə inkişafı üçün şərait yaradıb. İqtisadiyyatın əsas aparıcı qüvvəsi olan özəl sektorun inkişafı məqsədilə görülən işlər, tərəfinizdən qəbul olunan qərarlar ölkəmizdə sahibkarlığın inkişafına əhəmiyyətli təkan veribdir.

Qida məhsulları istehsalı sahəsində kiçik sahibkar kimi, bu gün ölkə rəhbərinə öz fəaliyyətim barədə məruzə etmək şəraitinin yaradılması buna gözəl nümunədir. Azərbaycan neft-qaz ölkəsi olmaqla yanaşı, həm də çox böyük aqrar resursa və potensiala malik uğurlu kənd təsərrüfatı ölkəsidir. Yaradılmış əlverişli imkanlar daha çox çeşiddə yerli məhsul istehsalı üçün şərait yaradır ki, nəticə etibarilə həm yerli istehlakçılar təmin olunur, həm də ixrac imkanları yaranır. Dövlətimiz həm kiçik və orta sahibkarlığın inkişafı üçün maddi və texniki vəsaitlər qismində böyük sərmayələr

yatırıb, həm də çoxşaxəli dəstək mexanizmlərindən istifadə üçün hər cür imkan yaradılıbdır.

Möhtərəm cənab Prezident, bu gün biz dövlətin dəstəyindən yararlanaraq, dünya miqyaslı sərgilərdə öz məhsullarımızı nümayiş etdirmək imkanı qazanmışıq. Belə mötəbər tədbirlərdə iştirak edərək, məhsullarımızı dünya bazarlarına çıxarmaq Sizin dəstəyiniz sayəsində əlçatan olubdur.

Şirkətimiz meyvə və tərəvəzlərdən premium seqmentə aid konserv məhsullarının istehsalı ilə məşğuldur. Tərkibində heç bir kimyəvi qatqı maddələri olmayan, tam təbii məhsullarımız bu xüsusiyyətinə görə dünyanın qabaqcıl ölkələrinin istehlakçıları tərəfindən rəğbətlə qarşılanır. Biz «ZIRA Natural and Gourmet» brendi altında istehsal olunan məhsullarımızla fəxr edirik. Məhsullarımızın bir çoxunun tərkibində şəkər yoxdur və sağlam qidalanma üçün nəzərdə tutulub. Dünyada gedən total sənayeləşmə fonunda belə məhsullar dünya bazarlarında böyük marağa səbəb olur.

Digər bir özəlliyimiz isə yalnız yerli mövsümi xammaldan istifadə və həmin xammalın təchizatını bütün ölkə boyu kiçik fermerlərdən tədarük etməyimizdir. Bu həm yüksəkkeyfiyyətli, pestisidlərsiz xammal əldə etməyə, həm də kiçik fermerlər üçün öz məhsullarını bazar qiymətindən nisbətən yüksək qiymətə birbaşa alıcı şirkətlərə satmağa imkan verir.

Müəssisəmiz 5 ildir fəaliyyət göstərir və bu vaxt ərzində dövlətimizin kiçik və orta biznesə dəstəyinin

bəhrəsi olaraq, bir çox uğurlara imza atmışıq. Fəaliyyətimiz, əsasən ixrac yönümlüdür. Hazırda məhsullarımız Rusiya Federasiyası, Amerika Birləşmiş Ştatları, Ukrayna, Birləşmiş Ərəb Əmirlikləri, Polşa kimi ölkələrə ixrac olunur. Bizim məhsul portfelinin unikallığı qədim Azərbaycan reseptlərinin araşdırılaraq yenidən üzə çıxarılması, nəsildən-nəslə ötürülən təam nümunələrinin dünyaya çatdırılma konsepsiyası üzərində qurulmasıdır.

Məhsullarımız dünyanın bir çox ölkələrində təşkil olunmuş qida və kənd təsərrüfatı sərgilərində ölkəmizi yüksək səviyyədə təmsil edib və sərgi iştirakçılarının böyük marağını qazanıbdır. Məqsədimiz Sizin iqtisadiyyatımız qarşısında qoyduğunuz əsas hədəflərə uyğun olaraq, ənənəvi ixrac bazarlarından əlavə, yeni ixrac bazarlarının tapılması və ixracın coğrafi diversifikasiyasıdır.

Cənab Prezident, Sizin tapşırıqlarınıza uyğun olaraq, qeyri-neft məhsullarının ixracının genişləndirilməsi və «made in Azerbaijan» brendinin dünyada tanıdılması istiqamətində dövlətin dəstəyi ilə mütəmadi olaraq, xarici ölkələrə ixrac missiyaları təşkil olunur, beynəlxalq sərgilərdə vahid ölkə stendi ilə iştirak edilir. Dövlətin vəsaiti hesabına həyata keçirilən dəstək tədbirləri biz sahibkarlar üçün xarici partnyorların tapılması və ixracın artırılması istiqamətində platforma rolunu oynayır. Yaradılmış şəraiti dəyərləndirərək, istehsal etdiyimiz məhsulların xarici bazarlara çı-

xarılması istiqamətində bir sıra müqavilələr bağlanılıb, uğurlu nəticələr əldə olunubdur.

Cənab Prezident, Sizin iqtisadiyyatın real sektorunun inkişafına yönəlmiş tövsiyə və tapşırıqlarınızı rəhbər tutaraq, xammaldan əlavə dəyər yaradan hazır məhsulların istehsalına xüsusi əhəmiyyət veririk. Şirkətimizin məqsədi yalnız məhsul ixrac edib, ölkəyə valyuta axınını təmin etməkdən ibarət deyil. Əsas amalımız qədim Azərbaycan mətbəxini, ənənələrini, tarixini və potensialını dünya xalqlarına çatdırmaq və ümumilikdə keyfiyyətli Azərbaycan məhsulları ideyasını dünyada təbliğ etməkdir. Bu məqsədlə şirkətimiz müxtəlif ölkələrdə məhsullarımızın dequstasiya və təbliğat aksiyalarını təşkil edir.

Möhtərəm cənab Prezident, ümummilli liderimiz Heydər Əliyevin dediyi kimi, hər bir sahibkar özünü respublika iqtisadiyyatının bir hissəsi bilməli və ölkənin iqtisadi tərəqqisi üçün səylər göstərməlidir.

Əlbəttə, hər bir vətəndaşın ən ümdə vəzifəsi və borcu vətəninə ləyaqətlə və vicdanla xidmət etməkdir. Kimi təhsildə, kimi tibdə, kimi orduda vətəninə töhfəsini verməyi böyük qürur və şərəf saymalıdır. Bizim də həyat məqsədimiz və amalımız ölkəmizə iqtisadi sahədə xidmət etmək, keyfiyyətli məhsullar istehsalı ilə iqtisadiyyatımızın inkişafına öz töhfəmizi verməkdir.

Sonda bir kiçik sahibkar kimi, ölkəmizdə iş adamları üçün yaradılmış gözəl şəraitə və bizə olan qayğıya görə Sizə dərin minnətdarlığımı bildirirəm.

**Q ə z ə n f ə r  A ğ a y e v** (*Astara Rayon İcra Hakimiyyətinin başçısı*): Möhtərəm cənab Prezident!

Ölkəmizin hər yerində olduğu kimi, Astara rayonunda da Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrası istiqamətində işlər uğurla davam etdirilibdir.

Sizin dəstəyiniz, rayona etdiyiniz səfərlər zamanı verdiyiniz tapşırıq və tövsiyələr, həmçinin sərəncamlarınızla ayrılan vəsaitlər hesabına rayonda geniş abadlıq-quruculuq işləri həyata keçirilib. 2019-cu ildə sosial infrastrukturun yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılıb, 7 kənddə modul tipli məktəblər tikilib, Astara şəhərinin içməli suya olan tələbatının ödənilməsi məqsədilə ümumilikdə 4100 abonentə su xətti çəkilib, hazırda isə daha 2 kənddə bu işlər davam etdirilir. Astaraçay və Pensər çayında sahilboyu təhlükəsizlik tədbirləri görülüb, ümumilikdə 910 poqonmetr mühafizə divarı tikilibdir.

Ötən il Astara şəhərində istismar müddəti başa çatmış evlərin sakinləri üçün 48 mənzilli yaşayış binası tikilib, torpaq sürüşməsi nəticəsində evləri qəzalı vəziyyətə düşmüş ailələr üçün 2019-cu ildə imzaladığınız sərəncamla ayrılmış vəsait hesabına 36 mənzilli yaşayış binasının tikintisinə başlanılıbdır.

Son illərdə yol infrastrukturunun yaxşılaşdırılması üçün genişmiqyaslı işlər görülüb, ümumi uzunluğu 150 kilometr olan avtomobil yolları çəkilibdir. 2019-cu ildə Ərçivan–Züngüləş avtomobil yolu istifa-

dəyə verilib və hazırda yaşayış məntəqələrinin 72 faiz əhalisi yeni asfalt yollardan istifadə edir. Ev təsərrüfatlarının 84 faizi qazlaşdırılıb və bu il daha 4 kəndə təbii qaz veriləcəkdir.

Bütün bunlar Sizin sakinlərimizin rahat yaşamaları üçün həyata keçirdiyiniz böyük sosial yönümlü işlər sayəsində ərsəyə gəlibdir. Ulu öndərimiz Heydər Əliyevin ideyalarına sadiq olan astaralılar onlar üçün yaradılmış bu şəraitə, yüksək diqqət və qayğıya görə Sizə sonsuz minnətdarlıqlarını bildirirlər.

Aqrar sahənin inkişafı üçün yaratdığınız şərait, böyük uzaqgörənliklə həyata keçirdiyiniz iqtisadi kurs rayonumuzda da öz müsbət nəticəsini verməkdədir. 2017-ci ildə Lənkəranda keçirilmiş respublika müşavirəsində çayçılığın, sitrusçuluğun və çəltikçiliyin inkişafı məsələlərinə dair verdiyiniz tapşırıqlar və sonradan qəbul etdiyiniz mühüm dövlət proqramları bu sahələrin inkişafına böyük təkan veribdir. Çayçılıq Astarada kənd təsərrüfatının ənənəvi sahələrindən biridir. «Astaraçay» fabrikində istehsal edilən ekoloji təmiz Astara çayı Moskvada, Dubayda keçirilmiş beynəlxalq sərgilərdə mükafatlara layiq görülübdür. 2019-cu ildə 273 hektar sahədən 583 ton yaşıl çay yarpağı yığılaraq, fabriklərə təhvil verilib ki, bu da 2017-ci illə müqayisədə 106 ton və ya 22 faiz çoxdur. Çay sahələrinin 500 hektara çatdırılması indi qarşımızda duran əsas vəzifələrdən biridir. Ən əsası isə odur ki, bunun nəticəsində yüzlərlə insanın məşğulluğunu təmin etmək mümkün olacaqdır.

Rayonumuzda əsas ənənəvi istehsal sahələrindən biri də sitrusçuluqdur. Bu sahədə səmərəliliyi artırmaq məqsədilə türk mütəxəssislərlə təcrübə mübadiləsi sayəsində rayona şaxtayadavamlı yapon sortu olan sitrus tingləri gətirilib, innovativ üsullarla 1700 hektarda yeni sitrus bağları salınıb, onların ümumi sahəsi 4035 hektara çatdırılıb ki, bu da əvvəlki illərlə müqayisədə 2 dəfə çoxdur. Ötən il ümumi dəyəri 30 milyon manat olan 43 min ton məhsul istehsal edilib, nəticədə 10 min nəfərə yaxın sitrusçu fermerin, fərdi təsərrüfatçının ailə büdcələri əhəmiyyətli dərəcədə artıb, onların ümumi gəlirləri 11,8 milyon manatı ötübdür. Sitrusçular hazırda bağ sahələrinin artırılması istiqamətində işlər aparırlar.

Rayonda çəltikçiliyin də inkişaf etdirilməsi üçün bir sıra tədbirlər həyata keçirilib, sutkalıq gücü 40 ton olan müasir Çəltik Emalı zavodu istifadəyə verilibdir. Artıq Astara düyüsü brend olaraq ölkə bazarlarında öz yerini tutubdur.

Astaranın iqtisadi inkişafını xarakterizə edən sahələrdən biri də turizmdir. Böyük turizm potensialı olan rayonumuzda termal suların, nadir təbii landşaftın və tarixi abidələrin olması, ucqar dağ kəndlərinə belə, asfalt yolların çəkilməsi, cənub bölgəsinə yeni həyat gətirən Ələt–Astara magistral yolunun istifadəyə verilməsi rayonda turizmin inkişafı üçün münbit şərait yaradır. Bunun nəticəsidir ki, xarici investorların rayonumuza turizm bölgəsi kimi marağı getdikcə artmaqdadır.

Möhtərəm cənab Prezident, bir məsələni də xüsusilə qeyd etmək istəyirəm. Əhalisinin sayı az olan, ən ucqar dağlıq ərazidə yerləşən 5 kənddə hələ sovetlər dövründən elektrik xəttinin və avtomobil yolunun olmadığını biləndə, xərclərin çox olmasına baxmayaraq, keçən il dərhal tapşırıq verdiniz ki, bu kəndlərə elektrik xətti də, yol da çəkilməlidir. Bu gün həmin kəndlərdə yol da, işıq da vardır.

Sonda icazə verin, rayonumuzun hər bir sakininə göstərdiyiniz yüksək diqqət və qayğıya görə bir daha onların dərin minnətdarlığını çatdırım və Sizi əmin edim ki, bundan sonra da qarşımıza qoyduğunuz vəzifələrin yerinə yetirilməsi üçün əlimizdən gələni edəcəyik.

**Anar Orucov** (*«Ağstafa Aqrar Sənaye Kompleksi» müəssisəsinin icraçı direktoru*): Möhtərəm cənab Prezident!

Sizin rəhbərliyinizlə ölkəmizdə qeyri-neft sektorunun inkişafı istiqamətində aparılan genişmiqyaslı işlər nəticəsində paytaxt Bakı ilə yanaşı, regionlarımızın da inkişafı təmin olunub, xüsusilə kənd təsərrüfatı sahəsində geniş təyinatlı infrastruktur şəbəkələri yaradılıb, ümumilikdə regionlarımızda sahibkarlıq fəaliyyətinə maraq artıbdır. Nəticədə ən müasir texnologiyalara əsaslanan rəqabətqabliyyətli, ixrac yönümlü və idxaləvəzləyici məhsul istehsal edən müəssisələr yaradılıb, əhalinin məşğulluq və həyat səviyyəsi daha da yaxşılaşdırılıbdır.

Cənab Prezident, ərzaq təhlükəsizliyinin təmin edilməsi çərçivəsində ölkəmizdə ənənəvi kənd təsərrüfatı sahələrindən biri hesab olunan taxılçılığın inkişafı istiqamətində verdiyiniz tövsiyələrin icrası ilə əlaqədar müəssisəmiz tərəfindən bir sıra işlər görülüb. Belə ki, 2012-ci il aprel ayının 12-də Sizin iştirakınızla müasir avadanlıq və 80-dən artıq kənd təsərrüfatı texnikası ilə təchiz edilmiş özəl «Ağstafa Aqroservis» müəssisəsinin açılışı həyata keçirilib. Müəssisənin inkişaf planına əsasən, 2012–2019-cu illərdə Ağstafa rayonunun Ceyrançöl sahəsində istifadəmizə verilmiş 2748 hektar torpaq sahəsində növbəli əkin sistemi tətbiq edilərək, ərzaq buğdası, yonca, arpa və digər məhsullar istehsal edilir. Təkcə 2018–2019-cu əkin ilində istifadədə olan torpaq sahəmizdə 8200 ton yüksək zülallı ərzaq taxılı, 1200 ton günəbaxan dəni istehsal edilibdir. Hazırda əlavə olaraq, 3800 hektar torpaq sahəsinin əkin dövriyyəsinə daxil edilməklə, müəssisəmizin istehsal gücünün artırılması məqsədi ilə müvafiq işlər aparılır.

Möhtərəm cənab Prezident, iri özəl taxılçılıq və sənaye istehsalı müəssisələrinin yaradılmasının vacibliyi ilə bağlı tövsiyələrinizi nəzərə alaraq, 2016-cı il oktyabr ayının 19-da Sizin iştirakınızla təməli qoyulmuş 5 zavoddan ibarət Ağstafa Aqroparkı xarici mütəxəssislərlə birgə layihələndirilib və tikinti-quraşdırma işləri həyata keçirilir.

Cənab Prezident, icazənizlə, təməlqoymadan sonrakı dövr ərzində görülmüş işlər barədə qısa məlumat

verim. Layihə üzrə əsasən Almaniya və İsveçrənin nüfuzlu şirkətlərinin istehsal etdiyi, saatda 200 ton emal gücünə malik, ilkin təmizləmə avadanlığı, saatda 50 ton qurutma gücünə malik və ümumi saxlama həcmi 36 min ton olan rezervuar, saatda 25 ton emal gücü olan Dənli Bitkilər Toxumu İstehsalı zavodu, saatda 5 ton emal gücünə malik Paxlalı Bitkilər Toxumu İstehsalı zavodu, saatda 5 ton emal gücündə dəyirman kompleksi, sutkada 36 ton istehsal gücündə Çörək və Yarımfabrikatlar zavodu inşa edilərək, avadanlıqları quraşdırılıbdır.

Layihə üzrə nəzərdə tutulmuş bütün işlər başa çatdırılıb, texnoloji avadanlıqların sazlama prosesi yekunlaşmaq üzrədir. Görülmüş işlərin nəticəsində «sahədən süfrəyə» prinsipini əsas tutaraq, bütün istehsal prosesini zəncirvarı olaraq qurmağa müvəffəq olmuşuq. Hazırda müəssisəmizdə və törəmə müəssisələrimizdə 360 nəfər işlə təmin olunubdur.

Cənab Prezident, layihənin ümumi dəyəri 86 milyon manat təşkil edir ki, bunun da bir hissəsi Almaniyanın «Euler Hermes» ixracat sığortası dəstəyi ilə Almaniya bankından götürülmüş kredit, 5 milyon manatı dövlətimizin sahibkarlığın inkişafı məqsədilə ayırdığı güzəştli kredit və müəssisənin daxili imkanları hesabına icra edilibdir. Bildirmək istəyirəm ki, müəssisəmizə təqdim olunmuş investisiya təşviqi sənədi əsasında Avropa ölkələrindən idxal etdiyimiz texnoloji xətlər idxalda gömrük rüsumundan azad edilib, eləcə də müəssisəmizə 7 il müddətinə vergi güzəştləri tətbiq

olunubdur. Təşviq sənədinin alınması nəticəsində qənaət olunmuş 2 milyon 600 min manat vəsait müəssisənin yaradılmasında istifadə edilibdir.

Möhtərəm cənab Prezident, müəssisəmizin çoxsaylı kollektivi adından Sizi əmin edirəm ki, iqtisadiyyatımızın inkişafı və xalqımızın rifahının daha da yaxşılaşdırılması istiqamətində göstərdiyiniz bu fədakar fəaliyyətinizdə həmişə Sizin yanınızda olacağıq.

**Ceyhun Cəfərov** (*Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı*): Möhtərəm cənab Prezident!

Sizin təşəbbüsünüzlə həyata keçirilən regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının uğurlu icrası nəticəsində respublikamızın bütün şəhər və rayonları kimi, Kürdəmir rayonunun da siması köklü şəkildə dəyişib, infrastruktur təminatı, kommunal xidmətlərin keyfiyyəti yaxşılaşıb, əhalinin məşğulluq səviyyəsi və rifahı əhəmiyyətli dərəcədə yüksəlibdir.

İqtisadiyyatın mühüm sahələrindən olan kənd təsərrüfatı rayonumuzda dirçəliş dövrünü yaşayır. Xüsusilə əkin torpaqlarının az münbit olmasına baxmayaraq, əkinçilik sahəsi sürətlə inkişaf etməkdədir. Kəndlilərə, fermerlərə və sahibkarlara göstərdiyiniz diqqətin nəticəsidir ki, insanların torpağa bağlılığı artır, onlar Sizin qayğınızı daha çox hiss edir, dövlətin dəstəyindən istifadə etməklə, məhsul bolluğu yaratmağa çalışırlar.

Möhtərəm cənab Prezident, Sizin tapşırığınız və tövsiyələrinizə uyğun olaraq, ötən il rayonumuzda 2809 hektarda pambıq əkilib və 6497,4 ton məhsul

tədarük edilibdir. Pambıq sahələrinin hər hektardan orta məhsuldarlığı hətta 1981-ci ilin göstəricilərindən də yüksək olub. Pambığın əkilməsi, becərilməsi və yığılması işlərinə 6000-dən çox işçi qüvvəsi cəlb edilib, onlar yüksək gəlir əldə etməklə, öz büdcələrinə 2 milyon 500 min manat vəsait daxil ediblər. Bununla yanaşı, illik istehsal gücü 30 min ton olan Pambıq Emalı zavodu yenidən qurularaq, istifadəyə verilibdir.

Siz çıxışlarınızda baramanın ixrac yönümlü məhsul olmasını, ölkənin valyuta ehtiyatlarının artırılmasında və yeni iş yerlərinin yaradılmasında mühüm amil olduğunu qeyd edərək, bu sahənin inkişaf etdirilməsini bir vəzifə kimi qarşımıza qoymusunuz. Ötən il kümçülərimiz 22,6 ton barama tədarük edib və barama istehsalından 204 min manata yaxın gəlir əldə olunubdur. Baramaçılığın yem bazasının formalaşdırılması istiqamətində işlər davam etdirilib, ötən il 20 min ədəd tut tingi əkilərək, tinglərin sayı ümumilikdə 238500 ədədə çatdırılıbdır. 2019-cu ildə taxılçılıq sahəsində də böyük uğurlar qazanılıb. Belə ki, təsərrüfatlarda 136417 ton taxıl istehsal edilib, orta məhsuldarlıq son 2 ildə 10 sentnerdən çox artaraq, hər hektardan 33,2 sentnerə çatıbdır.

Ölkəmizdə qabaqcıl texnologiya və təcrübəyə əsaslanan, rəqabətqabliyyətli məhsul istehsalında, emal sənayesinin davamlı olaraq yüksəkkeyfiyyətli və maya dəyəri aşağı xammalla təmin olunmasında, ərzaq bolluğu yaradılması ilə yanaşı, regionlarda məşğulluğun artırılmasında əhəmiyyətli rola malik aqroparkların

və iri fermer təsərrüfatlarının yaradılması ilə bağlı Sizin tapşırıqlarınıza uyğun olaraq, rayonumuzda 14917 hektar sahədə 4 aqroparkın yaradılması istiqamətində işlər davam etdirilir. Ötən il ümumi sahəsi 4446 hektar olan bitkiçilik sahəsi üzrə ixtisaslaşmış 2 aqroparkda işlər başa çatdırılıb, daha 2 aqroparkda layihələndirmə və tikinti-quraşdırma işləri aparılır.

Rayonumuzda heyvandarlıq sahəsinin də inkişafı diqqət mərkəzində saxlanılır. Sizin qayğınız sayəsində Kürdəmir Süd Emalı zavodunun fəaliyyəti genişləndirilib, yeni istehsal sahələri yaradılıb və zavodda 80 çeşiddən çox məhsul istehsal edilir. Bununla yanaşı, kompleksdə heyvanların sayı 3000 başa, aylıq süd istehsalı 1100 tona çatdırılıbdır.

Azərbaycanda termal su ilə isidilən ilk və yeganə təsərrüfat olan «Geotermal Aqro» MMC-yə ayrılmış 55 hektarın 7 hektarında artıq müasir istixana kompleksi quraşdırılıb. Müəssisəyə 15 milyon manat investisiya qoyulub, növbəti illərdə daha 10 milyon manat investisiya qoyulması planlaşdırılır. Hazırda kompleksdə 80 nəfər çalışır, mövsüm vaxtı isə 200 nəfər işlə təmin edilir. Kompleksdə işlər tam başa çatdıqdan sonra 500 nəfər daimi işlə təmin olunacaq. Keçən il müəssisədə istehsal olunmuş 2100 ton pomidordan 1500 tonu Rusiyaya ixrac edilibdir.

Rayonda sahibkarlara yaradılmış münbit şərait nəticəsində 2019-cu ildə ümumilikdə özəl sahəyə 79 milyon 20 min manat investisiya qoyulub, Sahibkarlığın

İnkişafı Fondunun xətti ilə sahibkarlarımıza 7 milyon 947 min manat güzəştli kredit verilibdir.

Dövlət Proqramının birinci ilində nəzərdə tutulmuş layihələrin icrası nəticəsində rayonumuzda ümumilikdə 941-i daimi olmaqla, 1492 yeni iş yeri yaradılıbdır.

Sizin diqqət və qayğınız nəticəsində rayonumuzda abadlıq və quruculuq işləri, sosial layihələrin icrası sürətlə davam etdirilir. Dövlət proqramlarının icrası nəticəsində ümumilikdə 118,2 kilometr, o cümlədən 2019-cu ildə 88,2 kilometr uzunluğunda yerli əhəmiyyətli avtomobil yollarının tikintisi başa çatdırılıb, çoxmərtəbəli 46 ictimai yaşayış binalarının dam örtükləri dəyişdirilib və ya təmir olunub, qazlaşdırılmanın səviyyəsi 99,4 faizə çatdırılıb, elektrik təsərrüfatında yenidən qurulma işləri davam etdirilibdir.

İctimai xidmətlər sahəsində inqilabi layihəniz hesab edilən və əhalinin böyük sevinclə qarşıladığı «ASAN xidmət» Mərkəzinin tikintisi başa çatdırılıb. Xalça istehsalı emalatxanası da fəaliyyətə başlayıb, 563 məcburi köçkün ailəsinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədi ilə mənzillər tikilərək, istifadəyə verilibdir.

Möhtərəm cənab Prezident, Sizi əmin etmək istəyirəm ki, biz kürdəmirlilər Sizin diqqət və qayğınıza bundan sonra da əməli işlərimizlə cavab verəcək, Azərbaycanın tərəqqisi naminə qarşıya qoyduğunuz vəzifələrin həyata keçirilməsi üçün var gücümüzlə çalışacağıq.

## Azərbaycan Prezidenti İlham Əliyevin yekun nitqi

Konfransın ikinci hissəsində 4 panel təşkil olunacaq və bütün sahələri əhatə edən məsələlər, o cümlədən iqtisadiyyat, kənd təsərrüfatı, infrastruktur, bank-kredit məsələləri və digər məsələlər müzakirə ediləcəkdir. Həm yerli icra orqanları, həm sahibkarlar mərkəzi icra orqanlarının nümayəndələri ilə birlikdə bu məsələləri müzakirə edəcək, mövcud problemlər haqqında danışacaqlar və əlbəttə ki, bu il görüləcək işlər haqqında da söhbət gedəcək. Elə etməliyik ki, proqramda nəzərdə tutulan bütün məsələlər öz həllini tapsın. 2020-ci ildə bəzi məsələlər ortalığa çıxıb, onların da həlli üçün imkanlar olmalıdır. Dövlət İnvestisiya Proqramı təsdiq edilib, kifayət qədər böyük proqramdır. Eyni zamanda, müəyyən dərəcədə ehtiyatlar da vardır. Çünki il ərzində bəzi məsələlər ortalığa çıxır ki, onların da həlli vacibdir.

İndi isə görüləcək əsas işlər, layihələr haqqında demək istərdim ki, bu il də proqramın icrası və ümumiyyətlə, ölkəmizin inkişafı təmin edilsin. İlk növbədə, infrastruktur layihələrindən başlamaq istərdim, baxmayaraq ki, bu sahədə böyük uğurlar əldə edilib, məsələlərin böyük hissəsi öz həllini tapıbdır. Ancaq həyat yerində durmur. Ölkəmizin tələbatı, əhalisi, sənaye potensialı artır, yeni müəssisələr istifadəyə verilir. Ona görə infrastruktur layihələrinin icrası bundan sonra da təmin edilməlidir.

Mən elektrik enerjisinin istehsalı ilə bağlı giriş sözümdə bəzi məlumatları verdim. Əlavə etmək istəyirəm ki, bu ilin yanvar ayında önəmli hadisə baş verib. İki böyük xarici investor ilə Azərbaycan arasında bərpa olunan enerji növlərinin istehsalı üzrə Niyyət Protokolu imzalanıbdır. Əslində bu, İcra Müqaviləsi adlandırılır və il ərzində bu müqavilələr üzərində daha müfəssəl iş aparılacaqdır. Əminəm ki, bu ilin sonunda müvafiq kontraktlar da imzalanacaqdır. Bu məsələnin çox böyük əhəmiyyəti vardır. Çünki bu, sırf xarici sərmayə hesabına istehsal ediləcək bərpa olunan enerji növləridir. Mən bunu giriş sözümdə də dedim – əgər bizim kredit reytinqimiz yüksək olmasa idi, biznes mühitinə görə Azərbaycan 20 ən islahatçı ölkə kimi tanınmasaydı, xarici investorlar vəsait qoymazdılar.

Mən o böyük şirkətlərin rəhbərləri ilə görüşərkən onu da yəqin etdim ki, bu qərarın əsas səbəbi ölkəmizdə mövcud olan sabitlik, əmin-amanlıq və Azərbaycanın uzunmüddətli inkişafına investorların inamıdır. Bunlar çox böyük layihələrdir. İki elektrik stansiyası tikiləcək – biri külək, biri Günəş. Bu iki stansiyanın ümumi generasiya gücü 440 meqavat səviyyəsindədir, çox böyük stansiyalardır. Təqribən 400 milyon dollara qədər xarici sərmayə qoyuluşu nəzərdə tutulur. Ona görə əminəm ki, bundan sonra digər investorlar da maraq göstərəcəklər. Deyə bilərəm ki, bu layihəni icra etmək üçün bizə dünyanın 9 aparıcı şirkətindən müraciətlər daxil olmuşdur. Artıq, əgər belə demək mümkündürsə, kənarda qalmış şirkətlərlə də

fərdi qaydada iş aparılır, onlar üçün yeni təkliflər hazırlanır. Əminəm ki, bərpa olunan enerji növlərinin ümumi generasiya gücümüzdəki payı getdikcə artacaq və artmalıdır.

Bununla paralel olaraq, «Azərenerji»nin xətti ilə bu il yeni böyük elektrik stansiyasının tikintisinə başlanılacaq. Bu stansiyanın generasiya gücü təqribən 350–400 meqavat ətrafındadır. Buna ehtiyac, tələbat vardır. Çünki qeyd etdiyim kimi, bizim ixrac imkanlarımız genişlənir, daxili tələbat getdikcə artacaq və daxili istehlak daim nəzərə alınmalıdır. Bizim hazırda 1000 meqavata yaxın generasiya gücümüz var ki, daxildə istifadə edilmir. Onun da böyük hissəsi ixrac olunur.

«Azərenerji»nin xətti ilə yeni Külək Elektrik Stansiyasının tikintisinə də başlanılmalıdır. Bu yaxınlarda 50 meqavat gücündə bir stansiya istifadəyə verilibdir. İkinci stansiyanın generasiya gücü 84 meqavatdır. Bu da Azərbaycanda bərpa olunan enerji növünün növbəti təzahürüdür. İndi dünyanın bir neçə ölkəsində buna oxşar layihələr icra edilir, xüsusilə təbii resurslarla zəngin olmayan ölkələrdə. Bizim isə siyasətimiz bundan ibarətdir – baxmayaraq ki, neftimiz də, qazımız da var – neftdən, qazdan qənaətlə istifadə etmək və daha çox ixraca yönəltmək üçün bərpa olunan enerji növlərindən istifadə etməliyik. Xüsusilə nəzərə alsaq ki, Günəşimiz də, küləyimiz də boldur.

Eyni zamanda, Mingəçevir İstilik Elektrik Stansiyasının qalan 3 blokunda bərpa-tikinti işləri aparılacaq.

5 blok təmir olunub və bu da əlavə təqribən 400 meqavata yaxın generasiya gücü deməkdir. Ona görə biz yaxın 2-3 il ərzində enerji gücümüzü xeyli artıracağıq. Bununla paralel olaraq, əlbəttə ki, transformatorların quraşdırılması, yeni yarımstansiyaların fəaliyyətə başlaması, elektrik xətlərinin təzələnməsi gündəlikdə duran məsələlərdir.

Qazlaşdırılmaya gəldikdə, baxmayaraq ki, artıq qeyd etdiyim kimi, biz 96 faizə çatmışıq, yenə də Dövlət İnvestisiya Proqramında Azərbaycan Dövlət Neft Şirkətinə dövlət büdcəsindən qazlaşdırılmaya 130 milyon manat vəsait nəzərdə tutulur. Bu vəsaitdən istifadə edərək, bir çox kəndlər – bu gün hələ qaz almayan kəndlər qazlaşdırılacaq.

Avtomobil yollarının çəkilişi ilə bağlı bir neçə önəmli layihə həyata keçirilir. Onlardan biri Gəncə–Gürcüstan sərhədi avtomobil yolunun 4 zolağa genişləndirilməsidir. İşlər gedir və əminəm ki, başa çatacaqdır. Sumqayıtdan Rusiya sərhədinə gedən yeni dördzolaqlı yolun tikintisi aparılır və hesab edirəm ki, ilin sonuna qədər bu yol da istifadəyə veriləcəkdir. Astara–İran sərhədi avtomobil yolunun tikintisi də gündəlikdədir. İndi magistral yol tam yeni məcra ilə cənub istiqamətinə gedir. Ancaq Astara şəhərinin içərisindən keçir və bu həm vətəndaşlar üçün narahatlıq yaradır, həm də ki, yükburaxma qabiliyyəti aşağı düşür. Ona görə Astara şəhərinə girmədən rayon ərazisindən İran sərhədinə qədər yeni magistral yolun çəkilişi, o cümlədən avtomobil körpüsünün tikintisi nəzərdə tutulur. Bu layihə də bu ilin sonuna qədər başa çatdırılmalıdır.

Eyni zamanda, Şamaxı–İsmayıllı–Qəbələ yolunun bərpası və genişləndirilməsi nəzərdə tutulur. Bu yol sürüşmə zonasından keçdiyindən, yolun bərpası uzun illər ərzində mümkün olmamışdır. Ancaq yeni texnologiyalar

əsasında və yeni məcranın tapılması istiqamətində aparılmış işlər nəticəsində bu yolun da genişləndirilməsi və keyfiyyətinin yaxşılaşdırılması nəzərdə tutulur.

Bu il Bakı qəsəbələrində yeni yolların çəkilişi xüsusi əhəmiyyət daşıyacaq. Keçən il biz bu işlərlə daha geniş miqyasda məşğul olmağa başlamışıq. Əlbəttə ki, bəzi qəsəbələrdə yollar bərbad vəziyyətdədir və bu dözülməzdir. Biz ən ucqar dağ kəndlərinə gözəl yollar çəkirik. Amma burada – Bakının ətrafında bəzi yerlərdə yollar pis gündədir. Ona görə müvafiq göstərişlər verilib. Keçən il bu sahəyə daha böyük diqqət ayrılıb və bu il də yol çəkilişi proqramları arasında bu sahə prioritet təşkil edəcəkdir.

Bütövlükdə bu il 1000 kilometr avtomobil yolunun çəkilişi nəzərdə tutulur. Keçən il də 1000 kilometr nəzərdə tutulurdu. Ancaq dediyim kimi, keçən il 1300 kilometr çəkildi. İstisna olunmur ki, bu il də çəkiləcək yolların uzunluğu daha böyük olacaqdır.

Dəmir yolunun bərpası və çəkilişi ilə bağlı deyə bilərəm ki, Gəncə–Gürcüstan sərhədi dəmir yolunun sürətinin artırılması nəzərdə tutulur. Bakı–Gəncə dəmir yolunun çəkilişi tamamilə başa çatıb. Mən o vaxt Gəncədə olarkən söz vermişdim ki, bu, təmin ediləcəkdir. Elə də oldu. İndi çox rahat, sürətli qatarla Bakıdan Gəncə şəhərinə getmək olar. İndi sərhədə qədər bu dəmir yolunun bərpası başa çatdırılmalıdır.

Eyni zamanda, Şimal–Cənub nəqliyyat dəhlizinin tərkib hissəsi olan Bakı–Yalama dəmir yolunun yenidən qurulması gündəlikdədir. Bununla yanaşı, Xudatdan Şahdağa dəmir yolunun çəkilişi nəzərdə tutulur. «Şahdağ» dağ-xizək kurortu indi nəinki MDB məkanında, bütün dünyada tanınır. Bunun ikinci mərhələsi işə düşəndən sonra maraq daha da artıbdır. Ona görə mütləq bu kurorta

dəmir yolu çəkilməlidir. Bu həm bölgədə yaşayan vətəndaşlara, həm də xarici qonaqlara və Bakı sakinlərinə rahatlıq gətirəcəkdir. Artıq müvafiq sərəncam verilib və vəsait də ayrılıbdır.

Ələt–Astara dəmir yolunun yenidən qurulması və yolun marşrutunun dəyişdirilməsi, sahildən kənarlaşdırılması üzərində iş aparılır. Bu il vəsait də nəzərdə tutulur. Bu il şəhərlərarası dəmir yolları arasında Ləki–Qəbələ dəmir yolunun fəaliyyətə başlaması nəzərdə tutulur. Giriş sözümdə dediyim kimi, Bakıətrafı, Bakı qəsəbələrinə gedən dəmir yolunun davam etdirilməsi də nəzərdə tutulur.

İçməli su layihələri ilə əlaqədar bildirməliyəm ki, bu günə qədər ölkəmizin cəmi 5 şəhərində içməli su və kanalizasiya layihələri başlanılmamışdır. Yəni bütün qalan şəhərlərdə bu işlər ya tamamlanıb, ya da ki, icradadır. Ona görə bu 5 şəhərin içməli su problemi nəzərə alınmalıdır. Bu ildən bu layihələrin icrasına start verilməlidir. Əminəm ki, yaxın gələcəkdə ölkəmizdə bir dənə də şəhər olmayacaq ki, sutkaboyu Ümumdünya Səhiyyə Təşkilatının standartlarına cavab verən içməli su ilə təmin edilməsin. Eyni zamanda, biz bu il suvarma üçün 400-dən çox subartezian quyusunun qazılmasını təmin etməliyik. Bu quyuların sayı ildən-ilə artır, tələbat var və biz bunu edəcəyik. Bu, Dövlət İnvestisiya Proqramında nəzərdə tutulubdur.

Ekoloji vəziyyətin yaxşılaşdırılması daim diqqət mərkəzindədir. Bu istiqamətdə bir çox önəmli tədbirlər görülür. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin xətti ilə çaylarboyu yerləşən bir çox kənddə modul tipli təmizləyici qurğular quraşdırılıbdır. Ancaq mənə bəzi yerlərdən gələn məlumata görə, bu qurğuların bir neçəsi sıradan çıxıbdır. Ona görə birinci növbədə, bu qurğuların fəaliyyəti ilə bağlı

monitorinq keçirilməli, geniş təhlil aparılmalı, mənə məruzə edilməlidir ki, onların vəziyyəti nə yerdədir. İkincisi, bu qurğuların istismarı ilə bağlı gərək təkliflər verilsin. Əfsuslar olsun ki, bu günə qədər bu qurğular başlı-başına buraxılıbdır.

Yerli icra orqanları, bələdiyyələr əslində bu qurğuların istismarı ilə məşğul olmalıdır. Bir çox yerlərdə belə deyil. Ekologiya və Təbii Sərvətlər Nazirliyi bu qurğuları quraşdırıb və sanki işini yekunlaşdırıb. Ona görə həm monitorinq aparılmalıdır, həm də lazımdırsa, yeni kəndlərdə belə qurğular quraşdırılmalıdır və onların istismarı ilə bağlı konkret bir məsul qurum müəyyən edilməlidir.

Ağac əkmə prosesi davam etdiriləcək. Keçən il Nəsiminin 650 illiyi ilə bağlı bir gündə 650 min ağac əkildi. Son illərdə isə əkilən ağacların sayı bəlkə də 10–20 milyonu ötüb. Bu çox müsbət haldır. Xüsusilə təbiəti ağacla o qədər də zəngin olmayan bölgələrdə bu proses geniş vüsət alıb və almalıdır. Bununla paralel olaraq, çirklənmiş yerlərin təmizlənməsi, torpaqların rekultivasiyası prosesi davam etdirilir. Abşeron yarımadasında bu işlər aparılır və aparılacaqdır. Bizim mövcud göllərin təmizlənməsi prosesi daha geniş vüsət almalıdır. Biz hələlik yalnız Böyükşor gölünün bir hissəsini təmizləmişik. Bu da çox böyük layihədir. İndi digər hissənin və həmçinin digər göllərin təmizlənməsi gündəlikdədir.

Son illərdə bu istiqamətdə çox böyük işlər görülüb. Bakı sakinləri və qonaqlar hiss edirlər ki, burada havanın keyfiyyəti xeyli yaxşılaşıb. Nəyin hesabına? Çünki biz havanı çirkləndirən bir çox mənbələri ləğv etdik. Onlardan biri Bibiheybət zonası idi, hansı ki, o, ekoloji fəlakət mənzərəsi idi. İndi orada park salınıb, idman qurğuları,

xiyabanlar yaradılıb, bulvar o zonaya qədər uzadılıbdır. İkincisi, havanı, ekologiyanı böyük dərəcədə çirkləndirən «Qara şəhər» idi. İndi onun yerində «Ağ şəhər» yerləşir. Bu da böyük şəhərsalma layihəsidir. Yaxın gələcəkdə Neft-ayırma zavodunun o ərazidən köçürülməsi nəticəsində həm bulvarın uzunluğu artacaq, həm də o zonada ekoloji vəziyyət daha da yaxşılaşacaqdır. Əlbəttə, Balaxanı zibilxanası havanı, demək olar ki, zəhərləyirdi. Çünki orada yanan məişət tullantılarının söndürülməsi mümkün deyildi. Hazırda orada böyük Zibilyandırma zavodu və çeşidləmə poliqonu fəaliyyət göstərir. Bu ərazi də ekoloji təmiz zonaya çevrilibdir.

Biz bütün bunları ona görə edirik ki, Bakının ekoloji vəziyyəti yaxşılaşsın və insanların sağlamlığına ziyan dəyməsin. Eyni zamanda, vaxtilə ekoloji vəziyyəti ağır olan Sumqayıt da indi ekoloji cəhətdən təmiz şəhərdir. Mən orada olarkən sumqayıtlılara deyirəm ki, Sumqayıtın havası Bakının havasından daha təmizdir. Ancaq Bakının havası da böyük dərəcədə təmizlənibdir.

Bizim əsas diqqət mərkəzimiz məhz böyük şəhərlərdir, xüsusilə Abşeron yarımadası və sənaye müəssisələri olan şəhərlər. Azərbaycanın qalan yerlərində təbiət toxunulmazdır, biz bunu qorumalıyıq və bütün bölgələrdə təbiət qorunmalıdır. Çünki bu bizim sərvətimizdir. Bəzi hallarda ağaclar qırılır, yerində binalar tikilir. Buna qətiyyən yol vermək olmaz. Müvafiq göstərişlər verilib. Təbiətin qorunması hər bir vətəndaşın işi olmalıdır, çünki bu bizim ölkəmizdir, bizim həyatımızdır.

Bu il tarixi abidələrin bərpası üçün Dövlət İnvestisiya Proqramında vəsait ayrılıb, biz buna da diqqət yetirməliyik. Bizim əsas tarixi abidələrimizin hamısı bərpa olunub, konservasiya edilibdir. Ancaq Azərbay-

canda bir çox tarixi abidələr var və onların hər biri bizim üçün əzizdir. Ona görə bu tarixi abidələrin bərpası, onların əsl vəziyyətinə çatdırılması və bəzi hallarda konservasiyası xüsusi əhəmiyyət daşıyır. Bu məsələlərə maksimum diqqət göstərilməlidir.

Bakı şəhərinin nəqliyyatı da yaxşılaşdırılır, indi həm dövlət, həm özəl sektor xətti ilə daha səmərəli fəaliyyət göstərir. Xüsusilə mən özəl sektoru qeyd etmək istəyirəm. Çünki onlar da görürlər ki, dövlət xətti ilə gətirilən avtobuslar bütün standartlara cavab verir. Onların istifadə etdikləri avtobuslar isə artıq çoxdan yararsız vəziyyətə düşüb. Ona görə məsuliyyətli sahibkarlar dərhal bu işlərlə məşğul olmağa başlayıblar. Əminəm ki, bundan sonra da həm özəl qurumlar, həm dövlət sektoru bu işdə fəal olacaq. Ancaq Sumqayıtdan fərqli olaraq, bizim başqa şəhərlərdə vəziyyət acınacaqlıdır. Şəhər nəqliyyatı bərbad vəziyyətdədir. İstifadə olunan avtobuslar heç bir meyarlara cavab vermir. Ona görə mən həm yerli icra orqanlarına, həm də Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə müvafiq göstəriş vermişəm ki, mənə geniş məlumat versinlər, mövcud avtobus parkı nə vəziyyətdədir? Biz bu məsələni də həll etməliyik. Hər bir şəhərdə nəqliyyat yaxşı olmalıdır. Yollar yaxşıdır, nəqliyyat da yaxşı olmalıdır ki, vətəndaşlar mənzil başına, iş yerinə rahat çata bilsinlər.

Bu il sosial infrastrukturla bağlı önəmli addımlar atılacaq. Onlarla məktəb, tibb müəssisəsi tikiləcək, təmir ediləcəkdir. 2 Olimpiya İdman Kompleksinin açılışı nəzərdə tutulur. Bu il 5 «ASAN xidmət» Mərkəzi istifadəyə veriləcək və «ASAN xidmət» mərkəzlərinin sayı 21-ə çatacaqdır. Bu proses davam etdirilir. Bildirməliyəm ki, 5 mərkəz bu il istifadəyə veriləcək, bundan əlavə daha 6 mərkəzin açılışı da gündəlikdədir. Onlardan ikisi Bakıda tikiləcək və

beləliklə, Bakıda mərkəzlərin sayı 7-yə çatacaqdır, çünki indi bəzi mərkəzlərdə növbələr yaranır. Biri Gəncədə, orada ikincisi olacaqdır. Biri Sumqayıtda, orada da ikincisi olacaqdır. Biri Lənkəranda, biri isə Salyanda. Beləliklə, bu proqram maksimum 2021-ci ilin sonuna qədər başa çatmalıdır, bəlkə ondan da tez. Beləliklə, «ASAN xidmət» mərkəzlərinin sayı 27-yə çatacaqdır.

DOST mərkəzlərinin yaradılması daha geniş vüsət alacaq. Artıq iki mərkəz keçən il istifadəyə verilib və ümumiyyətlə, 30-dan çox DOST Mərkəzinin yaradılması nəzərdə tutulur.

Digər sosial layihə şəhid ailələri üçün tikiləcək mənzillərdir. Keçən il 934 şəhid ailəsinə mənzil verilibdir. Bu il göstəriş vermişəm ki, bu rəqəm artırılsın və ən azı 1500 şəhid ailəsi dövlət tərəfindən gözəl evlərlə, mənzillərlə təmin ediləcək.

Məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılmasına gəldikdə isə, bu il yenə bu sahədə də rekord il olacaq. Çünki bu il 7000 köçkün ailəsi üçün mənzillərin, evlərin verilməsi nəzərdə tutulur. Keçən il bu rəqəm 5000 idi. Beləliklə, təqribən 30–40 min köçkün yeni evlərlə təmin ediləcəkdir.

Sosial layihələr arasında ödənişli ictimai iş yerlərinin yaradılması da vardır. Bu da mənim təşəbbüsümlə irəli sürülmüş məsələdir. O vaxt ölkəmizdə işsizlik bir qədər artmışdı. Onun da səbəbi neftin qiymətinin 4 dəfə aşağı düşməsi idi. Biz də məcbur olub investisiya xərclərimizi ixtisar etdik.

Mən giriş sözümdə dedim, valyuta ehtiyatlarımızı hətta bizim üçün ən ağır illərdə artıra bilmişik. Amma investisiya xərclərini azaltdıq və beləliklə, bu layihələrdə iştirakı nəzərdə tutulan insanlar işsiz qaldılar. Ona görə mənim

göstərişimlə ödənişli ictimai iş yerləri yaradıldı. Ancaq əfsuslar olsun ki, bu sahədə bölgələrdə pozuntulara yol verildi və bu pozuntulara yol verən şəxslər cəzalandırıldı. Əgər bu biabırçı faktlar təkrarlanarsa, heç kim cəzadan yaxa qurtara bilməyəcək. Çünki kasıb təbəqə üçün nəzərdə tutulan iş yerlərinin pulunu mənimsəmək böyük vicdansızlıqdır. Ona görə çox ciddi nəzarət vardır. Əminəm ki, belə hallar təkrarlanmayacaq. Amma yenə də ciddi nəzarət olmalıdır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tapşırıq verilib ki, bütün iş yerləri qeydiyyatdan keçsin və nəzarət güclü olsun. Baxmayaraq ki, işsizliklə bağlı vəziyyət ötən il yenə də xeyli dərəcədə yaxşılaşdı, amma əhali artır. Biz bunu nəzərə almalıyıq. Ona görə bu il də dövlət xətti ilə təxminən 40 minə yaxın iş yeri yaradılacaqdır.

Digər önəmli proqram özünüməşğulluq proqramıdır. Bu proqrama biz bir neçə il əvvəl start verdik və buna böyük tələbat vardır. Bu onu göstərir ki, biz düzgün addım atmışıq və bu proqramı genişləndiririk. Tələbat təqribən 40–50 min ətrafındadır. Keçən il biz bu proqrama 7-8 min insanı cəlb etdik. Bu il ən azı 10 min insan cəlb olunacaqdır. Onlara lazımi vasitələr, avadanlıqlar, mal-qara veriləcək. Bizim təşəbbüsümüzlə bu proqramı Dünya Bankı ilə birgə icra edirik. Yəni yaradılacaq bu 10 min iş yeri üçün Dünya Bankının xətti ilə də vəsait nəzərdə tutulur. Bizə onların vəsaitindən çox, təcrübəsi, ekspertizası lazımdır. Çünki Dünya Bankı dünyanın bir çox ölkələrində belə layihələr icra edib. Ona görə həm ekspertiza, həm əlavə maliyyə vəsaiti cəlb olunacaq. Mən Azərbaycanda fəaliyyət göstərən özəl banklara da demək istərdim ki, onlar da baxsınlar, bu proqrama qoşulsunlar və proqram daha geniş vüsət alsın. Çünki qeyd etdiyim kimi, maraq böyükdür, tələbat da artır.

Bank sektorunda sağlamlaşdırılma prosesi davam etdirilir və davam etdirilməlidir. Biz banklara çox böyük dəstək vermişik. Bütün əmanətlər sığortalanıb və bu prosesi uzatmışıq. Hesab edirəm və tam əminəm ki, artıq böhranlı dövr arxada qalıbdır. Ancaq əhalinin banklara inamının artırılması üçün dövlət bu məsələni yenə də öz üzərinə götürür. Azərbaycan nadir ölkələrdəndir ki, bütün bank əmanətləri dövlət tərəfindən sığortalanır. Bu, banklara verilən böyük dəstəkdir, edilən güzəştdir, eyni zamanda, onların məsuliyyətini artırır. Əgər özəl banklar tərəfindən hər hansı bir sürpriz olarsa, onlar özlərindən küssünlər. Mərkəzi Banka verilmiş yeni səlahiyyətlər çərçivəsində nəzarət daha güclü olmalıdır ki, sağlamlaşdırılma prosesi uğurla başa çatsın.

İqtisadiyyat artdıqca, iqtisadi vəziyyət yaxşılaşdıqca, uçot dərəcəsi də aşağı düşür. Bu il də aşağı düşüb, təqribən 7 faizdən bir qədər çoxdur. Əlbəttə, özəl banklar da faiz dərəcələrini aşağı salmalıdır. Çünki Mərkəzi Bank tərəfindən artıq qərar qəbul edildi, keçən il və bu il uçot dərəcəsi müntəzəm olaraq aşağı düşür və bu proses davam etdirilir.

Bütövlükdə özəl banklar iqtisadi inkişafımıza təkan verməlidir. Onların işi ancaq oturub pul qazanmaq olmamalıdır. Onlar öz məsuliyyətini dərk etməlidirlər. Dövlət onlara fəaliyyət göstərmək üçün imkan yaradıb, lisenziya verib. Əgər o banklarda hansısa problemlər olarsa, bu lisenziya ləğv ediləcəkdir. Son vaxtlar bir çox bankların lisenziyası ləğv olunub. Onlar bu imkanlardan məhrum olacaqlar. Ona görə məsuliyyətli yanaşmalıdırlar. Heç bir sürpriz olmamalıdır.

Onlar biznes-kreditlərə üstünlük verməlidirlər. Mən bunu ilin yekunlarına həsr edilmiş müşavirədə qeyd etdim.

Amma yenə də bu meyil görünməkdədir – istehlak kreditlərinə üstünlük verilir. Əlbəttə, bu çox asandır. İstehlak kreditini verir, sonra da faizini alır. Amma bank krediti ölkə iqtisadiyyatı üçün, real sektor üçün, iş yerlərinin yaradılması üçün lazımdır. Ona görə burada mən bir daha göstəriş verirəm, Mərkəzi Bank və aidiyyəti nazirliklər, o cümlədən Nazirlər Kabineti bunu nəzarətə götürsün və mənə müntəzəm olaraq məlumat verilsin ki, biznes-kreditlərin pay faizi nə qədərdir. İstehlak kreditləri və monitorinq daimi olmalıdır.

Mən bir məsələyə də toxunmaq istəyirəm. Rayon və kənd yerlərində təklif olunan girov əmlaklar bir çox hallarda banklar tərəfindən girov kimi qəbul edilmir. Onlar Bakıda girov əmlak istəyirlər. Buna son qoyulmalıdır. Burada heç bir ayrı-seçkiliyə yol verməк olmaz. Ona görə aidiyyəti qurumlar bu məsələ ilə də ciddi məşğul olsunlar.

Sahibkarlığın inkişafı üçün dövlət bu il də kifayət qədər böyük vəsait nəzərdə tutur. Bu, artıq verilmiş və qaytarılmış kreditlərin hesabına baş verir. Güzəştli şərtlərlə 200 milyon manata yaxın kreditlər veriləcək. Deyə bilərəm ki, son illər ərzində sahibkarlara güzəştli şərtlərlə 2 milyard manatdan çox vəsait verilibdir. Ancaq verilmiş bu kreditlərə həm nəzarət gücləndirilməlidir, həm də biznes layihələrinə yenidən baxmaq lazımdır. Çünki aparılan təhlil göstərir ki, hər bir iş yerinin yaradılması üçün kifayət qədər böyük vəsait xərclənir. Əvvəlki illərdə üstünlük daha çox iri layihələrə verilirdi, bu da təbii idi. Çünki aqroparkların və digər iri sənaye müəssisələrinin yaradılması hesab edirəm ki, zəruri idi. Ancaq hazırda daha çox güzəştli kreditlər portfelində kiçik və orta sahibkarlığa üstünlük verilməlidir. Çünki biz yaxşı bilirik ki, inkişaf etmiş ölkələrin ümumi daxili məhsulu yüksək dərəcədə kiçik və orta sahib-

karlıq tərəfindən formalaşır. Biz də bu yolla getməliyik. Xüsusilə nəzərə alsaq ki, bizim iqtisadiyyatımızın aparıcı hissəsi neft-qaz sənayesidir. Ona görə bu il güzəştli biznes-kreditlərin tərkibində kiçik və orta sahibkarlığa üstünlük verilməlidir.

O ki qaldı iri layihələrin icrasına, qeyd etdiyim kimi, onların arasında aqroparklar xüsusi yer tutur. Aqroparkların da yaradılması ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlıdır. Biz indi aqroparkların timsalında görürük ki, burada məhsuldarlıq daha yüksəkdir. Çünki yeni texnologiyalar tətbiq olunur, texnika gətirilir, dövlət tərəfindən dəstək göstərilir. Misal üçün, keçən il taxılçılıqda bizim orta məhsuldarlığımız kifayət qədər yüksək olub – hektardan 32 sentner, böyük irəliləyişdir. Ancaq iri fermer təsərrüfatlarında bu, 50 sentner, bəzi yerlərdə 60 sentnerdir. Bu onu göstərir ki, aqroparkların yaradılması çox düzgün qərar idi. Ancaq mənə məlumat verildi ki, bir neçə yerdə nəzərdə tutulmuş aqroparkların yaradılması yubanır, yaxud da ki, işlər, ümumiyyətlə, getmir. Ona görə mən İqtisadiyyat Nazirliyinə, Kənd Təsərrüfatı Nazirliyinə tapşırıram ki, bu məsələ araşdırılsın. Təqribən 50-dən çox aqroparkın yaradılması nəzərdə tutulurdu. Araşdırılsın, təhlil aparılsın və mənə məlumat verilsin – əgər o yerlər ki, sadəcə olaraq, sahibkarlar tərəfindən götürülüb və istifadə olunmur, onlar geri qaytarılmalı və iş görən sahibkara verilməlidir.

Sahibkarlara çox böyük hərtərəfli dəstək göstərilir. Birincisi, Prezidentin dəstəyi. Mən dəfələrlə demişəm ki, Azərbaycan iqtisadiyyatının gələcəyi sahibkarlığın inkişafından asılıdır. Digər tərəfdən, icra edilmiş bütün infrastruktur layihələri. Təsəvvür edin, əgər rayonlarda işıq, yol olmasaydı, hansı sahibkar orada iş görə bilərdi?!

Qaz olmasaydı, hansı istixananı işlədə bilərdi?! Bütün bunlar dövlət tərəfindən edilibdir – yol da, elektrik də, qaz da, su da. Bundan əlavə, güzəştli kreditlər – dediyim kimi, aşağı faizlə 2 milyard manatdan çox vəsait ayrılıb. Fermerlərə subsidiyalar verilir, onlar torpaq vergisi istisna olmaqla – o da cüzi rəqəmdir – vergilərdən azaddırlar. Dövlət tərəfindən sənaye zonalarının, sənaye parklarının, infrastrukturun yaradılması da həmçinin. Təşviq mexanizmi təşkil edilib və digər stimulverici amillər tətbiq olunubdur. Yəni sahibkarlara çox böyük imkanlar yaradılıb. Ona görə sahibkarlardan da tələbimiz var, onlar dürüst olsunlar, təmiz işləsinlər, əyri yola getməsinlər, vergiləri gizlətməsinlər. Vergiləri tam ödəsinlər, vergilərdən başqa, heç kimə, heç bir quruma, heç bir şəxsə bir manat belə, pul verməsinlər. Çünki rüşvətxorluğun 2 tərəfi var: alan və verən. İndi mən potensial rüşvət verənlərə deyirəm ki, dayandırın bunu. Əgər kimsə sizdən əsassız nəsə tələb edirsə, Prezident Administrasiyasına, Nazirlər Kabinetinə, mərkəzi icra orqanlarına dərhal məlumat verin. Bu qətiyyən yolverilməzdir. Çünki sahibkarlığın inkişafının qabağını alan bir çox hallarda məmur özbaşınalığıdır.

Bəzi hallarda məmurlar görən kimi haradasa iş başlayır, dərhal cumurlar ora, öz payını tələb edir, yaxud da ki, nəsə qoparmaq istəyirlər. Buna son qoyulmalıdır. Ona görə sahibkarlar vergini tam verməlidirlər. Çünki onların vergisi ölkəmizin yaşamasıdır, xalqımızın yaşamasıdır. Əlbəttə, vergi orqanlarında aparılan islahatlar da sahibkarlara böyük kömək göstərir. Çünki sahibkarlar indi bilirlər qaydalar nədən ibarətdir. Qaydalar da çox sadədir – fəaliyyətlərini qanunvericiliyə uyğun qurmalı, əmək müqavilələri bağlamalı, işçiləri istismar etməməlidirlər. Çünki mənə verilən məlumata görə, bəzi hallarda işçiləri

vaxtından çox işlədirlər. Bizim 8 saatlıq iş günümüz vardır. Heç kim ondan artıq işləməməlidir. Amma daha çox pula qənaət etmək üçün 10 saat, 12 saat, ondan da çox işlədirlər. Buna son qoyulmalıdır və Nazirlər Kabineti buna nəzarət etməlidir. Xüsusi müşavirə keçirilsin, bu məsələlər müzakirə olunsun və əgər belə hallara yol verilirsə, o sahibkar cəzalandırılsın. İşçilərə də müraciət edirəm. Siz də əmək müqaviləsi olmadan işləməyin. Mən bilirəm ki, bəzi hallarda sizi məcbur edirlər. Amma bilin ki, əgər əmək müqaviləsi olmasa, sabah pensiya, tibbi sığorta ala bilməyəcəksiniz. Ona görə sahibkarlar vergini ödəməli, bütün qanuni tələblərə riayət etməli və məsuliyyətli olmalıdırlar. İmkanlı sahibkarlar, əlbəttə ki, öz sosial məsuliyyətlərini də dərk etməlidirlər. Eyni zamanda, əsassız olaraq işçiləri ixtisar etməməlidirlər. Çünki ixtisar edilən hər bir iş yeri bir ailəni çörəksiz qoyur. Buna getmək olmaz.

Baxın, dövlət ünvanlı sosial yardım alanların sayını artırır. Baxmayaraq ki, yoxsulluq 4,8 faizdir və bəzi ölkələrdə olduğu kimi, Azərbaycanda küçələrdə yoxsullar dolaşmır. İndi inkişaf etmiş ölkələrin şəhərlərinə baxın, ən böyük ölkələrin paytaxtlarında minlərlə evsiz-eşiksiz adam vardır. Onlar ya qutuda, ya skamyalarda, ya da ki, özləri üçün balaca çadır qurub yatırlar. Bunu biz televizordan görürük. Bizdə belə şey varmı? Yoxdur! Nəyə görə? Ona görə ki, vətəndaşlara qayğını dövlət öz üzərinə götürübdür. Baxmayaraq ki, işsizlərin, yoxsulların sayı azalır, mən göstəriş vermişəm, ünvanlı sosial yardım alanların sayı artırılsın.

Bunu etmək üçün yeni meyarlar tətbiq olunmalıdır ki, ölkəmizdə kasıb adam olmasın. Əgər bir sahibkar 5 manat çox qazanmaq istəyirsə, adamı işdən çıxarır. Bu

dözülməzdir. Faktlar varsa, mənə deyin, biz o sahibkarlarla lazımi qaydada danışacağıq. Ona görə dövlət, xalq və qanun qarşısında məsuliyyət olmalıdır. O cümlədən «kölgə iqtisadiyyatı»na qarşı mübarizə bundan sonra da aparılacaq. Burada da iki tərəf vardır. Bu işlərə göz yuman dövlət məmuru və bu işləri görən sahibkar. Bu sövdələşmə də tamamilə pozulmalıdır və pozulur.

Dövlət indi göz yummur, sahibkar da gərək öz biznesini «kölgə»dən 100 faiz çıxarsın. Dövlət, mərkəzi icra orqanlarımız xüsusi anlayış göstərərək, bu prosesi tədricən edirlər. Çünki bu işi görənlər onilliklər ərzində, sovet dövründə də, müstəqillik dövründə də belə işləyiblər, öyrəşiblər. Buna son qoyulmalıdır. «Kölgə iqtisadiyyatı» olmamalıdır, vəssalam, çox sadə. Düzdür, hər yerdə var, hər ölkədə var. Bizdə bu, dözülməz dərəcəyə gəlib çıxmışdır. O təhlil mənə veriləndə, sözün düzü, çox dəhşətə gəldim. Ona görə buna son qoyulur. Vergi və gömrük orqanları keçən il proqnozdan əlavə 1 milyard manatdan çox vəsaiti nəyin hesabına toplayıblar? Onun hesabına ki, bu pullar kiminsə cibinə gedirdi və bu pullardan Azərbaycan vətəndaşı məhrum idi. Biz bu şəffaflığı təmin edərkən, mən qeyd etdiyim sosial təşəbbüsü reallaşdıra bildik. O pul qəpiyinə qədər insanların maaşına, pensiyasına, təqaüdünə, müavinətinə getdi. İndi biz «kölgə iqtisadiyyatı»na göz yuma bilərikmi? Qətiyyən yox! Yenə də deyirəm, «kölgə iqtisadiyyatı»na son qoyulmalıdır və dövlət orqanları bir keçid dövrü də müəyyən edib. Çünki bəri başdan çox sərt tədbirlər görmək düzgün olmaz. İnsanlar buna gərək yavaş-yavaş öyrəşsinlər. Amma biz bu güzəşt müddətini də çox uzada bilmərik. Ona görə bu il bütün iqtisadiyyat «kölgə»dən çıxmalı, bütün sahibkarlar vergini ödəməlidir. Əgər kimsə mənim bu sözlərimdən

sonra yenə də köhnə qayda ilə işləmək, kiməsə arxalanmaq istəyəcəksə, bilsin ki, bu alınmayacaq. Heç kimə güzəşt yoxdur. Bunu indi hamı bilir. Hər kəs bərabərdir. Heç bir toxunulmaz sahibkar da yoxdur, heç bir toxunulmaz məmur da yoxdur. Hər kəs qiymətini də, mükafatını da, cəzasını da öz əməlinə görə alacaq. Bunu bilməlisiniz.

Onu da bildirməliyəm ki, bu müsbət proses bu il də gedir. Hələ yanvar ayının sosial-iqtisadi yekunları mənə məruzə edilməyib. Bu, bir qədər vaxt tələb edir. Amma bir neçə rəqəm artıq mənə deyilib, o cümlədən yenə də vergi və gömrük orqanlarının yanvar ayındakı fəaliyyəti haqqında. Beləliklə, bu ilin yanvar ayında vergi orqanları proqnozdan əlavə, 120 milyon manat, gömrük orqanları isə 40 milyon manat vəsait yığıblar. Yəni bir ayda ancaq «kölgə iqtisadiyyatı» ilə mübarizə sayəsində 160 milyon manat əldə olunubdur.

Qeyd etdiyim kimi, sənaye istehsalı ilə bağlı qeyri-neft sektoruna üstünlük veriləcək. Keçən il bu sektor 14 faizdən çox artıb, bu il də artmalıdır. Burada mən bir neçə məsələyə toxunmaq istərdim. Hesab edirəm ki, emal sənayesinə daha çox üstünlük verilməlidir. Dövlət orqanları bu sahəyə diqqət yetirməlidir. Güzəştli kreditlər bu sahəyə istiqamətləndirilməlidir. Sahibkarlar özləri də bu sahəyə daha böyük diqqət göstərsinlər. Biz gərək hər şeyi ardıcıllıqla edək.

Biz, əlbəttə, meyvə-tərəvəz məhsullarımızı tədarük edirik, ixrac edirik. Bu ixrac da artır, çox yaxşı. Ancaq emal olunmuş malların daha böyük dəyəri vardır. Dəyərlər zənciri yaradılmalıdır. Ona görə hesab edirəm ki, kənd təsərrüfatında emal sektoruna xüsusi diqqət göstərilməlidir. Bir neçə misal gətirə bilərəm. Bizdə indi üzümçülük çox sürətlə inkişaf edir. Son illər ərzində

salınmış minlərlə hektar üzüm bağları indi bar verir. Təkcə keçən il üzüm tədarükü 34 min ton artıbdır. Bu, birbaşa şərabçılıq sənayesini yaradır və biz indi şərab məhsullarımızı bir çox ölkəyə ixrac edirik. O cümlədən tütünçülük. Tütünçülüyün inkişafı sayəsində Sumqayıtda yeni Siqaret fabriki yaradıldı, Bakı Siqaret fabriki yenidən quruldu. Biz daxili tələbatı tam ödəməliyik və ödəyəcəyik, ixrac da edəcəyik. Yoxsa ki, əvvəlki illərdə tütün tədarük etməyən ölkələr bizə siqaret satırdı. Bu bir «nonsens»dir. Bizim tütünümüz də, şəraitimiz də vardır. Ona görə, bax, bu, emal sənayesinin inkişafının təzahürüdür. Baramaçılıq da həmçinin. Burada da zəncir yaradılır – kümçüdən ta Şəki İpək kombinatına qədər. Orada artıq yüzlərlə adam işlə təmin edilib. Kəndlərdə də minlərlə adam işlə təmin olunub və 30–40 gün ərzində az əziyyət çəkməklə, böyük vəsait əldə edilir.

Pambıqçılıq birbaşa emal sənayesini şərtləndirir. Bizdə pambıqçılıqda 46 faiz artım vardır. İxrac keçən il 158 milyon dollar olubdur. Ancaq biz pambığın 50 faizini ölkəmizdə emal edə bilirik. Ona görə nə lazımdır? Yeni iplik fabrikləri, ondan sonra tekstil fabrikləri, daha sonra hazır məhsul fabrikləri. Bu zəncir bir-birinə bağlıdır, ona görə sahibkarlar bu sahəyə diqqət yetirsinlər və dövlət orqanları sahibkarları bu istiqamətlərə yönəltsinlər. Beləliklə, yüngül sənayenin inkişafı təmin ediləcək, iş yerləri yaradılacaq, hazır məhsul istehsal edəcəyik və bu məhsulu idxal etməyəcəyik. Aydın məsələdir, bunlar bir-biri ilə bağlıdır. Pul burada, ölkəmizdə qalacaqdır.

Tərəvəzçilikdə də həmçinin. Emal sənayesi tərəvəzçilikdə çox aşağıdır. Biz tərəvəzi yığırıq, özümüz istehlak və ixrac edirik. Yaxşıdır, amma emal olunmalıdır. Misal üçün, bizdə keçən il tərəvəzçilikdə ixrac 243 milyon dollar

olubdur. Bunun 190 milyon dolları pomidor ixracı idi və pomidor ixracı 7 faiz artıbdır. Ancaq əgər kifayət qədər Tomat Pastası zavodu olsa, daha da böyük qiymətə satıla bilər. Özü də bütün bazarlarda tələb olunan məhsuldur.

Sahibkarlar buna diqqət yetirməlidirlər. Mən bu rəqəmləri, Azərbaycanın özünü təminetmə əmsalını müntəzəm olaraq səsləndirirəm ki, harada boşluqlar var, yerli sahibkarlar bu boşluqları doldursunlar. Ancaq mən bir qədər passivlik görürəm. Ona görə dövlət orqanları gərək sahibkarları tərpətsin, özləri də təşəbbüs göstərsin. Xüsusilə nəzərə alsaq ki, dövlət bütün şəraiti yaradıb və bütün sərgiləri keçirir, sahibkarları xaricə aparır. İndi biz şərab ixracını artırmışıq, nəyin hesabına? Dövlətin səyləri hesabına. Çünki dövlət xətti ilə, dövlətin hesabına beynəlxalq sərgilərdə iştirak təmin olunub, orada kontraktlar bağlanılıbdır. Axı sahibkar özü bunu etmir.

Əfsuslar olsun ki, bizdə alkoqollu içkilər sahəsində böyük pozuntular olur, statistika tam baş-ayaq idi. Nəyə görə? Çünki araq da istehsal edir, şərab da. Amma yazır ki, mən filan məhsulu istehsal etmişəm, çünki daha çox pul qazansın. Əlbəttə, buna da son qoyulur və qoyulacaq. Hər sahədə şəffaflıq olmalıdır, bunu hamı bilsin. Belə bicliklər gərək keçmişdə qalsın.

Misal üçün, meyvəçilikdə 240 milyon dollarlıq meyvə ixrac olunub, artım 11 faizdir. Amma bu meyvənin içində fındıq da var. 125 milyon dollarlıq fındıq ixrac olunub, artım 33 faizdir. Nəyin hesabına? Yenə də dövlətin hesabına. Mən o vaxt göstəriş verdim ki, fındıq bağları salınsın. Bizim 30 min hektar sahədə fındıq bağımız var idi. İndi biz bunu 80 min hektara çatdırmışıq. Kim edib? Dövlət edib. Bəs sahibkar özü niyə gedib əkmir? Yaxşı, baramanı da dövlət edib, pambığı da dövlət edib, nə vaxta

qədər? Sahibkar da gedib etsin. İndi pambıqdan, fındıqdan böyük pul əldə edir, çox yaxşı, qoy daha da varlansın. Amma özü də bir təşəbbüs göstərsin.

Biz bu işləri onsuz da aparacağıq. Çünki bu, dövlətimiz üçün lazımdır, sahibkar da bizim vətəndaşımızdır. Sahibkar da onlarla, yüzlərlə, bəlkə də minlərlə işçini saxlayır, ona maaş verir. Bax, burada bu birliyin, bu konfransların məqsədi nədir? Burada oturanların bir hissəsi yerli icra başçıları, mərkəzi icra orqanlarının rəhbərləri və sahibkarlardır. Bu konfransın ikinci hissəsində açıq söhbət aparılmalıdır. Daha şüarlar, hansısa bəyanatlar lazım deyil. Açıq söhbət olmalıdır, sahibkar deməlidir ki, problem nədir, həlli yolu nədir. Dövlət nümayəndəsi də ona deməlidir ki, o harada pozuntulara yol verir, dostcasına deməlidir ki, «get bunu düzəlt, bax, son dəfə sənə deyirəm, düzəltməsən, onda özündən küs». Bu gün burada, bax, bu məsələlər müzakirə olunmalıdır. Elə etməliyik ki, 2020-ci ildən başlayaraq, bütün bu bicliklər, manipulyasiyalar, saxtakarlıqlar, kassadan kənar ödəmələr qıraqda qalsın. Bəyan edilməmiş yüklərin gətirilməsi, yükün içində bir məhsul ola-ola başqa məhsulun bəyan edilməsi – bütün bunları dövlət orqanları bilir və bilirdi. Sadəcə olaraq, bəziləri göz yumurdular, sövdələşirdilər. Daha bu dövr bitdi. Mən sizə bunu deyirəm, qurtardı. Ona görə mən dediyim kimi işləməlisiniz, vəssalam.

Eyni zamanda, bizdə sənaye sahəsində də hazır məhsulun buraxılması məsələsi gündəlikdədir. Məsələn, «SOCAR Polymer» zavodu istifadəyə verildi və indi biz polimerləri xaricə ixrac edirik. O ölkələrə ixrac edirik ki, həmin ölkələr ondan hazır məhsul istehsal edib, bizə satır. Ona görə biz özümüz burada klasterləri yaratmalıyıq və lazım olarsa, dövlət dəstək göstərəcək ki, polimerdən

məhsullar Azərbaycanda istehsal olunsun, pul ölkəmizdə qalsın. Bu məsələyə də diqqət yetirmək lazımdır.

Kənd təsərrüfatı sahəsində də ciddi islahatlar aparılır. Əminəm ki, bundan sonra da artım çox sürətli olacaq. Bildirməliyəm ki, keçən il bütövlükdə fermerlərə 380 milyon manat subsidiya verilibdir. İndi bu subsidiyalar Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi vasitəsilə verilir. Bu çox mütərəqqi sistemdir. Eyni zamanda, aqrar sığorta mexanizminin işlənilməsinə start verilibdir. Əminəm ki, bu il bu məsələ də öz həllini tapacaqdır.

Kənd təsərrüfatında artımla bağlı bəzi rəqəmləri də səsləndirmək istərdim. Beləliklə, barama istehsalı 25, pambıq 26, yumurta 9, günəbaxan 43, kartof 12, tərəvəz 12, bostan məhsulları 11, meyvə və giləmey- və 9, yaşıl çay yarpağı 7, üzüm 20 faiz artıbdır. İxrac da əhəmiyyətli dərəcədə artıbdır.

Bir dəfə demişəm, bir daha demək istəyirəm ki, mən turizmi də ixrac növü hesab edirəm. Çünki keçən il xarici turistlər Azərbaycanda 4,3 milyard manat pul xərcləyiblər. Yəni əgər bunu ixrac növü kimi hesablasaq, neftdən sonra ikinci sahə turizmdir. Məhz ona görə mən turizmin inkişafı üçün kompleks tədbirlərin görülməsini təmin etdim, son illər Azərbaycanda turistlərin sayı artıb və bu gün də artır. Əminəm ki, bu belə də davam edəcəkdir. Ancaq hər şeyin vaxtı var. Misal üçün biz 10 il bundan əvvəl bu haqda fikirləşsəydik, bəlkə də düzgün olmazdı. Çünki turistlər hara gələcəkdilər – yol yox, işıq yox, hotel yox. Hara gələcəkdilər? İndi isə hər şey vardır. Ən müasir nəqliyyat infrastrukturu – Heydər Əliyev Beynəlxalq Aeroportu, dediyim kimi, beşulduzlu aeroportdur. Bundan başqa turistlərin daha çox gəldikləri yerlərdə də 5 beynəlxalq aeroport vardır. Həmçinin gözəl hotellər

vardır. Azərbaycanda dünyanın bütün aparıcı hotellərinin brendləri fəaliyyət göstərir. Onlar nəyə görə buraya gəlirlər? Niyə başqa ölkələrə getmirlər? Çünki ölkəmizdə sabitlik var, inam var, vəziyyət proqnozlaşdırılandır və investisiya mühiti, kredit reytinqlərimiz yaxşıdır. «Doing Business»dəki yerimiz yaxşıdır. Onlar görür, arayışa baxır. Dünyanın aparıcı brendi kortəbii olaraq gəlib burada hotel tikər? Əlbəttə, yox. İqlim gözəldir, 9 iqlim zonamız var, xalqımızın qonaqpərvərliyi, tarixi abidələr, mətbəximiz və əlbəttə ki, sabitlik və təhlükəsizlik. Turizm sahəsində bu işlər görülür. Keçən il UNESKO-nun Ümumdünya İrs Komitəsinin sessiyasında Şəki Xan sarayı Dünya İrs siyahısına daxil edilibdir.

Qobustan və İçərişəhərdən, Qız qalasından, Şirvanşahlar sarayından sonra bu bizim növbəti böyük uğurumuzdur. Harada ki, boşluqlar var, biz öz turizm imkanlarımızı gərək səfərbər edək. Məsələn, keçən il Yanardağ tamamilə yenidən quruldu, çox gözəl şərait yaradıldı və demək olar ki, Bakıya gələn turistlərin böyük əksəriyyəti oranı ziyarət edir. Bizim palçıq vulkanlarımız vardır. Amma oraya heç yol da yoxdur. Hətta yol olsa belə, oraya gedib, bir stəkan çay içmək üçün yer də tapmaq mümkün deyil. Ona görə göstəriş vermişəm ki, bizim Turizm Agentliyimiz bu il bu məsələ ilə ciddi məşğul olsun. Necə ki, bu gün Yanardağa, yaxud da ki, Qobustana hər kəs gedir, palçıq vulkanlarına da hər kəs gedəcək. Çünki biz palçıq vulkanlarının sayına görə dünyada 1-ci yerdəyik.

Bizim tarixi yerlərimizi, tarixi kəndlərimizi turizm zonasına çevirmək üçün praktiki addımlar atılır. Qış turizminin inkişafı, «Şahdağ» dağ-xizək kompleksinin gələcək inkişafı ilə bağlı göstəriş verilibdir. Onu da bildirməliyəm ki, bu gün mənə məlumat verildi, bu ilin

yanvar ayında 2019-cu ilin yanvar ayı ilə müqayisədə turistlərin sayı 18 faiz artıb. Özü də turistlər üçün o qədər də cəlbedici olmayan yanvar ayında. Keçən il 11 faiz, ondan əvvəl 4 faiz, ondan əvvəl 24 faiz, ondan əvvəl 22 faiz, ardıcıllıqla. İndi yanvar ayında isə 18 faiz. Ona görə hesab edirəm ki, əgər keçən il ölkəmizə 3 milyon 170 min turist gəlmişdisə, bu il daha çox gələcəkdir.

Əlbəttə, ölkəmizin əhəmiyyətini, rolunu və bizə olan münasibəti əks etdirən son hadisə Davos Dünya İqtisadi Forumu çərçivəsində Davos Forumu ilə Azərbaycan arasında dördüncü Sənaye İnqilabı üzrə Bakıda Regional Mərkəzin yaradılması hadisəsidir. Bu çox əlamətdar hadisədir. Çünki Davos Dünya İqtisadi Forumu dünyada bir nömrəli Forumdur. Bu həm siyasi, həm iqtisadi sahədə nömrə birdir və bu bölgədə, Cənubi Qafqazda, Orta Asiyada Azərbaycanı mərkəz kimi seçmək, əlbəttə, böyük hadisədir, mən və Forumun prezidenti Niyyət Protokolunu imzaladıq, indi işlər başlanacaq və dördüncü sənaye inqilabında Azərbaycan lider olmalıdır. Necə ki, Davos Forumu bizi lider kimi görür, biz də lider olmalıyıq. Ona görə ki, bu, gələcək inkişafımız deməkdir. Biz elmi tərəqqini, inkişafı təmin etməliyik, ölkəmizi gələcəyə aparmalıyıq,

müasirləşdirməliyik. Beləliklə, hesab edirəm ki, bu hadisə bizim növbəti uğurumuzdur, növbəti qələbəmizdir. Əminəm ki, bundan sonra qələbələrimizin sayı çox olacaqdır. Sağ olun.

*Konfrans işini panellərlə davam etdirdi.*

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN SƏDRİ VASİF TALIBOV İLƏ GÖRÜŞ

*4 fevral 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 4-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovu qəbul etmişdir.*

*Vasif Talıbov Naxçıvan Muxtar Respublikasında görülən işlər barədə dövlət başçısına məruzə etdi. O, 2019-cu ildə Naxçıvanda sosial-iqtisadi, kənd təsərrüfatı, tikinti, turizm və digər sahələrdə qazanılmış uğurlardan söz açdı və bütün bu uğurların əldə olunmasında Prezident İlham Əliyevin göstərdiyi diqqət və qayğını dərin minnətdarlıq hissi ilə qeyd etdi.*

*Prezident İlham Əliyev Naxçıvanda 2019-cu ildə əldə olunmuş uğurlar münasibətilə Vasif Talıbovu təbrik etdi. Dövlət başçısı Naxçıvan Muxtar Respublikasının inkişafı və təhlükəsizliyi məsələlərinin daim onun diqqət mərkəzində olduğunu vurğulayaraq, Prezidentlik dövründə 14 dəfə Naxçıvana səfər etməsini bu diqqətin təzahürü kimi dəyərləndirdi.*

*Bu ilin yanvar ayında Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Vasif Talıbov 60 illik yubileyi münasibətilə «Şərəf» ordeni ilə təltif edilibdir.*

*Prezident İlham Əliyev «Şərəf» ordenini Vasif Talıbova təqdim etdi.*

*Vasif Talıbov onun fəaliyyətinə verilən yüksək qiymətə görə dövlət başçısına minnətdarlığını bildirdi.*

## TÜRKİYƏ RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ MÖVLUD ÇAVUŞOĞLU İLƏ GÖRÜŞ

*5 fevral 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 5-də Türkiyə Respublikasının Xarici İşlər naziri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

**İ l h a m Ə l i y e v**: Xoş gəlmisiniz, hörmətli Mövlud bəy! Sizi yenidən görməyimə çox şadam. Sabah Bakıda Xarici İşlər nazirləri səviyyəsində çox önəmli toplantı keçiriləcəkdir. Bu, Zirvə görüşündən sonra Xarici İşlər nazirlərinin Bakıda keçirilən birinci toplantısıdır. Bildiyiniz kimi, keçən ildən başlayaraq Azərbaycan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına sədrliyi öz üzərinə götürüb. Biz çalışacağıq ki, 1 il ərzində bu təşkilatın sədri kimi, bütün üzv ölkələrin dəstəyi ilə fəal iş görək və bu ölkələr arasındakı əməkdaşlığı, dostluğu, qardaşlığı daha da möhkəmləndirək. Eyni zamanda, sizin səfəriniz yaxşı fürsətdir ki, biz ikitərəfli məsələləri bir daha müzakirə edək. Biz sizinlə bu yaxınlarda Davosda da görüşdük. Bizim görüşlərimiz müntəzəm olaraq keçirilir. Yaxın gələcəkdə Bakıda Türkiyə–Azərbaycan Strateji Əməkdaşlıq Şurasının toplantısı keçiriləcəkdir və hörmətli

Prezident Rəcəb Tayyib Ərdoğan bizim qonağımız olacaqdır.

Əminəm ki, bu il də Türkiyə–Azərbaycan əlaqələri uğurla inkişaf edəcəkdir. Keçən il çox böyük uğurlarımız olub və birlikdə TANAP-ın Avropa sərhədinə çatdırılmasını qeyd etmişik. Bundan başqa, bir çox önəmli layihələr uğurla icra edilir. O ki qaldı Bakı–Tbilisi–Qars dəmir yolunun fəaliyyətinə, indi bu fəaliyyət daha da genişmiqyaslıdır və artıq bir çox mənbələrdən bu yol vasitəsilə yüklər Avropa və Asiya istiqamətinə göndərilir. Əminəm ki, bu yolun önəmi getdikcə artacaq və bu bizim birgə uğurlu layihəmizdir.

Fürsətdən istifadə edərək, bu yaxınlarda Çindən Azərbaycan vətəndaşlarını təxliyə etdiyinizə görə sizə dərin minnətdarlığımı bildirirəm. Bu, Türkiyə–Azərbaycan qardaşlığının növbəti təzahürüdür. Siz Azərbaycan vətəndaşlarına öz vətəndaşlarınız kimi münasibət göstərdiniz və göndərilmiş təyyarəyə onları da mindirib sağ-salamat Türkiyəyə – onların doğma vətəninə gətirdiniz. Əlbəttə, Azərbaycanda bu addım, bu hərəkət çox yüksək qiymətləndirilir.

Eyni zamanda, keçən ay Strasburqda Avropa Şurası Parlament Assambleyasının toplantısında Türkiyə nümayəndələri tam heyətlə Azərbaycanın haqq işinə bir daha öz dəstəyini, həmrəyliyini göstərdilər. Bir daha göstərdilər ki, onlar həqiqətin, ədalətin yanındadırlar. Azərbaycan nümayəndə heyəti də öz növbəsində, hər zaman Türkiyəni dəstəkləyir. Biz sizinlə Avropa Şurasının Parlament Assambleyasında

fəaliyyət göstərən insanlar kimi, bu təşkilatı yaxşı tanıyırıq. Əfsuslar olsun ki, 20 il ərzində bu təşkilat Azərbaycanı hədəf seçib. Türkiyəni isə daha uzun müddət ərzində. Xatırlayıram, ilk dəfə mən Azərbaycan nümayəndə heyətinin rəhbəri kimi, Avropa Şurası Parlament Assambleyasında fəaliyyətimə başlayanda mənim ilk addımım Azərbaycan heyətini Türkiyə heyəti ilə görüşdürmək idi. Biz elə birinci gün görüşüb razılaşdıq, anlaşdıq ki, bütün məsələlərdə bir-birimizə daim dəstək olacağıq. Əfsuslar olsun ki, hesab edirəm o illərdən bəri Avropa Şurasında deqradasiya prosesi gedir. Bu təşkilat beynəlxalq müstəvidə öz əhəmiyyətini itirməkdədir. Təşkilat dünyada gedən proseslərə heç bir təsir etmək gücündə deyil. Təşkilatın nüfuzu çox aşağı düşüb və bunun yəqin ki, başlıca səbəbi təşkilatda hökm sürən riyakarlıq, ikili standartlar və ədalətsizlikdir.

Sözün düzü, Azərbaycan xalqı bu təşkilata olan ümidlərini çoxdandır ki, itirib. Çünki təxminən 20 il ərzində müxtəlif dövrlərdə siyasi sifarişi icra edərkən Azərbaycan hədəf seçilibdir, bizim haqqımızda olmayan yalanlar uydurulur, yayılır. Azərbaycan sanki geridə qalmış bir ölkə kimi təqdim edilir, Azərbaycanda gedən müsbət proseslər qeydə alınmır. Azərbaycanı ancaq qara rənglərlə boyamağa çalışırlar və yenə də əsassız, saxta məlumat əsasında məruzələr dərc olunur və qətnamələr qəbul edilir. Sanki Azərbaycanda siyasi məhbuslar var, sanki Azərbaycanda demokratik prosesə əngəl törədilir. Bütün bunlar

yalandır, Azərbaycanda siyasi məhbus yoxdur, biz bunu yaxşı bilirik. Ancaq o yerlərdə ki, siyasi məhbuslar var, o ölkələr diqqətdən kənarda qalır. Mən Ermənistanı misal gətirə bilərəm. Ermənistanın keçmiş prezidenti 1 ildən çoxdur ki, həbs olunub, o prezident fəal siyasətlə məşğul olmaq haqqında öz sözünü deyəndən sonra həbs olunub və 1 ildən çoxdur ki, həbsxanada saxlanılır.

İki il bundan əvvəl Ermənistana rəhbərlik edən prezident də indi istintaq altındadır. Onun haqqında cinayət işi açılıb və mətbuatda yayılan məlumata görə onun işi məhkəməyə verilibdir. Bunun da başlıca səbəbi keçmiş prezidentlərin indiki iqtidarın fəaliyyətini tənqid etmələridir. Ermənistanda jurnalistlər həbs olunur. Mənə verilən məlumata görə, bu yaxınlarda bir media orqanının rəhbəri həbs olunub. Bir neçə ay bundan əvvəl bir jurnalist həbsxanada aclıq aksiyasına başlayaraq, aclıqdan vəfat edibdir. Ancaq bu faktların heç biri Avropa Şurasında qeydə alınmır. Nə üçün? Nə üçün Ermənistana qarşı bir münasibət var, Azərbaycana, Türkiyəyə qarşı başqa münasibət? Biz bu sualın cavabını yaxşı bilirik və bir daha qeyd etmək istəyirəm, yaxşı olardı ki, Avropa Şurası bu məsələlərlə məşğul olsun.

Avropa Şurası Avropanın aparıcı ölkələrində polis qəddarlığına, zorakılığa, insanların polis tərəfindən öldürülməsinə diqqət yetirsin, o ölkələri qınasın, o ölkələrin hüquq-mühafizə orqanlarına irad tutsun. Biz bunu eşitmirik, biz televiziyada görürük. Demək olar

ki, müntəzəm olaraq Avropanın aparıcı paytaxtlarında insanlar döyülür, əzilir, təhqir edilir, öldürülür, insanların gözləri çıxarılır, insanların üstünə itlər göndərilir, atlarla insanları əzirlər. Sanki bu, demokratiya imiş. Biz bunu deyəndə – mən bunu bir çox hallarda Avropadan gələn və bizi tənqid etmək istəyən şəxslərə açıq demişəm – onlar cavab vermirlər, susurlar. Amma otaqdan çıxan kimi yenə də öz bədnam fəaliyyətlərinə başlayıb bizi ləkələmək istəyirlər. Biz buna dözə bilmərik. Türkiyə ilə birlikdə mübarizə aparırıq, necə ki, biz sizinlə birlikdə mübarizə aparmışıq.

Siz Avropa Şurasında böyük vəzifəyə seçilmişdiniz, Avropa Şurası Parlament Assambleyasının prezidenti olmusunuz. Sizin dövrünüzdə bu təşkilatda ədalətli mövqe sərgilənirdi. Siz imkan vermirdiniz ki, bu təşkilat kiminsə əlində alətə çevrilsin. Siz çox dəyərli və müstəqil insan kimi, bütün təzyiqlərə davam gətirirdiniz və müstəqil siyasət aparırdınız. Ona görə də o dövrdə Avropa Şurası elə bil ki, öz əsl simasını bərpa edirdi. Ancaq bu gün bu təşkilat, əfsuslar olsun, bir daha demək istəyirəm ki, heç bir nüfuza malik deyil, onların qəbul etdiyi qərarlar bizim üçün tamamilə əhəmiyyətsizdir. Azərbaycanla bağlı qəbul edilmiş son qətnamə bizim üçün heç bir əhəmiyyət kəsb etmir və bu qətnamənin bizim üçün dəyəri bir kağız parçasından artıq deyil. Orada səslənən uydurma ittihamların heç birini biz qəbul etmirik və onların heç bir «tələbini» də icra etməyəcəyik.

Bizim işimiz isə haqq işidir. Türkiyə bu gün dünya miqyasında güc mərkəzidir və biz buna çox sevinirik. Türkiyənin bütün uğurları bizim üçün də çox əhəmiyyətlidir, bizə ruh verir. Biz birlikdə böyük işlər görmüşük və həmişə haqqın, ədalətin yanında olmuşuq. Əminəm ki, bundan sonra da belə olacaqdır. Heç bir kənar qüvvə nə Türkiyəyə, nə Azərbaycana təsir edə bilməz. Biz iki qardaş ölkə kimi, bundan sonra da dostluq, qardaşlıq, müstəqillik yolu ilə gedəcəyik. Bir daha xoş gəlmisiniz!

**Mövlud Çavuşoğlu:** Hörmətli cənab Prezident! Əvvəla, bizi qəbul etdiyiniz üçün çox təşəkkür edirəm. Prezidentimiz, qardaşınız Rəcəb Tayyib Ərdoğanın Sizə salamlarını və ən xoş arzularını çatdırıram.

**İlham Əliyev:** Sağ olun.

**Mövlud Çavuşoğlu:** Sizi qısa müddət əvvəl Davosda görməkdən qürur duymuşduq. Amma daha önəmlisi bəzi panellərdə təkcə qardaş Azərbaycanın gələcəyi üçün deyil, bölgəmiz üçün ortaya qoyduğunuz baxışları da dinləmə imkanımız olmuşdur.

Türk Şurasına sədrliyi uğurla davam etdirən Azərbaycanın türk dünyasının birliyi üçün töhfələrini ən yaxından bilən bizlərik. Bu baxımdan Zirvə görüşü çox uğurla keçdi. Sizin sədrliyinizlə bu Zirvə görüşündə qəbul edilmiş qərarlar nəticəsində, inşallah, sabah Xarici İşlər nazirləri olaraq, biz də toplantımızı keçirəcəyik və dostlarımızla işlərimizi görəcəyik.

Hörmətli cənab Prezident, Çindən bizim vətəndaşlarımızla birlikdə gələn azərbaycanlı qardaşlarımız

üçün bizə təşəkkür etməyinizə ehtiyac yoxdur. Çünki biz bir millətin övladlarıyıq. Ümummilli lider, cənnətməkan Heydər Əliyev atamızın da dediyi kimi, biz «bir millət – iki dövlətik». Biz can-qan qardaşlarımızı, canlarımızı bizim vətəndaşlarımızdan ayrı tuta bilməzdik, orada qoya bilməzdik. İndi Türkiyədə rahatdırlar, yaxşıdırlar, mənə də yazırlar, əlaqələrimiz vardır. Siz də olsaydınız, eynisini edərdiniz.

Bundan başqa, istər Avropa Şurasında, istərsə də digər platformalarda olsun, əlbəttə, bir-birimizi dəstəkləyəcəyik. Siz dediyiniz kimi, hörmətli cənab Prezident, ikili standart hər yerdə vardır. Təəssüf ki, ideologiyalara boyun əyən təşkilatlar vardır. Bunlardan biri də Avropa Şurasıdır. Yeni baş katibə, yeni sədrə, hamısına deyirik ki, mövqenizi itirirsiniz, bunları düzəltmək üçün biz töhfə verə bilərik. Amma hazırda təəssüf ki, vəziyyət budur.

Biz bir-birimizi dəstəkləməyi Sizdən öyrəndik və öyrənirik. Sizin «Türkiyə burada yoxdur, amma mən varam, biz varıq» – sözlərinizi heç bir türk, Türkiyə Cümhuriyyəti vətəndaşı unuda bilməz. Sizin liderliyinizlə bütün bu çətinliklərə qarşı işbirliyimizi, əməkdaşlığımızı davam etdirəcəyik və Sizin liderliyinizlə Türkiyəni və Azərbaycanı, inşallah, hədəflərinə çatdıracağıq. İkili standartlarla bizə belə mövqe nümayiş etdirənlərə qarşı biz də mübarizəmizi, inşallah, birlikdə davam etdirəcəyik. Hər zaman söylədiyimiz kimi, Türkiyənin olduğu qədər Azərbaycanın haqqını və haqlı mübarizəsini müdafiə etmək bizim vəzi-

fəmizdir. Bizi qəbul etdiyiniz üçün bir daha təşəkkürlərimi bildirirəm.

**İ l h a m  Ə l i y e v:** Sağ olun, təşəkkür edirəm. Lütfən, mənim də səmimi salamlarımı əziz qardaşım Prezident Rəcəb Tayyib Ərdoğana çatdırın. Biz onu Azərbaycanda səbirsizliklə gözləyirik.

Hörmətli Mövlud bəy, sizi bir daha salamlayıram, Azərbaycana xoş gəlmisiniz! Siz bizim əziz qonağımızsınız. Siz Türkiyə–Azərbaycan əlaqələrinin inkişafı üçün çox böyük xidmətlər göstərirsiniz. Siz Azərbaycanı ürəkdən sevən bir insansınız və müxtəlif vəzifələrdə daim Azərbaycanı dəstəkləmisiniz, müdafiə etmisiniz. Biz sizinlə çoxdan bir-birimizi tanıyırıq, Avropa Şurası Parlament Assambleyasında bərabər fəaliyyət göstərmişik və daim bir-birimizi dəstəkləmişik.

Sizin Türkiyənin inkişafında çox böyük xidmətləriniz vardır. Bu gün qardaş Türkiyənin dünya miqyasında güc mərkəzinə çevrilməsində sizin xüsusi rolunuz vardır. Sizi Azərbaycanda çox yaxşı tanıyırlar. Azərbaycanda sizi sevirlər, ölkəmizin, xalqımızın dostu kimi, qardaşı kimi, sizə böyük hörmət edirlər. Bütün bu xidmətləri nəzərə alaraq, siz Azərbaycan dövlətinin yüksək ordeni – «Dostluq» ordeni ilə təltif edilirsiniz və icazə verin, bu yüksək ordeni sizə təqdim edim.

*Prezident İlham Əliyev «Dostluq» ordenini Mövlud Çavuşoğluna təqdim etdi.*

– Təbrik edirəm.

**M ö v l u d  Ç a v u ş o ğ l u:** Hörmətli cənab Prezident, Sizin təqdirinizə layiq olmaq mənim üçün şərəf-

dir. Söylədiyiniz gözəl sözlərə görə minnətdarlığımı bildirmək istəyirəm. Siyasətə başladığım gündən təkcə Türkiyənin haqqını deyil, Azərbaycanın haqqını da müdafiə etməyi özümə borc bildim. Bunu Sizdən öyrəndim. Avropa Şurasına ilk getdiyimiz zaman Siz Azərbaycan nümayəndə heyətinin rəhbəri idiniz. Orada Azərbaycan qədər Türkiyəni də müdafiə edirdiniz. Söylədiyim kimi, Türkiyənin olmadığı yerlərdə «Türkiyə yoxdur, amma biz varıq, mən varam» – deyərək, Türkiyənin haqqını hər zaman müdafiə etdiniz. Türkiyə və Azərbaycan iki qardaş ölkə olaraq, hər zaman bir yerdə olacaq. Sizin liderliyiniz sayəsində ikitərəfli münasibətlərimiz daha çox gücləndi, Prezidentimiz Ərdoğan və Azərbaycan Prezidenti olaraq, zati-alinizin liderliyi ilə. Sizin Azərbaycanla, bölgəmizlə bağlı mövqenizi hər kəs təqdir edir. Amma biz bunun reallıqda faydalarını çox gördük. Ümummilli lider, cənnətməkan Heydər Əliyev atamızın sözü bizim üçün rəhbərdir: «bir millət – iki dövlət». Bir millətin övladları olaraq, əlbəttə, bir-birimizi müdafiə edəcək, bir-birimizə kömək edəcəyik. Mən Xarici İşlər naziri olaraq – Elmar qardaşım qısqanmasın – hər zaman təkcə Türkiyənin deyil, Azərbaycanın da Xarici İşlər naziri kimi çalışdım.

Bizim üçün ən böyük xoşbəxtlik böyüklərimizin bizi təqdir etməsidir. Amma bizim üçün ən böyük şərəf və orden də Azərbaycan və Türkiyə bayraqlarının – türk bayrağının bütün dünyada dalğalanmasıdır. Şanlı bayraqlarımızın dünyada dalğalanması üçün bundan

sonra da təkcə siyasi həyatımda deyil, ömürboyu Türkiyə üçün çalışdığım qədər qardaş Azərbaycan və Azərbaycan xalqı üçün də çalışmağa davam edəcəyəm. Bu orden üçün çox təşəkkür edirəm, Sizə ehtiramımı bildirirəm, hörmətli cənab Prezident.

## QIRĞIZ RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ ÇİNGİZ AYDARBEKOV İLƏ GÖRÜŞ

*5 fevral 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 5-də Qırğız Respublikasının Xarici İşlər naziri Çingiz Aydarbekovu qəbul etmişdir.*

*Nazir Çingiz Aydarbekov Qırğız Respublikasının Prezidenti Sooronbay Jeenbekovun salamlarını dövlət başçısına çatdırdı.*

*Prezident İlham Əliyev Qırğız Respublikasının Prezidenti Sooronbay Jeenbekovun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Qırğız Prezidentinə çatdırmağı xahiş etdi.*

**İlham Əliyev:** Xoş gəlmisiniz, sizi görməyimə şadam. Sabah sizin mühüm tədbiriniz başlayır. Əminəm ki, tədbir bizim ötən il keçirdiyimiz sammit zamanı dövlət başçıları tərəfindən verilmiş tapşırıqlar ruhunda yaxşı keçəcəkdir. Əlbəttə, təşkilatımız ildənilə güclənir və bütün türkdilli dövlətlər arasında əməkdaşlığın möhkəmləndirilməsi üzrə çox mühüm məsələləri həll edir. Son zamanlar həm siyasi qarşılıqlı fəaliyyət planında, həm də iqtisadi inteqrasiya üzrə, o cümlədən mədəniyyət, təhsil sahələrində çoxlu təşəbbüslər irəli sürülüb. Həm fond yaradılıb, həm də

akademiya fəaliyyət göstərir. Beləliklə, biz öz işimizi daha məzmunlu edirik.

Hesab edirəm ki, ötən il ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafı baxımından uğurlu olub. Mən beynəlxalq tədbirlər çərçivəsində Prezidentlə bir neçə dəfə görüşmüşəm. Əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində bu il də mühüm tədbirlər nəzərdə tutulubdur. Qırğızıstan bizim üçün çox yaxın, qardaş ölkədir və biz ikitərəfli qarşılıqlı fəaliyyəti inkişaf etdirmək istəyirik. Düşünürəm ki, bu il siz öz həmkarınızla birgə həyata keçirəcəyiniz tədbirləri müəyyən edəcəksiniz

**Çingiz Aydarbekov:** Hörmətli İlham Heydər oğlu, çox sağ olun. İlk növbədə, Sizə təşəkkürümü bildirmək istərdim. Gərgin iş rejiminə baxmayaraq, Siz görüşmək və hər şeydən əvvəl Qırğız–Azərbaycan münasibətlərinin perspektivlərini müzakirə etmək üçün vaxt tapdınız. Siz qeyd etdiyiniz kimi, ötən il və ondan əvvəlki il Sizin şəxsi diqqətiniz və qardaşlıq, dostluq münasibətlərimizi möhkəmləndirmək istiqamətində bizim Prezidentin səyləri sayəsində əməkdaşlıq çox fəal şəkildə inkişaf edib. Ötən il türkdilli dövlət başçılarının Bakı Sammitində tarixi hadisə baş verdi, təşkilatımız böyüdü, bundan başqa, Avropada Türk Şurasının ofisi açıldı. Sizin bizim Prezidentimizlə çox vacib görüşünüz oldu. Həmin görüşdə siz tərəflərin hökumətlərinin icra etdikləri, reallaşdırdıqları konkret perspektivləri, aktual razılaşmaları müəyyən etdiniz. Onların arasında Qırğız–Azərbaycan mək-

təbinin, Qırğız–Azərbaycan dostluq parkının tikintisi haqqında razılaşma da vardır. Ötən il dekabrın 24-də biz məktəbin təməlini qoyduq. Bu il yanvarın 10-da isə şəxsən bizim Prezidentin iştirakı ilə – o, qardaşlıq münasibətlərimizə böyük diqqət yetirir – park zonasının təməlqoyma mərasimi keçirildi. Bu, şəhərimizin ən mötəbər nöqtəsidir və şəhərimizin sakinləri bunu böyük ruh yüksəkliyi ilə qarşıladılar. Biz Sizin Qırğız Respublikasına rəsmi səfərinizi səbirsizliklə gözləyirik.

**TÜRKİYƏ RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA**

Hörmətli cənab Prezident!

Əziz qardaşım!

Vanda baş vermiş qar uçqunu nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *6 fevral 2020-ci il*

## NATO MÜTTƏFİQ QÜVVƏLƏRİNİN AVROPADAKI ALİ KOMANDANI TOD VOLTERSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*6 fevral 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da NATO Müttəfiq Qüvvələrinin Avropadakı Ali Komandanı Tod Voltersin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

**İlham Əliyev:** Sizi görməyimə çox şadam. Bir daha xoş gəlmisiniz! Mən bizim ötən il sonuncu görüşümüzü xatırlayıram. Bizim əməkdaşlığımızla bağlı məsələləri müzakirə etmək üçün yaxşı imkanımız oldu. Mən həmçinin bildirmək istərdim və çox şadam ki, NATO və Rusiya hərbi komandanları arasında görüşlərin Bakıda keçirilməsi artıq bir ənənəyə sevrilib. Biz görüş yeri kimi Azərbaycanı seçdiklərinə görə NATO və Rusiyaya çox minnətdarıq. Düşünürəm ki, bu çox doğru seçimdir. Bunu bizə olan etimadın, hörmətin əlaməti hesab edirik. Çünki istənilən başqa bir ölkə də seçilə bilərdi. Lakin Bakının seçilməsi o deməkdir ki, bizim həqiqətən də çox güclü tərəfdaşlığımız vardır. Mən əminəm ki, sizin bu gün həmkarınızla keçirəcəyiniz görüş çox səmərəli olacaq, dünyada və regionumuzda sülh və sabitliyə xidmət edəcək-

dir. Əslində bizim də məhz buna ehtiyacımız vardır. Çünki ölkəmiz üçün əsas narahatlıq doğuran regional sabitlikdir. Bizdə potensial risklərin daxili mənbələri mövcud deyil. Ona görə də baş verə biləcək potensial risklər sərhədlərimizdən kənarda yarana bilər. Əlbəttə, bu mütəmadi görüşlər, əminəm ki, çox mühüm məsələlərin müzakirəsi dünyada və regionda sabitliyə yardımçı olacaqdır.

İkitərəfli əlaqələrimizə gəldikdə demək istərdim ki, biz əməkdaşlığın səviyyəsindən çox məmnunuq. Mən dəfələrlə NATO-nun qərargahında olmuşam, müxtəlif baş katiblərlə görüşmüşəm. Mənim baş katib Stoltenberqlə sonuncu görüşüm çox səmərəli, uğurlu oldu. Mənim həmçinin Şimali Atlantika Şurasında çıxış etmək imkanım oldu. Sonra çıxış edənlərin hamısı Azərbaycan haqqında, müstəqil siyasətimiz, həyata keçirdiyimiz islahatlar və tərəfdaşlığımız haqqında çox müsbət danışdılar. Çünki bildiyiniz kimi, Azərbaycan əvvəldən Əfqanıstanda sülhyaratma əməliyyatlarında iştirak edib. Artıq demək olar ki, 20 ildir bizim orada hərbçilərimiz var və biz hərbçilərin sayını artırmışıq. Biz çox mühüm nəqliyyat və logistika dəstəyini, hava məkanımızdan uçuş imkanını, həmçinin nəqliyyat şəbəkəmizdən, xüsusilə yaxın zamanlarda açılmış və yüklərin daşınması üçün mühüm vasitə olan Bakı–Tbilisi–Qars dəmir yolundan istifadə imkanını təmin edirik.

Mən həmçinin sizi məlumatlandırmaq istərdim ki, biz artıq Əfqanıstandan mülki yüklərin tranzit daşın-

masına başlamışıq. Bununla da bu ölkənin Avropa bazarlarına yol tapmasına kömək edirik. Biz artıq dəmir yolumuzu Əfqanıstandan keçən Lapis-Lazuli dəmir yolu ilə birləşdirmişik. Biz həmçinin Əfqanıstana texniki və maliyyə dəstəyi göstəririk. Bizim mühüm nailiyyətlərimizdən biri olan «ASAN xidmət» Mərkəzi artıq Əfqanıstanda da fəaliyyət göstərməyə başlayıbdır. Bu çox səmərəli, müasir sistemdir, demək olar ki, 300 ictimai xidmət bir yerdə cəmləşibdir. Əfqanıstan Prezidenti burada olanda bu sistemlə tanış oldu və bizdən onu Əfqanıstanda yaratmağa kömək göstərməyimizi xahiş etdi. Biz də bunu etdik.

Biz mülki dəstəyimizi, NATO ilə tərəfdaşlığımızı davam etdirəcəyik. Mənim köməkçim Hikmət Hacıyev bu yaxınlarda NATO-nun qərargahında olub. Səfər çox uğurlu keçib. Onun görüşdüyü səfirlərin hamısı ölkəmiz barədə çox xoş sözlər deyiblər və Azərbaycanı etibarlı tərəfdaş hesab edirlər. Həmçinin bizim Əfqanıstandakı sülhyaratma əməliyyatlarına töhfəmiz və gələcək tərəfdaşlıq barədə də danışıqlar aparılıbdır.

Beləliklə, sizi bu barədə məlumatlandırmaq və bir daha «Xoş gəlmisiniz!» – demək istərdim. Bugünkü görüşünüzün uğurlu keçməsini arzu edirəm.

**Tod Volters:** Çox sağ olun, cənab Prezident. Mən təhlükəsizlik və sülh məsələlərində aparıcı mövqedə olmaq istəyinizə görə Sizi və ölkənizi təqdir edirəm. Əfqanıstanda «Qətiyyətli dəstək» missiyasına verdiyiniz töhfənin davam etdirilməsi, əsgərlərinizin

orada müşahidə etdiyimiz xidməti tərəfimizdən yüksək qiymətləndirilir. Bir az bundan əvvəl sizin Baş Qərargah rəisi ilə görüşmək imkanım oldu və bu yaxınlarda Əfqanıstandakı səhra komandiri ilə Həmid Kərzai Beynəlxalq Aeroportunda əsgərlərin xidmətini müzakirə etdim. Onlar cəsarətlə xidməti davam etdirirlər. Qeyd etməliyəm ki, NATO-nun Əfqanıstana cəlb edilməsi ilə bağlı məsləhətləşmələr zamanı bütün əsgərlərinizin mühafizəsi məsələsi həmişə nəzərə alınacaqdır. Biz xalqınızı və ordunuzu bütün etdiklərinizə görə təqdir edirik. Bu, Əfqanıstan sərhədlərinin xaricindən terror dəstələrinin ölkəyə daxil olmasının qarşısını almaqda bizim səylərimizə çox böyük təsir göstərir. Hesab edirəm ki, missiya yaxşı fəaliyyət göstərməyə davam edir və sizin əsgərləriniz bu missiyanın böyük bir tərkib hissəsidir.

## RUSİYA FEDERASİYASI SİLAHLI QÜVVƏLƏRİNİN BAŞ QƏRARGAH RƏİSİ–MÜDAFİƏ NAZİRİNİN BİRİNCİ MÜAVİNİ VALERİ GERASİMOVUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*6 fevral 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi–Müdafiə nazirinin birinci müavini Valeri Gerasimovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

**İ l h a m  Ə l i y e v:** Hörmətli Valeri Vasilyeviç, xoş gəlmisiniz! Sizi yenidən görməyimə şadam. Şadam ki, NATO-dakı həmkarlarınızla mühüm görüşlərin keçirilməsi ilə əlaqədar sizin Azərbaycana gəlişiniz müntəzəm xarakter daşıyır. Həmçinin Bakının Rusiya və NATO ali hərbi komandanlığının ənənəvi görüş yerinə çevrildiyinə görə bir daha Rusiya tərəfinə minnətdarlığımı bildirmək istərdim. Bu proses artıq 3 ildir ki, davam edir və əlbəttə, Bakının seçimi bizim üçün çox əhəmiyyətli və dəyərlidir. Bunu bizə qarşı etimad və hörmət əlaməti kimi qəbul edirik və həmçinin hesab edirik ki, bu görüşlər həm bizim regionda, həm də dünyada riskləri azaltmağa çox ciddi kömək edir.

Buna görə regionda və dünyada gələcək vəziyyət sizin həmkarınızla bugünkü görüşünüzdən asılı olacaqdır.

Əlbəttə, hər belə tədbir bir daha görüşmək və hərbi-texniki sahədə əməkdaşlığın gündəliyinə nəzər salmaq üçün yaxşı imkandır. Yəni bizim sizinlə ötən dəfə, ötən il də qeyd etdiyimiz kimi, yaxşı nəticələrimiz, münasibətlərimizin tarixi, həm də gələcək üçün planlarımız vardır. Əlbəttə, biz bu istiqamətdə, həmçinin hərbi sahədə əməkdaşlığı davam etdirmək niyyətindəyik. Ölkələrimiz arasında ikitərəfli münasibətlərə gəldikdə, qarşılıqlı fəaliyyəti möhkəmləndirmək işində çox uğurlu keçən ilə yekun vurmaq olar. Həm mənim Vladimir Vladimiroviç Putinlə və digər rəhbərlərlə müntəzəm görüşlərim, həm də qarşılıqlı səfərlər ölkələrimizin daha da yaxınlaşmasına təkan verib. Biz indi iqtisadi gündəlik üzrə fəal iş aparırıq. Müxtəlif sahələrdə qarşılıqlı fəaliyyəti nəzərdə tutan 5, indi isə daha artıq – 7 «Yol Xəritəsi» reallaşdırılır və hər bir istiqamət üzrə də yaxşı nəticələr vardır. Ticari-iqtisadi sahədə də yaxşı nəticələr olub. Ötən il əmtəə dövriyyəsi 20 faizdən çox artıb. Nəqliyyat və turizm sahələrində də artım vardır. Keçən il rekord sayda – 900 mindən çox rusiyalı turist Azərbaycanı ziyarət edibdir. Bu ilin yanvar ayında yenə də artım olubdur. Düşünürəm ki, bu il biz asanlıqla milyon həddinə çatacağıq. Bu, əlbəttə, ölkələrimiz arasında münasibətlərin göstəricisidir. Çünki rusiyalılar özlərini Azərbaycanda rahat və vərdiş etdikləri şəraitdə hiss edirlər. Beləliklə, ötən ilin yekunları uğurlu olub.

Bu il də sizinlə mühüm görüşdən başlanır. Düşünürəm ki, bu ili də yaxşı nəticələrlə başa vuracağıq. Sizə həmkarınızla yaxşı görüş arzulayıram.

**Valeri Gerasimov:** Hörmətli İlham Heydər oğlu, sağ olun. İcazə verin, NATO-nun hərbi rəhbərliyi ilə görüş üçün növbəti dəfə imkan yaratdığınıza görə Sizə təşəkkürümü bildirim. Əslində yaranmış beynəlxalq vəziyyət, sabitliyin olmadığı və gözlənilmədiyi, xüsusən Rusiyanın sərhədləri yaxınlığında da, Yaxın Şərqdə də beynəlxalq terrorizmlə gərginləşən mübarizə şəraitində olan bütün bu çətinliklər həm hərbi rəhbərliyin görüşünün, həm də bir sıra məsələlərin müzakirəsinin zəruriliyini şərtləndirir.

Eyni zamanda, bunun fonunda Rusiya və Azərbaycan münasibətləri sevindiricidir. Belə ki, bizim ortaq tariximiz və Sizin söylədiyiniz iqtisadi inkişafla bağlı həmin layihələrin fonunda mehriban qonşuluq münasibətlərimiz, hərbi qurumlarımız arasında qarşılıqlı fəaliyyət, xüsusən hərbi-texniki əməkdaşlıq və silahlı qüvvələrimiz arasında digər tədbirlər genişlənir. Çox yaxşıdır ki, bir növ, biz hamımız, ordularımız bir ordunun – sovet ordusunun yetirməsidir. Hərbi sahədə münasibətlərimizin yaxınlaşması üçün gələcəkdə də hər şeyi edəcəyik.

## RUSİYA FEDERASİYASININ TASS İNFORMASİYA AGENTLİYİ BAŞ DİREKTORUNUN BİRİNCİ MÜAVİNİ MİXAİL QUSMAN İLƏ GÖRÜŞ

*6 fevral 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da Rusiya Federasiyasının TASS informasiya agentliyi baş direktorunun birinci müavini Mixail Qusmana «Şərəf» ordenini təqdim etmişdir.*

**İlham Əliyev:** Hörmətli Mixail Solomonoviç, ilk növbədə, sizi keçmiş yubileyiniz münasibətilə təbrik etmək, sizə ən xoş arzularımı çatdırmaq, cansağlığı, rifah, işinizdə yeni uğurlar arzulamaq istərdim. Təəssüf ki, siz yubileyinizi qeyd edəndə mən Bakıda deyildim, Davosda idim. Amma sizi telefon vasitəsilə təbrik etmək və öz hisslərimi bildirmək, eləcə də sizin Bakıda olduğunuz vaxt təltif edildiyiniz yüksək mükafatı sizə şəxsən təqdim etməyim üçün görüş haqqında razılaşmaq imkanım olub. Mən bilirəm ki, siz ad günlərinizi, xüsusilə yubileylərinizi həmişə vətəniniz Azərbaycanda qeyd edirsiniz. Bu, artıq xoş ənənədir. Bu bir daha sizin Vətəninizə, doğma torpağınıza, doğma şəhərinizə bağlılığınızı göstərir. Biz sizin öz Vətəninizi necə sevdiyinizi və onu bütün dünyada necə təbliğ etdiyinizi bilirik. Sizin məşhur «Formula

vlasti» verilişiniz artıq dəfələrlə bütün qitələri dolaşıb və düşünürəm ki, sizin görüşmədiyiniz prezidentlərin sayı görüşdüyünüz prezidentlərin sayından daha azdır. Əlbəttə, adətən, prezidentlər qonaqlarla görüşəndə onlara həmin adam haqqında məlumat verilir. Yazılır: doğulduğu şəhər Bakı, Azərbaycan.

Bundan başqa, mən bilirəm ki, siz həm Rusiya, həm də beynəlxalq media məkanında bizim ölkəmiz haqqında təəssüratınızı bölüşür, Azərbaycan reallıqlarını, Azərbaycanda problemlərin necə həll olunduğunu danışırsınız. Sizin fəaliyyətiniz artıq çoxdan Rusiya Federasiyasının çərçivəsindən kənara çıxaraq, beynəlxalq xarakter daşıyır. Mən bilirəm ki, siz həm də dünya mediasının əməkdaşlıq prosesinin çox fəal iştirakçısısınız. O cümlədən xatırlayıram ki, sizin təşəbbüsünüzlə Bakıda rus mətbuatının konqresi və digər beynəlxalq tədbirlər keçirilib. Məhz öz fəaliyyətinizlə ölkəmiz haqqında dünya ictimaiyyətinə həqiqətlərin çatdırılmasına böyük töhfə verdiyinizə görə sizə minnətdarlığımı bildirmək istərdim.

Siz həmçinin Rusiya–Azərbaycan münasibətlərinin möhkəmləndirilməsi işinə də böyük töhfə verirsiniz. Bu münasibətlər bu gün uğurla inkişaf edir, artıq ən yüksək səviyyəyə çatıb və yanvarda Bakıda keçirilmiş yubiley tədbirləri bunu bir daha nümayiş etdirdi. Bakıya Rusiya ictimaiyyətinin böyük nümayəndə heyəti, siyasi, informasiya, mədəni məkanın aparıcı təmsilçiləri gəlmişdilər. Mənə deyilənə görə, bütün qonaqlar buradan çox yaxşı təəssüratla gediblər. Bu-

na görə də sizə Rusiya–Azərbaycan əlaqələrinin möhkəmləndirilməsi işinə töhfələr verdiyiniz üçün təşəkkürümü bildirmək istərdim. Əlbəttə, belə gündə həm də sələflərinizi xatırlatmaq istərdim. Azərbaycanda sizin ailənizi, valideynlərinizi həmişə sevib və çox yüksək qiymətləndiriblər, onlara böyük hörmətlə yanaşıblar. Bu yaxınlarda siz mənə atanız və ananız haqqında kitab bağışlamışdınız. Mən onu böyük maraqla oxudum. Bu həqiqətən də nadir bir kitabdır. Belə ki, olduqca ürəkdən, səmimi və doğru yazılıb. Bu kitabda həm sizin ailənizin, uşaqlığınızın, həm də Azərbaycanın o dövrdəki tarixi əks olunubdur. Buna görə də kitab təkcə sizi tanıyanlar üçün deyil, həm də bizim şəhərimizin tarixi ilə maraqlanan hər kəs üçün çox maraqlıdır. Əlbəttə, belə ziyalı və möhtərəm ailədə sizin və böyük qardaşınız Yuli Solomonoviç kimi – onun neçə yaşı olsa da, hamımız üçün elə Yulikdir – uşaqların doğulması təsadüfi deyil. O da elə sizin kimi, kiminlə ünsiyyət saxlayırsa, öz enerjisini onlara ötürür. Siz və Yuli Solomonoviç işinizdə, ictimai fəaliyyətinizdə böyük uğurlar qazanmısınız. Bununla da siz təkcə hamının tanıdığı insanlar deyil, həm də hörmətli insanlarsınız.

Düşünürəm ki, yəqin sizə rəğbət bəsləməyən insan tapılmaz. Siz, Mixail Solomonoviç, bütün bunlara öz əməyinizlə, öz fəaliyyətinizlə, davranışınızla və əlbəttə, öz xasiyyətinizlə nail olmusunuz. Bu gün sizinlə belə yarırəsmi şəraitdə görüşmək mənim üçün çox xoşdur. Bizim görüşlərimiz həmişə mediadan kənar-

da baş tutur. Amma bu gün – belə bir gündə, əlbəttə, mən sizi təbrik etmək və həmçinin Azərbaycan dövlətinin sizin fəaliyyətinizi çox yüksək qiymətləndirdiyini qeyd etmək istərdim. Bu mənim sizi təltif etdiyim üçüncü mükafatdır. İndiyə qədər «Şöhrət», sonra «Dostluq» ordenləri olub. İndi isə daha yüksək – «Şərəf» ordeninə layiq görülmüsünüz. İcazə verin, bu yüksək mükafatı sizə təqdim edim.

*Prezident İlham Əliyev «Şərəf» ordenini Mixail Qusmana təqdim etdi.*

**M i x a i l Q u s m a n:** Hörmətli İlham Heydər oğlu, hörmətli cənab Prezident!

Yüksək mükafata və indicə dediyiniz, mənim qəlbimə bu dərəcədə səmimi və əziz olan sözlərə görə Sizə minnətdarlığımı bildirmək üçün söz tapa bilmirəm. Siz mənə çox yüksək qiymət verdiniz. Yəqin 70 artıq elə bir yaşdır ki, qiymət almaq vaxtıdır və mənə verdiyiniz bu qiymətə görə Sizə hədsiz minnətdaram.

Məni layiq gördüyünüz bu orden «Şərəf» adlanır. Yəqin ki, vətəndaş üçün, insan üçün onun şərəfindən daha mühüm heç nə yoxdur. Mən həmişə hesab etmişəm ki, nüfuz, şərəf mənim daim xatırlamalı, riayət etməli və qorumalı olduğum ən başlıca dəyərdir. İndicə barəsində çox səmimi sözlər söylədiyiniz valideynlərim məni məhz belə tərbiyə ediblər. Bu mükafatın mənim üçün Vətənimə məhəbbətimin rəmzi olduğunu demək çox vacibdir. Mən nəinki heç vaxt gizlətməmişəm, həmişə fəxr etmişəm ki, mən bakılıyam, mən azərbaycanlıyam. Əlbəttə, etnik cəhətdən deyil,

lakin mən məhz azərbaycanlıyam. Bunlar mənim üçün sadəcə, adi sözlər deyil, hisslərim, düşüncələrimdir. Mən belə yaşamışam, belə yaşayıram və oğlumu da belə tərbiyə etmişəm.

Doğma ölkəm Azərbaycanın bu gün yer üzündə ən qabaqcıl ölkələr sırasında olması mənim üçün çox vacibdir. Bu, hörmətli İlham Heydər oğlu, böyük dərəcədə şəxsən Sizin xidmətinizdir. İnanın ki, bu sözləri bu mükafatı Sizin əllərinizdən aldığıma görə demirəm. Sizin rəhbərliyinizlə ölkə misli görünməmiş sıçrayış edib, o, inamlı və dayanıqlı inkişafdadır. Mən bu 15 ili xatırlayıram. Bəli, Heydər Əliyev – Allah ona rəhmət eləsin, ölkəni dağılmaqdan, viran olmaqdan xilas etdi. Lakin tale ona bu işi davam etdirməsinə imkan vermədi. Bu bayrağı Siz qaldırdınız. Siz xilas olmuş ölkəyə elə imkanlar, elə inkişaf səviyyəsi verdiniz ki, bu gün Azərbaycanda yaşayan və ya yaşamayan, lakin bununla belə, Azərbaycanı mənim kimi sevən hər bir insan öz ölkəsi ilə fəxr edir, səmimi fəxr edir, başını uca tutaraq fəxr edir.

Siz bu yaxınlarda burada keçirilmiş tədbirləri xatırlatdınız. Biz onları «Bakı–Moskva: mədəniyyətlərin dialoqu» adlandırdıq. Əlbəttə, onlar təsadüfən üst-üstə düşmədi. Burada həqiqətən də Rusiyadan görkəmli insanlar oldular. Onların çoxu buraya ilk dəfə gəlmişdi və bizim şəhərə necə heyranlıqla, necə geniş açılmış maraq dolu gözlərlə, necə səmimiyyətlə baxdıqlarını görmək mənim üçün böyük xoşbəxtlik idi. Lap elə dünən mən onlardan bəziləri ilə görüş-

düm. Əlbəttə, Siz də bilirsiniz ki, bizim zəngin mətbəximiz, görkəmli memarlığımız, gözəl mədəniyyətimiz vardır. Onlar isə daha çox onu deyirdilər ki, Azərbaycanda ən əsas insanlardır. İlham Heydər oğlu, Siz böyük xalqın, dünyaya açıq olan xalqın, xeyirxah bir xalqın, qonaqpərvər bir xalqın, igid və öz liderinə inanan bir xalqın Prezidentisiniz. Mənə elə gəlir ki, xalqınızın belə olması Sizin xoşbəxtliyinizdir. Mən bu sözləri tam səmimiyyətimlə söyləyirəm.

İlham Heydər oğlu, Sizin icazəniz və Sizin vasitənizlə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanıma da səmimi minnətdarlığımı bildirmək istəyirəm. Siz yanvarın 23-də Mehriban xanımla birlikdə mənə zəng etməklə, məni yüksək şərəfə layiq gördünüz. Siz bilirsiniz, yəqin ki, bu, yaşımla bağlıdır, mən sadəcə, kövrəldim. Çünki Siz məşğul idiniz, Sizin işiniz çox idi, Siz mənə təbrik teleqramı göndərdiniz. Formal təbriklər olmuşdu. Lakin Siz Mehriban xanımla birlikdə mənə zəng etməyi lazım bildiniz. Bilirsinizmi, bunlar elə şeylərdir ki, onları heç vaxt unutmursan. Çox sağ olun.

Mən Sizi əmin etmək istəyirəm ki, «Şərəf» ordeni qalan bütün ömrüm boyu mənim ən mühüm, çox lazımlı və daimi motivim olacaqdır. Sağ olun.

## «STADLER RAİL AG» ŞİRKƏTİNİN DİREKTORLAR ŞURASININ SƏDRİ PETER ŞPULER İLƏ GÖRÜŞ

*6 fevral 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da «Stadler Rail AG» şirkətinin Direktorlar Şurasının sədri Peter Şpuleri qəbul etmişdir.*

*Görüşdə «Azərbaycan Dəmir Yolları» Qapalı Səhmdar Cəmiyyəti ilə «Stadler Rail AG» şirkəti arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd olundu, bu şirkətin istehsal etdiyi çox müasir, rahat və sürətli qatarların Azərbaycanda istifadəyə verilməsinin ölkəmizin dəmir yolu sistemində böyük dəyişikliklərə səbəb olduğu vurğulandı.*

*Söhbət zamanı Azərbaycanda dəmir yolu ilə ölkə daxilində səfər edən sərnişinlərin sayının artmasına, yaxın gələcəkdə dəmir yolu vasitəsilə, xüsusilə bu yaxınlarda istifadəyə verilmiş Bakı–Tbilisi–Qars dəmir yolu xətti ilə qonşu ölkələrə, həmçinin Avropa ölkələrinə səfərlərin həyata keçiriləcəyinə əminlik ifadə edilərək, Azərbaycanın «Stadler Rail AG» şirkətindən bundan sonra daha çox qatarın alınmasında maraqlı olduğu bildirildi.*

*Görüşdə, həmçinin Azərbaycanın Davos Dünya İqtisadi Forumu ilə fəal əməkdaşlığına toxunuldu, Pre-*

*zident İlham Əliyevlə Davos Dünya İqtisadi Forumunun prezidenti Borge Brende arasında Dünya İqtisadi Forumunun dördüncü Sənaye İnqilabı üzrə Regional Mərkəzinin Azərbaycanda yaradılması haqqında Niyyət Protokolunun imzalanmasının önəmi qeyd edildi. Məhz Azərbaycanın regional mərkəz seçilməsi Forum tərəfindən ölkəmizdə həyata keçirilən inkişaf proseslərinə verilən qiymət kimi dəyərləndirildi. Azərbaycanda nəqliyyat infrastrukturunun inkişafı nəticəsində Davos Dünya İqtisadi Forumunun dəmir yollarının keyfiyyəti ilə bağlı reytinqində dəmir yolu xidmətlərinin səmərəliliyinə görə ölkəmizi dünyada 11-ci yerə layiq gördüyü vurğulandı.*

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HƏSƏN RUHANİYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – İslam İnqilabının Qələbəsi Günü münasibətilə Sizi və xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Tarixi, mədəni və dini köklərə əsaslanan, mehriban qonşuluq şəraitində inkişaf edən Azərbaycan–İran münasibətlərinin bugünkü səviyyəsi məmnunluq doğurur. Əminəm ki, həm ikitərəfli qaydada, həm də beynəlxalq təşkilatlarda, xüsusən «Qoşulmama Hərəkatı» çərçivəsində əməkdaşlığımız birgə səylərimizlə xalqlarımızın rifahı naminə bundan sonra daha da möhkəmlənəcəkdir.

Bu xoş fürsətdən istifadə edərək, Sizə cansağlığı, işlərinizdə uğurlar, dost İran xalqına daim sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 fevral 2020-ci il*

## MİLLİ MƏCLİSƏ SEÇKİLƏR GÜNÜ 6 SAYLI SEÇKİ MƏNTƏQƏSİNDƏ KEÇİRİLMİŞ SƏSVERMƏDƏ İŞTİRAK

*9 fevral 2020-ci il*

*Azərbaycan Respublikasının Milli Məclisinə fevralın 9-da seçkilər keçirilmişdir.*

*Səsvermə prosesinin başlandığı ilk dəqiqələrdən Bakı şəhərinin 29 saylı Səbail seçki dairəsinin 6 saylı tam orta məktəbdə yerləşən 6 saylı seçki məntəqəsində canlanma müşahidə olunurdu.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri səs vermək üçün bu seçki məntəqəsinə gəldilər.*

*Prezident İlham Əliyev səsvermə otağına daxil olub seçki bülletenini alaraq, kabinəyə keçdi və sonra bülleteni qutuya saldı.*

*Bu anı respublikamızın və xarici ölkələrin mətbuat orqanlarının, televiziya kanallarının nümayəndələri izlədilər.*

*Sonra Mehriban xanım Əliyeva və ailə üzvləri səs verdilər.*

*Qeyd edək ki, Bakı şəhərinin 29 saylı Səbail seçki dairəsinin 6 saylı seçki məntəqəsində 574 seçici qeydiyyata alınıbdır. Bu seçki dairəsi üzrə 20 namizəd mübarizə aparırdı.*

## BAKININ PİRALLAHI RAYONUNDA «AZƏRENERJİ» ASC-nin ƏSASLI ŞƏKİLDƏ YENİDƏN QURULMUŞ «DÜBƏNDİ» YARIMSTANSİYASININ AÇILIŞI MƏRASİMİ

*10 fevral 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 10-da Bakının Pirallahı rayonunda «Azərenerji» Açıq Səhmdar Cəmiyyətinin əsaslı şəkildə yenidən qurulmuş 110/35/6 kilovoltluq «Dübəndi» yarımstansiyasının açılışında iştirak etmişdir.*

*«Azərenerji» ASC-nin rəhbəri Baba Rzayev dövlət başçısına yarımstansiyada görülmüş işlər barədə məlumat verdi.*

*Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə əldə olunmuş uğurlar enerji sektorunun inkişafında da özünü aydın şəkildə göstərir. Respublikanın sosial-iqtisadi tərəqqisinin təmin edilməsində mühüm elementlərdən olan bu sahənin inkişafına son dövrlərdə çox böyük diqqət yetirilir. Ölkəmizin elektrik enerjisi təsərrüfatında köklü islahatlar həyata keçirilməklə, bu proses davamlı xarakter alıb, enerji sisteminin etibarlılığının təmin olunması və bu sahədə mükəmməl infrastrukturun yaradılması üçün ardıcıl və kompleks tədbirlər hazırda da davam etdirilir.*

*«Bakı şəhəri və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı»nın uğurlu icrası nəticəsində Xəzər və Pirallahı rayonlarında yeni tikilən sosial və sahibkarlıq obyektlərini, inkişaf edən sənaye, kənd təsərrüfatı, turizm müəssisələrini, əhalinin artan tələbatını təmin etmək, qısaqapanmaları və sistem qəzalarını aradan qaldırmaq üçün yenidən qurulmuş «Dübəndi» yarımstansiyasının transformatorları daha güclü və yeniləri ilə əvəz edilib, mikro SCADA sistemi yaradılıbdır. Nəticədə güc defisiti aradan qaldırılmaqla yanaşı, etibarlılıq və dayanıqlılıq təmin edilibdir. Avadanlıqların açıq tiplidən qapalı tipliyə keçirilməsi yarımstansiyanı atmosfer şəraitinin təsirinə məruz qalmaq təhlükəsindən qoruyur. Yenidən qurulma zamanı 63MVA gücündə 2 yeni transformator bina daxilinə yerləşdirilib ki, bununla da yarımstansiyanın gücü 126 MVA-ya çatdırılıbdır. Burada aparılmış işlər zamanı Xəzər və Pirallahı rayonlarının perspektiv sosial-iqtisadi inkişafı nəzərə alınıb. İstehlakçıların enerji təchizatında fasilə yaranmaması üçün yenidən qurulma işləri xüsusi rejimdə yarımstansiyanın fəaliyyəti dayandırılmadan icra olunubdur. Bu yarımstansiya Bakıətrafı kənd və qəsəbələrin çox hissəsini, Pirallahı Sənaye Parkı, qaçqın və məcburi köçkün şəhərciyi, Kabel zavodu, «Zirə Ekopark» kompleksi və digər yerlərin enerji təchizatını təmin edəcəkdir.*

*Prezident İlham Əliyev yarımstansiyanı işə saldı.*

*1953-cü ildə istifadəyə verilmiş və istismar müddəti başa çatmış bu yarımstansiyanın avadanlıqları həddən*

*artıq yüklənirdi ki, bu da istənilən zaman sistemdə qəza vəziyyətinin yaranmasına səbəb ola bilərdi. Yarımstansiya Xəzər dənizinə yaxın ərazidə yerləşdiyindən nəm və küləkli hava şəraitində burada tez-tez qısaqapanmalar olurdu. Ona görə də «Dübəndi» yarımstansiyası sökülərək, qapalı şəraitdə yeni texnologiyalar əsasında tam yenidən qurulubdur.*

*Burada yaradılmış şəraitlə tanış olan dövlət başçısı yarımstansiyanın kollektivi ilə görüşdü.*

**İlham Əliyev:** Yeni yarımstansiyanın açılışı münasibətilə sizi təbrik edirəm. «Dübəndi» yarımstansiyası indi bütün yüksək standartlara cavab verir və böyük ərazini elektrik enerjisi ilə qidalandıracaqdır. Əvvəlki yarımstansiyanın vəziyyəti çox acınacaqlı idi, demək olar ki, sıradan çıxmışdı. Ona görə yeni yarımstansiyanın tikintisi zəruri idi və bunu da «Azərenerji» yüksək səviyyədə təşkil etdi. Beləliklə, Azərbaycan əhalisinin enerji ilə dayanıqlı təminatı işində növbəti önəmli addım atıldı.

Onu da bildirməliyəm ki, son illər ərzində bu sahəyə çox böyük diqqət göstərilir. Bunun sayəsində Azərbaycanda enerji təchizatı ilə bağlı bütün əsas problemlər, demək olar ki, həllini tapıbdır. Son illərdə bu sahəyə göstərilən diqqət elə vəziyyət yaradıb ki, Azərbaycan artıq enerji təminatçısına çevrilibdir. Əvvəlki dövrlərdə biz idxaldan asılı idik. İndi isə öz tələbatımızı tam təmin edib, hətta ixrac da edirik.

Hesab edirəm ki, 2020-ci il «Azərenerji» üçün, ümumiyyətlə, Azərbaycan energetikləri üçün uğurla

başlanıbdır. İlin əvvəlində iki böyük şirkət ölkəmizdə 440 meqavat gücündə yeni külək və Günəş elektrik stansiyalarının tikintisi ilə bağlı Azərbaycanla müvafiq sazişlər bağlayıbdır. İşlər bu il başlanacaq və beləliklə, bərpa olunan enerji növləri Azərbaycanda inkişaf edəcək, bu inkişaf geniş vüsət alacaqdır. Eyni zamanda, bu gün bu yarımstansiyanın açılışı əlamətdar hadisədir.

Bu il Mingəçevir İstilik Elektrik Stansiyasında bərpa işləri davam etdiriləcək. İlin birinci yarısında Mingəçevir İstilik Elektrik Stansiyası tam gücü ilə işləyəcək. Keçən il, ümumiyyətlə, 400 meqavat itirilmiş güclər bərpa olundu, onun böyük hissəsi Mingəçevir İstilik Elektrik Stansiyasının payına düşür. Bu il də Azərbaycanda təqribən 300–400 meqavat itirilmiş elektrik enerjisi bərpa olunacaqdır.

Eyni zamanda, dövlət xətti ilə bərpa olunan enerji növlərinin yaradılması işi davam etdiriləcək. Bu il də bu sahəyə vəsait ayrılacaqdır. Beləliklə, generasiya gücləri, ötürücü xətlər, transformatorlar, yarımstansiyalar, bütün elektrik şəbəkəsi beynəlxalq standartlara tam cavab verəcəkdir. Enerji təminatı hər bir ölkənin təhlükəsizliyi deməkdir, xüsusilə Azərbaycan kimi sürətlə inkişaf edən ölkələr üçün. Təkcə keçən il qeyri-neft sektorunda 14 faizlik artım olub. Bütün bu işlər, yeni müəssisələr, fabriklər, zavodlar, artan əhali yeni enerji gücləri tələb edir. Biz də bunu yaradırıq. Azərbaycan dövləti bundan sonra da bu sahəyə diqqətini əsirgəməyəcəkdir. Energetiklər isə öz vəzifə borclarını

ləyaqətlə icra edərək, ölkəmizin ümumi inkişafına bundan sonra da töhfə verəcəklər.

Bir daha sizi təbrik edirəm. Sizə yeni uğurlar arzulayıram.

**Energetiklər:** Çox sağ olun, minnətdarıq.

*Sonda xatirə şəkli çəkdirildi.*

## TÜRKİYƏ–AZƏRBAYCAN PARLAMENTLƏRARASI DOSTLUQ QRUPUNUN RƏHBƏRİ ŞAMİL AYRIMIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*10 fevral 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 10-da Türkiyə–Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrımın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

**İlham Əliyev:** Sizi yenidən görməyimə şadam. Keçən il bir çox tədbirlərdə, mərasimlərdə bir yerdə olduq. Bu il də görüşürük. Dünən axşam əziz qardaşım hörmətli Prezident Rəcəb Tayyib Ərdoğan mənə telefonla zəng edib, seçkilərlə bağlı öz təbriklərini ifadə etdi. Bilirsiniz ki, yaxın gələcəkdə Bakıda Türkiyə–Azərbaycan Strateji Əməkdaşlıq Şurasının növbəti toplantısı keçiriləcəkdir. Bu toplantı ənənəvi olaraq hər il keçirilir – bir dəfə Türkiyədə, bir dəfə Azərbaycanda. İndi bu toplantıya hazırlıq gedir. Əminəm ki, iki dost, qardaş ölkə arasındakı əlaqələr 2020-ci ildə də uğurla inkişaf edəcək. Əgər keçən il biz TANAP-ın Avropa sərhədinə çatdırılmasını birlikdə qeyd etmişiksə, bu il artıq «Cənub Qaz Dəhlizi»nin istismara verilməsini qeyd edəcəyik.

Sizə də təşəkkür edirəm ki, seçkilərdə müşahidəçi kimi iştirak etmisiniz. Böyük səylər göstərmisiniz, bu çox önəmlidir. Çünki həm Türkiyədə, həm də Azərbaycanda keçirilən seçkilərdə bizim millət vəkillərimiz fəal olur, öz müşahidələrini aparır, fikirlərini bölüşürlər. Bildiyimə görə, artıq dünən siz bizim mətbuata açıqlamalar vermisiniz. Bir daha sizə təşəkkür edirəm və «Xoş gəlmisiniz!» – deyirəm.

**Ş a m i l  A y r ı m:** Hörmətli cənab Prezident! Əvvəlcə, bizi qəbul etdiyiniz üçün Sizə çox təşəkkür edirik. Təbii ki, can Azərbaycanımızın dünən keçirdiyi seçkilərin Azərbaycanımız, bölgəmiz və Türkiyəmiz üçün xeyirli-uğurlu olmasını diləyirəm.

Türkiyə–Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri olaraq, mənimlə bərabər, yoldaşlarım da seçkiləri müşahidə etdilər. Çox səmərəli müşahidələrimiz oldu. Seçkilər çox obyektiv keçirildi. Biz hamımız təcrübəli insanlarıq. Mən Azərbaycandakı seçkilərin, demək olar ki, hamısında müşahidəçi olmuşam, elə yoldaşlarım da. Azərbaycandan kənarda da seçkiləri izləmişik. Həqiqətən, Azərbaycandakı bu seçkilərdə beynəlxalq standartlardan da üstün təşkilatçılıq gördük. Bunu bütün dünya görməlidir. Təəssüf ki, xüsusilə Avropa Şurasının, bir sıra qurumların Azərbaycan və Türkiyə ilə bağlı qərəzli münasibəti bizi çox narahat edir. Türkiyə Respublikasının parlamentində biz dostluq qrupunun tərkibində 10 nəfərik. Amma səmimiyyətlə söyləyirəm ki, 600 deputatımızın hamısı bu qrupun üzvü olmaq istəyir. Ürəkləri Azərbaycanın uğurları üçün döyünür.

Türkiyə olaraq, bu seçkilərin şəffaf, sakit ab-havada keçməsinə, belə bir mühitin yaradılmasına görə, ilk növbədə, zati-alinizə çox təşəkkür edirik. İkincisi, Azərbaycan xalqının mütəşəkkilliyini, öz dəyərlərinə sahib çıxmasını təqdir edirik. Üçüncüsü, bir təşəkkürümüz də namizədlərədir. Bu seçkilərdə gənc namizədlər də fəal idi. Onlar seçkilərə hazırlıq dövründə Türkiyədə olduğu kimi, qapı-qapı gəzərək, təbliğat işləri aparıblar. Mən inanıram ki, bundan sonrakı seçkilərdə Azərbaycan bunun faydasını görəcək. Sizə yoldaşlarım adından bir daha təşəkkür edirəm.

Fürsətdən istifadə edib parlament sədrimizin Sizə ən səmimi salamlarını çatdırmaq istərdim. Sizə bir daha ən səmimi təşəkkürlərimizi çatdırırıq. Var olun, sağ olun.

**İlham Əliyev:** Çox sağ olun. Təşəkkür edirəm, hörmətli Şamil bəy, hörmətli dostlar.

Doğrudan da bu seçkilər çox önəmli idi. Çünki bu seçkilər Azərbaycanda aparılan islahatlara dəstək verməlidir və seçkilərin növbədənkənar keçirilməsinin əsas məqsədi də o idi ki, vaxt itirmədən islahatlar davam etdirilsin. Çünki həm struktur islahatları aparıldı, həm hökumət, həm də Prezident Administrasiyası yenidən formalaşdırıldı və əlbəttə ki, Milli Məclis bu işlərdən kənarda qala bilməzdi. Əminəm ki, bu seçkilərin Azərbaycanın gələcək inkişafında çox önəmli rolu olacaqdır. Çünki bizim qanunvericiliyimiz ölkəmizin artan sürətinə uyğun olmalıdır. Eyni zamanda, bizim beynəlxalq əlaqələrimiz də genişlənir və Azərbaycanın millət vəkilləri ölkəmizi bundan sonra da beynəlxalq təşkilatlarda ləyaqətlə təmsil etməlidirlər.

İndi bütövlükdə ölkəmizdə gəncləşmə siyasəti aparılır. Ancaq bu da çox düşünülmüş formada olmalıdır. Yaşlı nəslin təcrübəsi, gənclərin innovasiyaya meyilli olması, onların bilikləri, müasir proseslərə diqqətin yetirilməsi – bax, biz bu vəhdətin təşkil edilməsi üçün çalışırıq. Hesab edirəm ki, buna nail olmuşuq. Mənə verilən məlumata görə, seçkilər ölkə ərazisində çox sakit, qanunvericilik çərçivəsində keçib, hər hansı bir narahatedici məqam olmayıbdır. Bu seçkilərə çox böyük maraq var idi. Çünki mən xatırlamıram ki, Azərbaycanda keçirilmiş hansısa parlament seçkisində 1300-dən çox namizəd olsun. Yəni bu özlüyündə onu göstərir ki, seçkilər rəqabət şəraitində keçirilib və bütün namizədlərin qeydə alınması prosesində ədalətli mövqe nümayiş etdirilibdir. Bu qədər namizədin olması seçkilərə inamın təzahürüdür. Əgər inam olmasaydı, bu adamlar bəlkə də seçkilərə qatılmazdılar. Ona görə bu seçkilərin xüsusi rolu vardır. O ki qaldı bəzi beynəlxalq müşahidə missiyalarının rəyinə, biz onların mənfi rəyinə

çoxdan öyrəşmişik. Bəzi hallarda onların rəyi seçkilərdən öncə yazılır, özü də onlar tərəfindən yazılmır, başqa yerlərdə yazılır, onlara ötürülür. Biz bunu dəfələrlə müşahidə etmişik. Siz də Avropa Şurasının bizə qarşı olan mənfi münasibətini qeyd etdiniz. Bunun son təzahürü qəbul edilmiş, yalan üzərində qurulmuş son qətnamədir. Yəni bu qətnamənin qəbul edilməsi əslində parlament seçkilərinə kobudcasına müdaxilədir. Birincisi, bu qətnamə saxtadır və biz bunu qəbul etmirik. Orada bizə qarşı irəli sürülmüş ittihamları rədd edirik və bizə qarşı ünvanlanmış «tələblərin» heç birini icra etməyəcəyik. Bu bir. İkincisi, bu qətnamənin qəbul edilmə vaxtı. Bu qətnamənin parlament seçkilərinə az vaxt qalmış qəbul edilməsi Azərbaycana qarşı olan mənfi və ədalətsiz yanaşmanın təzahürüdür.

Mən bu yaxınlarda yaxın dostumuz Mövlud Çavuşoğlu ilə görüş əsnasında bu barədə öz fikirlərimi bildirdim. O da eyni mövqedədir və biz yaxşı bilirik ki, Türkiyəyə və Azərbaycana Avropa Şurasında ikili standartlar tətbiq olunur. Bizdə gedən müsbət proseslər qeydə alınmır, bizim artan gücümüz sanki qıcıq, paxıllıq yaradır. Ancaq buna rəğmən, Türkiyə və Azərbaycan iki dost, iki qardaş ölkə kimi irəli gedir. Biz çox önəmli layihələri icra edirik, öz gücümüzü artırırıq. Hesab edirəm ki, həm beynəlxalq müstəvidə, həm ölkə daxilində gedən işlərdə bizim düzgün siyasətimiz artıq reallıqdır. Ən önəmlisi isə bu seçkilərin keçirilməsi Azərbaycan xalqının iradəsidir. Əgər Azərbaycan xalqı bu seçkilərin keçirilməsindən narazı olsaydı, öz səsini ucaldardı. Bu gün siz də gördünüz, Azərbaycanda tam demokratik ab-hava mövcuddur. Seçki və seçkilərin keçirilməsi demokratiyanın təzahürlərindən biridir. Əgər namizədlər bu seçki kampaniyası ərzində belə fəal, mübariz olublarsa – bu belədir, siz də bunu qeyd etdiniz – seçicilərə öz fikirlərini çatdırmaq üçün qapı-qapı gəziblərsə, əlbəttə ki, əgər onlar seçkilərdən narazı

olsaydılar, öz səslərini ucaldardılar. Ancaq indiyə qədər biz belə hallara rast gəlmirik. Bu bir daha göstərir ki, bu seçkilər Azərbaycan xalqının iradəsini əks etdirir və əsas da odur.

Bu seçki prosesində müşahidəçi kimi qardaş Türkiyənin nümayəndələrinin iştirakı bizi xüsusilə sevindirir. Bir daha sizə təşəkkürümü bildirirəm. Əminəm ki, Türkiyə Böyük Millət Məclisindəki Azərbaycan–Türkiyə dostluq qrupu bundan sonra da iki ölkə arasındakı əlaqələrin inkişafına xüsusi töhfə verəcəkdir. Siz də qeyd etdiniz və mən də buna tam əminəm ki, Türkiyə parlamentinin istənilən üzvü Azərbaycanla dostluq qrupunun üzvüdür. Çünki bizdə də eyni yanaşmadır. Biz bundan sonra da birlikdə böyük işləri davam etdirəcəyik.

## MDB İCRAİYYƏ KOMİTƏSİ MÜŞAHİDƏ MİSSİYASININ RƏHBƏRİ, RUSİYA FEDERASİYASI DÖVLƏT DUMASININ KOMİTƏ SƏDRİ LEONİD KALAŞNİKOVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*10 fevral 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 10-da MDB İcraiyyə Komitəsi müşahidə missiyasının rəhbəri, Rusiya Federasiyası Dövlət Dumasının MDB Məsələləri, Avrasiya İnteqrasiyası və Həmvətənlərlə İş üzrə Komitəsinin sədri Leonid Kalaşnikovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

**İlham Əliyev**: Xoş gəlmisiniz! Bu dəfə siz müşahidə missiyası ilə buradasınız. Çox şadam ki, Dövlət Duması geniş tərkibdə təmsil olunub, həmçinin MDB-dən çoxlu müşahidəçi vardır. Ümumilikdə bu il seçkiləri 800-dən çox beynəlxalq müşahidəçi izləyir, çoxlu sayda beynəlxalq nümayəndələr vardır. Düşünürəm ki, sizin həm prosesi, həm də səsvermə gününü izləmək üçün bütün imkanlarınız olub. Bu prosesdə iştirak və bizi müdafiə etdiyinizə görə bir daha sağ olun.

**Leonid Kalaşnikov:** İlham Heydər oğlu, sağ olun. Bizə vaxt ayırdığınıza görə Sizə təşəkkürümüzü bildiririk. Sizinlə öz təəssüratlarımızı məmnuniyyətlə bölüşmək istəyirik. Mən və yoldaşlarım dünən onlarla seçki məntəqəsində olduq. Biz gördük ki, seçkilər həm rəqabət şəraitində, həm şəffaf, həm də demokratik keçdi. Biz

Mərkəzi Seçki Komissiyasının sədri ilə görüşdük. Dünən MDB-nin bəyanatı qəbul edildi. Böyük missiyadır, orada bir neçə ölkə, İcraiyyə Komitəsi, Parlamentlərarası Assambleya vardır. Zənnimizcə, hər şey ədalətli, şəffaf və demokratik keçdi. Bir çox digər beynəlxalq təşkilatlar vardır ki, biz onlarla da görüşdük. Mən AŞPA-dan təzəcə qayıtmışam, orada Sizi tez-tez xatırlayırlar. Biz beynəlxalq parlament təşkilatlarında da işimizi davam etdirəcəyik. Yəqin ki, orada Sizin fəxr edəcəyiniz nəticə vardır. Bu gün səhər mən bir neçə beynəlxalq müşahidəçinin rəyini gördüm. Hamı obyektiv olaraq, seçkilərin çox uğurlu keçdiyini deyir.

**İ l h a m Ə l i y e v:** Gəldiyiniz və bu vacib prosesdə iştirak etdiyiniz üçün sağ olun. Bu, əlbəttə, bizim 2018-ci ildə Prezident seçkilərindən sonra elan etdiyimiz islahatların davamıdır və onları ardıcıl olaraq həyata keçiririk. Hər şey Azərbaycanın dayanıqlı inkişafının təmin olunmasına və demokratik proseslərin genişlənməsinə yönəlmiş ümumi inkişaf strategiyası çərçivəsində gedir. Buna görə də həyata keçirilən struktur islahatları, o cümlədən kadr islahatları da bir məqsədə xidmət edir: biz yerimizdə saymayaq. Çünki müvəffəqiyyətlərdən arxayınlaşmaq olmaz.

Ötən illər ərzində böyük nailiyyətlər əldə olunub. Lakin həyat öz şərtlərini diktə edir. Dünyada, bizim regionda, iqtisadi sahədə şərait dəyişir, yeni çağırışlar meydana çıxır. Ona görə biz buna hazır olmalıyıq və vaxt itirməməliyik. Bu səbəbdən hökumətin, Prezident Administrasiyasının, mərkəzi və yerli hakimiyyət orqanlarının yenilənməsi, kadr islahatları parlamentdən yan keçə bilməzdi. Xüsusən də mahiyyətcə, seçkiləri bir neçə ay irəli çəkməklə, biz vaxta qənaət etdik. Çünki onsuz da yay aylarında parlament tətil-

də olur, qayıtdıqdan sonra yenidən seçkilər başlanır. Çalışdıq ki, maksimum açıq seçkilər keçirək və ona görə də müşahidəçiləri, o cümlədən düzünü desək, obyektiv qiymət gözləmədiyimiz müşahidəçiləri də dəvət etdik.

Azərbaycanda keçirilmiş seçki kampaniyalarının təcrübəsinə əsasən, deyə bilərəm ki, biz həmişə qərəzli münasibət görmüşük. Bununla belə, hesab edirik ki, bizim gizlədəcəyimiz heç nə yoxdur. Biz çoxlu sayda müşahidəçi dəvət etdik, gələnlərin hamısına minnətdarıq. Ona görə də son nəticədə nə yazılacağından və onları hansısa fikirləri səsləndirməyə məcbur edəcəklərindən asılı olmayaraq, hər halda, onların hər birində həm ölkəmiz, həm insanlarımız, həm də seçki prosesi haqqında rəy formalaşacaqdır. Bu baxımdan Dövlət Dumasının nümayəndə heyətinin bu tərkibdə prosesdə iştirak etməsi bizim üçün çox qiymətlidir. Əlbəttə, MDB və digər beynəlxalq təşkilatların nümayəndə heyətləri də vardır. Ona görə də düşünürəm ki, başlıcası Azərbaycan xalqının nəticələrdən razı qalmasıdır. Çünki bizim üçün əsas məsələ bu idi ki, insanlar kimə səs verəcəklərini və kimə etimad göstərəcəklərini seçə bilsinlər. Bu etimadın səviyyəsi çox yüksəkdir.

Ümumilikdə 1300-dən çox namizədin olması seçkilərə etimadın göstəricisidir. Bu isə görünməmiş saydır. Əgər onlar seçkilərə inanmasaydılar, öz namizədliklərini verməzdilər və bu qədər vaxt sərf etməzdilər. Mənə həm dünən, həm də bu gün məruzə etdilər ki, proses ümumilikdə sakit keçib və heç bir gözlənilməz hal olmayıbdır. Kimsə qalib gəlir, kimsə məğlub olur. Hər kəs reallıqla barışmalıdır. Reallıqlar belədir ki, şərait yaradılıb, maksimum şəffaflıq təmin edilibdir. Həm də gözlənilməz çətin hava şəraitinə baxmayaraq, Azərbaycan vətəndaşları səs verdilər. Düşünürəm ki, seçki fəallığı da yaxşı olub. Hər-

çənd başlıca olan bu deyil, əsas odur ki, xalqın seçəcəyi insanlar məsuliyyət hiss etsinlər. Bilsinlər ki, əgər yenə də seçilmək istəyirlərsə, onda dairələrdə iş aparmalıdırlar. Bax, bu, keçmiş parlamentdə çatışmırdı. Buna görə də parlamentin bir çox keçmiş üzvü dairələrdə işləmədikləri üçün seçkilərdə iştirak etmədi. Bu, yeni parlamentin qarşısında duran əsas vəzifələrdən biri olacaqdır. Çünki bütün ölkənin dayanıqlı inkişafının təmin edilməsi üçün deputat korpusu regionların problemlərini dərk etməli, onları üzə çıxarmalı və hökumətə, ictimaiyyətə çatdırmaqla onların həllinə kömək etməlidir.

Bir daha sağ olun, sizi görməyimə şadam.

## MDB-nin MÜŞAHİDƏ MİSSİYASININ RƏHBƏRİ, MDB İCRAİYYƏ KOMİTƏSİ SƏDRİNİN BİRİNCİ MÜAVİNİ VİKTOR QUMİNSKİ İLƏ GÖRÜŞ

*10 fevral 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 10-da MDB-nin müşahidə missiyasının rəhbəri, MDB İcraiyyə Komitəsi sədrinin birinci müavini Viktor Quminskini qəbul etmişdir.*

*Görüşdə Azərbaycanda keçirilmiş parlament seçkilərində xeyli sayda müşahidəçinin iştirak etməsinin önəmi vurğulandı, MDB-dən olan müşahidəçilərin seçkilərin yüksək səviyyədə təşkil olunduğu, qanun pozuntusunun qeydə alınmadığı, bütövlükdə seçki prosesinin şəffaf, demokratik və rəqabətlilik prinsipi şəraitində, Azərbaycan qanunvericiliyinə tam uyğun şəkildə keçirildiyi bildirildi.*

*Prezident İlham Əliyev Azərbaycanda keçirilmiş parlament seçkilərində MDB müşahidəçilərinin iştirakına görə minnətdarlığını ifadə etdi.*

*Söhbət zamanı ölkəmizdə keçirilmiş parlament seçkilərinin Azərbaycanda bütün sahələri əhatə edən genişmiqyaslı islahatların tərkib hissəsi olduğu bildirildi, Azərbaycan dövləti tərəfindən bu seçkilərin ədalətli və demokratik şəraitdə keçirilməsi üçün hər cür şəraitin yaradıldığı vurğulandı.*

## MUSİQİ MƏDƏNİYYƏTİMİZİN GÖRKƏMLİ NÜMAYƏNDƏSİ, XALQ ARTİSTİ ƏLİBABA MƏMMƏDOV İLƏ GÖRÜŞ

*11 fevral 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva fevralın 11-də Heydər Əliyev Mərkəzində musiqi mədəniyyətimizin görkəmli nümayəndəsi, Xalq artisti Əlibaba Məmmədov ilə görüşmüş və burada təşkil olunan bir neçə sərgi ilə tanış olmuşlar.*

**İlham Əliyev:** Hörmətli Əlibaba müəllim, sizi, ilk növbədə, 90 illik yubileyiniz münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Sizə cansağlığı, uzun ömür arzulayıram. Bir həftə bundan əvvəl mənim sərəncamımla siz Azərbaycan dövlətinin ən yüksək «Şərəf» ordeni ilə təltif olunmusunuz. Bu gün bu yüksək mükafatı sizə təqdim edəcəyəm.

Siz uzun illərdir ki, xalqımızı öz sənətinizlə sevindirirsiniz. Həm gözəl ifaçı, xanəndə, həm gözəl bəstəkar kimi, Azərbaycan musiqi mədəniyyətinin xəzinəsinə böyük töhfələr vermisiniz. Siz 100-dən artıq mahnının müəllifisiniz və sizin ifanızda səslənən xalq mahnılarımız, muğamlarımız insanlara xüsusi zövq verir. Xalqımız sizi ürəkdən sevir, siz həm gözəl sə-

nətkar, həm də gözəl insansınız. Siz Azərbaycan ziyalısını təcəssüm etdirirsiniz. İnsan kimi də sizin çox yüksək keyfiyyətləriniz vardır. Çox xeyirxah, ədalətlisiniz, eyni zamanda, həmişə öz biliklərinizi, öz sənətinizi gənc nəsillə bölüşməyə hazır olmusunuz. Sizin bu sahədə müstəsna xidmətləriniz yüksək qiymətləndirilir. Çünki bizim bir çox görkəmli muğam ifaçılarımız sizin məktəbinizin, belə demək mümkündürsə, məzunlarıdır.

Muğam bizim milli sərvətimizdir. Siz bizim milli sərvətimizin qorunmasında xüsusi rol oynayırsınız. Xüsusilə qeyd etməliyəm ki, müntəzəm olaraq keçirilən muğam müsabiqələri televiziya vasitəsilə milyonlarla insanı əhatə edir. Bu müsabiqələrə baxarkən bizim insanlarımız, hətta musiqidən uzaq olan insanlar muğamın əsl mahiyyətini, incəliklərini öyrənirlər. Gənc ifaçıların çıxışları, xüsusilə münsiflər heyətinin təhlilləri böyük maraq doğurur. Çünki muğamın əsl mahiyyəti, bütün incəlikləri münsiflər heyətinin açıqlamalarında özünü büruzə verir. Siz gənc ifaçılara böyük mərhəmətlə yanaşırsınız, bəzi hallarda görürəm, onları ruhlandırırsınız ki, ruhdan düşməsinlər. Eyni zamanda, onların səhvlərini qeyd edirsiniz və yol göstərirsiniz. Hesab edirəm ki, əsl sənətkarın xalq qarşısındakı xidmətləri bundan ibarətdir. Siz o insanlardansınız ki, təkcə öz sənətinizə qapılmamısınız, onu həm də bölüşmək istəyirsiniz. İstəyirsiniz ki, muğam yaşasın, gənclər bu sənətə yiyələnsinlər.

Onu da bildirməliyəm ki, Heydər Əliyev Fondunun təşəbbüsü ilə televiziya müsabiqələri artıq uzun illərdir keçirilir. Hesab edirəm ki, bunun nəinki musiqi mədəniyyətimizin, bütövlükdə mənəvi dəyərlərimizin təbliğində xüsusi əhəmiyyəti vardır. Mən çox şadam ki, bizim gənclərimizin böyük əksəriyyəti milli musiqiyə bağlıdır. Bu hər bir ölkədə belə deyildir. Elə ölkələr var ki, orada milli musiqi kənarda qalır, indi dəbdə olan hansısa beynəlxalq musiqi nümunələri üstünlük təşkil edir. Ancaq hesab edirəm, bizim üstünlüyümüz və xoşbəxtliyimiz ondadır ki, gənclərimiz də milli musiqiyə bağlıdırlar. Muğamı yaşatmaq bizim üçün müqəddəs vəzifədir. Eyni zamanda, ölkəmizdə bir neçə dəfə keçirilmiş beynəlxalq muğam festivalları da bu işdə xüsusi rol oynayır. Bu festivallara bir çox ölkələrdən ifaçılar gəlir. Məhz bu festivalı Azərbaycanda keçirməklə bir daha sübut edirik ki, muğam bizim sənətimizdir, muğamın vətəni Azərbaycandır və biz bunu bütün dünyaya çatdırırıq. Bu onu göstərir ki, xalqımız nə qədər istedadlıdır, bizim milli sənətimiz sərhədlərimizin hüdudlarından kənarda çox sevilir və bir çox ölkələrdə bu sənət yaşayır.

Azərbaycan dövləti sizin fəaliyyətinizi çox yüksək qiymətləndirir, Azərbaycan xalqı da həmçinin. Siz 20 il bundan əvvəl ulu öndər Heydər Əliyevin sərəncamına əsasən «Şöhrət» ordeni ilə təltif edilmisiniz. 10 il əvvəl mənim sərəncamımla «İstiqlal» ordeni, 1 həftə bundan əvvəl – fevralın 4-də isə «Şərəf» ordeni ilə təltif edilmisiniz. İcazə verin, bu ordeni sizə təqdim edim.

*Prezident İlham Əliyev «Şərəf» ordenini Əlibaba Məmmədova təqdim etdi.*

– Təbrik edirəm.

**Əlibaba Məmmədov:** Çox sağ olun, əziz və çox hörmətli cənab Prezidentimiz.

Mən xoşbəxt xanəndəyəm. Ona görə xoşbəxtəm ki, mənə qarşı həmişə dövlət qayğısı olub, xüsusilə bizim ulu öndərimiz mənim sənətimə çox yüksək qiymət verib. Bu barədə çox danışa bilərəm. Sizə təşəkkür edirəm, var olun. Mən xoşbəxtəm, özümü xoşbəxt sayıram, 90 il yaşamışam, 70 il xalqımıza fasiləsiz xidmət etmişəm. Bax, bu mənə bəsdir. Amma bu gün bu ordeni Sizin əlinizdən qəbul etmək mənim üçün böyük şərəfdir. Haqqımda dediyiniz xoş sözlərə görə Sizə bir daha ürəkdən təşəkkür edirəm. Bu çox böyük qiymətdir. İnanın, mən danışan adamam, amma Sizin qarşınızda danışa bilmirəm. Bu gün mənim sənətimin bütün tərəflərindən söz açdınız. Elə danışdınız ki, sanki məni böyük bir musiqiçi təriflədi, var olun. Çox sağ olun ki, bizim xalq musiqimizə, xalqımızın sənətkarlarına belə böyük hörmət edirsiniz. Var olun, var olsun Mehriban xanım! Vallah, Mehriban xanımın bizə gəlməyini mən indi də yuxu kimi bilirəm. Hamı deyir, bu doğrudan da çox böyük əks-səda doğurub. Hara gedirəmsə, hamı o görüşdən da- nışır.

Mənim arzum budur ki, Allah Sizi xalqımıza, bizə çox görməsin. Allah Sizi qorusun ki, bizim xalqımız daha xoşbəxt olsun. Ölkəmiz gündən-günə inkişaf edir, gözəlləşir. Vallah, xariqələr yaradırsınız. Mən ba-

kılıyam, Bakıda böyümüşəm, amma bugünkü Bakını tanıya bilmirəm. Vallah, mən qəlbən danışan adamam. Heç vaxt yalan danışmıram, bir adama pislik etmirəm. Bu mənim idealımdır. Odur ki, mən bundan böyük hörmət görməmişəm, görə də bilmərəm. Bir daha hər ikinizə «Sağ olun!» – deyirəm, Allah sizi qorusun!

**İlham Əliyev:** Çox sağ olun, Əlibaba müəllim.

**Əlibaba Məmmədov:** Sağ olun, Mehriban xanım.

**Mehriban Əliyeva**: Çox sağ olun, Əlibaba müəllim. Bütün Azərbaycan xalqı sizi çox istəyir.

**İlham Əliyev:** Bizim üçün çox əziz gündür ki, bu yüksək mükafatı sizə təqdim edirik. Həmişə belə enerjili olasınız, yaratmaq üçün yaşayasınız.

**Əlibaba Məmmədov:** Sizin sayənizdədir, doğrudan belədir. Mən görməmişəm ki, xanəndəyə bu qədər böyük hörmət olsun. Çox böyük hörmətdir.

**İlham Əliyev:** Siz buna layiqsiniz. Sizə verilən bu yüksək mükafat dövlət tərəfindən bu sənətə göstərilən diqqətdir. Çünki xalq kimi, millət kimi, bizi əsrlərboyu qoruyan məhz bizim sənətimiz olub. Çünki biz tariximizi yaxşı bilirik. Uzun illər – onilliklər, yüzilliklər ərzində müstəqillikdən məhrum olmuşuq, ancaq nə dilimizi, nə dinimizi, nə musiqimizi, nə də mənəviyyatımızı itirmişik. Bizi yaşadan, bax, bunlardır – sənət, musiqi, ədəbiyyat, dil, milli dəyərlər. Muğam isə bütün bu amilləri özündə təcəssüm etdirir. Ona görə də muğamı yaşatmaq bizim

müqəddəs borcumuzdur. Biz də görürük, indi dünya musiqisində müxtəlif meyillər var, istər-istəməz bizim sərhədimizdən də keçir. Çünki bu elə bir məsələdir ki, orada sədd qoya bilməzsən. Əgər gənclər öz milli dəyərlərindən, öz musiqisindən uzaqlaşsa, gələcəkdə onlar necə vətənpərvər ola bilərlər?! Gələcəkdə müstəqil Azərbaycanın maraqlarını necə qoruya bilərlər?! Gənclərdə milli ruh olmalıdır, milli ruhun mənbəyi də, o cümlədən bizim musiqimizdir. Xüsusilə muğam kimi ümumbəşəri sənətin beşiyi Azərbaycandır.

**Əlibaba Məmmədov:** Düzdür, Azərbaycandır, bunu ucadan deyə bilərik. Mən bir münsif, bir muğam ifaçısı kimi həmişə bu sözü ucadan demişəm ki, muğam bizimdir. İnanmırsınız, gəlin baxın. Sağ olsun Mehriban xanım, dedi ki, muğam bizimdir. Bizim üçün mərkəz tikdirdi, muğama, müsabiqələrə yol açdı. O müsabiqələr bizi dünyaya tanıtdırdı. Müsabiqələrin şəxsən mənim özümə çox köməyi oldu. Ona görə də siz var olun ki, bizim musiqimizi qoruyub saxlayırsınız. Ulu öndərimiz həmişə deyərdi ki, muğam bizim milli sərvətimizdir. Bizim cənab Prezidentimiz də deyir ki, muğam bizim milli sərvətimizdir. Xanımı da deyir ki, muğam bizim milli sərvətimizdir. Mən bir ağsaqqal kimi, bir az muğamdan danışmaq istəyirəm. Muğam elə bir sənətdir ki, heç kim deyə bilmir bunu mən yaratmışam. Onun yaradıcısı yoxdur. Əgər yaradıcısı olsaydı, bizim böyük sənətkarımız Üzeyir bəy bir neçə muğam yaradardı. Olmur, çünki müm-

kün deyildir. Bu, Allahdan gəlmədir, bu, ilahi bir musiqidir. Quran kimi, o da ilahi musiqidir. Ona görə bəzən özüm də təəccüblənirəm, görürsən uşaq elə bir hissə, elə bir guşə oxuyur ki, mən onu bilmirəm. Bu onun özündən deyil, Allah tərəfindən gəlir. Odur ki, sizin sayənizdə ucadan deyirik ki, muğam Azərbaycanındır, Azərbaycandan başqa, heç bir yerdə belə muğam yoxdur.

**İlham Əliyev:** Düzdür.

**Mehriban Əliyeva:** Düz deyirsiniz.

**İlham Əliyev:** Sağ olun, Əlibaba müəllim.

* * *

*Sonra Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva Heydər Əliyev Mərkəzində təşkil edilmiş «Tarixin şah əsərləri» adlı sərgi ilə tanış oldular. Sərginin eksponatları Gürcüstan Milli Muzeyindəki «Azərbaycan» və «Şərq» kolleksiyalarından ibarətdir. Qeyd edək ki, Gürcüstan Milli Muzeyində Azərbaycana, o cümlədən İrəvan xanlığına aid minlərlə tarixi, mədəni artefakt vardır. İrəvan Azərbaycanın qədim torpağıdır və tarixi faktlar da azərbaycanlıların bu torpaqda daim yaşayıb-yaratdıqlarını göstərir. Prezident İlham Əliyev müxtəlif kürsülərdən dəfələrlə İrəvan xanlığı barədə tarixi həqiqətlərə əsaslanan faktlar söyləyib. Dövlət başçımızın qeyd etdiyi kimi, XIX əsrin əvvəllərində İrəvan xanlığının əhalisinin mütləq əksəriyyətini azərbaycanlılar təşkil edirdi. Bu tarixdir, tarixi bir həqiqətdir. Bu sərgidəki eksponatlar da bunu bir daha aydın şəkildə nümayiş etdirir. İrəvan xanlığı ilə bağlı həqiqətləri dünya ic-*

*timaiyyətinə çatdırmaq, eyni zamanda, gənc nəslin tariximizi daha yaxşı bilməsi üçün bu sərginin eksponatları olduqca mühüm məna kəsb edir.*

*Sərgidə 300-dək eksponat təqdim edilir. Üç bölmədə Qacarlar sülaləsi zamanı yaradılmış və toplanmış qədim Azərbaycan incəsənəti, İrəvan xanlığının Sərdar sarayı kompleksindən məişət əşyaları və rəsm əsərləri kolleksiyası, rus fotoqrafı Dmitri Yermakovun arxivindən əldə edilmiş fotosənədlər nümayiş olunur. Yermakov İrəvan qalasının nadir tikililəri – Sərdar sarayı, məscidlər, karvansara və İrəvan şəhərinin tarixi mərkəzini təşkil etmiş orta əsrlərə aid digər binaların məhv edilməsi prosesini təfərrüatları ilə göstərən fotoşəkillər silsiləsi yaradıbdır. Burada Ermənistan tərəfindən məhv edilmiş İrəvan xanlığının sarayından qalan nadir rəsm əsərlərində Şah Qacar, İrəvan hökmdarları və Şərq eposlarının qəhrəmanları təsvir olunubdur. Sərdar sarayının arxeoloji qalıqları arasında İrəvan xanlığı və indiki Ermənistan ərazisində yaşamış Azərbaycan xalqına məxsus çox sayda gündəlik həyat atributlarından ibarət etnoqrafik kolleksiya da ekspozisiyada təqdim edilir.*

*Ekspozisiyada, həmçinin Azərbaycan panno rəngkarlığının banisi, milli təsviri incəsənətimizin inkişafına böyük təsir göstərmiş ornament və portret ustası Mirzə Qədim İrəvaninin XIX əsrə aid yağlı boya ilə işlənmiş 6 əsəri sərgilənir.*

*Sonra Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə təşkil edilmiş «Live Life» sərgisi ilə tanışlıq oldu.*

*Dövlət başçısına və xanımına sərginin məqsədi barədə məlumat verildi. Bildirildi ki, sərgi diqqəti ətraf mühit*

*problemlərinə yönəldir. Bundan başqa, sərginin ideyaları arasında təbiətin qorunması və incəsənətin bu sahədə oynaya biləcəyi rol da vardır. İndiyədək «Live Life» sərgisi London, Paris, Berlin, Moskva və Tbilisidə təşkil olunub və çox böyük maraqla qarşılanıbdır. Ekspozisiyada nümayiş olunan 200-dən çox əsər orijinallığı və özünəməxsus üslubu ilə seçilir.*

*Daha sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva «Musiqi alətləri: birlik və müxtəliflik» adlı sərgi ilə tanış oldular.*

*Nadir layihə olan bu sərgidə müxtəlif ölkələrin XVIII–XX əsrlərə aid 170-dən çox musiqi aləti nümayiş etdirilir. Birlik və müxtəliflik prinsipinə əsaslanaraq, bölmələrə ayrılmış ekspozisiyada sərgilənən musiqi alətləri həm oxşarlığı, həm də fərqliliyi təcəssüm etdirir. Sərgidə hər bir musiqi alətini seyr etməklə yanaşı, onu dinləmək və ən əsası, həmin alətdə ifa xüsusiyyətləri ilə də tanış olmaq imkanı vardır.*

*Növbəti tanışlıq məşhur fotoqraf, sovet fotoqrafiyasının klassiki Yakov Xalipin əsərlərindən ibarət «Avanqard davamçısı. Azərbaycan gündəliyi» adlı sərgi ilə oldu. Ekspozisiyada müəllifin keçən əsrin 30–60-cı illərində çəkdiyi 100-dən çox ən maraqlı fotolarından ibarət kolleksiyası təqdim edilir.*

*Sərgidə Yakov Xalipin sovet fotoqrafiya sənətinin klassikası sayılan və «qızıl fond»una daxil edilmiş işləri ilə yanaşı, Azərbaycanda çəkdiyi fotoları da ilk dəfə nümayiş olunur. Sərgidə, həmçinin fotoqrafın ailəsinə aid arxivdən eksponatlar, müxtəlif sənədlər, yaratdığı tematik albomlar və digər maraqlı eksponatlar vardır.*

## KÜRDƏMİR RAYONUNA SƏFƏR

*12 fevral 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 12-də Kürdəmir rayonuna səfərə gəlmişdir.*

*Dövlət başçısı əvvəlcə Kürdəmir şəhərində Heydər Əliyev parkında ümummilli liderin abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.*

*Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı Ceyhun Cəfərov rayonda görülmüş işlər barədə Prezident İlham Əliyevə məlumat verdi.*

### Pirili–Muradxan–Sor-sor avtomobil yolunun yenidən qurulmadan sonra açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 12-də Pirili–Muradxan–Sor-sor avtomobil yolunun yenidən qurulmadan sonra açılışında iştirak etmişdir.*

**Saleh Məmmədov** (*Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri*): Cənab Prezident, Sizin sərəncamlarınıza əsasən, son dövrlərdə Kürdəmir rayonunda investisiya xərcləri hesabına 3 yol layihəsi icra olunub. Həmin layihələrdən birincisi Pirili–Muradxan–Sor-sor yoludur ki,

uzunluğu 33 kilometrdir. Bu yol başlanğıcını 2 nömrəli Bakı–Kürdəmir–Yevlax avtomobil yolundan götürür və respublika əhəmiyyətli Ağsu–Kürdəmir–İmişli yoluna birləşir. İmişli yolunun 184-cü kilometrindən başlayır və 29 kilometr davam edir, 4 kilometr isə Muradxanlı kəndinə gedən qoldur. Yol 4-cü texniki dərəcəyə aiddir. Əvvəllər torpaq yol idi, indi isə 12 santimetr qalınlığında gözəl asfalt örtüklü yoldur. Bu, 6 yaşayış məntəqəsinin 7000 əhalisinin yol şəraitinin yaxşılaşması deməkdir. Bu fotoşəkillərdə yolun əvvəlki vəziyyəti əks olunub. Yol şumlu tarlalardan keçirdi. Bu da eynilə həmin yerlərdə çəkilmiş bugünkü yoldur.

İkinci yol layihəmiz 37 kilometr uzunluğunda Karrar–Böyük Kəngərli yolu olub. Bu yol 7 yaşayış məntəqəsinin 6000 əhalisinə xidmət edir. Bu da 70–80 il torpaq yol olub, nə asfalt, nə də çınqıl örtüyü olmayıbdır. Ötən əsrin 60-cı illərində tikilmiş körpünü də bərpa etmişik.

Üçüncü yol isə Kürdəmiri Ağsu yolu ilə birləşdirir. Bu yol 8000 nəfərin yaşadığı 7 yaşayış məntəqəsinə xidmət göstərir.

Növbəti yol başlanğıcını Bakı–Ələt magistralının 197-ci kilometrliyindən götürən Qarasu–Şilyan yoludur. Uzunluğu 14 kilometr olan bu yol da Sizin 2019-cu ildə imzaladığınız sərəncam əsasında tikilibdir. Bu yolun cəmi 2 kilometrlik hissəsi soyuq asfalt örtüklü olub. İndi asfalt örtüyünün qalınlığı 12 santimetr olan yol çəkilib və yol 8000 əhaliyə xidmət edir.

**İ l h a m Ə l i y e v:** Kürdəmir rayonunda yolların təmiri ilə bağlı işlər aparılıb, amma hələ də təqribən yolların 50 faizinin vəziyyəti yaxşı deyil. Biz gərək onları da düzəldək. Qalan yarısını da yaxın bir neçə il ərzində başa çatdıraq.

**S a l e h M ə m m ə d o v:** Bu il də sərəncamınız var, cənab Prezident. Kürdəmirdə 18 kilometr uzunluğunda yolun tikintisinə artıq başlanılıb. Sərəncamlarda həmin yolların tikintisinin 2023-cü ilə qədər başa çatdırılması nəzərdə tutulubdur.

**İ l h a m Ə l i y e v:** Bu rayonda, ümumiyyətlə, yol infrastrukturu çox bərbad vəziyyətdədir. İndi Azərbaycanda belə torpaq yollara nadir hallarda rast gəlinir.

**C e y h u n C ə f ə r o v** (*Rayon icra hakimiyyətinin başçısı*): Cənab Prezident, təkcə 2019-cu ildə 88,2 kilometr kənd yolları asfaltlanıbdır.

**S a l e h M ə m m ə d o v:** Onun 80 kilometri investisiya xərcləri hesabına, 8 kilometri isə məqsədli büdcə vəsaiti hesabına.

**İ l h a m Ə l i y e v:** Regional inkişaf proqramında da bu, nəzərdə tutulub. Ona görə dördüncü proqram başa çatanda bir dənə də təmirsiz yol qalmamalıdır.

* * *

*Sonra dövlət başçısı yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

*Yeni yol üzərində yol nişanları, göstərici lövhələr, siqnal dirəkləri və avtobus dayanacaqları quraşdı-*

*rılıb, yol-cizgi xətləri çəkilibdir. Avtomobil yolunun tikintisi 3 yaşayış məntəqəsinin rayon mərkəzi ilə nəqliyyat əlaqəsinin yaxşılaşdırılmasında mühüm rol oynayacaqdır.*

## Karrar qəsəbəsində «Qlobal Aqro» Məhdud Məsuliyyətli Cəmiyyətin aqroparkının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 12-də Kürdəmir rayonunun Karrar qəsəbəsində «Qlobal Aqro» Məhdud Məsuliyyətli Cəmiyyətin aqroparkının açılışında iştirak etmişdir.*

*Azərbaycanda sahibkarlığın inkişafı istiqamətində həyata keçirilən tədbirlər, icra olunan dövlət proqramları ölkəmizin sosial-iqtisadi inkişafının dinamikliyini göstərən amillərdəndir. Bu gün Azərbaycanda sahibkarlar dövlət tərəfindən həm mənəvi, həm siyasi, həm də iqtisadi dəstək alırlar. Bölgələrdə yeni zavod, fabrik və digər istehsal müəssisələrinin fəaliyyətə başlaması işsizlik problemini aradan qaldırmaqla yanaşı, regionların malik olduğu potensialdan səmərəli istifadə mexanizmlərini də üzə çıxarır. Hazırda respublikanın 33 rayonu üzrə 262 min hektar ərazidə ümumi dəyəri 2,4 milyard manat olan 51 aqropark və iri fermer təsərrüfatının yaradılması üzrə işlər sürətlə davam etdirilir. 153 min hektar ərazidə ümumi dəyəri 1,1 milyard manat dövlət dəstəyi göstərilmiş 33 aqropark və iri fermer*

*təsərrüfatı birinci mərhələ üzrə fəaliyyətə başlayıb və 109 min hektar ərazidə ümumi dəyəri 1,3 milyard manat dövlət dəstəyi göstərilmiş 18 aqropark və iri fermer təsərrüfatında layihələndirmə və ya tikinti-quraşdırma işləri aparılır. Bu aqropark və iri fermer təsərrüfatlarından 16-sı 2019-cu ildə fəaliyyətə başlayıbdır.*

*Aqropark və iri fermer təsərrüfatlarına dövlət dəstəyi tədbirləri çərçivəsində 535 milyon manat, o cümlədən zəruri infrastruktur işlərinə 339 milyon manat dövlət əsaslı vəsait qoyulub və ümumi dəyəri 780 milyon manat olan 27 aqropark və iri fermer təsərrüfatının yaradılmasına 196 milyon manat dövlətin güzəştli kreditləri ayrılıbdır. Bununla yanaşı, 23 aqropark və iri fermer təsərrüfatı üzrə ümumi dəyəri 759 milyon manat olan 45 layihəyə investisiya təşviqi sənədi verilib, 25 milyon manatdan çox vəsaitə isə qənaət olunubdur. Ölkəmizdə yeni yaradılan aqroparklardan biri də «Qlobal Aqro» MMC-nin aqroparkıdır.*

*Müəssisənin rəhbəri Ramazan Mirzəyev dövlət başçısına aqroparkın fəaliyyət istiqamətləri barədə məlumat verdi.*

*Prezident İlham Əliyev müəssisəni işə saldı.*

*Dövlət başçısına istehsal olunacaq məhsulların nümunələri təqdim edildi. Məlumat verildi ki, «Qlobal Aqro» MMC-nin rayonun Karrar qəsəbəsi və Pirili kəndi ərazisində yerləşən aqroparkı 2000 hektar sahəni əhatə edir. Ümumi dəyəri 30 milyon*

*manat olan müəssisənin yaradılmasına 1 milyon manat güzəştli kredit verilib, 8,1 milyon manat dövlət əsaslı vəsait qoyulubdur. O cümlədən ərazidə aparılan meliorasiya işlərinə 7,9 milyon manat, elektrik və qaz təminatının hər birinə 100 min manat vəsait sərf olunub, 600 min manat vəsaitə qənaət edilibdir. Müəssisədə ölkəmizlə yanaşı, Türkiyə və Belçika şirkətlərinin istehsalı olan ən müasir avadanlıqlar quraşdırılıbdır. İndiyədək 60 hektar sahənin suvarılması üçün tamburlu suvarma qurğusu, 27 ədəd texnika və aqreqat alınıb. Aqroparkda 18 min tonluq saxlama anbarı və gücü saatda 10 ton olan toxumçeşidləmə – qablaşdırma sahəsi, ofis və laboratoriya binaları, texnika üçün talvar tikilibdir. Keçən il 942 hektarda arpa, 128 hektarda buğda, 30 hektarda bostan bitkiləri əkilib. Hələlik burada 17 nəfər işlə təmin olunub və yaxın vaxtlarda 60-dan çox iş yerinin yaradılması nəzərdə tutulubdur.*

*Prezident İlham Əliyev müəssisənin imkanlarından səmərəli istifadə edilməsi ilə bağlı tapşırıqlarını verdi.*

## «ASAN xidmət» Mərkəzinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 12-də Kürdəmirdə «ASAN xidmət» Mərkəzinin açılışında iştirak etmişdir.*

*Prezident köməkçisi – Prezident Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad*

*Ələsgərov və Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev mərkəz barədə dövlətimizin başçısına məlumat verdilər.*

*Bildirildi ki, Kürdəmir «ASAN həyat» Kompleksinin tikintisinə 2018-ci ilin iyun ayında başlanılıb. 2020-ci ilin fevral ayında tikinti başa çatıb. «ASAN həyat» Kompleksi üçün ayrılan 2,055 hektar ərazidə inzibati bina, uşaq meydançası, fəvvarə və oturacaqlar, istirahət meydançası, avtodayanacaq, 124 yerlik çay evi, 80 və 108 yerlik yay kafeləri, 64 yerlik yığılıb-sökülən yay kafesi, 12 yerlik kinoteatr, 191 yerlik restoran və «ABAD Food Hall» yaradılıbdır.*

*Fasadların tərtibatında ən müasir alman texnologiyasından istifadə edilib.*

*Kürdəmir «ASAN həyat» Kompleksində videomüşahidə, elektron növbə sistemləri, 4 eskalator, inzibati və kinoteatr binalarının hər birində 1 lift, yanğınsöndürmə, mərkəzləşdirilmiş havalandırma sistemləri, generator, UPS quraşdırılıbdır.*

*«ASAN həyat» Kompleksi Kürdəmir rayonunun Atakişili kəndinin cənub-şərq hissəsində inşa edilib. Kompleksin ərazisində 100 avtomobil üçün parklama yeri yaradılıb. Vətəndaşların istirahəti üçün geniş park, uşaq əyləncə meydançası, həmçinin qapalı istirahət zonaları, o cümlədən kinoteatr və kafe istifadəyə verilib.*

*Diqqətə çatdırıldı ki, mərkəzdə əməkdaşların sayı 259, könüllülərin sayı isə 45 nəfər nəzərdə tutulur. Kompleksdəki regional «ASAN xidmət» Mərkəzində*

*müxtəlif dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən ümumilikdə 320 xidmət həyata keçiriləcək. Bu mərkəzdə Kürdəmir, Hacıqabul, Ağsu, Göyçay, Ucar və Zərdab rayonlarında qeydiyyatda olan 540400-dən çox sakinlə yanaşı, ölkə üzrə ərazi məhdudiyyəti olmadan bütün vətəndaşlara xidmət göstəriləcək.*

*«ASAN həyat» Kompleksinin tərkibində sayca 4-cü «ABAD Food Hall»un fəaliyyətə başlaması nəzərdə tutulur. Burada ABAD-çılar tərəfindən qeyri-sənaye üsulu ilə hazırlanmış məhsulların satış-sərgisi təşkil ediləcək.*

*Dövlətimizin başçısı mərkəzin açılışını etdi.*

*Fəaliyyətə başladığı vaxtdan «ASAN xidmət» mərkəzlərinə müraciətlər çoxalıb və onun vətəndaşlar tərəfindən bəyənilmə əmsalı daha da yüksəlir. Bu, 2019-cu ildə 99.3 faiz təşkil edib. Həmçinin qeyd edildi ki, indiyədək xarici ölkə vətəndaşlarına elektron qaydada 1 milyon 964 min viza verilib. Təhlillər göstərir ki, Azərbaycana gələn turistlər əvvəlki dövrlərlə müqayisədə ölkəmizdə daha çox qalırlar.*

*Prezident İlham Əliyev kompleksdə təqdim edilmiş innovativ yeniliklərlə tanış oldu.*

*Məlumat verildi ki, «smart» sürücülük imtahanı sistemi sürücülük vəsiqəsi almaq üçün müraciət etmiş şəxslərin sürücülük qabiliyyətlərinin qiymətləndirilməsinə dair praktiki test imtahanının avtomatlaşdırılmış şəkildə həyata keçirilməsinə imkan verir. Sürücülük vəsiqəsinin alınması üzrə nəzəri test imtahanında*

*uğur qazanmış şəxslər bu sistemdə qeydiyyatdan keçməklə, praktiki test imtahanına yazılır, xüsusi qurğu və avadanlıqlarla təchiz edilmiş avtomobildə əvvəlcədən müəyyən olunmuş marşrut üzrə hərəkət edir. Avtomobil və yol infrastrukturu xüsusi sensor və peyk-müşahidə cihazları ilə təchiz edildiyi üçün imtahan verən şəxs tərəfindən törədilən bütün qayda pozuntuları avtomatik olaraq qeydə alınır və mərkəzi imtahan sisteminə ötürülür. Avtomatlaşdırılmış imtahan sistemi şəxsin praktiki imtahandan uğurla keçib-keçmədiyinə dair real vaxt rejimində arayış hazırlayır.*

*«ASAN xidmət» mərkəzlərində vətəndaş müraciətlərinin səmərəliliyinin artırılması və hər bir vətəndaşa fərdi yanaşmanın təmin edilməsi məqsədilə «ASAN rəqəmsal sinir sistemi» platforması hazırlanıb. Platforma hər bir vətəndaşın fiziki və ya elektron dövlət xidmətlərindən istifadəsinə, şikayət və təkliflərinə dair məlumatları vahid bazada toplayır və vətəndaşın dövlət xidmətlərindən istifadə vərdişləri barədə ətraflı məlumatları real vaxt rejimində əks etdirir. Eyni zamanda, bu platforma «ASAN xidmət» əməkdaşları barədə də bütün məlumatları bir yerə cəmləməklə, onların performanslarını qiymətləndirməyə, analitik təhlillər aparmağa və vətəndaş-dövlət xidməti–dövlət qulluqçusu münasibətlərini vizuallaşdırmağa imkan verir.*

*Prezident İlham Əliyevə dövlət satınalmalarının vahid internet portalı barədə də məlumat verildi. Qeyd*

*edildi ki, bu portal dövlət satınalmalarının vahid platforma üzərindən elektron mühitdə həyata keçirilməsinə imkan verən platformadır. Portalın əsas məqsədi satınalma prosesinin təkmilləşdirilməsi və operativliyin artırılması, eyni zamanda, prosesin təşkili zamanı dövlət–özəl sektor əməkdaşlığının təmin edilməsidir. Satınalma prosesinin bütün mərhələləri – tenderin elan edilməsi, təkliflərin qəbulu və qiymətləndirilməsi, müqavilələr və hesab-fakturaların formalaşması tamamilə elektron mühitdə həyata keçirilir. Həmçinin satınalma prosesinin sürətlə aparılması üçün müvafiq dövlət orqanlarının informasiya sistemləri ilə inteqrasiya həyata keçirilib. Platformanın yaradılması satın alan və podratçı tərəfindən xərclərin azalması ilə bərabər, beynəlxalq reytinqlərdə də ölkəmizin mövqeyinin yaxşılaşmasına təsir edəcəkdir.*

*Tanışlıq zamanı dövlət başçısına «ASAN tranzit» sistemi barədə də ətraflı məlumat verildi. Bildirildi ki, bu sistem ölkəyə daxil olan tranzit yük avtomobillərinin qanunvericilikdə mövcud olan ödənişləri (vergi, rüsum və s.) əvvəlcədən ödəməsinə imkan verən və məlumatları real vaxtda müvafiq informasiya sistemlərinə ötürən platformadır. Dövlət sərhədinə yaxınlaşmadan öncə avtomobilin sürücüsü və ya avtomobilin qeydiyyatda olduğu şirkət sürücü və avtomobil barədə məlumatları sistemə daxil etməklə, müvafiq ödənişləri həyata keçirir və ödəmənin təsdiqinə dair elektron sənəd əldə edir. Bu sistem yük*

*avtomobillərinin ölkəyə daxil olduğu zaman əlavə dayanmaların qarşısını almaqla, ödənişlərin bir nöqtədə toplanmasına imkan verir. Sistemin imkanları, həmçinin ölkəmizin beynəlxalq tranzit yükdaşımaları zamanı üstünlük verilən marşruta çevrilməsinə və proseslərin səmərəliliyinin artmasına şərait yaradır.*

* * *

*Sonra ASAN könüllüləri reallaşdırdıqları layihələr barədə məlumat verdilər.*

**Emiliya Bayramova** (*ASAN könüllüsü*): Möhtərəm cənab Prezident, Kürdəmir regional «ASAN xidmət» Mərkəzinə xoş gəlmisiniz! Mən artıq 3 ildən çoxdur ki, «ASAN könüllüləri» təşkilatında fəaliyyət göstərirəm. Cənab Prezident, əvvəlcə 2020-ci ili bizim ilimiz elan etdiyiniz üçün bütün ASAN könüllüləri adından Sizə dərin təşəkkürümüzü bildiririk.

Bu gün biz Sizə ASAN könüllülərinin fəaliyyəti haqqında məlumat verəcəyik. Cənab Prezident, Sizin dəstəyinizlə 15 nəfərlə fəaliyyətə başlayan ASAN könüllülər hərəkatının artıq 22 mindən çox məzun könüllüsü vardır. «ASAN xidmət» mərkəzlərində könüllülük fəaliyyəti 2 mərhələdən ibarətdir. Birinci mərhələdə könüllülər müxtəlif sənədləşmə prosedurlarında, dövri rəy sorğularında, xidmət yönümlü təlimlərdə və mərkəzlərin ümumi fəaliyyətində yaxından iştirak edirlər. Növbəti mərhələdə isə onlar artıq öz ixtisaslarına uyğun olaraq müxtəlif təcrübələrə cəlb olunurlar.

Cənab Prezident, təbii ki, fəaliyyətimiz bununla yekunlaşmır. ASAN könüllülərinin işlə təmin olunmasına dəstək məqsədilə «ASAN kadr» karyera mərkəzini yaratmışıq. Karyera mərkəzi daxilində asankadr.az veb-portalı mövcuddur ki, bu da könüllülər və işəgötürənlər arasında körpü rolunu oynayır. Bu günədək portal vasitəsilə 1400 ASAN könüllü işlə təmin olunub, onlardan 446-sı isə «ASAN xidmət» mərkəzlərinin əməkdaşlarıdır.

Cənab Prezident, xüsusilə qeyd edim ki, asankadr.az veb-portalı artıq BMT-nin Könüllülər Proqramına uğurlu layihə kimi daxil edilib.

Sonda mən vurğulamaq istərdim ki, Sizin bizə daimi dəstəyinizə cavab olaraq, dövlətimizin dayanıqlı inkişafı üçün daha böyük səylə çalışacağımıza söz veririk. Diqqətiniz üçün təşəkkür edirəm, könüllülərin könlü daim Sizinlədir.

**İlham Əliyev**: Çox sağ ol, təşəkkür edirəm.

**Rza Əliyev** (*könüllü*): Möhtərəm cənab Prezident, Ali Baş Komandan, əvvəla, Sizi salamlayıram. Mən «ASAN könüllüləri» təşkilatının əməkdaşıyam. «ASAN könüllüləri» təşkilatı fəaliyyətə başladığı ilk dövrdən vətənpərvərlik mövzusunda layihələrin həyata keçirilməsinə xüsusi önəm vermişdir. Sizin bizimlə görüşlərinizdə daim vurğuladığınız kimi, Azərbaycan gəncliyi milli, vətənpərvər ruhda, ənənəvi dəyərlər əsasında tərbiyə olunmalıdır. Biz də Sizin bu fikirlərinizi rəhbər tutaraq, dövlətimizin bu sahədə gördüyü işlərə dəstək olmaq məqsədilə 92 layihə, 5 hərbi vətən-

pərvərlik düşərgəsi həyata keçirmişik. Bu layihələrdə ümumilikdə 9000-ə qədər gənc iştirak edib. Genişmiqyaslı layihələrdən «Hərbiyyə» hərbi-vətənpərvərlik düşərgəsi və «Əsgərə məktub» layihələrini misal göstərmək olar. «Hərbiyyə» düşərgəsi ümumilikdə 5 dəfə keçirilib və 500-ə qədər gənc bu layihələrdə iştirak edib. Marağın həddindən artıq çox olması 2019-cu ildə bu layihəni 3 dəfə keçirməyimizə səbəb oldu. Diqqətinizə çatdırmaq istəyirəm ki, bu düşərgədə gənclər ilkin hərbi təcrübəyə cəlb olunur, hərbi hazırlıq keçirlər.

Şanlı Aprel zəfəri zamanı bizim təşəbbüsümüzlə yaranan «Əsgərə məktub» layihəsi isə dövlətimiz tərəfindən hər bir maddi, hərbi resursla təmin olunan əsgərlərimizə mənəvi dəstək göstərmək məqsədilə yaradılıb və hazırda da davam etməkdədir. Cəbhə bölgəsində xidmət edən əsgərlərimizə vətəndaşlarımız tərəfindən yazılmış 80 minə qədər məktub çatdırılıb.

Cənab Prezident, Sizin tapşırığınızla 2018-ci ildən «ASAN xidmət» mərkəzləri yerləşən regionlarda Heydər Əliyev mərkəzlərində ASAN könüllüləri öz fəallığı ilə seçilirlər. Belə ki, 8000-dən çox ASAN könüllüsü 5000-dən çox layihədə iştirak edib. O layihələrin əsas məqsədi azərbaycançılıq ideologiyasının, ulu öndərin siyasi kursunun öyrənilməsi və öyrədilməsidir. Bundan başqa, mərkəzlərdə könüllülərimiz vaxtlarını səmərəli keçirmək üçün digər təlimlərdə iştirak edirlər. Bizə göstərdiyiniz diqqət və qayğı üçün Sizə xüsusi təşəkkürümüzü bildiririk.

**İlham Əliyev:** Çox sağ olun, təşəkkür edirəm.

**N i c a t  R ə ş i d o v** (*könüllü*): Möhtərəm cənab Prezident! Mən «ASAN könüllüləri» təşkilatının əməkdaşıyam. Diqqətinizə çatdırmaq istəyirəm ki, ASAN könüllüləri mərkəzlərdəki fəaliyyətlərini bitirdikdən sonra təşkilat tərəfindən icra olunan layihələrdə fəal iştirak edirlər. İlk olaraq qeyd edim ki, şəxsi inkişaf haqqında 220-dən artıq layihə icra edilib. Bu layihələrdə 45 mindən çox gənc əhatə olunub. Məsələn, təhsil sahəsində olan bacarıqların artırılması məqsədilə «ASAN akademiya» layihəsi, regionlarda könüllüluyün geniş təşviqi üçün «Könüllülər yurdu – Azərbaycan», gənclərin siyasi biliklərinin artırılması məqsədilə «Könüllülər parlamenti – Azərbaycan», həmçinin onların dünyagörüşünün və natiqlik bacarıqlarının inkişafı üçün «SMM Business Breakfast», «TÜRKSOY-un I Beynəlxalq simulyasiyası», «AVO MUN», «Natiqlik çempionatı» layihələri həyata keçirilib. Bildiyiniz kimi, 2019-cu ildə Azərbaycan BMT-nin Dövlət Xidmətləri Forumuna ev sahibliyi edib. Məhz bu tədbirdə də biz ASAN könüllüləri olaraq, təşkilatçılıqda yaxından iştirak etmişik.

Cənab Prezident, diqqətinizə çatdırmaq istəyirəm ki, ekoloji məsuliyyət sahəsində də ASAN könüllüləri IDEA İctimai Birliyi ilə birlikdə 400-dən çox ekoloji tədbir və maarifləndirmə aksiyası həyata keçirib. Bu aksiyalarda minlərlə gənc iştirak edərək, cəmiyyətimizə öz töhfələrini əsirgəməyiblər. Xüsusi olaraq qeyd etmək istəyirəm ki, «Yaşıl ASAN» proqramı çərçivəsində 1500 ton kağız təkrar emala verilib və

17 mindən çox ağacın kəsilməsinin qarşısı alınıb. Həmçinin bizim təşəbbüsümüzlə reallaşdırılan «Əcnəbi könüllülər» layihəsi çərçivəsində Niderland, Böyük Britaniya, Çin və Hindistan kimi, 17 fərqli ölkədən onlarla gənc Azərbaycanda ASAN könüllüsü adını qazanıb. Diqqətiniz üçün təşəkkür edirəm.

**İlham Əliyev:** Çox sağ olun.

**Roza Qocayeva** (*könüllü*): Möhtərəm cənab Prezident, Sizi salamlayıram. Mən «ASAN könüllüləri» təşkilatının əməkdaşıyam. Sizə «ASAN məktub» sosial proqramı haqqında məlumat vermək istərdim. Bu proqram 2015-ci ildən bu günədək sosial qayğıya ehtiyacı olan uşaqların arzularını gerçəkləşdirmək üçün nəzərdə tutulub. Dördillik fəaliyyətimiz dövründə 30-dan çox bölgədə olmuş və 4000-ədək uşağın arzusunu reallaşdırmışıq. Onu da qeyd etmək istərdim ki, «ASAN məktub» uğurlu layihə kimi, BMT-nin Könüllülük Proqramına daxil edilib. Bununla yanaşı, ASAN könüllüləri sosial işlərlə yanaşı, mədəniyyət sahəsində də öz bacarıqlarını nümayiş etdirirlər. Bu sahədə bizim «Mədəniyyət carçısı» proqramını xüsusi vurğulamaq istərdim. İkiillik fəaliyyəti dövründə 50-dən çox teatr tamaşası səhnələşdirilib. Bu tamaşalarımız 5000-dən artıq gənci əhatə edib. Çox təşəkkür edirəm, cənab Prezident!

**İlham Əliyev:** Çox sağ olun, təşəkkür edirəm.

* * *

*Daha sonra Prezident İlham Əliyev ASAN könüllüləri ilə görüşdü.*

*Dövlət başçısı görüşdə çıxış etdi.*

**Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı**

«ASAN xidmət» Mərkəzinin əziz əməkdaşları, əziz könüllülər! Mən sizi ürəkdən salamlayıram, sizi Kürdəmir «ASAN xidmət» Mərkəzinin açılışı münasibətilə ürəkdən təbrik edirəm.

Bildiyiniz kimi, mənim sərəncamımla bu il Azərbaycanda «Könüllülər ili» elan olunubdur. Bu onu göstərir ki, Azərbaycan dövləti könüllülər hərəkatına çox böyük önəm verir. İndicə mənə stendlər üzrə edilən təqdimat bir daha göstərir ki, Azərbaycan könüllülərinin fəaliyyəti çoxşaxəlidir.

Könüllülər hərəkatı əslində ölkəmizdə «ASAN xidmət» mərkəzlərində başlamışdır. Əsas vəzifə ondan ibarət idi ki, ölkəmizin gənc istedadlı sakinləri bu işlərə qoşularaq, vətəndaşlara kömək etsinlər, Azərbaycanda könüllülər hərəkatı başlasın və bu sahədə ciddi irəliləyiş olsun. Çünki «ASAN xidmət» mərkəzlərinin fəaliyyətə başlaması əslində könüllülər hərəkatına da təkan vermişdir. Ancaq ondan sonra könüllülər hərəkatı və könüllülərin fəaliyyəti çox geniş vüsət aldı. Ölkəmizdə keçirilmiş mötəbər beynəlxalq yarışlarda, o cümlədən birinci Avropa oyunlarında, İslam Həmrəyliyi oyunlarında könüllülər çox fəal rol oynadılar və bu oyunların uğurla keçirilməsində yüksək dərəcədə öz xidmətlərini göstərdilər. Mən görürəm ki, indi könüllülər

hərəkatı və könüllülərin fəaliyyəti daha da geniş-miqyaslıdır. Həm vətənpərvərlik, ekoloji tarazlıq mövzularında keçirilən tədbirlərdə, həm də incəsənət, mədəniyyət və digər sahələrdə könüllülər çox fəaldırlar. Eyni zamanda, ölkəmizin beynəlxalq əlaqələrinin möhkəmlənməsində də könüllülərin fəaliyyəti çox önəmlidir. Təsadüfi deyil ki, dünyanın mötəbər beynəlxalq təşkilatları, o cümlədən BMT və digər təşkilatlar həm «ASAN xidmət» mərkəzlərinin fəaliyyətini yüksək qiymətləndirir, həm də Azərbaycanda yaranmış və inkişaf edən könüllülər hərəkatına yüksək qiymət verir.

Bir çox ölkələrdə gəncləri birləşdirən təşkilatlar, qurumlar, ictimai birliklər var, o cümlədən Azərbaycanda da. Amma hesab edirəm ki, könüllülər hərəkatı bu ictimai təşkilatlar arasında xüsusi yer tutur. Çünki Azərbaycan könüllüləri həm vətənpərvər, həm bilikli, həm istedadlıdırlar, həm də Azərbaycan gəncliyini və gənclərin istedadını təcəssüm etdirirlər. Çünki könüllü olmaq əslində bizim milli xarakterimizə uyğundur. Mərhəmət, xeyirxahlıq, bir-birinə kömək etmək, mədəni davranış – bütün bunlar bizim genetik kodumuzda yazılmış sarsılmaz dəyərlərdir. Sadəcə olaraq, könüllülər xalqımıza xas olan bütün bu müsbət amilləri, əlamətləri özündə cəmləşdirərək, bu gün bir hərəkat kimi fəaliyyət göstərirlər. Təsadüfi deyil ki, könüllülər Azərbaycan cəmiyyətində çox böyük rəğbətlə qarşılanırlar, o cümlədən «ASAN xidmət» mərkəzlərində. Siz – könüllülər və «ASAN xidmət»

mərkəzlərinin əməkdaşları bunu görürsünüz, bilirsiniz. Əslində «ASAN xidmət» mərkəzlərinin fəaliyyəti və bu mərkəzlərdə hökm sürən nizam-intizam, mədəniyyət, dürüstlük həm Azərbaycan cəmiyyətində böyük yenilik və ictimai xidmətlər sahəsində bir inqilab idi, eyni zamanda, bu, mərkəzlərə müraciət edən vətəndaşlar üçün də gözlənilməz bir hal idi. Çünki ictimai xidmətlər əfsuslar olsun ki, ölkəmizdə həmişə problemli bir sahə idi. İnsanlar məcbur olub günləri, həftələri itirərkən, bu və ya digər dövlət qurumuna müraciət edərkən öz haqlı tələbini təmin etmək üçün əziyyət çəkirdilər. Süründürməçilik, rüşvətxorluq, korrupsiya, mədəniyyətsizlik əfsuslar ki, ictimai xidmətlər sektoruna xas olan əlamətlər idi. İndi isə «ASAN xidmət» mərkəzlərində bunların biri də yoxdur. Eyni zamanda, «ASAN xidmət» mərkəzlərində yaranmış bu gözəl ab-hava ölkəmizin digər sahələrinə də müsbət təsir göstərir. Ona görə mən həm könüllülər hərəkatının, həm də «ASAN xidmət» mərkəzlərinin fəaliyyətini xüsusilə qiymətləndirirəm. Bu, sadəcə olaraq, bir binada yüzlərlə xidmətin göstərilməsi deyil, bu əslində yeniləşən Azərbaycanın yeni simasıdır. Bu, müasir dövlətin növbəti uğurudur.

Bir daha demək istəyirəm ki, xalqımıza xas olan bütün müsbət əlamətlər, eyni zamanda, müasirlik, texnologiyalar, innovasiyalar «ASAN xidmət»də özünü büruzə verir. Bax, bu istiqamətdə inkişaf edən ölkəmiz uğur qazana bilər. Mən bunu dəfələrlə demişəm, bir daha demək istəyirəm, xüsusilə gənclərə

müraciətim odur ki, biz bundan sonra da həm dövlət quruculuğu işində, həm ictimai proseslərdə, həm də islahatların aparılmasında əsas dəyərlərimizi hər şeydən üstün tutmalıyıq. Müstəqil Azərbaycan dövləti çox dərin milli-mənəvi dəyərlər üzərində qurulub və eyni zamanda, bizim dövlətimiz müasirdir, dünyəvidir, gələcəyə uğurla getmək üçün hazırdır və beynəlxalq əməkdaşlığa açıqdır. Bax, bütün bu amillərin sintezi bizim uğurlarımızı şərtləndirir. Xüsusilə gənclər milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə alanda onlar gələcəkdə də ölkə maraqlarını ləyaqətlə müdafiə edə biləcəklər.

Ölkə maraqlarını müdafiə etmək üçün bir neçə önəmli amil lazımdır. İlk növbədə, Vətən sevgisi, Vətənə və milli köklərə bağlılıq olmalıdır. Bu gün bu, cəmiyyətimizdə var və siz gənclərdən asılıdır ki, bu həmişə olsun. Çünki ölkəmizin gələcək taleyi sizin kimi müasir, bilikli, istedadlı gənclərin əlində olacaq. 50 ildən, 100 ildən sonra Azərbaycanın necə inkişaf edəcəyi sizin kimi gənclərin və sizdən sonra gələn nəsillərin fəaliyyətindən və dünyagörüşündən asılı olacaq. Ona görə biz xalqımıza xas olan dəyərləri nəsildən-nəslə ötürməliyik, onları itirməməliyik, qorumalıyıq. İndiki şəraitdə bunu etmək o qədər də asan deyil. Çünki indi dünya qloballaşır, informasiya heç bir sərhəd tanımır – bu da müsbət haldır – amma bununla bərabər, dezinformasiya da heç bir sərhəd tanımır, «feyk» xəbər anlayışı 5-6 il bundan əvvəl mövcud deyildi. İndi bu həqiqətdir və bunu etiraf

edənlər dünyanın aparıcı ölkələrinin dövlət başçılarıdır. Onlar da bundan əziyyət çəkirlər. Media bir tərəfdən, artıq bütün sərhədləri aşaraq hər bir ölkəyə qədəm qoyur və bu, müsbət haldır. Bildiyiniz kimi, Azərbaycanda da media azadlığı var, internet azaddır, heç bir senzura yoxdur. Digər tərəfdən, informasiya təxribatları, yalan məlumat, şər-böhtanla dolu məlumatlar da sərhədləri aşır. Biz buna hazır olmalıyıq, xüsusilə də gənclər. Ona görə bilməliyik ki, bizim uğurlu inkişafımızı bizdən çox istəyən yoxdur və taleyimiz öz əlimizdədir. Artıq 30 ilə yaxındır ki, müstəqil ölkə kimi yaşayırıq və müstəqillik hər şeydən dəyərlidir. Milli dəyərlər, müstəqillik və müasirlik gələcək inkişafımız üçün çox önəmli amillərdir. Çünki biz doqmatizmdən uzaq olmalıyıq. Doqmatizm hər bir cəmiyyətin inkişafına əsas əngəldir.

Bizim strateji inkişaf yolumuz var – milli dəyərlərin qorunması, müstəqilliyin möhkəmləndirilməsi, bundan sonra da heç kimdən asılı olmamaq, heç vaxt kiminsə iradəsi ilə idarə olunmamaq və uğurlu iqtisadi-sosial inkişaf, təhlükəsizlik, sabitlik, dünyaya açıq olmaq və milli maraqlarımızın qorunması. Bu bizim strateji xəttimizdir. Bu, dəyişməz olaraq qalır, qalacaq və qalmalıdır.

Ancaq bununla bərabər, biz qapalı şəraitdə yaşaya bilmərik. Dünyada, regionumuzda gedən proseslər bizə də təsir göstərir. Əfsuslar olsun ki, bu gün regionumuzda proseslər mənfi istiqamətdə gedir, biz bunu görürük. Yeni münaqişə, yeni qarşıdurma

ocaqları, müharibələr, vətəndaş müharibələri – bütün bu mənfi meyillər, o cümlədən iqtisadi sahədə dünyada yaşanan böhran bizə də təsir göstərə bilər və göstərir. Ona görə biz dünyada gedən prosesləri yaxından izləyərək öz addımlarımızı, o cümlədən taktiki addımlarımızı buna uyğun atmalıyıq. Nəzərə alsaq ki, ölkə daxilində risklər yoxdur – nə siyasi risklər, nə sosial, nə iqtisadi, nə fiziki risklər – bütün mümkün olan problemlər kənardan gələ bilər. Həm ideoloji təxribat – bu barədə mən artıq öz sözümü dedim – həm də ki, başqa təxribatlar. Ona görə biz ölkəmizi, sərhədlərimizi qorumalıyıq, informasiya sərhədlərimizi, mənəvi sərhədlərimizi elə möhkəm inşa etməliyik ki, heç bir kənar qüvvə bizim nə milli-mənəvi dəyərlərimizə, nə müstəqilliyimizə, nə də gələcək uğurlu inkişafımıza mane ola bilsin. Nə qədər ki, mən bu vəzifədəyəm, Azərbaycan müstəqillik, azadlıq və inkişaf yolu ilə gedəcək. Elə etməliyik ki, bizdən sonra gələn nəsillər, gənclər öz fəaliyyətlərini bu istiqamətdə qursunlar və təxribatlara uymasınlar, bəzi beynəlxalq təşkilatların yalan məruzələrinə inanmasınlar. Onların arxasında çox ciddi siyasi maraqlar dayanır. Nə üçün Azərbaycan bəzi hallarda beynəlxalq müstəvidə təzyiqlərlə üzləşir? Çünki heç kimin qarşısında baş əymir və əyməyəcək də! Heç kimin sözü ilə oturub-durmur və düz də edirik. Ona görə ölkəmizdə sabitlik də, inkişaf da, əmin-amanlıq da vardır.

Başqa ölkələrə baxın, onlar böyük dövlətlərin təsiri altına düşüblər. Onların gününə baxın, orada vətəndaş

müharibələri, kütləvi itaətsizlik baş alıb gedir, siyasi və iqtisadi böhran davam edir. O ölkələr faktiki olaraq, xarici idarəetmə altındadırlar və öz müstəqilliyini kiminsə sərəncamına veriblər. Amma biz ləyaqətli siyasət aparırıq. Mən həmişə demişəm ki, Azərbaycan dövlətinin taleyi xalqımızın əlindədir. Biz, nəhayət ki, müstəqil dövlət kimi yaşayırıq və heç kimdən asılı deyilik. Amma tariximizi də yaxşı bilirik. Hətta Azərbaycan Xalq Cümhuriyyətinin tarixi də birmənalı deyildi. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması tarixi hadisə idi və bizim qürur mənbəyimizdir. Çünki müsəlman aləmində ilk dəfə məhz Azərbaycan xalqı demokratik respublika yaratmışdır, qəbul edilmiş qanunlar və planlar, onların niyyəti ölkəmizin uğurlu inkişafını şərtləndirə bilərdi. Ancaq o da həqiqətdir ki, 2 il ərzində Azərbaycan hökuməti öz ərazisinə tam nəzarət edə bilmirdi. O da həqiqətdir ki, o vaxt xarici ekspedisiya korpusu Bakıda hökmranlıq edirdi, Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyətini tanımırdı. Azərbaycan Xalq Cümhuriyyətinin rəhbərləri məcbur olub o ekspedisiya korpusunun generalları ilə müzakirələr aparıblar ki, müstəqil siyasət yürüdə bilsinlər. Bu proses də böyük çətinliklərlə baş verirdi.

Ona görə indiki müstəqil Azərbaycanı heç bir dövrlə müqayisə etmək olmaz, heç bir dövrlə. Bu gün bu qədər müstəqil, bu qədər azad dövlət Azərbaycanın tarixində olmamışdır. Tarixçilər bunu yaxşı bilirlər. Biz də bunu qiymətləndirməliyik.

Tale 1991-ci ildə bizə yeni bir şans verdi. Biz bu şansı itirə bilərdik və əslində itirirdik. Çünki ötən əsrin 90-cı illərinin əvvəllərində gedən proseslər ölkəmizi məhvə aparırdı. Ancaq 1993-cü ildə Heydər Əliyev hakimiyyətə gələndən sonra Azərbaycan bütün o bəlalardan canını qurtardı və inkişaf yoluna, müstəqillik yoluna qədəm qoydu. Bu gün biz bu yolla gedirik və gedəcəyik.

Bu gün «ASAN xidmət» Mərkəzinin açılışında sizinlə görüş əsnasında, sadəcə olaraq, bu fikirlərimi bölüşmək istədim. Çünki istəyirəm ki, mənim fikirlərimi siz də biləsiniz, Azərbaycan xalqı da bir daha eşitsin bizim niyyətimiz nədir, siyasətimiz nədir və yolumuz nədir. Bir daha demək istəyirəm ki, «ASAN xidmət» mərkəzləri ölkəmizdə çox ciddi müsbət dəyişikliklərə yol açdı. Bu bizim niyyətimizin, siyasətimizin təzahürü idi. Amma birinci mərkəzlər açılan zaman insanlara elə gəlirdi ki, bu, vətəndaşların rahatlığı üçün sadəcə, bir layihədir, xidmət layihəsidir. O vaxt bir çoxları bəlkə də dərk etmirdilər ki, bu, təkcə layihə deyil, bu siyasətdir, hərəkatdır, bu niyyətdir. Baxın, bu gün Azərbaycanın hər bir sahəsində islahatlar aparılır – siyasi sahədə, iqtisadi sahədə, struktur islahatları, kadr islahatları. Nazirlər Kabineti yenidən formalaşdı, Prezident Administrasiyası da həmçinin. Parlament yenidən formalaşır. Bir neçə gün bundan əvvəl parlament seçkiləri keçirildi. İqtisadi sahədə şəffaflıq təmin edilir. Bu şəffaflıq hesabına təkcə keçən il 1 milyard manatdan çox

vəsait dövlət xəzinəsinə daxil edildi və bu vəsait son qəpiyinə qədər vətəndaşların pensiyalarının, maaşlarının artırılmasına getmişdir. Bu ilin yanvar ayında xəzinəyə proqnozdan əlavə 160 milyon manat daxil edildi. Biz bunu da sosial layihələrə xərcləyəcəyik. 1 ayda 160 milyon manat o deməkdir ki, təqribən indi bunu 12 aya vursaq – düzdür, burada çox da sadə yanaşmaq olmaz – amma hər halda bu, bir meyildir.

Bütün bu işlər ölkəmizi gücləndirir. Parlament seçkiləri bir daha onu göstərdi ki, bizim niyyətimiz demokratik inkişafın təmin edilməsidir. Çünki hətta bizə həmişə ən tənqidi mövqedən yanaşan təşkilatlar da seçkilərlə bağlı məruzələrində müsbət meyilləri qəbul etməyə məcbur oldular. Pozuntulara gəldikdə, qeyd etdilər ki, bu prosedur xarakterli pozuntular idi. Yəni bu hər bir ölkədə vardır. Heç bir ölkədə tam kamil seçkilər keçirilmir. Amma bu seçkilərdə nə saxtakarlıq, nə ciddi pozuntular olub, nə də ki, seçkilərin legitimliyini, yaxud da nəticələrini şübhə altına alan hər hansı bir pozuntu.

Müşahidəçilərin mütləq əksəriyyəti seçkiləri çox müsbət qiymətləndirib. Bəziləri qeyd etdi ki, bu, bir çox ölkələr üçün nümunə ola bilər. ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun – hansı ki, bizə həmişə qərəzli yanaşır – hesabatı da hesab edirəm ki, tarazlı idi, əvvəlki dövrlərə nisbətən daha obyektiv idi. Əlbəttə ki, bəzi məsələlərlə biz razılaşa bilmərik. Amma məruzənin ümumi nəticəsi, hesab edirəm ki, obyektivliyə daha yaxın idi. Biz

də bəyan etmişik ki, mövcud olan pozuntular ciddi araşdırılacaq, pozuntulara yol vermiş şəxslər cəzalandırılacaq və bundan sonra da bütün beynəlxalq təşkilatlarla bu istiqamətdə fəaliyyətimizi və əməkdaşlığımızı davam etdirəcəyik.

Bu dəfə 1300-dən çox namizəd olub. Bu, rekord göstəricidir. Bu onu göstərir ki, seçkilər rəqabət şəraitində keçib. Əgər bir dairədən orta hesabla 10 nəfər iştirak edirsə, bu, rəqabət deyilmi? O yekun məruzədə yazılmışdı ki, rəqabət olmayıb. Bəs onda rəqabət nədir? Hər bir namizəd öz dairəsində açıq görüşlər keçirirdi, istədiyi sözləri deyirdi, bəziləri hakimiyyəti tənqid edirdi. Heç kim buna görə heç kimə maneçilik törətmirdi. Bəs onda açıq rəqabət nədir? Nəyə görə həmişə bizə qarşı «sərbəst toplaşmaq azadlığı təmin olunmayıb» ifadəsini işlədirlər? Yalandır, olunub. Çünki indi hər kəs sərbəst toplaşmaq haqqını müvafiq yerlərdə icra edə bilər, amma qanun çərçivəsində. Digər ölkələrdə olduğu kimi.

Ona görə seçki prosesi bütün demokratik meyarlara cavab vermişdir. Heç kim deyə bilməz ki, seçki prosesində hər hansı pozuntular olub. Hesab edirəm ki, səsvermə günü də seçkilər çox müsbət şəkildə keçirildi və əgər pozuntular olubsa, bir daha demək istəyirəm ki, bu pozuntular araşdırılacaqdır. Bilirəm ki, Mərkəzi Seçki Komissiyası artıq fəal işə başlayıb, yerlərdən məlumat toplayırıq. Biz istəmirik ki, pozuntular olsun. Pozuntulara yol verən şəxslər öz cəzasını almalıdır ki, gələcəkdə belə hallara

yol verilməsin. Buna qətiyyən ehtiyac yoxdur. Çünki bu gün, tam səmimiyyətlə deyirəm, bizim siyasətimizə Azərbaycanda alternativ yoxdur. Elə bir siyasi qüvvə yoxdur ki, o, müəyyən dərəcədə xalqın rəğbətini qazansın və bu seçkilər onu bir daha göstərdi. Bizim apardığımız siyasət xalqımızın mütləq əksəriyyətinin maraqlarına cavab verir və gördüyümüz işlər də göz qabağındadır. Ona görə bütün bu sahələrdə aparılan islahatlar səmərə verir. İslahatların növbəti mərhələsi 2018-ci ildə başlamışdır. Prezident seçkilərindən sonra mənim tərəfimdən elan edilmişdi ki, biz yeni dövrə qədəm qoyuruq. Bu istiqamətdə ardıcıl olaraq, fəaliyyətimiz davam etdirildi və qeyd etdiyim məsələlər də bunun sübutudur.

Mənim gənclərlə görüşlərim müntəzəm olaraq keçirilir. Hər dəfə gənclərlə görüşəndə çox sevinirəm ki, Azərbaycan gəncləri vətənpərvər, bilikli, savadlı, zahirən gözəldirlər. Sizə uğurlar arzulayıram. Sizin fəaliyyətiniz «ASAN xidmət»də başlayır və davam edir. Bu çox gözəl məktəbdir. Əminəm ki, burada topladığınız biliklər gələcəkdə sizə kömək edəcək və siz ölkəmizin gələcək inkişafında öz sözünüzü deyəcəksiniz. Bir daha sizi təbrik edirəm, sizə uğurlar arzulayıram. Sağ olun.

**Ülkər Şirinova** (*könüllü*): Cənab Prezident, Sizin dəstəyiniz və təşəbbüsünüzlə Azərbaycanda könüllülük fəaliyyəti geniş şəkildə yayılıb. Biz region gəncləri də ASAN könüllülərin sosial, ictimai, mədəni, ekoloji tədbirlərini, layihələrini hər zaman ya-

xından izləmişik. Biz region gənclərinin də arzusu olub ki, könüllülük fəaliyyətinə qoşulaq, bir könüllü kimi, xalqımıza, millətimizə heç bir maddi maraq güdmədən xidmət edək və xeyirxah əməllərimizi vətəndaşlarımıza çatdıra bilək.

Siz bu gün rayonumuzda «ASAN xidmət» Mərkəzini açaraq, mən və mənimlə yanaşı, neçə gəncimizi arzumuza çatdırmış oldunuz. Biz bu gün Sizin qarşınızda könüllü kimi çıxış edirik, könüllü kimi dayanmışıq. Cənab Prezident, biz buna görə bütün könüllülərimiz adından Sizə təşəkkürümüzü bildiririk. Həmçinin 2020-ci il «Könüllülər ili»dir. «Könüllülər ili»ndə Sizin qarşınızda könüllü kimi çıxış etmək biz könüllülərə ayrı bir stimul verir və bu bizim üçün ikiqat bayramdır.

Cənab Prezident, bütün könüllülərimiz adından Sizi əmin edirəm ki, biz üzərimizə düşən vəzifənin, məsuliyyətin fərqindəyik və regionumuzun sosial, ictimai, mədəni, ekoloji tədbirlərində daha yaxından iştirak edəcəyik, region gənclərinin fərdi inkişafında böyük rol oynayacağıq və Sizin görəcəyiniz bütün işlərin fəal iştirakçısı olacağıq. Bunun üçün biz bütün könüllülər adından Sizə söz veririk.

**İlham Əliyev:** Çox sağ ol, təşəkkür edirəm.

**Xəyalə Babayeva** (*mərkəzin əməkdaşı*): Möhtərəm cənab Prezident, Sizi bütün Kürdəmir gəncləri adından salamlayıram. Rayonumuza xoş gəlmisiniz! Mən Kürdəmir rayonunda anadan olmuşam. Bakıda təhsil alarkən «ASAN xidmət» Mərkəzində

könüllü olmuşam. Könüllü olduğum müddətdə orada yaratdığınız şəraiti, imkanları, vətəndaşlara münasibəti və xidməti fəaliyyətin bu qədər yüksək olduğunu görüb həmişə arzu etmişəm ki, rayonumuzda da «ASAN xidmət» Mərkəzi açılsın. Nə xoş haldır ki, bu gün rayonumuzda Sizin təşəbbüsünüzlə «ASAN xidmət» Mərkəzi açılıb və biz də gənclər olaraq, burada iştirak edirik.

Cənab Prezident, 2020-ci ili «Könüllülər ili» elan etmisiniz. Mən də hesab edirəm ki, bu il mənim ilimdir. Çünki həm könüllü olmuşam, həm də Sizin sayənizdə işçi kimi qarşınızda çıxış edirəm. Bu mənim üçün çox qürurverici haldır.

Mərkəzimizdə 259 əməkdaş fəaliyyət göstərir. Xidmət fəaliyyətimiz təkcə Kürdəmiri deyil, Ağsu, Ucar, Zərdab, Göyçay və Hacıqabul rayonlarını da əhatə edir.

Cənab Prezident, hər zaman qeyd etdiyiniz kimi, dövlət qulluqçuları vətəndaşlara xidmətdə, daim onların qulluğunda olmalıdırlar. Bizim mərkəzimizdə yaratdığınız bu imkanlardan, bu şəraitdən yararlanaraq demək istəyirik ki, biz də öz fəaliyyətimizi layiqincə yerinə yetirəcəyimizə söz veririk. Rayonumuzda belə gözəl şərait yaratdığınız üçün Sizə dərin minnətdarlığımızı bildiririk. Sağ olun.

**Səbinə Cabarova** (*«ASAN könüllüləri» təşkilatının sədri*): Möhtərəm cənab Prezident, bu gün burada bir Azərbaycan gənci kimi, eləcə də ASAN könüllüləri adından çıxış etmək mənim üçün qürur-

vericidir. Bu gün Azərbaycan Sizin rəhbərliyinizlə qüdrətli, öz gücünə güvənən, müstəqil siyasət yürüdən bir ölkədir. Bu gün dünyanın müxtəlif yerlərində, müxtəlif ölkələrdə insanlar cinayətlərin, bomba səslərinin qorxusu ilə yaşadığı bir vaxtda Azərbaycan gənci xurafatdan, radikalizmdən, cəhalətdən uzaq, Vətənə, təhsilə bağlı şəkildə, dünyagörüşlü, savadlı, müasir gənc olaraq yetişdirilir. Sizin də qeyd etdiyiniz kimi, Azərbaycan gənci küçələrdə deyil, Azərbaycan gənci təhsil müəssisələrindədir, Azərbaycan gənci «startap» biznesindədir və eləcə də könüllü kimi fəaliyyət göstərir. 2012-ci ildə ilk «ASAN xidmət» Mərkəzi fəaliyyətə başladığı gündən etibarən biz daim Sizin dəstəyinizi hiss etmişik. Biz gənc könüllülər «Əsgərə məktub» layihəsi ilə cəbhədə əsgərimizin yanında, «ASAN məktub»la uşaqların qəlbində, dərin mədəni irsə malik Vətənimizdə mədəniyyət carçıları olaraq, vətəndaşların önündə, «Yaşıl ASAN»la təbiətin keşiyindəyik. Həmçinin onu da qeyd edim ki, bu gün ölkəmizdə «Könüllülüyün yaşı yoxdur» şüarı da heç kəsi təəccübləndirmir. Bu gün artıq ASAN könüllülərin sırasına pensiya yaşına çatmış şəxslər də qoşulur və bununla da yaşından, sosial statusundan asılı olmayaraq, hər bir vətəndaş xalqımıza ən uğurlu şəkildə xidmət etməyi, cəmiyyətimizin inkişafı üçün könüllü olmağı özünə borc bilir.

Möhtərəm cənab Prezident, çox şadıq ki, bizim fəaliyyətimiz dövlətimiz tərəfindən də çox yüksək qiymətləndirilir. Həm Siz, həm də hörmətli Mehriban xanım

sosial fəal gənclərə nəinki dəstək olursunuz, həmçinin müxtəlif tədbirlərdə birbaşa olaraq özünüz də iştirak edirsiniz. Bunun biz gənclərə verdiyi yüksək motivasiyanı heç nə ilə əvəz etmək mümkün deyil. Bu ilin də məhz könüllülərə həsr edilməsi Sizin və Mehriban xanımın biz gənclərə ayırdığı diqqət və qayğının bariz nümunəsidir. Könüllülərə verdiyiniz dəyər gənclərin və ümumilikdə cəmiyyətimizin, dövlətimizin inkişafında böyük rol oynayır. Bildirmək istərdik ki, bundan sonra da fəaliyyətimiz boyunca apardığınız gənclər siyasətinin bir parçası olaraq, hər zaman etimadınızı doğruldacaq, cəmiyyətimizin, gənclərimizin fərdi inkişafına təkan verəcək, gənclərin potensiallarından ölkəmizin dayanıqlı inkişafı üçün səmərəli istifadə edəcək, öyrəndikcə öyrədəcək, inkişaf etdikcə digərlərinin də inkişafı üçün çalışacaq, Vətənə və vətəndaşlara olan sevgimizi yüksək tutacaq, azərbaycanlı adını layiqincə daşımağa çalışacağıq, Vətənə olan sevgimizi hər zaman yüksək intellekt, sülhsevərlik, bilik, eləcə də birlik və bərabərliyimizlə ifadə edəcəyik. Diqqətinizə görə minnətdaram.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun, təşəkkür edirəm. Bildirməliyəm ki, bu, sayca 17-ci «ASAN xidmət» Mərkəzidir. Şadam ki, bu mərkəz Kürdəmirdə açılır və kürdəmirli gənclər burada fəaliyyət göstərirlər. «ASAN xidmət» mərkəzlərinin açılışı eyni zamanda, yüzlərlə iş yerinin yaradılması deməkdir. Mənə verilən məlumata görə, hazırda bütün mərkəzlərdə 4000-dən çox əməkdaş vardır. Bu mərkəzdə 250-

dən çox əməkdaş və 45 könüllü fəaliyyət göstərir. Növbəti mərkəzin məhz Kürdəmirdə fəaliyyətə başlaması da təsadüfi deyil. Kürdəmir çox önəmli və böyük potensiala malik olan rayondur, əhalisi də çoxdur, ölkəmizin, demək olar ki, mərkəzində yerləşir. Ona görə regional mərkəz kimi, məhz Kürdəmirin seçilməsi hesab edirəm ki, düzgün qərar idi. Bu mərkəz 6 rayonun vətəndaşlarına xidmət göstərəcək. Ancaq Siz də yaxşı bilirsiniz ki, indi istənilən rayon sakini istənilən mərkəzdə istənilən xidməti ala bilər.

Kürdəmir rayonunun inkişafına bundan sonra da diqqət göstəriləcək. Bu gün rayonda bir neçə obyektin açılışında iştirak etdim, o cümlədən yolun açılışı oldu. Kənd yollarının vəziyyəti çox acınacaqlı idi. Son vaxtlar bu sahəyə böyük diqqət göstərilib və yolların 50 faizi yenidən qurulubdur. Mənə bu gün göstərilən təqdimatdan da məlum oldu ki, yolların əvvəlki vəziyyəti dözülməz idi. Orada heç asfalt da, çınqıl da yox idi, torpaq idi. Yağış yağanda o yollar keçilməz olurdu. İndi biz yolların 50 faizinin təmirinə nail olmuşuq. Ancaq hesab edirəm ki, dördüncü regional inkişaf proqramının 2023-cü ildə başa çatması nəticəsində Kürdəmir rayonunda bir dənə də təmirsiz yol qalmayacaqdır.

Mən Prezident kimi, 15 il bundan əvvəl birinci dəfə Kürdəmirə gələndə rayonda qazlaşdırılma, demək olar ki, yox idi. Gənclər yəqin ki, bunu xatırlamır. Ancaq bu gün Kürdəmir rayonunda qazlaşdırılma 98 faizə çatıb. Yəni bir neçə kənd qalıb ki, orada hələ qaz xətləri

çəkilməyib, biz onu da edəcəyik. Elektrik enerjisi ilə bağlı çox böyük problemlər var idi, həm fasilələr olurdu, həm də enerji çatmırdı. İndi isə bu problem də yoxdur. 2013-cü ildə mənim iştirakımla Kürdəmir şəhərində içməli su layihəsinin açılışı oldu və Kürdəmir şəhəri təmiz, dünya standartlarına cavab verən su ilə təmin edildi. Bununla bərabər, 43 modul tipli təmizləyici qurğu inşa edildi ki, çay boyunca yerləşən kəndlərin camaatı da təmiz içməli su ilə təmin edilsin. Hazırda Kürdəmir şəhərində kanalizasiya layihəsi icra edilir. Mənə verilən məlumata görə, icra 20 faizdir və yəqin ki, yaxın 1-2 il ərzində bu problem də öz həllini tapacaqdır.

«Azərxalça»nın fabriki bu gün açılır. Bir neçə aqro-park fəaliyyət göstərir. Əsaslı təmirdən çıxmış Mərkəzi Rayon Xəstəxanasının da mənim iştirakımla açılışını etdik. Olimpiya İdman Mərkəzi, Gənclər evi inşa edilib. Yəni belə obyektlərin sayı çoxdur. 30-dan çox məktəb əsaslı təmir edilib. Amma görüləsi işlər də çoxdur. Ona görə dördüncü regional inkişaf proqramının uğurlu icrası nəticəsində hesab edirəm ki, bir dənə də olsun infrastruktur problemi qalmamalıdır.

İş yerlərinin yaradılması ilə bağlı əlavə tədbirlər görülməlidir və görüləcək, xüsusilə özəl sektorda və dövlət sektorunda. Hələ ki, dövlət sektorunda da yeni iş yerlərinin yaradılması zəruridir. İstəmirəm ki, işsiz adam olsun. İşsizliklə bağlı problemlər daim diqqət mərkəzindədir, çünki əhalimiz artır. Cənubi Qafqazda yeganə ölkə Azərbaycandır ki, əhali artır. Müstəqillik

dövründə 3 milyon artıbdır. Təsəvvür edin, bizim əsas infrastruktur layihələrimiz sovet dövründə icra edilmişdir və onlar təqribən 6-7 milyon əhaliyə hesablanmışdır. Əgər biz son illərdə böyük infrastruktur layihələrini icra etməsəydik, bu gün işıqsız, susuz, qazsız qalacaqdıq. Çünki biz artan əhalini həm işlə, həm ərzaqla, həm də məktəblərlə təmin etməliyik. Hər il əhali 100 min artır. İqtisadi inkişaf buna uyğun olmalıdır. Ona görə bölgələrdə və böyük şəhərlərdə iş yerlərinin yaradılması daim diqqət mərkəzindədir. Amma mən tam əminəm ki, biz bütün çağırışlarla bağlı öz siyasətimizi bundan sonra da uğurla aparacağıq. Artan əhali bizim gücümüzdür və eyni zamanda, elə bir amildir ki, bizi daim daha fəal olmağa sövq etməlidir. Artan əhali artan tələbat deməkdir.

Əminəm ki, bundan sonra da Kürdəmir rayonunun inkişafında önəmli addımlar atılacaq və burada proseslər uğurla gedəcək, vətəndaşlar həm işlə təmin olunacaqlar, həm də onların sosial rifahı yaxşılaşacaq və belə gözəl mərkəzlər yaradılacaq. Sizi bir daha təbrik edirəm, sizə xoşbəxtlik, cansağlığı arzulayıram. Həmişə belə gözəl, enerjili, fəal olasınız. Sağ olun.

*Daha sonra Prezident İlham Əliyev «ASAN həyat» Kompleksinin tərkibindəki «ABAD Food Hall»un fəaliyyəti ilə tanış oldu, burada nümayiş etdirilən məhsul nümunələrinə baxdı.*

## «Azərxalça» Açıq Səhmdar Cəmiyyətinin Kürdəmir filialının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 12-də «Azərxalça» Açıq Səhmdar Cəmiyyətinin Kürdəmir filialının açılışı mərasimində iştirak etmişdir.*

*«Azərxalça» ASC-nin İdarə Heyətinin sədri Vidadi Muradov dövlət başçısına müəssisədə yaradılmış şərait barədə məlumat verdi.*

*Bildirildi ki, müəssisədə 150 nəfər toxucunun və 14 nəfər inzibati-təsərrüfat işçisinin çalışması nəzərdə tutulub. Bina toxuculuq emalatxanası, rəssam otağı, anbar, yeməkxana, tibb otağı, xalça-satış salonu və s. bölmələrdən ibarətdir. Emalatxanada müxtəliföl-çülü 43 dəzgahda Azərbaycan xalçaları toxunacaqdır. Əsasən Ağdaş, Ağsu, Göyçay, Hacıqabul, İsmayıllı, Kürdəmir, Qax, Qəbələ, Qobustan, Oğuz, Salyan, Şamaxı, Şəki, Ucar, Zaqatala və Zərdab rayonlarının yaşayış məntəqələrində toxunan orijinal xalça çeşnilərinin istehsalına üstünlük veriləcəkdir. Bu çeşnilər dünya muzeylərində, şəxsi kolleksiyalarda mühafizə olunan, həmçinin respublikamızın ayrı-ayrı bölgələrindən toplanılan qədim və orijinal xalçalar əsasında «Azərxalça»nın rəssamları tərəfindən hazırlanıb. Emalatxana zəruri xammal və ləvazimatlarla – müxtəlif rəngli yun iplərlə, həvə, qayçı, bıçaq kimi alətlərlə təmin edilibdir. Toxucular Kürdəmir şəhərinin və rayonun digər yaşayış məntəqələrinin sakinləridir. Onlar bir neçə ay ərzində «Azərxalça»nın burada təşkil olunmuş hazırlıq-tədris kurslarında iştirak edib, xalçaçılıq üzrə bacarıq və vərdişlərini təkmilləşdiriblər. Tədris-hazır-*

*lıq kursu filial fəaliyyətə başladıqdan sonra da öz işini davam etdirəcək və bu kursun məzunları «Azərxalça» ASC-nin sertifikatını alacaqlar. Xalça-satış salonunda «Azərxalça» ASC-də toxunmuş xalça və xalça məmulatlarının sərgilənməsi və satışı da həyata keçiriləcəkdir.*

*Dövlət başçısı xalçaçılarla görüşdü.*

**İ l h a m Ə l i y e v:** Sizi Xalça fabrikinin açılışı münasibətilə təbrik edirəm, sizə uğurlar arzulayıram. Şadam ki, Kürdəmir rayonunda da Xalça fabriki açılır. Son vaxtlar bu istiqamətdə çox böyük işlər görülür. Planımızda 32 fabrikin açılışıdır, onlardan 11-i artıq fəaliyyətdədir. Biri də bu gün Kürdəmir rayonunda rəsmən açılır. Mənə verilən məlumata görə, burada qadınlar üçün 100-ə yaxın iş yeri yaradılıb. Bu çox müsbət haldır. Bir tərəfdən, vətəndaşları iş yerləri ilə təmin edirik, xüsusilə də qadınları, digər tərəfdən də bizim qədim sənətimiz, xalçaçılıq sənəti inkişaf edir. Siz də bu sənəti yaşadırsınız və öz təcrübənizi, biliklərinizi gənc nəsillə bölüşürsünüz. Beləliklə, həm özünüz üçün yeni imkanlar əldə edirsiniz, həm də ölkəmizin gələcək uğurlu inkişafı istiqamətində mühüm töhfə verirsiniz. Çünki xalçaçılıq qədim sənətimizdir, xalça ixrac yönümlü məhsuldur. İndi bizim əsas vəzifəmiz qeyri-neft sektorunun ixracının artırılmasıdır.

Azərbaycan xalçalarına dünyada çox böyük tələbat vardır. Ölkəmizə gələn xarici qonaqlar xalçalarla çox maraqlanırlar. Keçən il ölkəmizə 3 milyon 170

min xarici qonaq gəlib və bu il bu göstərici daha da artacaq, ona görə bizim xalçalarımıza da tələbat çoxalacaqdır. Sizin işiniz daha da çox olacaqdır. Burada yaxşı əməkhaqqı ilə təmin olunursunuz, iş şəraiti də gözəldir. Son dövrdə «Azərxalça»nın xətti ilə açılmış fabriklərdə, demək olar ki, işçilərin hamısı razıdır.

**Xalçaçılar:** Biz də razıyıq. Çox sağ olun, minnətdarıq. Allah Sizə ömür versin, Allah Sizi qorusun.

**Yəmən Abdurəhmanova** (*xalçaçı*): Cənab Prezident, rayonumuza, müəssisəmizə xoş gəlmisiniz! Biz böyük şərəf hissi ilə, böyük qürurla Sizi gözləyirdik. Sevinirik ki, bizimlə görüşə gəlmisiniz. Mən Kürdəmir rayonunun bütün ziyalı qadınlarının, ağbirçək anaların, toxucularımızın adından Sizə dərin minnətdarlığımı bildirirəm. Allah Sizə uzun ömür, cansağlığı versin. Ümummilli liderimiz Heydər Əliyevin irsini axıra qədər davam etdirəsiniz.

Hörmətli Prezident, gün o gün olsun ki, Siz Qələbə günü haqqında sərəncam imzalayasınız, biz də qurbanlarımızı kəsək.

Cənab Prezident, üzr istəyirəm, bəlkə çox danışıram. Kürdəmirdə Xalça fabriki keçən əsrin 30-cu illərindən fəaliyyətə başlayıbdır. Bizim analarımız, nənələrimiz bu işi davam etdirdilər, biz də davam etdiririk. 1989-cu ildə Kürdəmirdə Xalça fabriki açılıb. Əvvəllər təkcə Kürdəmirin Şilyan kəndində var idi. Kürdəmir şəhərinin özündə Xalça fabriki açılandan sonra Yenikənd, Köhnəbazar, Köhünlü, Şilyan kənd-

lərində sexlər yaratdıq. Ancaq o sexlərlə bu sexlər arasında yer-göy qədər fərq vardır. Texniki avadanlıqlarımızda da, çeşnilərimizdə də, mallarımızın satılmasında da yeni sexlərin çox böyük rolu vardır. Mən toxucu qızlarla gəlib görüşəndə deyirəm, yadınızdadır o işlədiyiniz vəziyyət? Bizim indiki gözəl emalatxanamız bütün Avropa standartlarına uyğun qurulub. Allah Prezidentimizin də, Mehriban xanımın da canını sağ etsin. Siz biz qadınların sənətinə qiymət verir, bu sənəti yaşadırsınız. 2001-ci ildən sonra fabrik fəaliyyətini dayandırdı. Mən bir xalça mütəxəssisi kimi, qadınların arasına çıxarkən sual veriləndə ki, «Yəmən müəllimə, Xalça fabriki niyə işləmir?» – utanırdım cavab verməyə. İndi isə böyük qürur hissi duyuram.

Cənab Prezident, təkcə xalçaçıların yox, Kürdəmirin bütün ağbirçəkləri adından Sizə təşəkkürümü bildirirəm. Şəhərlə kənd arasında fərqi aradan götürmüsünüz. Kəndlilər də qaz yandırır, kəndlilər də fasiləsiz elektrik enerjisi ilə, su ilə təmin olunublar.

Cənab Prezident, 2017-ci ilin may ayında «Azərxalça» Açıq Səhmdar Cəmiyyətinin ildönümü ilə əlaqədar Siz məni qabaqcıl xalça mütəxəssisi kimi, «Tərəqqi» medalı ilə təltif etdiniz. Mən konfransda da dedim ki, bütün toxucular, bütün Kürdəmir toxucuları eşitsin – bu medal tək mənə aid deyil, bu medal bütün toxuculara aiddir.

Bu gün şəhərimizdə «ASAN xidmət» Mərkəzi açılıb, inzibati binalar tikilibdir. Hansı inzibati idarəyə, hansı təşkilata gediriksə, xoş üzlə qarşılanırıq, yaxşı

yola salınırıq. Bunların hamısı Sizin sayənizdədir. Bunu heç kim unuda bilməz.

Cənab Prezident, biz şəhərə gəlmək üçün Şilyan kəndindən saat yarıma çıxa bilmirdik. İndi isə 5 dəqiqəyə Şilyan kəndinin ən ucqar yerinə belə, çata bilirik. Mən Sizə bütün ağbirçək anaların adından minnətdarlıq edirəm. Allah atanızı, ananızı cənnətlik etsin, ruhları şad olsun. Onların ruhları Sizə həmişə dayaq olsun. Çox sağ olun.

**İlham Əliyev:** Xoş sözlərə görə təşəkkür edirəm.

**Yəmən Abdurəhmanova:** Çox sağ olun. Ürəkdən gələn səmimi sözlərdir.

**İlham Əliyev:** Bilirəm. Tamamilə haqlısınız. Kürdəmir rayonunda son vaxtlar çox böyük dəyişikliklər olub. Mən bu gün «ASAN xidmət» Mərkəzinin açılışında dedim ki, Prezident kimi, Kürdəmirə ilk dəfə 2005-ci ildə gəlmişdim. O vaxt işıqla bağlı problem var idi. Yollar, demək olar ki, yox idi, qazlaşdırılma, su, iş yerləri də həmçinin. Kompleks tədbirlərin görülməsi nəticəsində biz bütün bu məsələləri tədricən həll etdik. İlk növbədə, elektrik enerjisi ilə təminat, ondan sonra Kürdəmirin bütün kəndlərinin qazlaşdırılması. Cəmi 2 kənd hələ ki, qazlaşdırılmayıb. O da bu il və ya gələn il olacaqdır. Beləliklə, 100 faiz qazlaşdırılma olacaqdır. Yolların da yarısı, 50 faizi təmirlidir. Qalan 50 faizini isə biz 2023-cü ilə qədər tam təmir edəcəyik. Kürdəmir şəhərində içməli su ilə bağlı problem 2013-cü ildə həll olunubdur. Kəndlərdə də modul tipli sutəmizləyici qurğular quraşdırılıb, 40-dan çox yeni qurğu isə quraşdırılacaqdır. İş yerlərinin yaradılması ilə bağlı belə gözəl fabrik açıldı. İndi gedib baxarsınız, «ASAN həyat» Kompleksi, «ASAN xidmət» Mərkəzi necə gözəldir. Orada həm 320 növ xidmət göstəriləcək, eyni zamanda, gözəl kafelər, icti-

mai yerlər, kinoteatr, uşaq əyləncə yerləri fəaliyyət göstərəcəkdir. Yəni Kompleks ictimai bir mərkəz kimi formalaşıb. Bu mərkəzin məhz Kürdəmirdə yaradılması rayona xüsusi münasibətin təzahürüdür. Çünki bu mərkəz 6 rayona xidmət göstərəcəkdir.

Xalça fabriklərinin yaradılması xüsusi əhəmiyyət daşıyır. Çünki siz də qeyd etdiyiniz kimi, biz, demək olar ki, bu sənəti bölgələrdə itirirdik. Bölgələrdə ancaq evlərdə köhnədən qalan dəzgahlar var idi. Toxucular fərdi qaydada işləyirdilər. Sifarişlər də, demək olar ki, yox idi, xalçanı toxuyub sata bilmirdilər. Siz yaxşı bilirsiniz ki, xalçanı toxumaq üçün ləvazimat, vasitələr, maddi imkan lazımdır.

**Yəmən Abdurəhmanova:** Hər şey var, şükür Allaha.

**İlham Əliyev:** İndi bunlar olmayanda necə toxusunlar? Sonra toxuyub hara satsınlar? Ona görə bizim xalçaçılıq sənətimiz, demək olar ki, yalnız Bakı şəhərində qalmışdı. Ancaq bizim hər bir bölgəmizdə özünəməxsus xalçaçılıq məktəbi vardır. Ölkə üzrə 32 fabrikin yaradılmasının məqsədi bu idi ki, bölgələrdə bu sənət yaşasın, qadınlar işə cəlb olunsun, gözəl şərait yaradılsın, yaxşı pul qazansınlar, vətəndaşlara və dövlətə xeyir gətirsin. Biz buna da nail oluruq. Əminəm ki, burada toxunan bütün xalçalar ən yüksək qiymətə layiq olacaq və siz bu sənəti bu fabriklər vasitəsilə gənclərə ötürəcəksiniz. Mən görürəm, sizin aranızda gənc qızlar da var, onlar da təcrübə toplayacaq, sonra uşaqlar cəlb olunacaq. Beləliklə, qədim xalçaçılıq sənətimiz daim yaşayacaq. Sizi bir daha təbrik edirəm, sizə uğurlar arzulayıram. Sağ olun.

**Xalçaçılar:** Çox sağ olun, Sizə minnətdarıq.

*Sonra dövlət başçısı müəssisədə toxunan xalçanı kəsdi.*

**SERBİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALEKSANDR VUÇİÇƏ**

Hörmətli cənab Prezident!

Serbiya Respublikasının milli bayramı münasibətilə Sizi və dost Serbiya xalqını öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edir və ən xoş arzularımı yetirirəm.

Əminəm ki, Azərbaycan Respublikası ilə Serbiya Respublikası arasındakı dostluq və əməkdaşlıq münasibətləri daim xalqlarımızın maraqlarına uyğun inkişaf edəcək və genişlənəcəkdir.

Bu xoş fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, xalqınıza əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *12 fevral 2020-ci il*

## AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ TOİVO KLAARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*13 fevral 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 13-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar prosesi müzakirə edildi, Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində əməkdaşlığın əhəmiyyətinə toxunuldu, bu yaxınlarda Bakıda keçiriləcək «Cənub Qaz Dəhlizi» Məşvərət Şurasının növbəti toplantısında Avropa İttifaqının yüksək səviyyədə iştirak etmək niyyətində olmasının önəmi vurğulandı və əlaqələrimizin inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

**LİTVA RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB GİTANAS NAUSEDAYA**

Hörmətli cənab Prezident!

Litva Respublikasının milli bayramı münasibətilə Sizi və dost Litva xalqını Azərbaycan xalqı adından və şəxsən öz adımdan ürəkdən təbrik edirəm.

Azərbaycan–Litva dostluq münasibətlərinin bugünkü səviyyəsi məmnunluq doğurur. İnanıram ki, bu münasibətlərin bütün sahələrdə qarşılıqlı faydalı şəkildə genişlənməsi bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, xalqınıza sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 fevral 2020-ci il*

## ALMANİYA FEDERATİV RESPUBLİKASINA SƏFƏR

*Münhen*

*14 fevral 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də 56-cı Münhen Təhlükəsizlik Konfransında iştirak etmək üçün Almaniya Federativ Respublikasına səfərə gəlmişdir.*

*Həmin gün Prezident İlham Əliyev Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Almaniyanın Şərqi Biznes Assosiasiyasının baş icraçı direktoru Mixael Harms və assosiasiyanın Cənubi Qafqaz ölkələri üzrə işçi qrupunun rəhbəri, «Veridos GmbH» şirkətinin baş icraçı katibi Andreas Reşmayer ilə görüşdü.*

**Mixael Harms:** Cənab Prezident, Sizinlə burada – Münhen Təhlükəsizlik Konfransında görüşmək bizim üçün böyük şərəfdir. Mən son 5-6 ildə konfransda iştirak etmişəm və hər dəfə Sizin çıxışlarınız, baxışlarınız mənə çox müsbət təsir bağışlayıbdır.

Yəni ikitərəfli münasibətlərlə yanaşı, region və beynəlxalq düzənlə bağlı baxışlarınızı nəzərdə tuturam. Bizim assosiasiyanın nümayəndələri ilə görüşməyinizi çox yüksək qiymətləndiririk. Cənab Reşma-

yer bizim assosiasiyada Cənubi Qafqaz üzrə sözçüdür, mən isə baş icraçı direktoram.

**İ l h a m Ə l i y e v:** Xoş sözlərinizə görə çox sağ olun. Mənim üçün də konfransda iştirak etmək mühüm əhəmiyyət kəsb edir. Bu məqsədlə mən Münhenə neçə ildir ki, səfər edirəm. Bu, auditoriya qarşısında çıxış etmək üçün hər zaman yaxşı fürsətdir. Çünki dünyada, regionumuzda vəziyyət dəyişir. Biz indi Azərbaycanda yeni inkişaf mərhələsinə qədəm qoyuruq. Buna görə də bu mühüm məsələlərin müzakirəsi çox önəmlidir. Xüsusilə də səfərimin ikitərəfli formatı çox əhəmiyyətlidir. Çoxsaylı görüşlər keçirilir. Xatırlayıram ki, əksər hallarda bəzi ilkin fikir mübadilələri bir sıra nəzərəçarpan nəticələrə gətirib çıxarıbdır.

Buradakı təmaslar nəticəsində çoxlu sayda ticarət müqavilələri imzalanıb. Həmçinin zəruri olan regional təhlükəsizlik, regional əməkdaşlıq, enerji siyasəti dünya üçün daha çox əhəmiyyət kəsb edir. Mən də sizi görməyə çox şadam. Çünki bildiyiniz kimi, bizim alman şirkətləri ilə çox dərin əməkdaşlığımız vardır. Onlar uzun illərdir Azərbaycanda fəaliyyət göstərir və ölkəmiz üçün çox mühüm olan müxtəlif infrastruktur, enerji istehsalı və tikinti ilə bağlı layihələr həyata keçiriblər. Düşünürəm ki, qarşıdakı illərdə daha çox imkan olacaq, çünki böyük potensiala malik Azərbaycanın imkanları artır.

**M i x a e l H a r m s:** Biz bilirik ki, Siz iqtisadiyyatın şaxələndirilməsi strategiyasını təqdim etmisi-

niz. Mən Azərbaycanın gücünü nəzərdə tuturam və biz bunu ikitərəfli ticarətdə, əsasən də neft və qaz sahəsində müşahidə edirik. Bu çox böyük əhəmiyyət kəsb edir. Düşünürəm ki, bu və Sizin infrastruktur sahəsində gördüyünüz işlər ölkənizin rəqabətliliyini təmin edən üstünlüklərdir. Məsələn, mən Bakı limanına baş çəkdim, bu çox dərin təəssürat yaradan layihədir. Bir neçə həftə əvvəl «Yaşıl həftə» sərgisində ölkənizin Kənd Təsərrüfatı naziri ilə görüş keçirdik. Bu da böyük maraq kəsb edir. Rəqəmsallaşma «Giesec-ke & Devrient» şirkətinin fəaliyyətinin əsas sahəsidir. Siz də «Bir kəmər – bir yol» təşəbbüsünə qoşulmusunuz və İpək yolunun qovşağındasınız.

**İlham Əliyev:** Bəli, doğrudur.

* * *

*Görüşdə Azərbaycanda iqtisadiyyatın qeyri-neft sektorunun inkişafı və şaxələndirilməsi istiqamətində görülmüş işlər barədə məlumat verildi. İqtisadiyyatın rəqəmsallaşdırılması və Davos Forumu ilə Azərbaycan arasında əldə edilmiş razılaşmaya əsasən, dördüncü Sənaye İnqilabı üzrə Bakıda Regional Mərkəzin yaradılmasının əhəmiyyəti qeyd edildi.*

*Söhbət zamanı Azərbaycanın 2020–2024-cü illəri əhatə edən regionların inkişafı planından, ölkəmizdə sənayenin inkişafı istiqamətində görülən işlərdən bəhs edildi, bu prosesdə alman şirkətlərinin daha da fəal iştirak etməsinin əhəmiyyəti vurğulandı.*

*Həmçinin ölkəmizdə xarici investorlar üçün cəlbedici sərmayə mühitinin olduğu diqqətə çatdırıldı. Eyni zamanda, Azərbaycanın Şimal–Qərb, Şimal–Cənub və Şərq–Qərb istiqamətləri üzrə nəqliyyat dəhlizlərindəki əsas rolundan bəhs olundu, Azərbaycanın öz coğrafi yerləşmə potensialını fürsətlərə çevirdiyi bildirildi.*

*Görüşdə Azərbaycan və Almaniya biznes dairələrini bir araya gətirən biznes-forumların keçirilməsinin vacibliyi vurğulandı. Azərbaycanda peşə təhsili sahəsində Almaniya ilə birlikdə əməkdaşlığın önəmi qeyd olundu.*

## ŞANXAY ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ KATİBİ VLADİMİR NOROV İLƏ GÖRÜŞ

*Münhen*

*14 fevral 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Şanxay Əməkdaşlıq Təşkilatının baş katibi Vladimir Norov ilə görüşmüşdür.*

**İlham Əliyev:** Sabahınız xeyir, xoş gördük.

**Vladimir Norov:** Sabahınız xeyir. Qrafikinizin sıxlığına baxmayaraq, görüşmək üçün imkan tapdığınıza görə bir daha Sizə minnətdarlığımı bildirmək istərdim.

**İlham Əliyev:** Sizi görməyə şadam. Görüşməyə həmişə şadıq, üstəlik, artıq Azərbaycan Şanxay Əməkdaşlıq Təşkilatında dialoq üzrə tərəfdaş statusuna malikdir. Təşkilata dialoq üzrə tərəfdaş qismində qoşulmağımız da əməkdaşlığa verdiyimiz əhəmiyyəti təsdiqləyir. Şanxay Əməkdaşlıq Təşkilatının bütün üzv ölkələri ilə yaxşı, yaxın, mehriban qonşuluq münasibətlərimiz vardır. Biz birlikdə ikitərəfli, bəzən üçtərəfli formatda nəqliyyat, energetika, infrastrukturla bağlı çoxlu mühüm layihələri reallaşdırırıq.

**Vladimir Norov:** İlham Heydər oğlu, deyə bilərəm ki, bu gün Azərbaycan müşahidəçi ölkələr üçün

nümunə olaraq, dialoq üzrə ən fəal tərəfdaşlardan biridir. Aprelin 21-də Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Şimal–Cənub, Şərq–Qərb nəqliyyat dəhlizlərinin inkişafı məsələləri üzrə konfransının keçirilməsi ilə bağlı Sizin təşəbbüsünüz, Azərbaycanın təşəbbüsü çox vaxtında atılmış mühüm addımdır. Üzv ölkələrin əksəriyyəti bu təşəbbüsü dəstəkləyir. Düşünürəm ki, bu konfrans nəqliyyat sahəsində müvafiq qurumlar arasında sıx əlaqələrin qurulması və əməkdaşlıq məsələlərinin müzakirəsi üçün vacib meydança olacaqdır.

* * *

*Görüşdə Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatındakı fəal tərəfdaşlıq üzrə dialoq statusunda rolu xüsusi qeyd olundu. Azərbaycan ilə Şanxay Əməkdaşlıq Təşkilatı arasında əməkdaşlıq çərçivəsində bu il nəqliyyat məsələlərinə həsr olunacaq konfransın keçiriləcəyi bildirildi.*

*Söhbət zamanı Azərbaycanda keçirilmiş seçkilərdə müşahidəçi qismində iştirak etmək üçün Şanxay Əməkdaşlıq Təşkilatına göndərilən dəvət yüksək qiymətləndirildi və təşkilatın geniş tərkibli nümayəndə heyəti ilə bu seçkilərdə iştirak etdiyi, seçkilərin azad, ədalətli, demokratik şəkildə keçirildiyi diqqətə çatdırıldı. Görüşdə Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatı ilə əməkdaşlığa mühüm əhəmiyyət verdiyi, təşkilatın bütün üzv ölkələri ilə yaxşı münasibətlərə malik olduğu vurğulandı.*

## KÜVEYT DÖVLƏTİNİN BAŞ NAZİRİ ŞEYX SABAH XALİD ƏL-HƏMƏD ƏL-SABAH İLƏ GÖRÜŞ

*Münhen*

*14 fevral 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Münhendə Küveyt Dövlətinin Baş Naziri Şeyx Sabah Xalid əl-Həməd əl-Sabah ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycanın «Qoşulmama Hərəkatı»ndakı sədrliyi yüksək qiymətləndirildi və bu çərçivədə ölkələrimiz arasında əməkdaşlıq üçün geniş imkanların olduğu bildirildi. Söhbət zamanı Azərbaycan ilə Küveyt arasında iqtisadi-ticari əlaqələrin genişləndirilməsinin və hökumətlərarası birgə Komissiyanın daha da fəallaşdırılmasının vacibliyi qeyd edildi.*

*Görüşdə ölkələrimiz arasında turizm sahəsində əməkdaşlığın inkişafından məmnunluq ifadə olundu. Küveytdən Azərbaycana gələn turistlərin sayında əsaslı artımın müşahidə olunduğu vurğulandı, tezliklə Küveyt Hava Yollarının Azərbaycana uçuşlar həyata keçirəcəyi diqqətə çatdırıldı.*

*Söhbət zamanı, həmçinin ölkələrimizin «OPEC+» çərçivəsində səmərəli əməkdaşlıq etdikləri bildirildi.*

## BEYNƏLXALQ QIRMIZI XAÇ KOMİTƏSİNİN PREZİDENTİ PETER MAURER İLƏ GÖRÜŞ

*Münhen*

*14 fevral 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Beynəlxalq Qırmızı Xaç Komitəsinin prezidenti Peter Maurer ilə görüşmüşdür.*

*Görüşdə dövlət başçımız Ermənistan tərəfindən girovluqda saxlanılan azərbaycanlı mülki şəxslər Dilqəm Əsgərov və Şahbaz Quliyevin azad olunmasının, bu istiqamətdə səylərin artırılmasının vacibliyini qeyd etdi. Prezident İlham Əliyev Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi kontekstində humanitar əsaslarda «hamının hamıya» prinsipi ilə bütün əsir və girovların dəyişdirilməsinin vacibliyini vurğuladı.*

## «ENERJİ TƏHLÜKƏSİZLİYİ» MÖVZUSUNDA DƏYİRMİ MASADA İŞTİRAK

*Münhen*

*14 fevral 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Münhen Təhlükəsizlik Konfransı çərçivəsində «Enerji təhlükəsizliyi» mövzusunda dəyirmi masada iştirak etmişdir.*

*Dövlət başçısı dəyirmi masada çıxış etdi.*

### Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Ötən il ölkəmiz və düşünürəm ki, Avropanın enerji təhlükəsizliyi üçün əlamətdar olubdur. Çünki biz tərəfdaşlarımızla birlikdə artıq Türkiyə–Yunanıstan sərhədinə çatan, əsas qaz kəməri olan TANAP-ı uğurla başa çatdırdıq. Bu o deməkdir ki, «Cənub Qaz Dəhlizi»nin 4 seqmentindən 3-ü artıq uğurla tamamlanıb. Sonuncu seqmentə gəlincə, TAP layihəsi bu ilin sonunda tamamlanacaqdır. Beləliklə, 3500 kilometr uzunluğunda inteqrasiya olunmuş kəmər sistemi artıq istismara veriləcək. Bu, regionumuzda əsas infrastruktur layihələrindən biridir. Bu, əlbəttə, bizim üçün, tərəfdaş-

larımız üçün, Avropanın enerji təhlükəsizliyi üçün çox vacibdir.

Bu ayın sonunda biz görülmüş işləri nəzərdən keçirmək və növbəti dövr üçün görüləcək işləri planlaşdırmaq məqsədilə hər il Bakıda keçirdiyimiz ənənəvi «Cənub Qaz Dəhlizi» Məşvərət Şurasına ev sahibliyi edəcəyik. Ümidvaram ki, iştirakçıların sayı çox olacaq. Bu gün biz gələcək layihələrimizlə bağlı yeni ölkələrlə işləyirik. Çünki «Cənub Qaz Dəhlizi» 7 ölkəni – Azərbaycan, Türkiyə, Gürcüstan, Bolqarıstan, Yunanıstan, Albaniya və İtaliyanı birləşdirir. 3 Balkan ölkəsi isə – Bosniya və Herseqovina, Monteneqro və Xorvatiya – bu 3 ölkələrin ərazisindən keçən, xüsusilə İonik–Adriatik kəmərinin tikintisini nəzərdə tutan ikinci fazada layihəyə qoşulmaqla bağlı artıq bizimlə Anlaşma Memorandumu imzalayıblar. Texniki nöqteyi-nəzərdən də, qaz ehtiyatları baxımından da bu mümkündür. Biz hasilatı artırmışıq və əlbəttə, Avropa Komissiyası tərəfindən daha yüksək dəstəyə ehtiyac olacaqdır. Əgər bu layihə də Avropa İttifaqının ümumi maraqlarına uyğun layihələr siyahısına daxil edilsə, onun həyata keçirilməsi daha sürətli olacaq. Bizimlə «Cənub Qaz Dəhlizi» üzərində işləyən bəzi ölkələrin tarixdə ilk dəfə alternativ təchizat mənbələrinə malik olmaq imkanı olacaq. Alternativ mənbə təkcə marşrut deyil. Çünki təhlükəsizlikdən danışanda biz mənbədən danışmalıyıq. Bizim timsalımızda Azərbaycan qazının Avropa bazarına, Türkiyə bazarına nəqli yeni mənbə və yeni marşrutdur. Düşünürəm ki, bu bizim layihəmizin üstünlüyüdür və buna görə də Avropa İttifaqı ona güclü dəstək verir. Bu səbəbdən də yekun tamamlanma işlərinin bu ilin sonunadək olacağına baxmayaraq, biz «Cənub Qaz Dəhlizi»ni artıq tamamlanmış layihə hesab edə bilərik.

Bu arada, Azərbaycan çox sabit neft təchizatçısı olaraq qalır. 2006-cı ildə Bakı–Tbilisi–Ceyhan kəmərinin açılışından bu yana heç bir fasilə, fors-major və ya problem baş verməyibdir. Geosiyasi və texniki nöqteyi-nəzərdən də onu həyata keçirmək çox çətin idi, çünki ilk dəfə olaraq o, Xəzər və Aralıq dənizlərini birləşdirirdi.

Bəzi ölkələr üçün, o cümlədən Avropa ölkələri üçün Azərbaycan qazı onların istehlakının təxminən 40 faizini təşkil edir. Ona görə də biz neft təchizatçısı kimi, etibarlı tərəfdaş olmağa davam edəcəyik. Bu yaxınlarda biz *bp* şirkəti ilə müqavilənin müddətini uzatdıq. 2050-ci ilədək bizim nisbətən sabit istehsal profilimiz olacaq. Ona görə də yeni layihələrin kəşfiyyat işləri aparılır. Hazırda biz, belə demək mümkündürsə, neft bumunun ikinci fazasını yaşayırıq, bir çox böyük şirkətlər geri qayıdaraq, yeni layihələrə cəlb olunur və bu da bizə istehsal profilini saxlamaqla yanaşı, həm də onu artırmaq imkanı verəcəkdir.

Biz «OPEC+»un fəal üzvüyük. Onların görüşlərindən biri bizim dəvətimizlə Bakıda keçirilib. Həmçinin 2016-cı ildə Davosda «Neftin qiyməti ilə bağlı nə etmək olar?» sualı veriləndə mən dedim, yaxşı olar ki, əsas qeyri-OPEC ölkələri və OPEC ölkələri bir araya gələrək razılaşsınlar. Mən şadam ki, bu, baş verdi. Düşünürəm ki, bu, davam etməlidir. Xüsusilə indi bu koronavirus vəziyyəti ilə bağlı – cənab Birol çox maraqlı məlumat verdi – neft istehsal edən ölkələrdə bütün çətinliklərə baxmayaraq, neftin qiymətinin nəyə görə aşağı olması və bundan da aşağı səviyyəyə düşə bilməsini nəzərə alaraq düşünürəm ki, «OPEC+» əməkdaşlığının davam etdirilməsi çox vacibdir. Çünki bu gün bizdə vəziyyət elədir ki, OPEC və qeyri-OPEC ölkələri bir təşkilatda fəaliyyət göstərir. Bizim bundan başqa, belə

təşkilatımız və əməkdaşlığımız yoxdur. Bəzən bir təşkilat daxilində razılığa gələ bilmirlər. Bizdə isə bu nadir format var və biz bunu əldən buraxmamalıyıq.

Son olaraq bərpa olunan enerji ilə bağlı deməliyəm ki, Azərbaycanda da buna böyük diqqət yetirilir. Bizim planımız 2030-cu ilə qədər elektrik enerjisinin 30 faizini bərpa olunan enerji hesabına ödəməkdir. Bu ilin yanvarında biz külək və Günəş enerjisi ilə işləyən 440 meqavatlıq stansiyaların tikintisi ilə bağlı bərpa olunan enerji üzrə ixtisaslaşmış aparıcı şirkətlərlə 2 müqavilə imzalamışıq. Bu işlər tamamilə xarici investisiyalar hesabına görüləcək və bizim bununla bağlı azı əlavə 5 təklifimiz vardır. Bizim ölkə neft, qaz, günəş və küləklə zəngindir. Külək enerji stansiyalarından bir neçəsi Xəzər dənizində qurula bilər. Bunun üçün böyük imkan vardır. Lakin mən tamamilə əminəm ki, biz bunu ehtiyatla etməliyik. Çünki bu 440 meqavatlıq enerji stansiyası bizim sistemimizə dərindən inteqrasiya olunmalıdır ki, küləkli və günəşli hava olmayanda elektrik enerjisinin təchizatında heç bir fasilə yaranmasın və elektrik təchizatı kəsilməsin. Bu məsələni diqqətə çatdırmaq üçün yaratdığınız imkana görə təşəkkür edirəm.

## BEYNƏLXALQ ENERJİ AGENTLİYİNİN İCRAÇI DİREKTORU FATİH BİROL İLƏ GÖRÜŞ

*Münhen*

*14 fevral 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Münhendə Beynəlxalq Enerji Agentliyinin icraçı direktoru Fatih Birol ilə görüşmüşdür.*

*Görüşdə Fatih Birol Prezident İlham Əliyevin Münhen Təhlükəsizlik Konfransı çərçivəsində keçirilmiş «Enerji təhlükəsizliyi» mövzusunda dəyirmi masadakı çıxışını çox yüksək qiymətləndirdi. İcraçı direktor qeyd etdi ki, Azərbaycan dünya enerji bazarında çox etibarlı tərəfdaş kimi tanınır, bu da bilavasitə Prezident İlham Əliyevin yürütdüyü siyasətin nəticəsidir.*

*Görüşdə «OPEC+» formatında Azərbaycanın təşəbbüsləri yüksək qiymətləndirildi. Son dövrlərdə Azərbaycanın alternativ enerji resurslarının inkişafı istiqamətində atdığı addımların önəmi vurğulandı, eyni zamanda, dünya enerji bazarındakı mövcud vəziyyətlə bağlı fikir mübadiləsi aparıldı.*

## «LEONARDO» ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU ALESSANDRO PROFUMO İLƏ GÖRÜŞ

*Münhen*

*14 fevral 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Münhendə «Leonardo» şirkətinin baş icraçı direktoru Alessandro Profumo ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə İtaliya arasında əlaqələrin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı. Qeyd olundu ki, ölkələrimiz siyasi, iqtisadi-ticari və digər sahələrdə yaxşı əməkdaşlıq edir, hökumətlərarası birgə Komissiya səmərəli fəaliyyət göstərir.*

*Görüşdə vurğulandı ki, İtaliya şirkətləri Azərbaycanda icra olunan layihələrin həyata keçirilməsində yaxından iştirak edirlər.*

## QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ KASIM-JOMART TOKAYEV İLƏ GÖRÜŞ

*Münhen*

*14 fevral 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Münhendə Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə görüşmüşdür.*

**İlham Əliyev**: Kasım-Jomart Kemeleviç, Sizinlə yenidən görüşməyimə çox şadam. Burada görüşmək münasibətlərimizin gündəliyini bir daha nəzərdən keçirmək üçün yaxşı imkandır. Hər şey çox uğurla gedir. Bizim birgə layihələrimiz çoxdur, onlar fəal həyata keçirilir. Buna görə də ümidvarıq ki, 2020-ci il də ölkələrimiz arasında münasibətlər üçün uğurlu olacaqdır. Biz əmtəə dövriyyəsini artırmağa çox ümid bəsləyirik. Düşünürəm ki, nəqliyyat, energetika, turizm sahələrində yaxşı imkanlar vardır. Ölkələrimizin vətəndaşları arasında fəal gediş-gəliş vardır. Bu, ölkələrimiz arasında turizmin inkişafı üçün çox yaxşı perspektivlər də yaradır.

Əlbəttə, bizim tərəfimizdən ratifikasiya edilmiş Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi üzrə Konvensiyanın imzalanması son dövrün ən vacib hadisəsi oldu. İnanıram ki, Xəzərdə gələcək əməkdaşlığımız bütün Xəzəryanı ölkələrə daha çox dividend gətirəcəkdir.

Kommunikasiya sahəsində fəal qarşılıqlı fəaliyyəti də qeyd etmək istərdim. Ötən il Xəzərin dibi ilə kabelin çəkilməsinə başlanılıb. Bu, ölkələrimizi daha sıx birləşdirəcək bir layihədir. Yəni biz ikitərəfli münasibətlərin davamlı inkişafı yolu ilə gedirik. Əminəm ki, ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətləri gələcəkdə də möhkəmlənəcəkdir.

**Kasım-Jomart Tokayev:** Hörmətli İlham Heydər oğlu! Sizi burada, Münhendə görməyimə şadam. Elə bu yaxınlarda biz Soçidə görüşmüşdük. Bizim çox yaxşı görüşümüz oldu. Sonra biz Aşqabadda MDB Sammitində görüşdük. Dövlətlərimiz arasında münasibətlərə gəldikdə isə, həqiqətən də çox böyük yol qət edilibdir. Əslində elə sıfırdan başladıq və indi, demək olar, bütün sahələrdə qarşılıqlı münasibətlərin çox yüksək səviyyəsinə nail olmuşuq. Bu əməkdaşlığın əsasını bizim böyük sələflərimiz Nursultan Abişeviç Nazarbayev və Heydər Əlirza oğlu Əliyev qoyublar. Mən özüm Xarici İşlər naziri olanda müəyyən mənada bu əməkdaşlığın qurulmasında iştirak etmişəm. Fəxr ediləsi uğurlarımız vardır. Şübhəsiz ki, Qazaxıstan Azərbaycanla əməkdaşlığı qiymətləndirir və onu qoruyur. Siz düzgün qeyd etdiniz ki, bizdə istər nəqliyyat,

istər kommunikasiyalar, istərsə də ticarət olsun, strateji xarakter daşıyan sahələr vardır. Biz mahiyyətcə, Xəzər dənizi vasitəsilə qonşu dövlətlərik. Xəzər dənizinin statusu haqqında müvafiq Konvensiya da Aktau şəhərində imzalanıb. Bu, Xəzərdə irimiqyaslı əməkdaşlığın təməlini qoyur və əlbəttə, bu əməkdaşlıq mahiyyət etibarilə strateji əməkdaşlıqdır. Biz fürsətdən istifadə edərək, indicə səfərlərin qrafikinə, o cümlədən istər Sizin Qazaxıstana, istərsə də bizim birinci Prezidentimizin Bakıya səfərlərinin qrafikinə baxdıq. Sizin üçün münasib bir vaxtda Sizi ölkəmizə səfərə dəvət etməyi vacib sayıram. Bizim həqiqətən də müzakirə olunası və həll ediləsi bir çox məsələlərimiz vardır. Çünki həyat yerində saymır, qarşılıqlı münasibətlərimizin yüksək səviyyədə olmasına baxmayaraq, yeni hüdudlar yaranır ki, onları da biz birgə səylərimizlə aşmalıyıq.

**İlham Əliyev:** Çox sağ olun. Dəvətinizi məmnuniyyətlə qəbul edirəm. Mən də Sizi rəsmi səfərə dəvət etmək istərdim.

* * *

*Söhbət zamanı Qazaxıstan Prezidenti dövlət başçımızı ölkəmizdə parlament seçkilərinin uğurla keçirilməsi və Yeni Azərbaycan Partiyasının qələbəsi münasibətilə təbrik etdi.*

*Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ İQOR DODON İLƏ GÖRÜŞ

*Münhen*

*14 fevral 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Münhendə Moldova Respublikasının Prezidenti İqor Dodon ilə görüşmüşdür.*

**İ l h a m Ə l i y e v:** İqor Nikolayeviç, Sizi bir daha görməyimə şadam. Biz beynəlxalq tədbirlərdə müntəzəm görüşürük və bir daha görüşmək, gündəliyə nəzər salmaq, əməkdaşlığın inkişafının gələcək yollarını müəyyən etmək üçün hər hansı platformadan istifadə etmək ənənəsini davam etdiririk. İl yeni başlayıb. Düşünürəm ki, bu il bizim münasibətlərimiz üçün məhsuldar olmalıdır. Nəzərdə tutduqlarımız prinsipcə yerinə yetirilir. Mövcud əlaqələr münasibətlərimizin fəal inkişaf etdiyini göstərir. Biz Sizinlə münasibətləri konkret iqtisadi amillərlə zənginləşdirmək haqqında fikir mübadiləsi aparmışıq. Ümidvaram ki, bu il daha fəal iqtisadi əməkdaşlıq olacaqdır. Əlbəttə, bizim əlaqələrimiz davam etdiriləcək və düşünürəm ki, bu il də münasibətlərimiz üçün müsbət olacaqdır. Bizim müna-

sibətlərimiz dostluq münasibətləridir. Biz həmişə bir-birimizi dəstəkləməyə çalışırıq. Əlbəttə, ölkəmizə Sizin səfərinizi xatırlayıram. Belə fəal siyasi dialoqun davam etməsi üçün Sizi bu il planlaşdırılan beynəlxalq tədbirlərdə yenidən səbirsizliklə gözləyirik.

**İ q o r D o d o n:** Hörmətli cənab Prezident! Sizinlə Münhendə mühüm beynəlxalq tədbirdə görüşməyimə çox şadam. Bizim ikitərəfli münasibətlərimizin çox yaxşı dinamikasını qeyd etmək istəyirəm. İmzaladığımız sazişlər faktiki olaraq, əlaqələrimizin bütün spektrini əhatə edir. Sizi parlament seçkilərinin keçirilməsi, partiyanızın əldə etdiyi nəticələr münasibətilə təbrik edirəm. Bilirəm, seçkiləri bizim də müşahidəçilərimiz, həmçinin Prezident tərəfdarı olan Sosialistlər Partiyasının nümayəndələri də izləyiblər. Onlar təşkilati işlərin çox yaxşı səviyyəsini qeyd etdilər – demokratik seçkilər keçirilibdir. Sizi bu münasibətlə təbrik edirəm.

Bu il bizim ikitərəfli münasibətlərimiz üçün çox vacib ildir. Biz hələ 2017-ci ildə Sizinlə Moldovada, Qaqauzda bir sosial layihəyə başladıq. Bu il biz artıq onun açılışını etməliyik. Sizi bir daha rəsmi olaraq Moldova Respublikasına dəvət etmək istəyirəm. Ümidvaram ki, bu il Sizin rəsmi səfəriniz olacaqdır. Biz bir neçə mühüm tədbir keçirəcəyik. Hökumətlərarası birgə Komissiyanın iclasını keçirmək lazımdır. İndi Moldovada mənim keçmiş müşavirim cənab Kiku İon Vasilyeviçin başçılıq etdiyi yeni hökumət fəaliyyət göstərir. Biz artıq öz tərəfimizdən hökumətlərarası

birgə Komissiyanın yeni heyətini təsdiq etmişik. Ümidvaram ki, yaxın vaxtlarda həmsədrlərin hökumətlərarası birgə Komissiyanın iclasına hazırlıq üçün görüşü olacaqdır. O bizdə də, sizdə də keçirilə bilər. Bu bizim sizinlə razılaşmamızdan asılıdır. Lakin çox ümidvarıq ki, yaxın aylarda Siz rəsmi səfərlə bizim ölkəmizə gələcəksiniz.

**İlham Əliyev:** Dəvətə görə sağ olun. Gözəl Moldovaya səfər etmək imkanından məmnuniyyətlə istifadə edəcəyəm. Mənim çox yaxşı xatirələrim vardır.

* * *

*Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ƏŞRƏF QANİ İLƏ GÖRÜŞ

*Münhen*

*14 fevral 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Münhendə Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qani ilə görüşmüşdür.*

*Görüşdə Bakının mötəbər tədbirlərin keçirildiyi məkan olduğu bildirildi. Ölkələrimiz arasında nəqliyyat-logistika sahəsində əməkdaşlığın genişləndirilməsi üçün böyük imkanların olduğu qeyd edildi. Artıq Əfqanıstan yüklərinin Lapis-Lazuli marşrutu ilə Azərbaycan ərazisindən daşınıldığı qeyd edildi, gələcəkdə bu istiqamətdə səylərin daha da artırılmasının vacibliyi vurğulandı.*

*Həmçinin görüşdə Azərbaycan–Əfqanıstan iqtisadi-ticari əlaqələrin daha da genişləndirilməsi üçün hər iki ölkənin müvafiq qurumları arasında əlaqələrin daha da möhkəmləndirilməsinin vacibliyi vurğulandı.*

## AVROPA İTTİFAQININ BÜDCƏ VƏ ADMİNİSTRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ KOMİSSARI YOHANNES HAN İLƏ GÖRÜŞ

*Münhen*

*14 fevral 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Münhendə Avropa İttifaqının büdcə və administrasiya məsələləri üzrə komissarı Yohannes Han ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında gündəlikdə duran cari məsələlər ətrafında fikir mübadiləsi aparıldı. Azərbaycanın Avropa İttifaqı ilə enerji sahəsində uğurlu əməkdaşlıq etdiyi vurğulandı.*

*Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edildi.*

## BEYNƏLXALQ BÖHRAN QRUPUNUN PREZİDENTİ VƏ BAŞ İCRAÇI DİREKTORU ROBERT MALLEY İLƏ GÖRÜŞ

*Münhen*

*15 fevral 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 15-də Münhendə Beynəlxalq Böhran Qrupunun prezidenti və baş icraçı direktoru Robert Malley ilə görüşmüşdür.*

*Görüşdə dövlət başçımız Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli ilə bağlı ölkəmizin mövqeyini bir daha qeyd etdi. Prezident İlham Əliyev bildirdi ki, münaqişə yalnız beynəlxalq hüququn norma və prinsipləri, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri, ölkəmizin beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində və ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır.*

*Söhbət zamanı Beynəlxalq Böhran Qrupu tərəfindən Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı müxtəlif hesabatların hazırlandığı qeyd olundu. Hazırlanmış son hesabatlarda Azərbaycanın işğal edilmiş ərazilərində qeyri-qanuni fəaliyyətlər, eyni zamanda, Ermənistanın apardığı qeyri-qanuni məs-*

*kunlaşma siyasəti ilə əlaqədar məsələlərin əks olunmasının vacibliyi vurğulandı.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair və qarşılıqlı maraq doğuran digər məsələlərlə bağlı fikir mübadiləsi aparıldı.*

## DÜNYA BANKININ İCRAÇI DİREKTORU AKSEL VAN TROTSENBURQ İLƏ GÖRÜŞ

*Münhen*

*15 fevral 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 15-də Münhendə Dünya Bankının icraçı direktoru Aksel van Trotsenburq ilə görüşmüşdür.*

**İlham Əliyev:** Bu görüş gələcək əməkdaşlığımız haqqında danışmaq üçün yaxşı fürsətdir. İndiyədək tərəfdaşlığımız çox uğurlu olubdur. Uzun illərdir ki, bizə göstərdiyiniz dəstəyə görə sizə minnətdarıq. Bildiyimiz kimi, iqtisadiyyatımız indi transformasiya dövrünü yaşayır və əsas prioritet iqtisadiyyatın şaxələndirilməsidir. Buna görə də biz indi sizinlə çox önəmli özünüməşğulluq və digər layihələr üzərində işləyirik. Ümidvarıq ki, bu məhsuldar əməkdaşlıq gələcəkdə də uğurla davam edəcəkdir.

**Aksel van Trotsenburq:** Çox sağ olun, cənab Prezident. Əvvəlcə, Azərbaycanın Beynəlxalq İnkişaf Assosiasiyasının donor ölkəsi olduğu üçün Sizə təşəkkürümü bildirmək istəyirəm. Bildiyiniz kimi, əvvəllər Azərbaycan bizim güzəştli maliyyələşmə pəncərəsindən faydalanmışdır.

Hesab edirəm ki, bir ölkənin burada aparıcı rol oynaması, sonra isə yoxsul ölkələrlə həmrəy olan ölkələr klubuna qoşulması bir uğur hekayəsidir. Sizin 5 milyon dollar məbləğində töhfəniz çox yüksək qiymətləndirildi. Çünki hesab edirəm ki, bununla biz sonda bəzi ölkələrin hələ də uzun yol qət etmək məcburiyyətində olduqlarına işarə etməsini unutmamalıyıq.

Lakin ölkənizin timsalında siz artıq bu fazanı geridə qoymusunuz və ölkəniz yeni çağırışlarla üz-üzədir. Biz çox məmnunuq ki, Sizinlə bu məsələlər üzərində işləmək imkanına malikik. Hesab edirik ki, gələcək əməkdaşlıq üçün xüsusilə Mərkəzi Asiya önəmli bir bölgədir.

**İlham Əliyev:** Çox sağ olun. Hesab edirəm ki, müstəqilliyin ilk illərində Dünya Bankından və başqa beynəlxalq maliyyə təşkilatlarından çoxlu maliyyə dəstəyi əldə etmiş Azərbaycanın indi donor ölkəyə çevrilməsi çox rəmzi xarakter daşıyır və bu, indi bizim öhdəliyimizdir, çünki biz də hazırda dəstəyə ehtiyacı olanların vəziyyətində olmuşuq. Biz pul, resurs olmadıqda, təqribən 50 faiz yoxsulluq olduqda bunun nə qədər çətin olduğunu bilirik. Buna görə də həyata keçirdiyimiz islahatların əsas hədəfi iqtisadi inkişaf vasitəsilə əhalinin sosial rifah halını artırmaqdan ibarətdir. İndi isə əhalimiz arasında yoxsulluq həddində yaşayanların sayının 5 faizdən aşağı olması, düşünürəm ki, bəzi digər ölkələr üçün də yaxşı nümunədir. Bu onu göstərir ki, yoxsulluq bununla barışaraq, ömürlük yaşayacağınız bir şey deyil. Əgər siz

xarici investisiyalar üçün açıqsınızsa, əgər siz maliyyə institutları ilə konstruktiv şəkildə işləyirsinizsə, əgər sizin inkişafa dair aydın baxışınız varsa, bir gün siz bunun öhdəsindən gələcək və donor ölkəyə, iqtisadi və sosial vəziyyəti sabit olan bir ölkəyə çevriləcəksiniz. Buna görə bir daha sizə davamlı dəstəyinizə, nəinki Azərbaycan, eyni zamanda, Avropanın enerji təhlükəsizliyi üçün önəmli olan «Cənub Qaz Dəhlizi» layihəsinin icrasına göstərdiyiniz dəstəyə görə minnətdarlığımı bildirirəm. Biz ümidvarıq ki, gələcəkdə bir çox digər sahələrdə məhsuldar əməkdaşlığımız davam edəcəkdir.

* * *

*Söhbət zamanı qeyd olundu ki, Azərbaycan yoxsulluğun əsaslı şəkildə azaldılmasına görə dünyada aparıcı ölkələrdən biridir.*

## ERMƏNİSTAN RESPUBLİKASININ BAŞ NAZİRİ NİKOL PAŞİNYAN İLƏ GÖRÜŞ

*Münhen*

*15 fevral 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 15-də Münhendə Ermənistan Respublikasının Baş Naziri Nikol Paşinyan ilə görüşmüşdür.*

## MÜNHEN TƏHLÜKƏSİZLİK KONFRANSI ÇƏRÇİVƏSİNDƏ ERMƏNİSTAN–AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ İLƏ BAĞLI PANEL MÜZAKİRƏLƏRDƏ İŞTİRAK

*Münhen*

*15 fevral 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ermənistan Respublikasının Baş Naziri Nikol Paşinyanın iştirakı ilə fevralın 15-də Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələr keçirilmişdir.*

*Tədbirdə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva və Leyla Əliyeva da iştirak etdilər.*

**M o d e r a t o r: Sessiyaya, Dağlıq Qarabağla bağlı müzakirələrə xoş gəlmisiniz. Mənim adım Selest Volenderdir. Bu paneldə moderator olmaq şərəfi mənə nəsib olub. Auditoriyaya da mənə vəzifələrimlə bağlı kömək etdiyi üçün təşəkkür edirəm. Mən hörmətli qonaqlarımızı Dağlıq Qarabağ münaqişəsinin həll edilməsi üçün hər iki tərəfin gördüyü çağırışlar və imkanlarla bağlı öz**

**ilkin fikirlərini söyləmək üçün dəvət etmək istərdim. Daha sonra suallar və növbəti müzakirələr üçün vaxtımız olacaqdır. Bugünkü qonaqlarımız Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş Naziri Nikol Paşinyandır. Hər iki lider Münhen Təhlükəsizlik Konfransının hər zaman diqqətdə saxladığı və irəliləməsi üçün çalışdığı bir mövzudan, beynəlxalq sistemdəki mübahisələrin sülh yolu ilə həllinə dair məsələlərdən danışacaqlar. Mən sədr İşingerə bu məsələnin gündəmdə və Münhen Təhlükəsizlik Konfransının diqqətində qalmasını təmin etdiyi üçün minnətdarlığımı bildirirəm. Bununla mən Prezident İlham Əliyevə müraciət edərək, onu çağırışlar və imkanlarla bağlı fikirlərini bölüşməyə dəvət edirəm.**

**İlham Əliyev:** Təşəkkür edirəm. İlk növbədə, cənab İşingerə bu tədbiri təşkil etdiyinə görə minnətdarlığımı bildirmək istərdim. Mən elə indicə cənab İşingerə dedim ki, bir neçə il əvvəl Davosda Ermənistan və Azərbaycan rəhbərliyi tərəfindən mesajlar ötürülməsi üçün imkan var idi. Cənab Paşinyanın sələfi də iştirak etməli idi, lakin son anda o, iştirakını təxirə saldı. Beləliklə, mən şadam ki, nəhayət, həmin an gəldi və biz mesajları çatdıra biləcəyik. Düşünürəm ki, bu gün yetərli suallara cavab verə biləcəyik, ilk növbədə, münaqişənin həlli ilə bağlı. Münaqişənin necə həll edilməsi haqqında danışmaq üçün hər şeydən öncə biz geriyə qayıtmalı və məsələnin tarixinə baxmalıyıq. Dağ-

lıq Qarabağ Azərbaycanın tərkib hissəsidir. Bu, tarixi həqiqətdir və beynəlxalq hüququn normalarına əsaslanır. Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən tanınır. Dağlıq Qarabağ bizim ölkəmizin ayrılmaz tərkib hissəsidir. Tarixi nöqteyi-nəzərdən, 1805-ci ildə Qarabağ xanı İbrahim xan Rusiya imperiyasının generalı Sisianovla saziş imzalayır. Bu sazişə əsasən, Azərbaycanın Qarabağ xanlığı müstəqil ölkə kimi, Rusiya imperiyasının tabeçiliyinə keçir. Kürəkçay adlandırılan həmin sazişdə – sazişin mətni internetdədir – Qarabağın erməni əhalisi barədə heç nə deyilmir. 1813-cü və 1828-ci illərdə imzalanmış digər müqavilələr – Gülüstan və Türkmənçay müqavilələrinə əsasən Azərbaycanın qalan hissələri Rusiya imperiyasının tərkibinə keçir. Dağıstan, Gürcüstan və Ermənistan da həmçinin. Beləliklə, bu, məsələnin tarixi tərəfidir.

Daha sonra Rusiya imperiyasının süquta uğradığı, Gürcüstan və Azərbaycan Demokratik respublikaları yaradıldığı zamanlarda Azərbaycan Xalq Cümhuriyyətinin 1918-ci ildə verdiyi ilk fərmanlardan biri İrəvanın Azərbaycandan Ermənistana verilməsi və onun Ermənistanın paytaxtı elan edilməsi ilə bağlı idi. Bu da həmçinin tarixi faktdır. Əgər siz kiməsə nəsə verirsinizsə, bu o deməkdir ki, həmin o nə isə sizə məxsus olubdur. 1921-ci ildə bolşevik partiyasının Qafqaz bürosu Dağlıq Qarabağın Azərbaycanın tərkibində saxlanılması barədə qərar qəbul etdi. Saxlanılması barədə qərar, bəzi erməni tarixçilərinin yazdığı kimi, verilmə-

si barədə yox. Bu da həmçinin tarixi faktdır. Digər tarixi fakt isə ondan ibarətdir ki, 1923-cü ildə Azərbaycan Sovet Sosialist Respublikası Azərbaycanın tərkibində Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması barədə fərman qəbul etdi. Beləliklə, bu tarixdir. Sonralar, keçən əsrin 80-ci illərinin sonunda Ermənistan Azərbaycana qarşı təcavüzə başladı, 300 min azərbaycanlı Ermənistan ərazisindən deportasiya olundu. Sonra Ermənistanın Azərbaycan Respublikasına qarşı təcavüzü nəticəsində ötən əsrin 90-cı illərinin əvvəllərində bizim ərazilərimizin təxminən 20 faizi işğal altına düşdü və 1 milyon azərbaycanlı qaçqın və məcburi köçkünə çevrildi. Xalqımız etnik təmizləməyə məruz qaldı. 1992-ci ildə Ermənistanın əvvəlki rejimi müharibə cinayəti – Xocalı soyqırımını törətdi. Nəticədə aralarında 106 qadın, 63 uşaq olmaqla, 613 günahsız mülki şəxs vəhşicəsinə öldürüldü. Xocalı soyqırımını 10-dan artıq ölkə tanıyır.

Beynəlxalq hüquq məsələsinə gəlincə, yenə deməliyəm ki, Dağlıq Qarabağ Azərbaycanın tərkib hissəsidir. BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının işğal edilmiş ərazilərdən çıxarılmasını tələb edən 4 qətnamə qəbul edib. Bu qətnamələrin tələbləri hələ də yerinə yetirilməyib. Ona görə də sülh danışıqları nəticəsində əldə ediləcək istənilən həll yolu Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünün saxlanılmasını təmin etməlidir. Mən planlaşdırılan vaxtdan daha çox istifadə etməmək üçün hələlik çıxışımı tamamlayıram. Təşəkkür edirəm.

**M o d e r a t o r: Təşəkkür edirəm, cənab Prezident. Xülasəyə görə təşəkkür edirəm. Cənab Baş Nazir, düşünürəm ki, biz bu məsələ ilə bağlı sizin fikirlərinizi eşitməyə hazırıq.**

**N i k o l  P a ş i n y a n:** Təşəkkür edirəm. Bilirsiniz, mən Prezident İlham Əliyevdən tarixin çox dərinliklərinə getməməyini xahiş edəcəyəm. Çünki erməni kralı Böyük Tiqran romalı hərbi lider Pompeylə danışıqlar aparan zaman bütün Cənubi Qafqazda və bütün dünyada Azərbaycan adlı ölkə olmayıb. Düşünürəm ki, çox uzağa getmək o qədər də düzgün deyil. Çünki mən daha uzağa gedə bilərdim və misal üçün, eramızdan əvvəlki 400-cü ildən başlaya bilərdim. Lakin mən bunu etməyəcəyəm. Çünki bunun düzgün yol olduğunu düşünmürəm. Dağlıq Qarabağın ölkə kimi hesab olunmasına gəlincə, deməliyəm ki, mən Prezident Əliyevlə razı deyiləm. Çünki Qafqaz bürosu Dağlıq Qarabağın Azərbaycanın ... yox üzr istəyirəm, Ermənistanın tərkib hissəsi olmasına qərar verdi. Bu tamamilə qanuni qərar idi və bundan sonra İosif Stalinin şəxsi təşəbbüsü əsasında bu qərar Moskvada dəyişdirildi. Bu bir növ, Stalin, Lenin və Atatürkün gizli sövdələşməsi idi. Qarabağ heç vaxt müstəqil Azərbaycan dövlətinin tərkib hissəsi olmayıb. Qarabağ Sovet İttifaqının formalaşması prosesi zamanı Azərbaycana verilib. Biz ərazi bütövlüyündən danışan zaman qərar verməliyik ki, biz hansı ölkənin ərazi bütövlüyü barədə danışırıq. Mənim sualım bundan ibarətdir. Azərbaycan müstəqil ölkə olaraq, Sovet İttifaqının ərazi bütöv-

lüyünə hörmət etmişdimi? Azərbaycanın Sovet İttifaqını tərk etdiyi kimi, eyni yolla Dağlıq Qarabağ da Sovet İttifaqını tərk edib. Siz indi deyə bilərsiniz ki, mən hazırda mövcud olmayan ölkə – Sovet İttifaqı barədə danışıram. Lakin Dağlıq Qarabağın da tərkibində olduğu Azərbaycan Sovet Sosialist Respublikası da mövcud deyil. Bu həqiqətdir. Azərbaycanın Sovet İttifaqından müstəqillik əldə etdiyi kimi, eyni yolla Qarabağ həm Sovet İttifaqından, həm də Sovet Azərbaycanından müstəqilliyini əldə edib. Xocalıya gəlincə isə, ötən əsrin 90-cı illərinin ortalarında Azərbaycanın sabiq Prezidenti Ayaz Mütəllibov Rusiyanın «Arqumentı i faktı» qəzetinə müsahibə vermişdi. Həmin müsahibədə deyir ki, Xocalıdakı təxribat Azərbaycan müxalifəti tərəfindən onu hakimiyyətdən devirmək üçün təşkil olunub. Əslində bu, baş verib. Çünki bu hadisə nəticəsində Ayaz Mütəllibov Azərbaycan Prezidenti vəzifəsindən devrildi.

BMT Təhlükəsizlik Şurasının qətnamələrinə gəlincə isə, bu sənədlərin ümumi mənası nə olub? Bu sənədlərin ümumi mənası hər cür zorakılığın qarşısını almaq, hərbi əməliyyatların dayandırılması məqsədilə qeyd-şərtsiz və dərhal atəşkəs elan edilməsindən ibarət olubdur. BMT Təhlükəsizlik Şurasının 884 saylı qətnaməsində isə yazılıb ki, Azərbaycan atəşkəsi pozub və nəticədə torpaqlarını itiribdir. Hər şeydən öncə Təhlükəsizlik Şurası qətnaməsinin şərtlərinə əməl etməyən Azərbaycan özü olub. Bunu bəyan etmək çox vacibdir. Bilirsiniz, mən Azərbaycan və

Ermənistan liderləri üçün hər dəfə eyni şeyləri təkrar etməyin yaxşı yol olduğunu düşünmürəm. Lakin təəssüf ki, son 25, hətta 30 il ərzində biz hər dəfə eyni şeyləri təkrar edirik. Qorxuram ki, beynəlxalq ictimaiyyət müəyyən mənada eyni şeyləri eşitməkdən artıq yorula. Düşünürəm ki, biz yeni ideyalar gətirməliyik. Mən qeyri-zorakı «məxməri xalq inqilabı» vasitəsilə Ermənistanın Baş Naziri olanda anladım ki, 30 ildir davam edən münaqişəni bir və ya iki addımla həll etmək mümkün deyil. Düşünürəm ki, bu problemin həlli üçün bizim inqilablara ehtiyacımız vardır. Mən mikroinqilab proseslərinə başladım və növbəti çıxışım zamanı mənə söz verildikdə sizə təşəbbüskarı olduğum Dağlıq Qarabağ danışıqları prosesində mikroinqilabların rolu barədə danışacağam. Təşəkkür edirəm.

**M o d e r a t o r: Təşəkkür edirəm, cənab Baş Nazir. Bu, giriş nitqləri idi. Düşünürəm ki, hər ikinizin auditoriyaya təqdim etdiyiniz tarixi qeydlərin məntiqi ardıcıllığı olaraq və bir siyasi alim kimi, mən həll yoluna keçmək istəyirəm. Düşünürəm ki, tarixçilər bizə anlamaqda kömək edə bilər. Lakin onlar həmişə bizə prosesi necə irəli apara bilməklə bağlı kömək edə bilmirlər. Əgər auditoriyada tarixçilər varsa, onlardan üzr istəyirəm. Mən sizin fikirlərinizlə başlamaq istərdim, cənab Baş Nazir. Siz beynəlxalq ictimaiyyətdən müəyyən fikirlər eşidirsiniz, çox sayda təcrübəli danışıq aparanlardan, bu çağırış**

**üzərində təqribən 30 il işləmiş və münaqişənin sülh yolu ilə həllini dəstəkləməyə çalışmış bir çox insanlardan, beynəlxalq ictimaiyyətdən Dağlıq Qarabağ problemi ilə bağlı görmək istədiyiniz və bu münaqişənin həllini irəli aparmaq üçün sizə kömək edəcək, sizi qane edəcək məqam nə olardı?**

**N i k o l P a ş i n y a n:** Beynəlxalq ictimaiyyətin edə biləcəyi çox konkret bir məqam vardır. Bir məsələ aydındır ki, Dağlıq Qarabağ münaqişəsinin hərbi yolla həlli yoxdur. Hərbi yolla həll yoxdur. Beynəlxalq ictimaiyyət bunu güclü və aydın şəkildə bəyan etməlidir. Əgər kimsə əksini düşünürsə, deyirsə ki, Dağlıq Qarabağ münaqişəsinin hərbi yolla həlli mümkündür, güman edirəm ki, ona Dağlıq Qarabağ münaqişəsi tərəflərinin xalqları cavab verərdi. Bu halda, biz deyə bilərik ki, münaqişə artıq həll edilib. Lakin mən düşünürəm ki, bizim davamlı sülhə ehtiyacımız vardır. Ermənistan Dağlıq Qarabağı danışıqlar prosesində təmsil etmir. Lakin bilirəm ki, Ermənistan və Dağlıq Qarabağ regionumuzda davamlı sülh yaratmaq üçün real cəhdlər ortaya qoymağa hazırdır. Ermənistanın Baş Naziri kimi, mən bu vəziyyəti anlayıram. Bu nəinki təkcə ölkəmin təhlükəsizliyi üçün mənim məsuliyyətimdir, eyni zamanda, mən regional təhlükəsizlik və qlobal təhlükəsizlik üçün də öz məsuliyyətimi anlayıram. Mən Prezident Əliyevi bu vəziyyəti davamlı sülh, sabitlik yaratmaq üçün də bizim qarşılıqlı vəzifəmiz olaraq anlamağa və bu vəziyyəti təkcə milli gündəlik kimi deyil, həm də qlobal, regional təhlükəsizlik

gündəliyi, qlobal təhlükəsizlik üçün səylər göstərmək və töhfə vermək kimi vəzifələr nöqteyi-nəzərindən anlamağa dəvət edirəm. Sizi əmin edirəm ki, Ermənistan və Dağlıq Qarabağ buna hazırdır.

**M o d e r a t o r: Təşəkkür edirəm, cənab Baş Nazir. Məlumatınız çox faydalı idi. Prioritetlərinizi bizimlə bölüşdüyünüz üçün sizə təşəkkür edirəm.**

**Cənab Prezident Əliyev, eyni sualı Sizə verə bilərəm? Siz danışıqlar prosesində çox təcrübəlisiniz. Siz bu məsələ ilə bağlı bu otaqdakıların çoxları ilə təmasda olmusunuz. Bizə anlamağa kömək edin – hazırkı tarixi məqamda daha vacib olan nədir? Beynəlxalq ictimaiyyət prosesi irəliyə doğru aparmaq və münaqişənin sizin üçün ən məqbul və sülh yolu ilə həlli üçün Sizcə nə edə bilər?**

**İ l h a m Ə l i y e v:** İlk növbədə, mən bir şərh vermək istərdim. Mən tamamilə əminəm ki, biz hər ikimiz buraya həqiqəti demək üçün gəlmişik. Mənim giriş nitqimdə dediklərim 100 faiz həqiqətdir. Hansılar ki, elə indi yoxlanıla bilər. Sadəcə, internetə daxil olub istinad etdiyim həmin sənədləri taparaq, siz kimin həqiqəti deyib-demədiyini anlaya bilərsiniz. İkinci şərhim budur. Mən, təəssüf ki, ermənilərin Xocalıda törətdiklərinə bəraət qazandırmaq cəhdinə çevrilmiş bu vəziyyətə aydınlıq gətirmək istərdim. Prezident Ayaz Mütəllibovun səhhəti çox yaxşıdır və Bakıda yaşayır. Ola bilsin ki, Ermənistan tərəfi bunu bilmir. O bu yaxınlarda və bir neçə dəfə deyib ki, o heç vaxt Xocalı soyqırı-

mının azərbaycanlılar tərəfindən təşkil edildiyini deməyib. Günümüzdə deyildiyi kimi, bu, «feyk» xəbərdir. Rusiyadakı bəzi erməni jurnalistlər tərəfindən icad olunub və Rusiya mətbuatında dövriyyəyə buraxılıbdır. Lakin o heç vaxt bunu deməyibdir. Bu tamamilə bir həqiqətdir. Xocalıda soyqırımı törədənlərin adları hamıya məlumdur. Onlar yerli ermənilər, Ermənistandan olan ermənilər və diaspordan olan ermənilər idi. Bu şəxslərin adları hamıya məlumdur. Bu barədə çoxlu kitablar və beynəlxalq məqalələr çap olunub. Ona görə azərbaycanlıların özlərinin 63 uşağı, 100 qadını vəhşicəsinə öldürdüyünü demək, eyni zamanda, 1000 nəfərin itkin düşdüyünü söyləmək, bu, sinizmin zirvəsidir.

Beynəlxalq ictimaiyyətin nə etməli olduğu məsələsinə gəlincə, düşünürəm ki, ən vacib olan odur ki, beynəlxalq ictimaiyyət – biz beynəlxalq ictimaiyyətdən danışan zaman əsasən ATƏT-in Minsk qrupu həmsədrlərinin fəaliyyətini nəzərdə tuturuq – nəhayət, Ermənistan tərəfinə çox aydın şəkildə izah etməlidir ki, Dağlıq Qarabağ Ermənistan deyil, Dağlıq Qarabağ müstəqil ölkə deyil! Heç kim bu qeyri-qanuni qurumu tanımır. Bu birincisi.

İkincisi, düşünürəm ki, Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirməklə bağlı beynəlxalq təzyiq daha çox Ermənistana göstərilməlidir. Çünki BMT Təhlükəsizlik Şurasından daha yuxarı olan beynəlxalq orqan yoxdur. Onlar 4 qətnamə qəbul ediblər. Onları yoxlamaq çox asandır. Mütəxəssislərə onların nömrə-

ləri məlumdur. Onlar nə deyir: Ermənistan qoşunları işğal edilmiş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. Təkcə Dağlıq Qarabağ işğal edilməyib. Həmçinin onun ətrafındakı 7 rayon da işğal olunub. Ermənistan bunu gizlətmək istəyir. Bu 7 rayonda ermənilər heç vaxt yaşamayıblar. 1989-cu ilin son sovet əhali siyahıyaalınmasında Dağlıq Qarabağın əhalisi 189 min nəfər olaraq qeydə alınıb. Onlardan 139 mini ermənilər, 48 mini azərbaycanlılar və digər xalqların nümayəndələri idi. Beləliklə, Dağlıq Qarabağ və qədim şəhərimiz olan Şuşadan bütün azərbaycanlılar etnik təmizləməyə məruz qalıb. Sonra bütün azərbaycanlılar 7 rayonda etnik təmizləməyə məruz qalıb. Ermənilər bizim xalqımıza, mədəniyyətimizə qarşı soyqırımı törədiblər, məscidlərimizi, məzarlarımızı dağıdıblar, şəhərlərimizin adlarını dəyişdiriblər.

Onlar hazırda bütün işğal edilmiş ərazilərdən ibarət olan Dağlıq Qarabağın xəritəsini çap ediblər. Sonra onlar deyirlər ki, biz bu reallıqlarla razılaşmalıyıq. Ona görə də beynəlxalq ictimaiyyət izah etməlidir ki, Dağlıq Qarabağ Azərbaycandır. İkincisi, təcavüzkara ciddi təzyiq göstərilməlidir ki, dayansın. Baş Nazir... (*Paşinyan həyasızcasına müdaxilə etmək istəyir.*) bir dəqiqə gözləyin... Baş Nazir indicə sülhdən danışdı. Yaxşı, mən razılaşıram. Lakin onda bu, bu gün baş verənlə, təmas xəttində azərbaycanlı əsgərin erməni snayperi ilə öldürülməsi ilə necə uzlaşır?

**M o d e r a t o r: Hesab edirəm ki, çağırışın elementləri hər kəsə aydındır. Mürəkkəb tarix var,**

**müxtəlif siyasi rejimlərin tərkibinə daxil olan ərazilər var, məcburi köçkünlərin və hər iki tərəfdən ölənlərin faciəsi, etimad və siyasi danışıqların irəliləməsi üçün zəmin yaratmaq məqsədilə kifayət qədər zaman kəsiyində tələblərinə əməl olunmayan atəşkəs var. Buna görə mən bu məsələlərin bəziləri ilə bağlı sizi sual verməyə dəvət edirəm.**

**N i k o l P a ş i n y a n:** Mən bir neçə qeyd edə bilərəm?

**M o d e r a t o r: Mən suallara keçmək istəyirəm və güman edirəm ki, veriləcək suallar əsnasında bu məsələlərin bəziləri ilə bağlı fikirlərinizin davamını bildirmək imkanınız olacaqdır. Mənim rəhbərim burada əyləşib və mən qaydaları pozmaq istəmirəm, ona görə də suallara keçmək istəyirəm. Buyurun, birinci sual. Zənnimcə, auditoriyada mikrofon vardır. Sual vermək üçün şərait yaradıram, amma siz məni məyus edirsiniz. Bu belədir? Cənab Baş Nazir, sizə qayıdıram, siz fikrinizin davamını bildirə bilərsiniz. Biz o suala qayıdacağıq. Buyurun.**

**N i k o l P a ş i n y a n:** Bilirsiniz, mən bir neçə qeyd etmək istərdim. İlk növbədə, BMT Təhlükəsizlik Şurasının qətnaməsi ilə bağlı. Orada Ermənistan qoşunları sözü yoxdur. Orada «yerli erməni qüvvələri» yazılıb. Bu o deməkdir ki, Dağlıq Qarabağ əhalisi özünümüdafiə üçün qüvvələr yaradıb, orada Ermənistan qoşunları yazılmayıb. Qurbanlara gəlincə, bəli, bu

faciədir, bu münaqişədir və bu münaqişə nəticəsində minlərlə adam, həm erməni, həm də azərbaycanlı həlak olub. Bu faktdır. Lakin şəxsən mən «Arqumentı i faktı» qəzetində Azərbaycanın sabiq Prezidentinin müsahibəsini oxumuşam. Düşünürəm ki, biz onu internetdə asanlıqla tapa bilərik. Tarixi faktlara gəlincə, «Dağlıq Qarabağ: qanuni aspekt» kitabı vardır. Siz mənim dediklərimi orada tapa bilərsiniz və siz bunu tarix kitablarından tapa bilərsiniz. Şəhərin adları və etnik təmizləmə barədə – Dağlıq Qarabağda Şaumyan adlı rayon var idi.

**İ l h a m Ə l i y e v:** Xeyr. O, Dağlıq Qarabağda deyildi. Xeyr, xeyr...

**M o d e r a t o r: Mən Sizə söz verəcəyəm**.

**N i k o l P a ş i n y a n:** Yaxşı, yaxşı. Şaumyan var. Mənim fikrimcə, Dağlıq Qarabağda.

**İ l h a m Ə l i y e v:** Görürsünüz, yalan danışır.

**M o d e r a t o r: Mən Sizə söz verəcəyəm.**

**N i k o l P a ş i n y a n:** Şaumyan rayonu var idi və 1988-ci ildə oranın əhalisi 100 faiz ermənilərdən ibarət idi. İndi isə orada bir erməni yoxdur və Şaumyan adı azərbaycanca adla əvəz olunub. Bu mənim üçün çətin sözdür. Prezident Əliyev dedi ki, bu gün Azərbaycan əsgəri öldürülüb. Mən də deyə bilərəm ki, bu gün Qazaxda Ermənistan və Azərbaycan sərhədində erməni əsgəri Azərbaycan snayperi tərəfindən yaralanıbdır. Bu prosesi dayandırmaq üçün bizim qarşılıqlı vəzifəmiz nədən ibarətdir?

**M o d e r a t o r: Çox sağ olun. Bu, sözü sizə vermək üçün yaxşı məqamdır. Cənab Prezident, mən Sizə razı olmadığınız spesifik məqamlarla bağlı cavab vermək imkanı verəcəyəm. Sonra bizim sualımız var və mən bu fürsəti qaçırmaq istəmirəm.**

**İ l h a m  Ə l i y e v:** Sadəcə, şərhlərimi bildirmək istəyirəm. Çünki bir daha qeyd edirəm, mən buraya həqiqəti söyləməyə gəlmişəm. Bir daha deyirəm: mən «Arqumentı i faktı»da nə yazıldığını bilmirəm. «Arqumentı i faktı» çox sayda ermənininin çalışdığı müstəqil qəzetdir. Rusiyanın aparıcı mətbuat orqanlarına rəhbərlik edən ermənilərin sayı bizə məlumdur. Beləliklə, onlar istədiklərini yaza bilərlər. Ona görə də mən Azərbaycanın sabiq Prezidenti Ayaz Mütəllibovun rəsmi bəyanatına istinad edirəm. O söyləyir ki, heç vaxt belə deməyib. İndi isə baxın. Prezident, sabiq Prezident, onun sözləri və bir ermənipərəst və ya erməni jurnalistin sözləri. Hansının dəyəri daha çoxdur? Bu birincisi. Şaumyana gəlincə isə, cənab Baş Nazir indicə qeyd etdi ki, Dağlıq Qarabağı Azərbaycana vermək qərarını Stalin verib. Bu səhvdir. Bir daha Qafqaz bürosunun qərarına baxın, 1921-ci ilin iyul ayı. Orada deyilir ki, Dağlıq Qarabağı Azərbaycanda saxlamaq, Azərbaycana vermək yox. Əgər o, Stalini belə çox bəyənmirsə, qəribədir ki, niyə Şaumyanı belə çox bəyənir? Çünki Şaumyan bolşeviklərdən biri idi. O, günahsız azərbaycanlıları qətlə yetirmiş şəxs idi. Bugünkü Dağlıq Qarabağın qondarma paytaxtı onun adı

ilə adlandırılıb. Sual olunur: əgər Dağlıq Qarabağ qədim Ermənistan ərazisidirsə, niyə paytaxtın adı qədim erməni adı ilə adlandırılmayıb? Çünki paytaxtın qədim adı Xankəndidir – xanın kəndi. Stepanakert, çünki Şaumyanın adı Stepan idi, kert Ermənistanda şəhər deməkdir, elə deyilmi? Stepanakert həmin bolşevikin adı ilə adlandırılıb. Bu bir daha sübut edir ki, həmin ərazilərdə heç bir erməni tarixi irsi yoxdur və mənim başladığım məqama gəldikdə bu tarixi məsələ münaqişənin necə həll olunmalı olduğunu başa düşmək üçün mühümdür.

**M o d e r a t o r: Çox sağ olun, cənab Prezident. Ümid edirəm ki, hər kəs qeydlər aparır, çünki bizə burada müxtəlif məqamlardan ibarət olan tarix dərsi verilir. Sualımız var. Buyurun. Xahiş edirəm, özünüzü təqdim edin.**

**S u a l: Çox sağ olun. Mənim adım Forin Krinadır. Mən beynəlxalq hüquq üzrə Maks Plank İnstitutunun tədqiqatçısıyam. Prezident Əliyev artıq beynəlxalq hüququn rolunu qeyd etdi. Mənim sualım hər iki tərəfə aiddir. Siz bu mübahisəni xüsusi razılaşma vasitəsilə Beynəlxalq Ədalət Məhkəməsinə təqdim edərdinizmi?**

**M o d e r a t o r: Cənab Prezident, Sizdən suala birinci cavab verməyinizi xahiş edə bilərəmmi?**

**İ l h a m Ə l i y e v:** Azərbaycan danışıqlar prosesinə sadiqdir, ona görə də biz ərazi bütövlüyümüzü danışıqlar yolu ilə bərpa edə biləcəyimizlə bağlı ümidlərimizi itirməmişik. Bu səbəbdən də hələ də buna ümid

bəsləyərkən, ola bilsin ki, bu, ən yaxşı seçim olmayacaqdır. Lakin əgər Ermənistan tərəfdən yeni yanaşma nəticəsində danışıqlar tamamilə pozulsa, onda, əlbəttə, bu seçim nəzərdən keçirilə bilər...

**M o d e r a t o r: Təşəkkür edirəm, cənab Prezident. Cənab Baş Nazir, buyurun.**

**N i k o l  P a ş i n y a n:** Dediyim kimi, biz də danışıqlar prosesinə, sülh prosesinə sadiqik. Düşünürəm ki, danışıqlar ATƏT-in Minsk qrupunun həmsədrliyi formatında aparılmalıdır. Biz çox intensiv şəkildə işləyirik. Qeyd etdiyim kimi, biz real dəyişiklik etmək və münaqişənin həllinə çatmaq üçün real səylər göstərməyə hazırıq. Lakin heç kim məndən danışıqlar prosesində etdiyim «mini» inqilablar barədə heç nə soruşmadı. Ümidvaram ki, imkanım olacaqdır.

**M o d e r a t o r: Mən sizdən bunu izah etməyinizi xahiş edirəm.**

**İ l h a m  Ə l i y e v:** Bəlkə gələn dəfə? Mən inqilablar haqqında eşitmək istəmirəm.

**M o d e r a t o r: «Mini» inqilablar, xahiş edirəm, izah edin.**

**N i k o l  P a ş i n y a n:** Mənim konseptual qavrayışım ondan ibarətdir ki, artıq qeyd etdiyim kimi, uzunmüddətli münaqişəni bir-iki addımda həll etmək mümkün deyil. Niyə mən bizim mikroinqilaba ehtiyacımız olduğunu deyirəm? Çünki düşünürəm ki, şərti olaraq, bizim mikroinqilaba ehtiyacımız var ki, onu «mini» inqilaba çevirək və ondan sonra danışıqlar prosesində real irəliləyişə nail olaq. Mikroinqilab nədən ibarət idi? 2018-ci ilin sentyabrında mən elan etdim ki, Dağlıq Qarabağ münaqişəsinin istənilən həlli Ermənistan xalqı üçün, Qarabağ əhalisi üçün və Azərbaycan xalqı üçün məqbul olmalıdır. Niyə bu mikroin-

qilabdır? Çünki mən istənilən həllin həm də Azərbaycan xalqı üçün məqbul olmalı olduğunu deyən ilk Ermənistan lideriyəm. İndi isə həmin inqilabdan bir ildən çox müddət ötəndən sonra mən istənilən həllin bütün tərəflər üçün məqbul olmalı olduğunu deyən təkcə Ermənistan lideri deyil, həm də Azərbaycan və Ermənistan liderləri arasında bunu deyən yeganə liderəm. Bu çox mühüm mikroinqilabdır. Başqa bir inqilab, mətbuat konfranslarımdan birində mən azərbaycanlı və erməni sosial şəbəkə istifadəçilərini sosial şəbəkədən bir-birini incitmək, bir-birini hədələmək və bir-birini təhqir etmək üçün istifadə etməməyə, sosial şəbəkədən, yeni texnologiyalardan bir-birini daha yaxşı başa düşməyə çalışmaq üçün istifadə etməyə çağırdım. Bu, başqa bir yoldur. Mən birbaşa Azərbaycan xalqına müraciət etməyə çalışdım və əgər Prezident Əliyev etiraz etmirsə, mən Prezident Əliyevin Ermənistan xalqı ilə danışmağına da etiraz etmirəm. Lakin bizdə çox qəribə bir fakt vardır. Prezident Əliyev Dağlıq Qarabağın nümayəndələri ilə danışmaqdan imtina edir. Bu çox qəribə faktdır. Dağlıq Qarabağın nümayəndələri ilə danışmadan Dağlıq Qarabağ münaqişəsini necə həll etmək mümkündür? Yeri gəlmişkən, Dağlıq Qarabağ ATƏT tərəfindən münaqişə tərəfi, danışıqlar tərəfi kimi tanınıb. Bu, iki dəfə – 1992-ci il martın 24-də və 1994-cü il ATƏT-in Budapeşt Sammitində baş veribdir.

**M o d e r a t o r: Çox sağ olun.**

**N i k o l P a ş i n y a n:** Çox sağ olun.

**M o d e r a t o r: Prezident Əliyev, icazə verin, sizdən soruşum. Müharibədən əziyyət çəkmiş Azərbaycan vətəndaşlarının, Ermənistan vətəndaşlarının, Dağlıq Qarabağ sakinlərinin və həmin işğal olunmuş ərazilərdən məcburi köçkünlərin təklif olunan 3 mikroin-**

**qilab barədə fikirlərini öyrənmək və sosial mediadan düşmənçilik yaratmaq üçün vəziyyəti daha da kəskinləşdirən bir qüvvə kimi deyil, insanların bir-biri ilə səmimi danışmaq üçün bir vasitə kimi istifadə edilməsi ilə bağlı nə düşünürsünüz?**

**İ l h a m  Ə l i y e v:** Ermənistan rəhbərləri ilə danışıqlar təcrübəmdən çıxış edərək deyə bilərəm ki, mənim cənab Paşinyanın 2 sələfi ilə də danışıqlar aparmaq imkanım olub. Hər zaman danışıqların ən həlledici məqamında söhbəti davam etdirməmək üçün müəyyən bəhanə tapıblar. Digər sözlə desək, onların hamısı status-kvonun dəyişməz olaraq qalmasını istəyiblər. Lakin onların hamısı buna fərqli tərzdə nail olmağa çalışıblar. İndi də Baş Nazir Paşinyan öz təklifi haqqında danışanda və söyləyəndə ki, həll variantı Azərbaycan xalqı tərəfindən qəbul edilən olmalıdır, mən buna cavab vermişəm və Azərbaycan xalqı üçün nəyin qəbul edilən olduğunu söyləmişəm. Erməni təcavüzündən əziyyət çəkmiş Azərbaycan vətəndaşları öz evlərinə qayıtmaq istəyirlər. Bu onların fundamental hüququdur. Onlar Ermənistan rəhbərliyinə görə, demək olar ki, 30 ildir bu hüquqdan məhrum ediliblər. Söhbət Dağlıq Qarabağdan getmir. Baş Nazir Dağlıq Qarabağın «özünümüdafiə qüvvələri»ndən danışanda, o bir daha həqiqətə uyğun olmayan sözlər söyləyir. O çox yaxşı bilir və mən də bilirəm ki, «Dağlıq Qarabağ ordusu»nun 80 faizini Ermənistan vətəndaşları təşkil edir. Bu həqiqətdir. Bəlkə, 80 faizdən də artıqdır. Buna görə «Dağlıq Qarabağ ordusu» anlayışı yoxdur. «Dağlıq Qarabağ respublikası» anlayışı yoxdur. Münaqişənin yalnız iki tərəfi var: Ermənistan və Azərbaycan. ATƏT-in Minsk qrupunun həmsədrlərindən soruşun: münaqişə tərəfləri kimlərdir? Onlar da eyni sözləri söyləyəcəklər: Ermənistan və Azərbaycan. Dağlıq Qarabağ

deyil. Nəyə görə yox? Bu, başqa sualdır. Lakin o, tərəf deyil və biz onlarla danışmayacağıq. Biz təcavüzkarla danışıqlar aparırıq. Biz Dağlıq Qarabağla danışmağa onda hazır olarıq ki, Ermənistan həmin qeyri-qanuni rejimi maliyyələşdirməsini dayandırsın, bütün hərbi qoşunları Dağlıq Qarabağdan çıxarsın və bizim əraziləri tamamilə tərk etsin. Sonra isə bizim həmin insanlarla danışıq aparmağa arqumentimiz olacaq. Lakin nə qədər ki, onlar oradadır, bu, baş verməyəcək. Onlar status-kvonu dəyişməz olaraq saxlamaq istəyirlər. Hesab edirlər ki, həmin əraziləri daim işğal altında saxlaya bilərlər. Əminəm ki, bu belə qalmayacaq. Ərazi bütövlüyümüz bərpa edilməlidir.

İkinci hissəyə gəlincə, bu yaxınlarda biz jurnalistlərin qarşılıqlı səfərlərini təşkil etdik. Fikrimcə, bu elə bir təcrübədir ki, biz onu qiymətləndirməliyik. Onun mənfi və müsbət tərəflərini qiymətləndirməliyik, çünki həm Ermənistan, həm Azərbaycan cəmiyyətinin bir hissəsi bu formatı o qədər də dəstəkləmədi. Lakin bu hər iki liderin qərarı idi ki, buna bir cəhd edilsin. Biz sülh yolu ilə məsələnin həlli üçün hər bir imkanı sınaqdan keçirmək istəyirik. Erməni xalqını inandırmaq istəyirik ki, onlar daim belə yaşaya bilməz. Onlar bizimlə çözüm tapmalı və gələcəkdə qonşu kimi, sülh şəraitində yaşamalıdırlar.

**M o d e r a t o r: Sizin burada konstruktiv cəhdləriniz haqqında söylədiklərinizi yüksək qiymətləndiririk, çünki biz bu yanaşmanı dəstəkləyirik. Əlavə bir suala və yekun fikirlərə vaxtımız qalır. Auditoriyadan bir sual var. Buyurun.**

**S u a l: Adım Yelena Çernenkodur. Mən «Kommersant» qəzetinin rus jurnalistiyəm və «Münhen gənc liderləri–2015» təşkilatının üzvüyəm. Rusiya ATƏT prosesi çərçivəsində məsələnin həllinə çalışan ölkələrdən**

**biridir. Belə başa düşdüm ki, təkliflərdən biri status məsələsinin sonraya saxlanması və tərəflərin daha həvəslə razılaşa biləcəyi məsələlərə diqqət yetirməkdir. Məsələn, Dağlıq Qarabağın ətrafında olan rayonlar, dəhlizin yaradılması və digər addımları nəzərdə tuturam. Beləliklə, siz status məsələsini sonraya saxlayaraq, bəlkə başqa addımlarla nəticələnə biləcək keçid həll variantı üçün hər hansı bir şans görürsünüzmü?**

**İ l h a m Ə l i y e v:** Bəli, düşünürəm ki, bu mümkündür. Bu təklif Azərbaycan tərəfindən ciddi şəkildə nəzərdən keçirilib və bütövlükdə, biz buna razılıq vermişdik. Bu, atıla biləcək ən məntiqli addımdır. Aydındır ki, biz bu münaqişəni mərhələlərlə həll etməliyik. Münaqişəni tam şəkildə bir gündə həll edə bilmərik. O, mərhələli olmalıdır və birinci mərhələdə jurnalistin söylədiyi və Rusiyanın təklif etdiyi kimi, işğal olunmuş ərazilərin bir qisminin azad edilməsi baş verməlidir, Azərbaycan məcburi köçkünləri həmin ərazilərə qaytarmalıdır, həmin ərazilərdə yenidən köçürülmə olmalıdır və eyni zamanda, Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması prosesi getməlidir. Bu halda, Dağlıq Qarabağın statusu hər iki tərəf hazır olanda sonrakı müzakirəyə qala bilər, çünki yerlərdə proses getməsə, ərazilərin azad edilməsi başlanmasa, status üzərində razılığa gəlmək mümkün olmayacaq. Bizim mövqemiz ondan ibarətdir ki, status məsələsi Azərbaycanın ərazi bütövlüyünə müdaxilə etməməlidir. Eyni zamanda, biz həmişə söyləyirik ki, Azərbaycan çoxkonfessiyalı, çoxmillətli ölkədir. Azərbaycanda sülh və rahat şəkildə yaşayan çox sayda etnik azlıqlar vardır. Ərazi bütövlüyümüz tam bərpa olunarsa, ermənilər milli azlıq kimi, ölkəmizdə istənilən

digər millətlərin nümayəndələri kimi, bütün hüquqlara və imtiyazlara malik olacaqlar.

**M o d e r a t o r: Sağ olun, Prezident Əliyev. Addım-baaddım kiçik inqilabları irəli doğru aparırıq. Bu mövzunu bəyənirəm.**

**N i k o l P a ş i n y a n:** Yeri gəlmişkən, bizim bir kiçik və qarşılıqlı inqilabımız vardır. Ümid edirəm ki, bunu söyləməyə imkanım olacaqdır.

**M o d e r a t o r: Buyurun, söz sizindir.**

**N i k o l P a ş i n y a n:** İlk dəfə Tacikistanın paytaxtı Düşənbə şəhərində görüşəndən sonra biz Prezident Əliyevlə kiçik inqilab etdik, çünki həmin görüş nəticəsində gərginlik ümumilikdə görünməmiş dərəcədə azaldı. Biz təmas və informasiya məqsədli birbaşa xətti yarada bildik. Etiraf etməliyəm ki, bu halda, Prezident Əliyev və mən bu təşəbbüsün birgə müəllifləriyik. Prezident Əliyevin söylədiyi ərazilərə gəldikdə, Azərbaycanın nöqteyi-nəzərindən bunlar ərazidir. Lakin Dağlıq Qarabağın nöqteyi-nəzərindən bu təhlükəsizlikdir. Çünki biz anlamalıyıq ki, hazırkı status-kvo hansı səbəbdən yaranıb. Dağlıq Qarabağ öz müqəddəratını təyinetmə hüququndan yararlanmaq istədiyi zaman Dağlıq Qarabağ ermənilərinə qarşı hərbi əməliyyatlar başlandı. Onlar öz müdafiələrini təşkil etməyə məcbur oldular. Prezident Əliyev Şuşa haqqında danışdı. Dağlıq Qarabağın paytaxtı Stepanakert illər ərzində Şuşadan bombardman edilirdi. Dinc vətəndaşlar isə çox uzun müddət ərzində zirzəmilərdə yaşamalı idilər. Bu həqiqətdir. Bilirsiniz, heç kəsin təhlükəsizliyi kənarda qala bilməz. Bu, Qarabağa da aiddir. Prezident Əliyev Azərbaycanın hərbi qüvvələri haqqında danışdı. Mənim oğlum hərbi qulluğu Dağlıq Qarabağda keçir. Lakin o oraya həmvətənlərini müdafiə etmək üçün könüllü qaydada gedib,

çünki o, tarixi, 1998-ci ildən nəyin baş verdiyini bilir. Mən Şaumyan rayonu haqqında artıq söylədim. Oranın əhalisi 100 faiz erməni idi. İndi orada heç bir erməni yaşamır. Biz çox böyük erməni əhalisi olan Naxçıvan məsələsini də bilirik. O, Azərbaycanın muxtar respublikasıdır. Hazırda orada heç bir erməni yoxdur. Bir cümləni də söyləyim. Prezident Əliyev deyir ki, Dağlıq Qarabağ danışıqların və münaqişənin tərəfi deyil. Lakin Azərbaycan iki dəfə Dağlıq Qarabağla razılaşma imzalayıb. Birincisi, 1994-cü ildə olub. Bu, Ermənistan, Dağlıq Qarabağ və Azərbaycan arasında atəşkəs sazişi idi. Müdafiə nazirləri onu imzalayıblar. 3 aydan sonra, 1994-cü ilin iyulunda onlar təsdiqlədilər ki, atəşkəs münaqişənin siyasi həllinə qədər qorunub saxlanılacaqdır.

**M o d e r a t o r: Bir sözlə, bizim sessiyamız başa çatır. Mən Prezident Əliyevə və Baş Nazir Paşinyana çox gözəl biliklərinə, bu söhbətə xüsusi bağlılıqlarına görə təşəkkürümü bildirmək istəyirəm. Fikrimcə, aydındır ki, hər iki lider münaqişənin həllinə və həmçinin onun necə həllinə biganə deyillər. Biz bundan azını onlardan gözləyə bilməzdik. Əlavə olaraq, hesab edirəm ki, bu çətin məsələni, onun dinamikasını, elementlərini tam həcmdə nəzərdən keçirdik. Mən hər ikinizə təşəkkür edirəm ki, biz eyni zamanda, münaqişənin təsir göstərdiyi insanların həyatını yaxşılaşdırmaq üçün irəliyə getmək imkanının mümkün elementləri barədə də eşitdik. Kim bilir, bəlkə də mikroaddımlarla, mikroinqilablarla, dinc yolla həllin tapılmasında konstruktiv proses başlaya bilər. Beləliklə, Münhen Təhlükəsizlik Konfransı çərçivəsində belə bir tarixi fürsət bizə nəsib olduğu üçün biz çox xoşbəxtik. Fikirlərini bizimlə**

**bölüşdüklərinə görə Prezident Əliyevə və Baş Nazir Paşinyana təşəkkürümü bildirirəm.**

**İ l h a m Ə l i y e v:** Sadəcə, bir qeyd edim.

**M o d e r a t o r: Konstruktiv olsun.**

**İ l h a m Ə l i y e v:** Konstruktiv, bəli. Öz müqəddəratı haqqında danışacağam. Yalnız bu haqda. İrəvanda əhalinin XIX əsrin əvvəllərində 70 faizinin azərbaycanlı olması faktını bir yana qoyuram.

**M o d e r a t o r: Bu, konstruktiv deyil.**

**İ l h a m Ə l i y e v:** Bunun haqqında danışmayacağam. Öz müqəddəratına gəldikdə, onlar hər zaman bu haqda danışırlar. Erməni xalqı öz müqəddəratını artıq təyin edib. Onların erməni dövləti vardır. Mənim məsləhətim belə olacaq ki, onlar ikinci dəfə öz müqəddəratını təyin etmək üçün Yer kürəsində başqa yer tapsınlar, Azərbaycanda yox!

**N i k o l P a ş i n y a n:** Cənab Prezident, bu o qədər də konstruktiv olmadı. Lakin mən deyərdim ki, Böyük Tiqranın dövründə bizim regionda yalnız iki millət var idi: ermənilər və gürcülər.

**İ l h a m Ə l i y e v:** Ermənilər və ermənilər.

**N i k o l P a ş i n y a n:** Nəinki Böyük Tiqranın dövründə, o cümlədən Baqratunilər, Arşakunilər dövründə də belə olub. Bunu istənilən tarix kitabında tapa bilərsiniz. Mən bu müzakirəyə görə çox minnətdaram və bir daha vurğulamaq istərdim ki, Ermənistan və Dağlıq Qarabağ bu münaqişənin həllində real səyləri göstərməyə hazırdır. Təşəkkür edirəm.

**M o d e r a t o r: Hər kəsə təşəkkür edirəm.**

## QEYDLƏR

**1. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü 1 səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 5, 6, 53, 86, 88, 317, 319.

**2. Ağdərə** – Azərbaycan ərazisində (Dağlıq Qarabağ Muxtar Vilayəti) inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1993-cü ildə Ağdərə rayonunun mərkəzi və bir çox kəndləri Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 6.

**3. Füzuli rayonu** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1386 km$^2$, əhalisi 125,4 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 6.

**4. Cəbrayıl** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1050 $km^2$, əhalisi 76,6 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 6.

**5. Naxçıvan əməliyyatı** – 2018-ci il mayın 20-dən 28-nə qədər Azərbaycan və Ermənistan silahlı qüvvələri arasında baş vermiş hərbi münaqişə, Azərbaycanın Əlahiddə Ümumqoşun Ordusunun əks-hücumu zamanı Şərur rayonunun Cünnüt kəndi, «Ağbulaq» yüksəkliyi, Qızılqaya və Qaraqaya dağları – ümumilikdə 11 min hektar Azərbaycan ərazisi erməni işğalından azad edilmişdir. – 7.

**6. Müstəqil Dövlətlər Birliyi**(MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə Azərbaycan, Belarus, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş Nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında

əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 8, 9, 18, 230–234.

**7. Dünya İqtisadi Forumu,** D a v o s İ q t i s a d i F o r u m u **–** İsveçrənin kurort şəhəri Davosda keçirilən Forum. Forum 1971-ci ildə yaradılmışdır. Siyasi liderlər foruma ilk dəfə 1974-cü ildə dəvət edilmişdilər. Forum bu tarixdən qısa bir müddət sonra siyasi liderlər tərəfindən tərəfsiz bir platforma olaraq istifadə edilməyə başlanıldı. 1995-ci il yanvarın 26–30-da Azərbaycan Prezidenti Heydər Əliyev başda olmaqla, Azərbaycan nümayəndə heyəti ilk dəfə bu Forumda iştirak etmişdir. – 9, 32, 40–45, 51–54, 111, 186, 216.

**8. Teymur Rəcəbov,** Teymur Boris oğlu (d.1987) – Azərbaycan şahmatçısı, beynəlxalq qrossmeyster. 14 yaşında ikən dünyanın ən gənc qrossmeysteri olmuşdur. 2004-cü ildə FİDE dünya çempionatında yarımfinala qədər yüksəlmişdir. Onun əsas uğurları

2007-ci ildə «Veyk-an-Zea» turniri, 2008-ci ildə Elista Qran-prisini, 2017-ci ildə Cenevrə Qran-prisini və 2019-cu ildə Dünya Şahmat Kubokunu qazanmasıdır. – 10.

**9. Aydın Süleymanlı,** A y d ı n E l ş ə n o ğ l u (d.2005) – Azərbaycan şahmatçısı. FİDE ustası (2017). Yeniyetmələr arasında dünya və ikiqat Avropa çempionu. – 10.

**10. SMERŞ** – İkinci dünya müharibəsi illərində Sovet İttifaqında bir-birindən asılı olmayan əks-kəşfiyyat təşkilatlarının adı. – 11.

**11. Vyaçeslav Molotov** (1890–1986) – SSRİ-nin siyasi və dövlət xadimi. 1930–1941-ci illərdə SSRİ Xalq Komissarları Sovetinin Sədri, 1939–49, 1953–56-cı illərdə Xarici İşlər komissarı (naziri) olmuşdur. – 11.

**12. Aleksandr Soljenitsın** (1918–2008) – rus yazıçısı, dramaturq, filosof, şair, tarixçi, ictimai və siyasi xadim. Ədəbiyyat üzrə Nobel mükafatı laureatıdır. «İlk çəmbər», «Rusiya gecələri», «QULAQ arxipelaqı», «Avqust 1914», «Məhkumlar», «Mart 1917» kimi əsərlərin müəllifidir. – 11.

**13. Almaniya,** A l m a n i y a F e d e r a t i v R e s- p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 357

min km$^2$, əhalisi 83 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı Prezident, hökumət başçısı Federal Kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundesratdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 11, 155, 156, 286–336.

**14. Bakı–Tbilisi–Ceyhan** – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Enerji naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara Bəyannaməsi»ni imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 11.

**15. Bakı–Tbilisi–Ərzurum** – «Cənubi Qafqaz» qaz kəməri. Rəsmən 2007-ci ildə açılmışdır. Kəmərin uzunluğu 970 km-dir (442 km Azərbaycandan, 248 km Gürcüstandan, 280 km isə Türkiyə ərazisindən keçir). Kəmərə qaz «Şahdəniz»dən ötürülür. – 11, 24, 215.

**16. «Cənub Qaz Dəhlizi»** – Azərbaycanda hasil olunan enerjidaşıyıcılarını Gürcüstan və Türkiyə vasitəsilə Qərb bazarlarına nəql edir. – 11, 24, 43, 115, 116, 224, 283, 294.

**17. TANAP –** Trans – Anadolu qaz boru kəməri. Kəmər 2018-ci ildə istifadəyə verilmişdir. Kəmərin

uzunluğu 2000 km-dir. Borudan ildə təxminən 16 milyard $m^3$ qaz ötürülməsi nəzərdə tutulur. Qaz Türki-yə – Bolqarıstan və Türkiyə –Yunanıstan sərhədindən Avropa ölkələrinə nəql ediləcəkdir. – 11, 115, 116, 190, 224, 294.

**18. Bakı–Tbilisi–Qars** – Azərbaycan, Gürcüstan və Türkiyəni dəmir yolu ilə birləşdirən nəqliyyat dəhlizi. 30 oktyabr 2017-ci ildə istifadəyə verilmişdir. Yolun uzunluğu 826 km-dir. – 11, 33, 42, 120, 190, 203.

**19. Türkiyə,** T ü r k i y ə C ü m h u r i y y ə t i – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min $km^2$, əhalisi 80,8 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı Prezident, ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 11, 43, 44, 64, 70, 96, 189–197, 201, 224–229.

**20. Gürcüstan** – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min $km^2$, əhalisi 3,7 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 11, 43, 44, 70, 87, 164.

**21. Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon $km^2$, əhalisi 146,5 milyon nəfər-

dir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 11, 12, 51–54, 56, 69, 80, 86, 148, 163, 202, 206–208, 209–214, 230–233.

**22. İran,** İ r a n İ s l a m R e s p u b l i k a s ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 81 milyon nəfərdir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş Nazir təşkil, Prezident isə təsdiq edir. Paytaxtı Tehran şəhəridir. – 11, 86, 217.

**23. Xoşbəxt Yusifzadə,** X o ş b ə x t B a ğ ı o ğ l u (d.1930) – neftçi-geoloq, geologiya-minerologiya elmləri doktoru. Azərbaycan Milli Elmlər Akademiyasının akademiki. 1994–2016-cı illərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitseprezidenti, 2016-cı ildən isə Birinci vitse-prezidentidir. Azərbaycan Respublikasının «Şərəf», «Şöhrət», «İstiqlal», «Heydər Əliyev» ordenləri və «Heydər Əliyev mükafatı» ilə təltif edilmişdir. – 15–30.

**24. SOCAR,** A z ə r b a y c a n R e s p u b l i k a- s ı D ö v l ə t N e f t Ş i r k ə t i (ARDNŞ) – Azərbaycan

Respublikası ərazisində neft sərvətlərindən istifadəni vahid siyasət əsasında həyata keçirən, neft sənayesinin idarəetmə strukturunu təkmilləşdirən, yanacaq enerji kompleksinin inkişafını təmin edən şirkət. Respublikanın bütün ərazisində (quru və dənizdə) neft və qaz yataqlarının axtarışı, kəşfiyyatı və işlənməsi, emalı və nəqli, həmçinin onlardan alınan məhsulların daxili və xarici bazarlarda satışı ilə məşğul olur. 1992-ci ildə «Azərneft» Dövlət Konserninin və «Azərneftkimya» İstehsalat Birliyinin bazasında yaradılmışdır. ARDNŞ Azərbaycan Respublikasının təmsilçisi kimi, dünyanın tanınmış neft şirkətləri ilə «Hasilatın Pay Bölgüsü» Sazişi üzrə 30-a qədər neft müqaviləsi imzalamışdır.

ARDNŞ 2008-ci ildən mühasibat hesablarının beynəlxalq standartlarına keçmişdir. – 15, 54, 163.

**25. Mehriban Əliyeva,** Mehriban Arif qızı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondunu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ et-

mək üçün 3 dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaradılmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə UNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005–2017-ci illərdə Milli Məclisin üzvü olmuşdur. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilmiş ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 15,

18, 46, 105, 130, 137, 146, 214, 218, 236, 238, 239, 240, 241– 242, 278.

**26.** «**Azəri–Çıraq–Günəşli**» **–** Xəzərin Azərbaycan sektorunda ən iri neft yataqları bloku. Bakıdan təxminən 120 km şərqdə yerləşən bu yataqlar Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) adından *bp* şirkəti tərəfindən işlənilir. – 16, 26, 28.

**27. Heydər Əliyev,** H e y d ə r Ə l i r z a o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), 2 dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd

təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Sovetinin Sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin

may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın ozamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H.Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon Sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən Prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 17, 20, 22, 26, 27, 28, 30, 47, 104, 150, 194, 213, 244.

**28. Ramiz Mehdiyev,** R a m i z Ə n v ə r o ğ l u (d.1938) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti. 1978–80-ci illərdə Rayon Partiya Komitəsinin birinci katibi, 1980–81-ci illərdə Azərbaycan KP MK-da

elm və təhsil şöbəsinin müdiri, 1981–83-cü illərdə Azərbaycan KP MK-da partiya-təşkilat işi şöbəsinin müdiri, 1983–88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988–94-cü illərdə Azərbaycan EA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidenti İcra Aparatının şöbə müdiri, 1995–2019-cu ilin oktyabrına qədər Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, 1995–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin üzvü olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların müəllifidir. Beynəlxalq Nyu York Akademiyasının və Türk Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyasının üzvüdür. «Heydər Əliyev», «Şöhrət», «Şərəf», «İstiqlal» və Rusiya Federasiyasının «Dostluq» və «Şərəf» ordenləri ilə təltif edilmişdir. – 3–4.

**29. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon km$^2$, əhalisi 327,6 milyon nəfərdir. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı Prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 21, 86, 148.

**30.** «**Abşeron**» – Xəzər dənizinin Azərbaycan sektorunda zəngin qaz kondensat yatağı. Yataq «Azəri–Çıraq–Günəşli» neft yataqları blokundan cənub-qərbdə, dənizin 500 metr dərinliyində yerləşir. – 22, 23.

**31. «Şahdəniz» –** Xəzər dənizinin Azərbaycan sektorunda ən böyük və ən zəngin qaz yataqlarından biri. – 23, 24.

**32. Heydər Əliyev adına Bakı Dərin Özüllər zavodu** – Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin strukturlarından biri, dənizdə quraşdırılmaq üçün dərin özüllər istehsal edən nəhəng sənaye müəssisəsi. 1984-cü ildə istismara verilmişdir. – 26.

**33. Oman,** Oman Sultanlığı – Şərqi Ərəbistan yarımadasında dövlət. Sahəsi 309,5 min km$^2$, əhalisi 4,3 milyon nəfərdir. İnzibati ərazisi 7 vilayətə bölünür. Dövlət başçısı Sultandır. Paytaxtı Məskət şəhəridir. – 31.

**34. Heytəm bin Tariq əl-Səid** (d.1954) – 2020-ci il yanvarın 11-dən Oman Sultanı. – 31.

**35. Ramin Quluzadə,** Ramin Namiq oğlu (d.1977) – iqtisadçı. 2005–2015-ci illərdə Heydər Əliyev Fondunda, 2015–2016-cı illərdə Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar naziri-

nin birinci müavini, 2016–2017-ci illərdə isə Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar naziri vəzifələrində çalışıb. 2017-ci ildən Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziridir. – 32–39.

**36. Qazaxıstan,** Q a z a x ı s t a n R e s p u b l i - k a s ı – Avrasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2,7 milyon km², əhalisi 18,5 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Nur-Sultan şəhəridir. – 38, 39, 300–302.

**37. Çin Xalq Respublikası** (ÇXR) – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon km², əhalisi 1,4 milyard nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansız), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszin) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri Məclisidir. Dövlət başçısı Çin Xalq Respublikasının Sədridir. Paytaxtı Pekin şəhəridir. – 38, 80, 100, 190, 194, 264.

**38. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı –** Xəzər dənizində yaradılmış və fəaliyyət göstərmiş limanlardan biri. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 18 mart 2015-ci il tarixli Sərəncamı ilə liman yenidən qurulmuş və Qapalı Səhmdar Cəmiyyəti kimi fəaliyyətə başlamışdır. – 42, 120.

**39. «Şahdəniz-2»** – Xəzər dənizində çox zəngin qaz yatağı. Burada ilk qazın hasilatına 2018-ci ildə başlanılmış, 2019-cu ildə isə 2 milyard $m^3$ qazın çıxarılması nəzərdə tutulur. *bp*-nin ən böyük layihəsidir. Bu yataqdan qazın Gürcüstan və Türkiyə ərazisi ilə Avropa ölkələrinə nəql edilməsi üçün mövcud infrastrukturun genişləndirilməsi və yeni qaz kəmərlərinin inşa edilməsi nəzərdə tutulur. – 43.

**40. «Cənubi Qafqaz»** – boru kəməri. Kəmər artıq istifadəyə verilmişdir. Azərbaycanı Gürcüstandan keçərək Türkiyə ilə birləşdirir. Kəmərin uzunluğu 691 km-dir. – 43.

**41. Trans–Anadolu boru kəməri** – TANAP-ın davamı. Azərbaycan qazını Türkiyə Cümhuriyyətinin qərb sərhədinə qədər çatdırıb, oradan Avropaya ötürəcəkdir. – 44.

**42. Trans–Adriatik boru kəməri** (TAP) – Azərbaycan qazını Yunanıstandan Albaniyaya, oradan Adriatik dənizindən keçərək, İtaliyaya, daha sonra qərbi Avropaya nəql edəcək boru kəməri. – 44.

**43. 1990-cı il 20 Yanvar hadisələri –** 1990-cı ilin yanvarında Azərbaycanda faciə baş verdi. Yanvarın 19-dan 20-nə keçən gecə fövqəladə vəziyyət elan edilmədən sovet ordusunun xüsusi təyinatlı cəza dəs-

tələri, dəniz donanmasının və daxili qoşunların bölmələri Bakı şəhərinə yeridildi. Sovet ordusunun bu kütləvi zorakılıq aktı nəticəsində 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, yüzlərlə adam qanunsuz həbs edilmiş və itkin düşmüş, dövlət əmlakına, ictimai və şəxsi əmlaka, şəhər təsərrüfatına və vətəndaşlara böyük maddi ziyan dəymişdi. 1990-cı ilin qanlı yanvarı Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan mübarizə tariximizdə Vətənin şəhid övladlarının qanı ilə yazılmış şərəfli səhifə oldu. – 46–50.

**44. Əli Əsədov,** Əli Hidayət oğlu (d.1956) – iqtisadçı. Azərbaycanın dövlət və siyasi xadimi. 1995–2000-ci illərdə Milli Məclisin üzvü olmuşdur. 1998–2012-ci illərdə Prezidentin İqtisadi məsələlər üzrə köməkçisi, 2012–2019-cu illərdə Azərbaycan Respublikası Prezidenti Administrasiyası rəhbərinin müavini, 2019-cu il oktyabrın 8-dən isə Azərbaycan Respublikasının Baş Naziridir. – 50.

**45. Oqtay Əsədov,** Oqtay Sabir oğlu (d.1955) – ictimai xadim, mühəndis. 1996–2004-cü illərdə Abşeron Regional Səhmdar Su Cəmiyyətinin, 2004–2005-ci illərdə «Azərsu» Səhmdar Cəmiyyətinin prezidenti olmuşdur. 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin Sədridir. Azərbaycan Respublikasının «Şərəf» və Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. – 50.

**46. Samir Nuriyev**, Samir Rafiq oğlu (d.1975) – mühəndis-iqtisadçı. 2018–2019-cu illərdə Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri, 2019-cu ildən isə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəridir. – 50.

**47. İsveçrə,** İsveçrə Konfederasiyası – Mərkəzi Avropada dövlət. Sahəsi 41,3 min km$^2$, əhalisi 8,6 milyon nəfərdir. İsveçrə federativ, 23 kantona bölünmüş respublikadır. Dövlət başçısı Prezidentdir, Prezidenti parlament Federal Şura üzvlərindən 1 il müddətinə seçir, yenidən seçilmək hüququ yoxdur. Prezident, həmçinin hökumət başçısıdır. Qanunverici hakimiyyət iki palatadan ibarət Federal Məclisə məxsusdur. Paytaxtı Bern şəhəridir. – 55–95.

**48. «VTB Bank»** – Rusiyanın universal kommersiya bankı. Ölkədə aktivlərin çoxluğuna görə 20-ci, nizamnamə kapitalına görə isə birincidir. Əsas qərargahı Moskvada yerləşir. – 56, 86.

**49. Andrey Kostin** (d.1956) – rusiyalı bankir və maliyyəçi. «VTB Bank»ın prezidenti və İdarə Heyətinin sədridir. – 56, 86.

**50. Dövlət Neft Fondu –** 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti neft və qaz ehtiyatlarına dair sazişlərin həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının əldə etdiyi gəlirlərin toplanılmasını, səmərəli idarə edilməsini, gələcək nəsillər üçün saxlanılmasını təmin edən xüsusi məqsədli dövlət qurumudur. – 56.

**51. Cisco** – əsasən böyük təşkilatlar və telekommunikasiya müəssisələri üçün rabitə şəbəkə avadanlığını hazırlayıb satan transmilli amerikan kompaniyası. Dünyada yüksək texnologiyalar sahəsində ixtisaslaşan ən iri kompaniyadır. Kompaniyanın xüsusiyyətlərindən biri biznes modelində mühəndislərin kompüter şəbəkəsində çoxəhatəli sertifikasiya sisteminə yiyələnmələridir. – 58.

**52. Mixail Qusman** (d.1950) – jurnalist. TASS İnformasiya Agentliyi baş direktorunun birinci müavini. Rusiya Federasiyası Dövlət mükafatı laureatıdır. Azərbaycan Respublikasının «Şöhrət», «Şərəf» və «Dostluq» ordenləri ilə təltif edilmişdir. – 59, 209–214.

**53. Mövlud Çavuşoğlu** (d.1968) – Türkiyənin siyasi xadimi. 2010–2012-ci illərdə AŞPA-nın başçısı, 2014-cü ildən Türkiyə Cümhuriyyətinin Xarici İşlər naziridir. Azərbaycan Respublikasının «Dostluq» ordeni ilə təltif edilmişdir. – 64, 70, 189–197.

**54. Borge Brende** (d.1965) – Norveç siyasətçisi. Dünya Davos İqtisadi Forumunun prezidentidir. – 65–66.

**55. Xorvatiya,** Xorvatiya Respublika-sı – Cənubi Avropada dövlət. Sahəsi 56,6 min km$^2$, əhalisi 4,3 milyon nəfərdir. İnzibati ərazisi 20 vilayətə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Zaqreb şəhəridir. – 67.

**56. Andrey Plenkoviç** (d.1970) – Xorvatiya hüquqşünası, diplomat və siyasətçi. 2016-cı ildən Xorvatiya Respublikasının Baş Naziridir. – 67.

**57. Avropa Yenidənqurma və İnkişaf Bankı –** Qərbi və Şərqi Avropa, MDB ölkələrini uzunmüddətli kreditlə təchiz edən regional dövlətlərarası bank. 1990-cı ildə yaradılmışdır. Mənzil-qərargahı Londonda yerləşir. Bankın 61 üzvü var, eləcə də Avropa İnvestisiya Bankı və Avropa İttifaqı ora daxildir. – 68.

**58. LUKoyl** – neft şirkəti. 1993-cü ildə Rusiya Federasiyası Hökumətinin qərarı ilə yaradılmışdır. Nəhəng sənaye-maliyyə kompleksinə malik olan şirkət Rusiya, MDB və dünyanın bir çox ölkələrində neft məhsullarının kəşfiyyatı, hasilatı, emalı və satışı ilə məşğul olur. Şirkət 1993-cü ildən Azərbaycanda fəaliyyət göstərir. – 69.

**59. Vahid Ələkbərov**, Vahid Yusif oğlu (d.1950) – 1993-cü ildən Rusiyanın ən böyük neft şirkətlərindən olan LUKoyl şirkətinin prezidentidir. Azərbay-

can Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 69.

**60. Monqolustan** – Mərkəzi Asiyada dövlət. Sahəsi 1,56 milyon km$^2$, əhalisi 3,2 milyon nəfərdir. İnzibati ərazisi 18 aymaka bölünür. Ulan-Bator, Dərhan və Erdenet şəhərləri xüsusi ərazi bölgüsünə daxildir. Dövlət başçısı Prezident, ali dövlət hakimiyyəti orqanı Böyük Xalq Xuralıdır. Paytaxtı Ulan-Bator şəhəridir. – 70, 78, 86.

**61. Xaltmaaqiyn Battulqa** (d.1963) – Monqolustanın dövlət xadimi. 2017-ci ildən Monqolustanın Prezidentidir. Sambo üzrə dünya çempionudur (1983) – 70, 78, 86.

**62. Giorgi Qaxaria** (d.1975) – Gürcüstanın siyasi xadimi. 2019-cu ilin sentyabrından Gürcüstanın Baş Naziridir. – 70, 87.

**63. Pakistan,** Pakistan İslam Respubli-kası – Cənubi Asiyada dövlət. Sahəsi 804 min km$^2$, əhalisi 207,8 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı İslamabad şəhəridir. – 71.

**64. İmran Xan** (d.1952) – Pakistanın dövlət xadimi. 2018-ci ildən Pakistan İslam Respublikasının Baş Naziridir. – 71.

**65. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər

170 min əhali yaşayırdı. Sahəsi 4,4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildən muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq, Dağlıq Qarabağın işğalına başladılar. Dağlıq Qarabağın və ətraf rayonların işğaldan azad edilməsi üçün BMT-nin 822, 853, 874, 884 saylı qətnamələri olmasına baxmayaraq, Ermənistan silahlı qüvvələri hələ də Azərbaycan torpaqlarını işğal altında saxlayır. – 71, 283, 309, 334–336.

**66. Kəşmir** – Asiyada tarixi vilayət. Qədimdə və orta əsrlərdə Hindistan ərazisində yaranmış müxtəlif dövlət birləşmələrinin tərkibində olmuşdur. 1846-cı ildə ingilislər Kəşmiri işğal edib 7,5 milyon rupi ödənclə Sammi knyazlığına vermişlər. 1947-ci ilin avqustunda yaradılmış müstəqil Hindistan dövləti Kəşmiri öz ərazisinə qatmağa çalışır. Hal-hazırda Kəşmirin şimal-qərb hissəsi Pakistanın, qalan hissəsi isə Hindistanın (1949) nəzarəti altındadır. 1956-cı ildə Kəşmir Hindistan İttifaqının tərkib hissəsi elan edildi. Hindistanla Pakistan arasında bir neçə dəfə hərbi münaqişə baş versə də, bu problem hələ də öz həllini tapmamışdır. – 71.

**67.** «**OPEC+**» (Neft ixrac edən ölkələrin təşkilatı) – 1960-cı ildə yaradılmışdır. Tərkibinə İran, Venesuela, Küveyt, Səudiyyə Ərəbistanı, Əlcəzair, Nigeriya, Ekvador, Qabon, Anqola, İraq, Konqo, Liviya, BƏƏ, Ekvatorial Qvineya daxildir. Mənzil-qərargahı Vyanada yerləşir. – 72–74, 296.

**68. Polşa,** P o l ş a  R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 312,7 min $km^2$, əhalisi 38,3 milyon nəfərdir. İnzibati cəhətdən 49 voyevodalığa bölünür. Ali və yeganə qanunverici orqanı ikipalatalı Seymdir. Paytaxtı Varşava şəhəridir. – 77, 148.

**69. Andjey Duda** (d.1972) – Polşanın siyasi xadimi. Hüquq elmləri doktoru. 2015-ci ildən Polşa Respublikasının Prezidentidir. – 77.

**70. *bp*,** «B r i t i ş  P e t r o l e u m» – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çıxarılması, emalı və satışı ilə məşğuldur. 1994-cü ildən Azərbaycanda fəaliyyət göstərir. Hazırda ABƏŞ-in əsas operatorudur. – 79.

**71. Robert Dadli** (d.1955) – mühəndis. 2009-cu ildən *bp*-nin icraçı direktoru, 2010-cu ildən isə baş direktorudur. Azərbaycan Respublikasının «Dostluq» ordeni ilə təltif edilmişdir. – 79.

**72. Avropa İttifaqı** (Aİ) – Avropa dövlətlərinin ən iri inteqrasiya birliyi. Avropa İttifaqına 27 dövlət daxildir.

Avropa İttifaqının yaradılması haqqında müqavilə 1993-cü ildə Maastrixtdə imzalanmışdır. Aİ azadlıq, demokratiya, insan hüquqları və azadlıqlarına hörmət, həmçinin hüququn aliliyi prinsiplərinə – üzv dövlətlər üçün ümumi olan prinsiplərə əsaslanır.

Aİ Avropada iqtisadi inteqrasiyanın daha da inkişaf etmiş formasıdır. İqtisadi və valyuta ittifaqı 1999-cu ildən fəaliyyətə başlamış və vahid valyuta – avro dövriyyəyə buraxılmışdır. Aİ üzvləri yalnız Avropa dövlətləri ola bilər. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindəndir. Təşkilatın mənzil-qərargahı Brüsseldə yerləşir. – 82, 283, 295, 307.

**73. Simonetta Sommaruqa** (d.1960) – İsveçrə siyasətçisi. 2020-ci il yanvarın 1-dən İsveçrə Konfederasiyasının Prezidentidir. – 88.

**74. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi. 1980-ci ildən siyasi fəaliyyətə başlayıb. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur, Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Rəcəb Tayyib Ərdoğan TBMM-də Türkiyənin Baş Naziri, 2014-cü ilin sentyabrında və 2018-ci ilin aprelində yenidən Türkiyə Cümhuriyyətinin Prezidenti seçilmişdir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 96, 190, 194, 195, 201, 224.

**75. Avstraliya,** A v s t r a l i y a İ t t i f a q ı – Avstraliya qitəsində dövlət. Sahəsi 7,7 milyon km$^2$, əhalisi 25,2 milyon nəfərdir. Avstraliya İttifaqı inzibati cəhətdən 6 ştata və 2 əraziyə bölünür. Dövlət başçısı Böyük Britaniya Kraliçasıdır. Ölkədə kraliçanı General-qubernator təmsil edir. Qanunverici orqanı ikipalatalı (Senat və Nümayəndələr Palatası) parlamentdir. Paytaxtı Kanberra şəhəridir. – 97.

**76. Devid Con Hörli** (d.1953) – 2019-cu il iyulun 1-dən Avstraliyanın 27-ci General-qubernatorudur. – 97.

**77. ATƏT-in Parlament Assambleyası** – 317 parlamentarisi olan beynəlxalq parlament qrupu. 1990-cı ildə Parisdə yaradılmışdır. Assambleya ildə bir neçə dəfə Milli parlament deputatlarını toplayaraq, ATƏT-lə bağlı məsələləri müzakirə edir. Hər il Assambleya səs çoxluğu ilə sədr seçir, sədr əsas yığıncaqlarda iştirak edir və yığıncaqlara sədrlik edir. Assambleyanın 14 daimi əməkdaşı vardır. Mənzil-qərargahı Kopenhagendə yerləşir. – 98.

**78. Şri-Lanka,** Ş r i - L a n k a S o s i a l i s t D e -m o k r a t i k R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 65,6 min km$^2$, əhalisi 22 milyon nəfərdir. İnzibati ərazisi 25 əyalətə bölünür. Dövlət və hökumət başçısı Prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Şri-Cayavardenepura-Kotte şəhəridir. – 99.

**79. Qotabaya Racapaksa** (d.1949) – Şri-Lankanın dövlət və hərbi xadimi. 2019-cu ildən Şri-Lanka Sosialist Demokratik Respublikasının Prezidentidir. – 99.

**80. Si Cinpin** (d.1953) – Çinin dövlət və siyasi xadimi, fəaliyyətdə olan Çin Kommunist Partiyasi Mərkəzi Komitəsinin Baş katibi, 2013-cü ildən Çin Xalq Respublikasının, ÇXR Mərkəzi Hərbi Şurasının Sədridir. – 100.

**81. Polad Bülbüloğlu** (d.1945) – bəstəkar, müğənni, dövlət xadimi. Azərbaycan Respublikasının Xalq artisti. 1988–2005-ci illər Azərbaycan Respublikasının Mədəniyyət naziri olmuşdur. Hazırda Azərbaycan Respublikasının Rusiya Federasiyasında Fövqəladə və Səlahiyyətli səfiridir. Birinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin üzvü olmuşdur. Azərbaycan Respublikasının «Şərəf», «İstiqlal» və «Heydər Əliyev» ordenləri ilə təltif edilmişdir. – 101–105.

**82. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1944-cü ildə ABŞ-da Bretton-Vuds konfransında təsis olunmuşdur. İdarə Heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Ban-

ka 188 dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 109.

**83. Mikayıl Cabbarov,** Mikayıl Çingiz oğlu (d.1976) – hüquqşünas-iqtisadçı. 2004–2009-cu illərdə Azərbaycan Respublikası İqtisadi İnkişaf nazirinin müavini, 2013–2017-ci illərdə Azərbaycan Respublikasının Təhsil naziri, 2017–2019-cu illərdə isə Vergilər naziri olmuşdur. 2019-cu il oktyabrın 23-dən İqtisadiyyat naziridir. – 122–129.

**84. Naxçıvan Muxtar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət. Sahəsi 5,5 min $km^2$, əhalisi 440 min nəfərdir. Hazırda 7 inzibati rayonu (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli), 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kəndi vardır. – 140, 187–188.

**85. Naxçıvan** – Azərbaycan Respublikasında şəhər, Naxçıvan Muxtar Respublikasının paytaxtı. Sahəsi 26 $km^2$, əhalisi 92,1 min nəfərdir. Azərbaycanın ən qədim şəhərlərindəndir. Müasir Naxçıvan Antik və orta əsr şəhər yerinin xarabalıqları üzərində yerləşmişdir. E.ə. IX–VI əsrlərdə qədim

Manna və Midiyanın, eramızın əvvəllərində Albaniyanın, IV əsrdən Sasanilərin tərkibində olmuşdur. 654-cü ildə isə Naxçıvanı ərəblər işğal etmişlər. Atabəylər dövlətinin (1136–1225) paytaxtlarından biri olmuşdur. 1828-ci il Türkmənçay müqaviləsinə qədər müxtəlif dövlətlərin nüfuz dairəsində olmuş, məhz bu ildən Rusiya imperiyasına birləşdirilmiş və qəza mərkəzinə çevrilmişdir. 1924-cü il fevralın 9-da Naxçıvan MSSR təşkil ediləndən muxtar respublikanın paytaxtıdır. – 140–143, 187.

**86. «Duzdağ» –** fizioterapiya sanatorisi. Babək rayonunun Böyükduz kəndi yaxınlığında qədim duz mədənləri bazası əsasında 1979-cu ildə təşkil olunmuşdur. Burada bronxial astma və ağciyər-bronx sisteminin digər qeyri-spesifik xəstəlikləri müalicə olunur. – 141.

**87. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti UNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 146, 236.

**88. Ukrayna** – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 603,5 min $km^2$, əhalisi 42,4 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı Radadır. Paytaxtı Kiyev şəhəridir. – 148.

**89. «SOCAR Polymer»** – Azərbaycanın neft-kimya sənayesində dövlət və özəl sektor tərəfdaşlığı ilə yaradılmış ilk şirkət. – 183.

**90. UNESKO –** BMT-nin maarif, elm və mədəniyyət üzrə hökumətlərarası təşkilatı. 1945-ci ilin noyabrında yaradılmış, 1946-cı ildən fəaliyyətə başlamışdır. Ali orqanı 2 ildən bir çağırılan konfransdır. Katibliyi Parisdə yerləşir. Azərbaycan 1992-ci ildən UNESKO-nun üzvüdür. – 185.

**91. Şəki Xan sarayı–** XVII əsrin 60-cı illərinə aid Azərbaycan memarlıq abidəsi. XVII əsrdə Azərbaycanda tikilmiş saray tipli binaların ən qiymətlisi hesab olunur. Müxtəlif dövrlərdə yaşamış rəssamların işlədiyi təsvirlər «nəbati» ornament kompozisiyalarından, insan və quş rəsmlərindən, müharibə və ov səhnələrindən ibarətdir. 2019-cu ildə UNESKO Ümumdünya irsi siyahısına salınmışdır. – 185.

**92. Qobustan qayaüstü rəsmləri** – Azərbaycanın şərqində alçaq dağlıq sahə, uzunluğu 100 km, eni 80 km-ə yaxındır. Qobustan yaxınlığında, Qobustan qoruğu ərazisində zəngin qayaüstü rəsmlərlə yanaşı, Daş dövründən başlamış orta əsrlərədək çoxlu ibtidai insan düşərgəsi, qədim yaşayış məskəni, kurqanlar və s. arxeoloji abidələr vardır. Onların 5-ində Mezolit, 4-ündə Neolit, 7-ində Tunc, 1-ində Antik və 5-ində orta əsrlər dövründə yaşayış olduğunu göstərən mədəni təbəqə və maddi qalıqlar aşkar edilmişdir. – 185.

**93. İçərişəhər –** Bakının qala divarları ilə əhatə olunmuş qədim hissəsi. Sahəsi 22 hektardır. Arxeoloji qazıntılar nəticəsində İçərişəhər ərazisində 2 mədəni təbəqə müəyyənləşdirilmişdir. XIV–XVII əsrləri əhatə edən üst təbəqədən düzbucaqlı və dördkünc yaşayış evlərinin qalıqları, VIII–XIII əsrlərə aid alt təbəqədən düzbucaqlı formalı kiçik otaqların qalıqları, quyular və s. maddi mədəniyyət nümunələri aşkar edilmişdir.

İçərişəhər orta əsrlərdə Bakının əsas mərkəzinə çevrilmiş, XII əsrdə burada ilk qala divarları tikilmişdir. Bu divarlar 25–30 m dənizin içərisinə uzanaraq, İçərişəhərin qarşısında qapalı liman əmələ gətirmişdir. İçərişəhərin 3 əsas – Şamaxı, Salyan və dəniz sahilinə açılan darvazası olmuşdur. İçərişəhərdəki Sınıqqala (1078), Qız qalası və s. abidələr

İçərişəhərin əvvəllər dənizə yaxın sahədə inkişaf etdiyini göstərir. XV əsrdə Şirvanşahlar sarayı tikilmişdir. XVII əsrdə İçərişəhərdə çoxlu karvansara və ticarət binası inşa edilmiş, XVIII əsrdə isə Xan sarayı tikilmiş, yeni su kəmərləri çəkilmişdir. XIX əsrdə və XX əsrin əvvəllərində İçərişəhərin plan quruluşu dəyişdirilmədən köhnə binaların yerində əsaslı daş binalar tikilmişdir. Bu zaman qala divarlarının ikinci sırası sökülmüş və yalnız Şamaxı darvazasının yanında 2-ci darvaza tikilmişdir. Beləliklə, qoşa darvaza əmələ gəlmişdir. 1977-ci ildə İçərişəhər Azərbaycan memarlığı tarixi qoruğuna çevrilmişdir. 2000-ci ildə UNESKO Ümumdünya irsi siyahısına salınmışdır. – 185.

**94. Qız qalası** – Bakı şəhərində tarixi-memarlıq abidəsi. Tədqiqatçıların çoxu tərəfindən müdafiə məqsədilə XII əsrdə tikildiyi qəbul olunmuşdur. Qalanın daş kitabəsində kufi xətti ilə Məsud Davud oğlunun («Qübbə Məsud bin Davud») adı həkk edilmişdir. Qız qalası memarlıq formasına görə Şərqdə yeganə abidədir. Abidənin hündürlüyü 32 m, diametri 16–16,5 m-dir. Divarlarının qalınlığı aşağıda 5 m, yuxarıda 4 m olan Qız qalası silindrik əsas hissədən və ona bitişik bütöv çıxıntıdan ibarət orijinal quruluşa malikdir. Silindrik hissə daxildə səkkizmərtəbəlidir. Bu mərtəbələrdə 250-dək adam yerləşə bilər. Abidənin Qız qalası adlanması haqqında xalq arasında müxtəlif əfsanələr mövcuddur. – 185.

**95. Şirvanşahlar sarayı** – Azərbaycan memarlıq kompleksi, Şirvan – Abşeron memarlıq məktəbinin görkəmli abidəsi. Bakının İçərişəhər hissəsindədir. Bakının XV əsrdə Şirvanşahlar dövlətinin paytaxtına

çevrilməsilə əlaqədar tikilmişdir. 1420–60-cı illər arasında salınmış Şirvanşahlar sarayı ansamblının binaları yerin relyefinə uyğun olaraq inşa edilmişdir. Ərazisinin ən hündür yerində olan Yuxarı həyətdə saray binası və ona bitişik Divanxana, aşağı həyətdə türbə və minarəli Şah məscidi, yuxarı həyətin yaxınlığında Seyid Yəhya Cəlaləddin Bakuvinin türbəsi və ona bitişik kiçik məscid yerləşir. Türbə olan həyətin giriş baştağı Şimal darvazası tikilmişdir. Şirvanşahlar sarayı ansamblının yaxınlığında hamam, «Şah kəhrizi»nin qurtaracağında 500 min litr su tutan ovdan qalmışdır. – 185.

**96. Vasif Talıbov,** V a s i f  Y u s i f  o ğ l u (d.1960) – Azərbaycanın dövlət xadimi, 1995-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin üzvü, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədridir. Azərbaycan Respublikasının «Şöhrət» və «Şərəf» ordenləri ilə təltif edilmişdir. – 187–188.

**97. Avropa Şurası Parlament Assambleyası** (AŞPA) – 1949-cu ildə yaradılmışdır. AŞPA-ya 47 Avropa ölkəsi daxildir. Üzv dövlətlərin məclis üzvlərinin təmsil olunduğu Parlament Assambleyası 324 deputatdan ibarətdir. Assambleya baş katibi, İnsan hüquqları üzrə Komissarı və Avropa İnsan hüquqları Məhkəməsinin hakimlərini seçir. Mənzil-qərargahı Strasburqda yerləşir. – 190, 191, 193, 196.

**98. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Avropa Şurasının əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq,

seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın bütün üzv dövlətləri Avropa İnsan hüquqları, demokratiya və qanunun aliliyini qorumağı nəzərdə tutan müqaviləni – insan hüquqlarının müdafiəsi haqqında Konvensiyanı imzalamışdır. Üzv dövlətlərdə yerli və regional demokratiyanın gücləndirilməsindən məsul olan Yerli və Regional Hakimiyyətlər Konqresi AŞ-ın bir təsisatıdır. İki palata və 3 komitədən ibarətdir. AŞ-ın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 25 yanvar 2001-ci ildən Avropa Şurasının tamhüquqlu üzvüdür. Mənzil-qərargahı Strasburqda yerləşir. – 191, 192, 193, 196.

**99. Qırğız Respublikası** – Orta Asiyanın şimal-şərqində dövlət. Sahəsi 200 min km$^2$, əhalisi 6 milyon nəfərdir. İnzibati ərazisi 7 vilayətə, 40 rayona bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Bişkek şəhəridir. – 198–200.

**100. Sooronbay Jeenbekov** (d.1958) – Qırğızıstanın siyasi və dövlət xadimi. 2017-ci ildən Qırğız Respublikasının Prezidentidir. – 198.

**101. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə,

1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1991) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» Proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldə yerləşir. – 202–205, 206, 208.

**102. Tod Volters** (d.1960) – ABŞ-ın hərbi xadimi. ABŞ Hərbi Hava Qüvvələrinin generalı. 2019-cu ildən NATO-nun Avropada Birləşmiş Hərbi Qüvvələrinin Ali Baş komandanıdır. – 202–205.

**103. Əfqanıstan,** Əfqanıstan İslam Res-publikası – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 652,8 min km$^2$, əhalisi 31,6 milyon nəfərdir. İnzibati ərazisi 34 vilayətə bölünür. Dövlət başçısı Prezidentdir. Paytaxtı Kabil şəhəridir. – 203, 204, 306.

**104. Hikmət Hacıyev,** Hikmət Fərhad oğlu (d.1979) – Azərbaycan Respublikası Prezidenti Administrasiyası Xarici Əlaqələr şöbəsinin rəhbəri. 2014–2018-ci illərdə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri olmuşdur. – 204.

**105. Valeri Gerasimov** (d.1955) – ordu generalı. 2012-ci ildən Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisidir. – 206–208.

**106. Vladimir Putin** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur. 1975–97-ci

illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nin direktoru, 1999–2000 və 2008–2012-ci illərdə Rusiya hökumətinin başçısı, 2012 və 2018-ci ildə yenidən Rusiya Federasiyasının Prezidenti seçilmişdir. – 207.

**107. Həsən Ruhani** (d.1948) –İranın siyasi və dövlət xadimi. 2013-cü ildən İran İslam Respublikasının Prezidentidir. – 217.

**108. Əlibaba Məmmədov,** Ə l i b a b a B a l a ə h- m ə d o ğ l u (d.1930) – Azərbaycan xanəndəsi, bəstəkar, Azərbaycan Respublikasının Xalq artisti. Azərbaycan Respublikasının «Şərəf», «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 235–243.

**109. Leyla Əliyeva,** L e y l a İ l h a m q ı z ı (d.1986) – «Baku» jurnalının baş redaktoru, Heydər Əliyev Fondunun vitse-prezidenti, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın böyük qızı. 2006–2008-ci illərdə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun magistraturasında oxumuş və bu institutda oxuyan azərbaycanlı tələbələrin nümayəndəsi kimi fəaliyyət göstərmişdir. Moskvada Heydər Əliyev Fondunun filialına başçılıq edir. Azərbaycan Respublikasının «Tərəqqi» medalı ilə təltif edilmişdir. – 235, 241–243.

**110. İrəvan xanlığı** – XVIII əsrin ortalarında Cənubi Qafqazda, keçmiş Çuxursəd bəylərbəyliyi ərazisində ya-

ranmış müstəqil Azərbaycan feodal dövləti. Ağrıdağ düzənliyinin Göyçə gölü hövzəsini və Araz çayından cənub-qərbə doğru uzanan ərazini əhatə edirdi. Azərbaycanın cənub-qərbində yerləşən bu xanlıq paytaxtı İrəvan şəhəri olmaqla, inzibati cəhətdən 15 mahala bölünürdü. İrəvan xanlığı 1747–97-ci illərdə müstəqil dövlət, 1797–1828-ci illərdə isə İranın hakimiyyəti altında olmuşdur. Türkmənçay müqaviləsinə (1828) görə Rusiyanın tərkibinə keçmişdir. Bu zaman İrəvan xanlığı ərazisində 420-dən çox kənd dağıdılmış, on minlərlə azərbaycanlı əhali məhv edilmişdi. – 242.

**111. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay ( 1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr–1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli Fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də «Azərbaycan vətəndaşlığı haqqında» Qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli

hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan Dövlət Bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 271, 316.

**112. Kasım-Jomart Tokayev** (d.1953) – Qazaxıstanın dövlət və siyasi xadimi. 2013–2019-cu illərdə Qazaxıstan Senatının Sədri olmuşdur. 2019-cu ildən Qazaxıstan Respublikasının Prezidentidir. – 300–302.

**113. Məhəmməd Qani** (d.1949) – Əfqanıstanın siyasi xadimi. 2014-cü ildən Əfqanıstan İslam Respublikasının Prezidentidir. – 306.

**114. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri və Xankəndidə yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmışlar, 613 azərbaycanlı öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. Faciəni qətliam kimi dünyanın 10-dan çox ölkəsi, həmçinin ABŞ-ın 22 ştatı tanımışdır. – 317, 319, 322.

**115. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna 2 sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından Rusiya, ABŞ və Fransa həmsədr

ölkələrdir. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 322, 328, 331.

**116. Xankəndi** – Azərbaycan Respublikasında şəhər. Dağlıq Qarabağ Muxtar Vilayətinin mərkəzi. 1991-ci ildən Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 327.

**117. Stalin,** İ o s i f V i s s a r i o n o v i ç (1879–1953) – 1922–53-cü illərdə SSRİ-nin partiya və dövlət rəhbəri. İkinci dünya müharibəsi zamanı Qələbənin əldə edilməsində böyük xidmətləri olmuşdur. – 327.

**118. ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1973-cü ilin iyulunda Helsinkidə qoyulmuşdur. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra Ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in Zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 332.

## Şəxsi adlar göstəricisi

**Abdullayev Səbuhi** – 129–133
**Abdurəhmanova Yəmən** – 278–281
**Ağayev Qəzənfər** – 150–153
**Aydarbekov Çingiz** – 198–200
**Ayrım Şamil** – 224–229
**Babayeva Xəyalə** – 276–277
**Barkindo Məhəmməd** – 72–74
**Bayramov Niyazi** – 136–140
**Bayramova Emiliya** – 254
**Battulqa Xaltmaaqiyn** – 70, 78, 86
**Bəşirli Səadət** – 10
**Birol Fatih** – 298
**Brende Borge** – 65–66
**Cabarova Səbinə** – 270
**Cabbarov Mikayıl** – 122–129
**Cəfərov Ceyhun** – 156–160,244–282
**Çakrabarti Suma** – 68, 70
**Çavuşoğlu Mövlud** – 64, 70, 189–197
**Dadli Robert** – 79
**Dodon İqor** – 303–305
**Duda Andjey** – 77
**Əhmədova Afət** – 146–150

**Əl-Səid Heytəm bin Tariq** – 31
**Ələkbərov Vahid** – 69
**Ələsgərov Fuad** – 256
**Əliyev Ziyəddin** – 143–146
**Əl-Sabah Xalid** – 292
**Əliyev Heydər** – 17, 20,22, 26,27, 28, 30,
47, 104, 150, 194, 213, 244
**Əliyeva Leyla** – 235, 241–243
**Əliyeva Mehriban** – 15, 18, 46, 105, 130,137,
146, 214, 218, 235, 238,
239, 240, 241–243, 278
**Ərdoğan Rəcəb Tayyib** – 96, 190, 194, 195, 201, 224
**Əsədov Əli** – 50
**Əsədov Oqtay** – 50
**Əsədullayev Anar** – 140–143
**Gerasimov Valeri** – 206–208
**Hacıyev Hikmət** – 204
**Harms Mixael** – 286
**Hart Keest** – 60–61
**Hörli Devid** – 97
**Hüseynov Mehman** – 133–136

**Hüseynova Dinarə** – 10
**Han Yohannes** – 307
**Xalip Yakov** – 243
**İmran Xan** – 71
**İrəvani Mirzə Qədim** – 242
**Jeenbekov Sooronbay** – 198
**Kalaşnikov Leonid** – 230–233
**Kamü Bertran** – 75–76
**Kelimbetov Kayrat** – 86
**Kərimli Yusif** – 10
**Kərzai Həmid** – 205
**Klaar Toivo** – 283
**Kostin Andrey** – 56, 86
**Kramer Kelli** – 58
**Qaxaria Giorgi** – 70, 87
**Qani Məhəmməd** – 306
**Quluzadə Ramin** – 32–39
**Quminski Viktor** – 234
**Qusman Mixail** – 59, 209–214
**Malley Robert** – 308–309
**Maurer Peter** – 293
**Mehdiyev Ülvi** – 256
**Məmmədov Əlibaba** – 235–243
**Məmmədov Saleh** – 244
**Mirzəyev Ramazan** – 248
**Muradov Vidadi** – 249
**Mütəllibov Ayaz** – 319, 322, 326

**Molotov Vyaçeslav** – 11
**Nazarbayev Nursultan** – 301
**Nauseda Gitanas** – 285
**Norov Vladimir** – 290–291
**Nuriyev Samir** – 50
**Orucov Anar** – 153–156
**Plenkoviç Andrey** – 67
**Polad Bülbüloğlu** – 101–105
**Profumo Alessandro** – 299
**Putin Vladimir** – 207
**Racapaksa Qotabaya** – 99
**Rəcəbov Teymur** – 10
**Reşmayer Andreas** – 286
**Rəşidov Nicat** – 256
**Rondolat Erik** – 62–63
**Rubenşteyn Devid** – 57
**Ruhani Həsən** – 217
**Rzayev Baba** – 219
**Saetre Eldar** – 93
**Si Cinpin** – 100
**Skotti Veronika** – 89–90
**Soljenitsın Aleksandr** – 11
**Sommaruqa Simonetta** – 88
**Stalin İosif** – 327
**Süleymanlı Aydın** – 10
**Şirinova Ülkər** – 275–276
**Şpuler Peter** – 215–216

**Talıbov Vasif** – 187–188
**Tassel Loik** – 91–92
**Tokayev Kasım-Jomart**– 300–302
**Tod Volters** – 202–205
**Tsereteli Georgi** – 98
**Van Trotsenburq Aksel** – 310–312
**Valovaya Tatyana** – 86
**Vuçiç Aleksandr** – 284
**Yermakov Dmitri** – 242
**Yusifzadə Xoşbəxt** – 15–30

## Coğrafi adlar göstəricisi

**Abşeron** *(yarımada)* –167,168
**Ağdaş** – 250
**Ağdərə** – 6
**Adriatik dənizi** – 44
**Ağstafa** – 153–156
**Ağsu** – 245, 250
**Afrika** – 107
**Aktau** – 302
**Albaniya** – 44, 295
**Almaniya** – 11, 155, 156, 286–336
**Alekseyevka** – 146
**Amerika Birləşmiş Ştatları**– 21, 86, 148
**Asiya** – 38, 42, 107, 190
**Astara** – 33, 150–153, 163
**Avrasiya** – 34, 42
**Avropa** – 10, 29, 34, 38, 43, 156, 190, 224
**Avstraliya** – 97
**Banqladeş** – 130
**Belarus** – 53
**Berlin** – 243

**Belçika** – 249
**Bərdə** – 142
**Birləşmiş Ərəb Əmirlikləri**– 148
**Bolqarıstan** – 295
**Bosniya və Herseqovina** – 295
**Buduq** – 145
**Cenevrə** – 86
**Cəbrayıl** – 6
**Cənubi Qafqaz** – 186, 284, 286, 287
**Çin** – 38, 80, 100, 190, 194, 264
**Dağlıq Qarabağ** – 71, 283, 309, 334–336
**Dəkkə** – 130
**Davos** – 55–95, 194
**Dubay** – 152
**Elazığ** – 96
**Əfqanıstan** – 203, 204, 306
**Füzuli** – 6
**Gəncə** – 36, 136–140, 164
**Göyçay** – 250
**Gürcüstan** – 11, 43, 44, 70, 87, 164
**Hacıqabul** – 250
**Həştərxan** – 26
**Hindistan** – 264
**Hyuston** – 21, 28
**Xankəndi** – 327

**Xəzər dənizi** – 23, 42, 300, 301, 302
**Xınalıq** – 145
**Xocalı** – 317
**Xorvatiya** – 67
**İran** – 11, 86, 217
**İrəvan** – 11, 242
**İsmayıllı** – 25
**İsveçrə** – 55–95
**Karrar** – 247–249
**Kəşmir** – 71
**Köhnəbazar** – 252
**Kürdəxanı** – 20
**Kürdəmir** – 156–160, 244–282
**Küveyt** – 292
**Qax** – 250
**Qazaxıstan** – 38–39, 300–302
**Qırğız Respublikası** – 198–200
**Qəbələ** – 129–133, 250
**Qobustan** – 185,250
**Qonaqkənd** – 145
**Quba** – 143–146
**Latın Amerikası** – 107
**London** – 243
**Litva** – 285
**Mərkəzi Asiya** – 83
**Mingəçevir** – 133–136

**Monqolustan** – 70, 78, 186
**Moskva** – 26, 47, 80, 152, 243
**Münhen** – 286–336
**Monteneqro** – 295
**Moldova** – 303–305
**Montrö** – 94–95
**Naxçıvan Muxtar Respublikası**– 140, 187–188
**Naxçıvan** – 140–143, 187
**Oğuz** – 250
**Oman** – 31
**Orta Asiya** – 92, 186
**Pakistan** – 71
**Paris** – 243
**Pekin** – 80
**Pirallahı** – 219–223
**Pirili** – 248
**Pirşağı** – 20
**Polşa** –77, 148
**Rusiya** – 11, 12, 51–54, 56, 69, 80, 86, 148, 163, 202, 206–208, 209–214, 230–233
**Salyan** – 250
**Serbiya** – 284
**Sumqayıt** – 163
**Şamaxı** – 250

**Şanxay** – 290
**Şəki** – 185, 250
**Şilyan** – 252
**Şri-Lanka** – 99
**Tbilisi** – 243
**Türkiyə** – 11, 43, 44, 64, 70, 96, 189–187, 201, 224–229
**Ucar** – 250
**Ukrayna** – 148
**Uzaq Şərq** – 92
**Van** – 201
**Yaxın Şərq** – 208
**Yenikənd** – 252
**Yunanıstan** – 44
**Zaqatala** – 250
**Zərdab** – 250

## MÜNDƏRİCAT

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİ
YANINDA NAZİRLƏR KABİNE-TİNİN 2019-cu İLİN
YEKUNLARINA
HƏSR OLUNMUŞ MÜŞAVİRƏSİ

*13 yanvar 2020-ci il* ........................................................................... *5*

GÖRKƏMLİ NEFTÇİ-ALİM, GEOLOQ, AKADEMİK
XOŞBƏXT YUSİFZADƏNİN
90 İLLİK YUBİLEYİ MÜNASİBƏTİLƏ KEÇİRİLMİŞ
YUBİLEY MƏRASİMİ

*14 yanvar 2020-ci il* ..........................................................................*15*

OMAN SULTANI ƏLAHƏZRƏT HEYTƏM BİN
TARİQ ƏL-SƏİDƏ

*15 yanvar 2020-ci il*...........................................................................*31*

NƏQLİYYAT, RABİTƏ VƏ YÜKSƏK
TEXNOLOGİYALAR NAZİRİ
RAMİN QULUZADƏ İLƏ GÖRÜŞ

*15 yanvar 2020-ci il* ..........................................................................*32*

DAVOS İQTİSADİ FORUMUNUN RƏSMİ SAYTINDA
AZƏRBAYCAN RESPUBLİKA-
SININ PREZİDENTİ İLHAM ƏLİYEVİN DƏRC
OLUNMUŞ «AZƏRBAYCANIN

VAHİD VƏ DAYANIQLI DÜNYADA ROLU»
SƏRLÖVHƏLİ MƏQALƏSİ

*15 yanvar 2020-ci il ............................................................................40*

ŞƏHİDLƏR XİYABANINI ZİYARƏT

*20 yanvar 2020-ci il ............................................................................46*

DÜNYA İQTİSADİ FORUMU ÇƏRÇİVƏSİNDƏ
RUSİYANIN «ROSSİYA-24» TELEVİZİYA
KANALINA MÜSAHİBƏ

*20 yanvar 2020-ci il.............................................................................51*

İSVEÇRƏ KONFEDERASİYASINA
İŞGÜZAR SƏFƏR

*20 yanvar 2020-ci il ............................................................................55*

«VTB BANK»IN PREZİDENTİ – İDARƏ HEYƏTİNİN
SƏDRİ ANDREY KOSTİN
İLƏ GÖRÜŞ

*20 yanvar 2020-ci il ............................................................................56*

«CARLYLE GROUP» ŞİRKƏTİNİN HƏMTƏSİSÇİSİ
DEVİD RUBENŞTEYN İLƏ GÖRÜŞ

*20 yanvar 2020-ci il ............................................................................57*

CİSCO ŞİRKƏTİNİN İCRAÇI VİTSE-PREZİDENTİ VƏ
BAŞ MALİYYƏ DİREKTORU
KELLİ KRAMER İLƏ GÖRÜŞ

*20 yanvar 2020-ci il* ........................................................................................ *58*
TASS-ın BAŞ DİREKTORUNUN BİRİNCİ MÜAVİNİ
CƏNAB MİXAİL QUSMANA

*21 yanvar 2020-ci il*........................................................................................*59*

«CARLSBERG GROUP» ŞİRKƏTİNİN
BAŞ İCRAÇI DİREKTORU KEEST HART
İLƏ GÖRÜŞ

*21 yanvar 2020-ci il*........................................................................................*60*

«SİGNİFY» ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU
ERİK RONDOLAT
İLƏ GÖRÜŞ

*21 yanvar 2020-ci il*........................................................................................*62*

TÜRKİYƏ RESPUBLİKASININ XARİCİ
İŞLƏR NAZİRİ MÖVLUD ÇAVUŞOĞLU
İLƏ GÖRÜŞ

*21 yanvar 2020-ci il*........................................................................................*64*

DÜNYA İQTİSADİ FORUMUNUN
PREZİDENTİ BORGE BRENDE
İLƏ GÖRÜŞ

*21 yanvar 2020-ci il*........................................................................................*65*

XORVATİYA RESPUBLİKASININ
BAŞ NAZİRİ ANDREY PLENKOVİÇ
İLƏ GÖRÜŞ

*21 yanvar 2020-ci il*........................................................................................*67*

AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKININ PREZİDENTİ SUMA ÇAKRABARTİ İLƏ GÖRÜŞ

*21 yanvar 2020-ci il*......................................................................*68*

RUSİYANIN «LUKOYL» ŞİRKƏTİNİN PREZİDENTİ VAHİD ƏLƏKBƏROV İLƏ GÖRÜŞ

*21 yanvar 2020-ci il*......................................................................*69*

DÜNYA İQTİSADİ FORUMU ÇƏRÇİVƏSİNDƏ «AVRASİYA ÜÇÜN YENİ BAXIŞ–DAYANIQLI İNKİŞAF ÜÇÜN TƏRƏFDAŞLIQ» MÖVZUSUNDA KEÇİRİLMİŞ İCLASDA İŞTİRAK

*21 yanvar 2020-ci il*......................................................................*70*

PAKİSTAN İSLAM RESPUBLİKASININ BAŞ NAZİRİ İMRAN XAN İLƏ GÖRÜŞ

*21 yanvar 2020-ci il*......................................................................*71*

NEFT İXRAC EDƏN ÖLKƏLƏR TƏŞKİLATININ (OPEC) BAŞ KATİBİ MƏHƏMMƏD BARKİNDO İLƏ GÖRÜŞ

*21 yanvar 2020-ci il*......................................................................*72*

«SUEZ GROUP»UN YENİ BAŞ İCRAÇI DİREKTORU BERTRAN KAMÜ İLƏ GÖRÜŞ

*22 yanvar 2020-ci il*......................................................................*75*

POLŞA RESPUBLİKASININ PREZİDENTİ ANDJEY DUDA İLƏ GÖRÜŞ

*22 yanvar 2020-ci il*.......................................................................................*77*

MONQOLUSTAN PREZİDENTİ XALTMAAQİYN BATTULQA İLƏ GÖRÜŞ

*22 yanvar 2020-ci il*.......................................................................................*78*

*bp* ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU ROBERT DADLİ İLƏ GÖRÜŞ

*22 yanvar 2020-ci il*.......................................................................................*79*

DÜNYA İQTİSADİ FORUMU ÇƏRÇİVƏSİNDƏ «STRATEJİ BAXIŞ: AVRASİYA» MÖVZUSUNDA KEÇİRİLMİŞ PANEL İCLASDA İŞTİRAK

*22 yanvar 2020-ci il*.......................................................................................*80*

GÜRCÜSTANIN BAŞ NAZİRİ GİORGİ QAXARİA İLƏ GÖRÜŞ

*22 yanvar 2020-ci il*.......................................................................................*87*

İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ SİMONETTA SOMMARUQA İLƏ GÖRÜŞ

*22 yanvar 2020-ci il*.......................................................................................*88*

«SVİSS RE» ŞİRKƏTİNİN İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏR ÜZRƏ SƏDRİ VERONİKA SKOTTİ İLƏ GÖRÜŞ

*23 yanvar 2020-ci il..........................................................................89*

«PROCTER AND GAMBLE EUROPE» ŞİR-KƏTİNİN PREZİDENTİ LOİK TASSEL İLƏ GÖRÜŞ

*23 yanvar 2020-ci il..........................................................................91*

«EQUİNOR» ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU ELDAR SAETRE İLƏ GÖRÜŞ

*24 yanvar 2020-ci il..........................................................................93*

İSVEÇRƏNİN MONTRÖ ŞƏHƏRİNİN MERİ, AZƏRBAYCAN–İSVEÇRƏ DOSTLUQ QRUPUNUN HƏMSƏDRİ LORAN VERLİ İLƏ GÖRÜŞ

*24 yanvar 2020-ci il..........................................................................94*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

*25 yanvar 2020-ci il..........................................................................96*

AVSTRALİYA İTTİFAQININ GENERAL-QUBERNATORU ZATİ-ALİLƏRİ CƏNAB DEVİD CON HÖRLİYƏ

*25 yanvar 2020-ci il..........................................................................97*

ATƏT PARLAMENT ASSAMBLEYASININ
PREZİDENTİ GEORGİ TSERETELİ
İLƏ GÖRÜŞ

*30 yanvar 2020-ci il ........................................................................98*

ŞRİ-LANKA DEMOKRATİK SOSİALİST RES-
PUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB
QOTABAYA RACAPAKSAYA

*31 yanvar 2020-ci il........................................................................99*

ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ
ZATİ-ALİLƏRİ CƏNAB Sİ CİNPİNƏ

*1 fevral 2020-ci il...........................................................................100*

AZƏRBAYCAN MƏDƏNİYYƏTİNİN İNKİŞAFINDA
BÖYÜK XİDMƏTLƏR GÖSTƏRMİŞ POLAD
BÜLBÜLOĞLU İLƏ GÖRÜŞ

*3 fevral 2020-ci il...........................................................................101*

«AZƏRBAYCAN RESPUBLİKASI REGİONLARININ
2019–2023-cü İLLƏRDƏ SOSİAL-İQTİSADİ
İNKİŞAFI DÖVLƏT PROQRAMI»NIN İCRASININ
BİRİNCİ İLİNİN YEKUNLARINA HƏSR OLUNMUŞ
KONFRANSDA İŞTİRAK

*3 fevral 2020-ci il...........................................................................106*

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN
SƏDRİ VASİF TALIBOV
İLƏ GÖRÜŞ

*4 fevral 2020-ci il* ........................................................................................ *187*
TÜRKİYƏ RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ
MÖVLUD ÇAVUŞOĞLU İLƏ GÖRÜŞ

*5 fevral 2020-ci il* ........................................................................................ *189*

QIRĞIZ RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ
ÇİNGİZ AYDARBEKOV İLƏ GÖRÜŞ

*5 fevral 2020-ci il* ........................................................................................ *198*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-
ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

*6 fevral 2020-ci il* ........................................................................................ *201*

NATO MÜTTƏFİQ QÜVVƏLƏRİNİN AVROPADAKI
ALİ KOMANDANI TOD VOLTERSİN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ
İLƏ GÖRÜŞ

*6 fevral 2020-ci il* ........................................................................................ *202*

RUSİYA FEDERASİYASI SİLAHLI QÜVVƏLƏRİNİN
BAŞ QƏRARGAH RƏİSİ–MÜDAFİƏ NAZİRİNİN
BİRİNCİ MÜAVİNİ VALERİ GERASİMOVUN
RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ
GÖRÜŞ

*6 fevral 2020-ci il* ........................................................................................ *206*

RUSİYA FEDERASİYASININ TASS İNFORMASİYA
AGENTLİYİ BAŞ DİREKTORUNUN BİRİNCİ MÜAVİNİ
MİXAİL QUSMAN
İLƏ GÖRÜŞ

*6 fevral 2020-ci il* ........................................................................................*209*
«STADLER RAİL AG» ŞİRKƏTİNİN DİREKTORLAR ŞURASININ SƏDRİ PETER ŞPULER İLƏ GÖRÜŞ

*6 fevral 2020-ci il* ........................................................................................*215*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB HƏSƏN RUHANİYƏ

*7 fevral 2020-ci il* ........................................................................................*217*

MİLLİ MƏCLİSƏ SEÇKİLƏR GÜNÜ 6 SAYLI SEÇKİ MƏNTƏQƏSİNDƏ KEÇİRİLMİŞ SƏSVERMƏDƏ İŞTİRAK

*9 fevral 2020-ci il* ........................................................................................*218*

BAKININ PİRALLAHI RAYONUNDA «AZƏRENERJİ» ASC-nin ƏSASLI ŞƏKİLDƏ YENİDƏN QURULMUŞ «DÜBƏNDİ» YARIMSTANSİYASININ AÇILIŞI MƏRASİMİ

*10 fevral 2020-ci il* ......................................................................................*219*

TÜRKİYƏ–AZƏRBAYCAN PARLAMENT- LƏRARASI DOSTLUQ QRUPUNUN
RƏHBƏRİ ŞAMİL AYRIMIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ
İLƏ GÖRÜŞ

*10 fevral 2020-ci il* ......................................................................................*224*

MDB İCRAİYYƏ KOMİTƏSİ MÜŞAHİDƏ MİSSİ-
YASININ RƏHBƏRİ, RUSİYA FEDERASİYASI DÖVLƏT DUMASININ KOMİTƏ
SƏDRİ LEONİD KALAŞNİKOVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*10 fevral 2020-ci il* ........................................................................ *230*

MDB-nin MÜŞAHİDƏ MİSSİYASININ RƏHBƏRİ, MDB İCRAİYYƏ KOMİTƏSİ SƏDRİNİN BİRİNCİ MÜAVİNİ VİKTOR QUMİNSKİ İLƏ GÖRÜŞ

*10 fevral 2020-ci il* ........................................................................ *234*

MUSİQİ MƏDƏNİYYƏTİMİZİN GÖRKƏMLİ NÜMAYƏNDƏSİ, XALQ ARTİSTİ ƏLİBABA MƏMMƏDOV İLƏ GÖRÜŞ

*11 fevral 2020-ci il* ........................................................................ *235*

KÜRDƏMİR RAYONUNA SƏFƏR

*12 fevral 2020-ci il* ........................................................................ *244*

SERBİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALEKSANDR VUÇİÇƏ

*12 fevral 2020-ci il*........................................................................ *283*

AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ TOİVO KLAARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*13 fevral 2020-ci il* ........................................................................ *284*

LİTVA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB GİTANAS NAUSEDAYA

*13 fevral 2020-ci il......................................................................285*

ALMANİYA FEDERATİV RESPUBLİKASINA SƏFƏR

*14 fevral 2020-ci il ......................................................................286*

ŞANXAY ƏMƏKDAŞLIQ TƏŞKİLATININ
BAŞ KATİBİ VLADİMİR NOROV İLƏ GÖRÜŞ

*14 fevral 2020-ci il ......................................................................290*

KÜVEYT DÖVLƏTİNİN BAŞ NAZİRİ ŞEYX SABAH
XALİD ƏL-HƏMƏD ƏL-SABAH
İLƏ GÖRÜŞ

*14 fevral 2020-ci il ......................................................................292*

BEYNƏLXALQ QIRMIZI XAÇ KOMİTƏSİNİN
PREZİDENTİ PETER MAURER İLƏ GÖRÜŞ

*14 fevral 2020-ci il ......................................................................293*

«ENERJİ TƏHLÜKƏSİZLİYİ» MÖVZUSUNDA
DƏYİRMİ MASADA İŞTİRAK

*14 fevral 2020-ci il ......................................................................294*

BEYNƏLXALQ ENERJİ AGENTLİYİNİN
İCRAÇI DİREKTORU FATİH BİROL
İLƏ GÖRÜŞ

*14 fevral 2020-ci il* ........................................................................... *298*
«LEONARDO» ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU ALESSANDRO PROFUMO İLƏ GÖRÜŞ

*14 fevral 2020-ci il* ........................................................................... *299*

QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ KASIM-JOMART TOKAYEV İLƏ GÖRÜŞ

*14 fevral 2020-ci il* ........................................................................... *300*

MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ İQOR DODON İLƏ GÖRÜŞ

*14 fevral 2020-ci il* ........................................................................... *303*

ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ƏŞRƏF QANİ İLƏ GÖRÜŞ

*14 fevral 2020-ci il* ........................................................................... *306*

AVROPA İTTİFAQININ BÜDCƏ VƏ ADMİNİSTRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ KOMİSSARI YOHANNES HAN İLƏ GÖRÜŞ

*14 fevral 2020-ci il* ........................................................................... *307*

BEYNƏLXALQ BÖHRAN QRUPUNUN PREZİDENTİ VƏ BAŞ İCRAÇI DİREKTORU ROBERT MALLEY İLƏ GÖRÜŞ

*15 fevral 2020-ci il* ........................................................................ *308*

DÜNYA BANKININ İCRAÇI DİREKTORU AKSEL VAN TROTSENBURQ İLƏ GÖRÜŞ

*15 fevral 2020-ci il* ........................................................................ *310*

ERMƏNİSTAN RESPUBLİKASININ BAŞ NAZİRİ NİKOL PAŞİNYAN İLƏ GÖRÜŞ

*15 fevral 2020-ci il* ........................................................................ *313*

MÜNHEN TƏHLÜKƏSİZLİK KONFRANSI ÇƏRÇİVƏSİNDƏ ERMƏNİSTAN–AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ İLƏ BAĞLI PANEL MÜZAKİRƏLƏRDƏ İŞTİRAK

*15 fevral 2020-ci il* ........................................................................ *314*

QEYDLƏR........................................................................................ *337*

*Şəxsi adlar göstəricisi*........................................................................

*Coğrafi adlar göstəricisi*....................................................................

| | |
|---|---|
| **Texniki redaktor** | ***Zoya Nəcəfova*** |
| **Yığım üzrə operator** | ***İlhamə Kərimova*** |
| **Kompüter tərtibatı** | ***Məhəbbət Orucov*** |

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından
istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84×108 1/32. Ofset kağızı № 1
Şərti çap vərəqi 24,5. Uçot nəşr vərəqi 25,0. Tirajı 5000
Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı
Bakı – Mehdi Hüseyn küç. 55, dalan 2, ev 3.

«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.